# Ədəbiyyat

DƏRSLİK

11



LAYİHƏ





# AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT HİMNİ

**Musiqisi** ***Üzeyir Hacıbəylinin,***
**sözləri** ***Əhməd Cavadındır.***

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!
Minlərlə can qurban oldu!
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!

LAYİHƏ



**HEYDƏR ƏLİYEV**

**AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ**

LAYİHƏ

LAYİHƏ

# ƏDƏBİYYAT

İSA HƏBİBBƏYLİ
SOLTAN ƏLİYEV
BİLAL HƏSƏNOV
AYNUR MUSTAFAYEVA

11

Ümumtəhsil məktəblərinin 11-ci sinfi üçün
Ədəbiyyat fənni üzrə
DƏRSLİK

Bu nəşrlə bağlı irad və təkliflərinizi **bn@bakineshr.az** və **derslik@edu.gov.az** elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

BAKI NƏŞR

Bakı – 2018

LAYİHƏ

11

# Ədəbiyyat

## Başlıqlar


Xalqımızın taleyinə bağlı ədəbiyyat ... 6

**AZƏRBAYCAN ƏDƏBİYYATINDA TƏNQİDİ REALİZM VƏ ROMANTİZM DÖVRÜ**
(XIX əsrin 90-cı illərindən 1920-ci ilədək) ... 8

**Cəlil Məmmədquluzadə**
Həyatı, yaradıcılıq yolu ... 12
Anamın kitabı ... 16

**Mirzə Ələkbər Sabir**
Həyatı, yaradıcılıq yolu ... 29
Neylərdin, ilahi?! ... 33

**Hüseyn Cavid**
Həyatı, yaradıcılıq yolu ... 37
İblis ... 40

**Əhməd Cavad**
Həyatı, yaradıcılıq yolu ... 55
Səsli qız ... 58

**CƏNUBİ AZƏRBAYCAN ƏDƏBİYYATI**
**Məhəmmədhüseyn Şəhriyar**
Həyatı, yaradıcılıq yolu ... 65
Türkün dili ... 68

**SOVET DÖVRÜ AZƏRBAYCAN ƏDƏBİYYATI** (1920–1991-ci illər) ... 72

**Cəfər Cabbarlı**
Həyatı, yaradıcılıq yolu ... 76
Oqtay Eloğlu ... 80


LAYİHƏ

**Səməd Vurğun**
Həyatı, yaradıcılıq yolu ........ 89
Vaqif ........ 92
**Rəsul Rza**
Həyatı, yaradıcılıq yolu ........ 108
Qızılgül olmayaydı ........ 111

**Mir Cəlal**
Həyatı, yaradıcılıq yolu ........ 117
Açıq kitab ........ 120

**AZƏRBAYCAN ƏDƏBİYYATINDA MİLLİ ÖZÜNÜDƏRKƏ QAYIDIŞ VƏ İSTİQLALÇILIQ MƏRHƏLƏSİ** (XX əsrin 60–90-cı illəri) ........ 131

**İlyas Əfəndiyev**
Həyatı, yaradıcılıq yolu ........ 135
Xurşidbanu Natəvan ........ 138
**İsmayıl Şıxlı**
Həyatı, yaradıcılıq yolu ........ 154
Dəli Kür ........ 157

**MÜSTƏQİLLİK DÖVRÜ ÇOXMETODLU AZƏRBAYCAN ƏDƏBİYYATI** ........ 168

**Bəxtiyar Vahabzadə**
Həyatı, yaradıcılıq yolu ........ 171
Şəhidlər ........ 174

**DÜNYA ƏDƏBİYYATINDAN SEÇMƏ**
**Çingiz Aytmatov**
Həyatı, yaradıcılıq yolu ........ 183
Gün var əsrə bərabər ........ 186

- İfadəli oxuda istifadə edilən şərti işarələr ........ 196
- Lüğət ........ 197
- Qısa ədəbiyyatşünaslıq terminləri lüğəti ........ 201
- Oxumağı məsləhət görürük ........ 205
- Mənbələr ........ 207

LAYİHƏ

# XALQIMIZIN TALEYİNƏ BAĞLI ƏDƏBİYYAT

*Əziz şagirdlər!*

Siz on birinci sinifdə çoxəsrlik ədəbiyyatımızın son iki yüz ildə yaranmış nümunələri ilə mərhələlər üzrə ətraflı tanış olacaq, yeni bilik və bacarıqlara yiyələnəcəksiniz. Dərslikdəki yığcam məlumatları mənbələr üzrə araşdırmalar aparmaqla zənginləşdirəcək və tamamlayacaqsınız. Sizin üçün hazırlanmış elektron vəsait bu baxımdan yardımçınız olacaqdır. Vəsaitə nəzəri məlumatlarla yanaşı, oxunması nəzərdə tutulan bədii əsərlər də daxil edilmişdir. *Bu əsərləri sinifdə öyrənməyə başlamazdan əvvəl asudə vaxtlarınızda müstəqil oxumalı, müəyyən qeydlər etməlisiniz.*

XI sinifdə öyrənəcəyiniz ədəbiyyat özünəməxsusluğu ilə fərqlənir, lakin o, təbiidir ki, varislik və ənənə ilə üzvi surətdə bağlıdır. Əvvəlki dövrlərdə ədəbiyyatımızda özünü qabarıq göstərən humanist ideyalar, milli-mənəvi dəyərlər, vətən və xalq sevgisi və s. bu əsrlərdə yaranmış əsərlərdə də bu və ya digər dərəcədə öz əksini tapmış, yaradıcı şəkildə inkişaf etdirilmişdir.

Azərbaycan Demokratik Cümhuriyyətinin devrilməsi, yeni ictimai-siyasi quruluşun – sovet hakimiyyətinin yaranması ədəbiyyatımızın da xalqımız kimi çətin günlər yaşamasına səbəb oldu. İyirminci yüzilliyin əvvəllərində ədəbiyyatımızda güclənən tənqidi realizm və romantizm məhz yeni quruluşun təzyiqi ilə geri çəkildi. İndi həyat həqiqətləri sovet ideologiyasının sərt tələblərinə uyğun əks etdirilməli idi, yəni əyri güzgüdə olduğu kimi... Bu tələbləri qəbul etməkdə çətinlik çəkən, yaxud qəbul etməyən, milli düşüncəni, vətənin, xalqın taleyini və müstəqilliyini hər şeydən uca tutan minlərlə ziyalı, sənət



LAYİHƏ

adamı repressiya qurbanı oldu. Ədəbiyyatımıza yeni bir qol da əlavə olundu – mühacirət ədəbiyyatı... Vətənini tərk edən, canını qırmızı terrordan qurtarmağa nail olan yazıçı və şairlərimizin xarici ölkələrdə nisgil dolu əsərləri meydana gəldi.

Hakim kommunist partiyasının qərar və göstərişləri ədəbiyyatın, incəsənətin təbii inkişafına ağır zərbələr vurdu. Lakin yüksək istedad sahibi olan bir çox sənətkarlarımız bu çətinliklərə baxmayaraq, kamil sənət nümunələri yaratmağı bacardılar. Müəyyən təhriflərə yol verilsə də, tarixi mövzularda, eləcə də vətən sevgisini, onun təbiətini, xalq qəhrəmanlarını tərənnüm edən maraqlı nümunələr yaradıldı. II Dünya müharibəsi illərində və müharibədən sonra ədəbiyyatımız yeni mövzu və məzmunlu əsərlərlə zənginləşdi.

İyirminci yüzilliyin 60-cı illərində siyasi-ideoloji mühitin mülayimləşməsi ədəbiyyatımızda mövzu-məzmun dəyişikliyinə səbəb oldu. İndi artıq təkcə uğurlardan deyil, sosialist həyat tərzinin qüsurlarından da yazılır, "sovet adamı" obrazı adi və sadə insanların obrazları ilə əvəz edilirdi.

Bu dövrdə ədəbiyyatımız forma, janr, üslub baxımından da xeyli zənginləşdi. Nəsrdə lirik-psixoloji meyil özünü qabarıq göstərir, poeziya və dramaturgiyada da forma və məzmun dəyişikliyi aydın müşahidə edilirdi. Zaman irəlilədikcə sosialist realizmi metodunun əsas prinsiplərindən uzaqlaşaraq, milli məzmunlu əsərlər yaradan sənətkarların sayı çoxalırdı. Milli azadlıq və dövlət müstəqilliyi uğrunda gedən mübarizə, xüsusən 1980-ci illərin sonu – 1990-cı illərin əvvəllərində baş verən mürəkkəb ictimai-siyasi hadisələr ədəbiyyatda milli və müstəqil dövlətçilik maraqlarını ön plana çəkdi.

Müstəqilliyini bərpa edən ölkəmizin qarşılaşdığı çətinliklər, xüsusən suverenliyimizin qorunub saxlanılması və möhkəmləndirilməsi, Dağlıq Qarabağ problemi, yüz minlərlə qaçqın və köçkünlərimizin taleyi və s. məsələlər bu gün ədəbiyyatımızın daha çox müraciət etdiyi mövzulardandır.

Ən sərt siyasi təzyiq, qadağalar heç vaxt Azərbaycan ədəbiyyatını xalqımızdan ayıra bilməmişdir. Onun istedadlı nümayəndələri xalqın taleyini, vətənin problemlərini yüksək sənət dili ilə əks etdirmişdir.

LAYİHƏ

# AZƏRBAYCAN ƏDƏBİYYATINDA TƏNQİDİ REALİZM VƏ ROMANTİZM DÖVRÜ

(XIX əsrin 90-cı illərindən 1920-ci illədək)

• **ARAŞDIRMAYA HAZIRLAŞIN**

**Aşağıdakı tapşırıqları fərdi olaraq yerinə yetirin.**

**1.** Mətnkənarı sualları araşdırmağa istiqamət verən cavabları oxuyub ümumiləşdirin.

| Mətnkənarı suallar | Onların ümumiləşdirilmiş cavabı |
|---|---|
| | |

**2.** Oxu zamanı sizi düşündürən sualları qeyd edin. Cavabları müzakirədə dəqiqləşdirib yazın.

| Məni düşündürən suallar | Onların cavabı |
|---|---|
| | |

**3.** Venn diaqramından istifadə etməklə tənqidi realizm və romantizm ədəbi cərəyanlarını müqayisə edin.



**4.** Kiçik qruplarda birləşərək qənaətlərinizi bölüşün.

**5.** Təqdimatlar etməklə gəldiyiniz nəticələr barədə fikir mübadiləsi və müzakirə aparın. Müzakirədə aşağıdakı fikirlərə münasibət bildirin.

– *Molla Nəsrəddin – Cəlil Məmmədquluzadə – bu adın özü... ədəbiyyatımıza sima və sifət verən simvol olmuşdur. Bu ad çəkildimi, ədəbiyyatda siyasi ideyaların çarpışması dövrü, müasir, mübariz, həqiqi həyat ədəbiyyatının güclü və cəsarətli bir axınla hücuma keçməsi dövrü təsəvvürdə canlanmış olur.*

*(Mir Cəlal)*

– *Romantiklər realistlərdən fərqli olaraq sənəti, ədəbiyyatı birinci növbədə canlı, real həyatla deyil, ideyalar və "işıqlı" fikirlərlə əlaqələndirirdilər... Vətənpərvərlik, müstəmləkə zülmü əvəzinə, milli azadlıq ideyalarının tərənnümü, bəşəriyyətin və eləcə də mənsub olduqları xalqın azad gələcəyinə, ağıl və kamalın qüdrətinə inam, elmin, maarifin təbliği romantiklərin əsərlərinin əsas mövzusunu təşkil edir. Onların ilham mənbələrindən biri də vətən, millət sevgisidir.*

*(Məmməd Cəfər Cəfərov)*

LAYİHƏ

XIX əsrin 90-cı illəri və XX əsrin əvvəlləri Azərbaycan ədəbiyyatı həm çoxəsrlik ədəbi fikrin tarixində, həm də milli realist ədəbiyyatın təşəkkülündə keyfiyyətcə yeni hadisə idi. Əsrin əvvəllərində baş vermiş böyük ictimai-siyasi hadisələrin – Rusiyada burjua-demokratik, İranda məşrutə hərəkatı, eləcə də I Dünya müharibəsinin təsiri ilə ölkədə milli-demokratik meyillər güclənmiş, fərqli baxışlara malik siyasi partiyalar fəaliyyətə başlamış, milli azadlıq uğrunda mübarizə gündəmə gəlmişdi. Demokratik mətbuatın yaranması və ardıcıl fəaliyyəti də Azərbaycanda yeni tipli ədəbiyyatın yaranması və inkişafına əhəmiyyətli təsir göstərmişdir.

XX əsrin əvvəllərində yaranmış tənqidi realizm hansı xüsusiyyətləri ilə diqqəti cəlb edir?

XX əsrin əvvəllərində ədəbiyyatımızda mövcud quruluşu dəyişmək, xalqı milli istiqlala çatdırmaq əsas ideal idi. Bu dövrdə məhz tənqidi realizm ədəbiyyatı cəmiyyətdə müşahidə olunan ayrı-ayrı qüsurları deyil, bütövlükdə inkişafa maneçilik törədən bütün təzahürləri tənqid edirdi. Həmin mərhələ söz sənətimizdə cəmiyyətin problemlərinin dərindən və aydın bədii dərki, ictimai-siyasi sistemin kəskin tənqidi ilə əlamətdardır.

Çoxəsrlik Azərbaycan ədəbiyyatında satira və yumor əlamətləri müxtəlif səpkidə mövcud olsa da, bu proses XIX əsrdə satirik-didaktik xarakter almış, XX əsrin əvvəllərində isə tənqidi-satirik ədəbiyyat səviyyəsində özünü göstərmişdir.

Dövrün ayrı-ayrı ədəbi axınlarının hər biri müxtəlif yönlərdən və fərqli səviyyədə bu prosesdə iştirak etmişlər. Lakin bütövlükdə cəmiyyətin tənqidi dərki və problemlərin obyektiv bədii inikası, habelə milli azadlıq uğrunda mübarizə vəzifəsini "Molla Nəsrəddin" ədəbi məktəbi həyata keçirmişdir.

Ədəbiyyatımızın inkişafı, azadlıq, demokratiya uğrunda mübarizədə "Molla Nəsrəddin" jurnalının rolu nədən ibarətdir?

Milli azadlıq məsələsi və azərbaycançılıq məfkurəsi Cəlil Məmmədquluzadənin başçılıq etdiyi "Molla Nəsrəddin" ədəbi məktəbinin uğrunda dönmədən mübarizə apardığı əsas ideal idi. "Molla Nəsrəddin" satirik jurnalının nəşri ilə ədəbiyyatımızda tənqidi-realist ədəbiyyat yaranıb inkişaf etmişdir. Mollanəsrəddinçilər tənqidi-satirik ədəbiyyatın əsas yaradıcıları və hərəkətverici qüvvələri idilər. "Molla Nəsrəddin" ədəbi məktəbinin əsas yaradıcı simaları: Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Əbdürrəhim bəy Haqverdiyev, Məmməd Səid Ordubadi, Əli Nəzmi, Əliqulu Qəmküsar, Mirzəli Möcüz və başqaları Azərbaycan realist tənqidi-satirik ədəbiyyatını yaratmışlar. C.Məmmədquluzadənin "Azərbaycan" məqaləsi mətbuatda, "Anamın kitabı" tragikomediyası ədəbiyyatda azərbaycançılıq idealının manifestinə çevrilmişdi. Azərbaycan ədəbiyyatı tarixində ilk dəfə olaraq "kiçik" adam böyük ədəbiyyatın əsas qəhrəmanı olmuşdur.

XX əsrin əvvəllərinin tənqidi realizmi Azərbaycan ədəbiyyatına yeni janrlar gətirmişdir. C.Məmmədquluzadənin satirik, Ə.Haqverdiyevin yumoristik hekayələri ilə kiçik hekayə böyük ədəbiyyatın janrları sırasında ön mövqeyə çıxmış, C.Məmmədquluzadənin "Ölülər", "Anamın kitabı", "Dəli yığıncağı" tragikomediyaları ilə ədəbiyyatımızda bu janrın ilk və mükəmməl nümunələri yaranmışdır. Ə.Haqverdiyevin bu dövrdə yazılmış "Ağa Məhəmməd şah Qacar" əsəri tarixi faciə janrında ən yaxşı əsərlərdən biridir.

Ədəbiyyatımızın tarixində satirik şeir özünün ən yüksək zirvəsinə XX əsrin əvvəllərində tənqidi realizm dövründə çatmışdır. "Molla Nəsrəddin" jurnalının meydana qoyduğu poetik forma modeli və irəli sürdüyü çağırışlar dövrün böyük satirik



LAYİHƏ

şeir məktəbinin yaranması ilə nəticələnmişdir. Mirzə Ələkbər Sabir tənqidi realizm ədəbi cərəyanı hüdudlarında satirik şeir məktəbi yaratmışdır. O, ölkədəki mövcud idarə üsulunu, müstəmləkə sistemini tənqid etməklə milli oyanışa, siyasi-mənəvi əsarətdən xilas olmağa, nəticə etibarilə azadlıq idealının gerçəkləşməsinə məslək dostu Abbas Səhhətin dediyi kimi, "bir ordudan ziyadə xidmət etmişdir". "Molla Nəsrəddin" ədəbi məktəbinin böyük simaları olan Əli Nəzmi, Əliqulu Qəmküsar, Məmməd Səid Ordubadi, Mirzəli Möcüz, Bayraməli Abbaszadə və başqalarının yaradıcılığı ədəbiyyatda satirik şeirin mövqeyini möhkəmləndirdi.

Azərbaycan ədəbiyyatında satirik publisistika XX əsrin əvvəllərinin hadisəsi kimi meydana çıxmışdır. Felyeton janrı publisistikaya "Molla Nəsrəddin" jurnalı vasitəsilə daxil olmuşdur. Bu jurnal müxtəlif satirik publisistika janrlarını yaradıb ədəbi dövriyyəyə və mətbuat aləminə gətirmişdir.

Romantizm ədəbi cərəyanının nümayəndələrinin yaradıcılığında önəm verilən başlıca ideyalar hansılar idi?

Qədim dövr və orta əsrlər Azərbaycan poeziyası romantik səciyyəlidir. Romantik bədii metod ədəbiyyatımızda uzun əsrlər hakim mövqedə olmuşdur. Bununla belə, Azərbaycanda ədəbi *cərəyan* kimi romantizm XX əsrin əvvəllərində meydana çıxmışdır. Romantizm – Azərbaycan ədəbiyyatında dövrün ictimai-siyasi hadisələrinə romantik baxışları, xəyalda və idealda əks-səda tapan qavrayışları ifadə edən ədəbi cərəyandır. Romantizm ədəbi cərəyanının nümayəndələri şəxsiyyət və cəmiyyət məsələlərində də idealın tərənnümünə üstünlük vermişlər. İdealla gerçəklik arasında təzaddan doğan həyəcanların bədii ifadəsi olan romantizm ədəbiyyatında xəyal və gələcəkçilik əsas yer tutmuşdur. Romantiklərin yaradıcılığında dövrün çağırışları ilə həmahəng ümummilli ideyalar və maarifçi-demokratik baxışlar da qüvvətlə səsləndirilmişdir.

"Məhkum Şərqin", o cümlədən də Azərbaycanın zamana görə nisbətən geridə qalması Azərbaycan romantizmini düşündürən məsələlərdən idi. Onlar reallıqda olmasa da, xəyalda, qaibanə şəkildə vətənlərinin xoşbəxt gələcəyini arzu etmişlər. Azərbaycan romantikləri "ümumi məhəbbət" ideyasını irəli sürür, bunu insanlığın "xilas yolu" kimi düşünürdülər.

Əli bəy Hüseynzadənin redaktorluğu ilə 1906–1907-ci illərdə Bakıda nəsr olunmuş "Füyuzat" jurnalı Azərbaycan romantizminin əsas ədəbi cəbbəxanasını təşkil edirdi. Qısa müddət fəaliyyət göstərməsinə baxmayaraq, "Füyuzat" jurnalı ədəbi məktəb yarada bilmişdir. Bu ədəbi məktəb Qərb maarifçiliyini və Şərq mənəvi zənginliyini sintez halında birləşdirmək vəzifəsini meydana qoymuş, bu istiqamətdə əsərlərin yaradılmasına böyük yol açmışdır. Turançılıq ideyaları, ortaq ünsiyyət dili və vahid ümumtürk əlifbası yaratmaq füyuzatçıların islahatlarında əsas yer tuturdu.

Füyuzatçılar bolşevizmi "qırmızı qaranlıq" hesab edir, türk-islam birliyinə "yaşıl işıq" kimi böyük ümidlər bəsləyirdilər. "Füyuzat" jurnalı öz ətrafında Hüseyn Cavid, Məhəmməd Hadi, Abbas Səhhət, Abdulla Şaiq, İbrahim Tahir, Əbdülxalıq Cənnətli ilə yanaşı, Türkiyədən Abdulla Cevdəti və Əhməd Kamalı, İrandan Səid Səlmasini, Krımdan Hasan Səbri Ayvazovu birləşdirmişdir. Bu, ədəbi cəbhədə Azərbaycan-türk dünyası birliyinin ilk əməli addımı idi. Füyuzatçılıq – türkçülük və turançılıq ideyalarının yayılmasında əhəmiyyətli rol oynamışdır.

Hüseyn Cavidin yaradıcılığı XX əsrin əvvəlləri Azərbaycan romantik şeirinin inkişafında fərqli özünəməxsusluğa malikdir. H.Cavid "Şeyx Sənan", "İblis",



LAYİHƏ

"Səyavuş", "Xəyyam" kimi əsərləri ilə Azərbaycan ədəbiyyatında mənzum dram məktəbi yaratmışdır. Romantik-publisist şeirin böyük yaradıcısı olan M.Hadinin "Əlvahi-intibah" poeması əhəmiyyətli ədəbi hadisə idi. A.Səhhət və A.Şaiq Azərbaycan romantizminə yeni ideyalar və fərqli poetik formalar gətirmiş, uşaq şeirinin qızıl fondunu təşkil edən əsərlər yaratmışlar.

Tənqidi realizm və romantizm epoxası Azərbaycan Demokratik Respublikası dövründə daha da inkişaf etmiş, genişlənmişdir. Bu dövrdə Cənubi Azərbaycanda da ədəbiyyat tənqidi realizm, maarifçi realizm və romantizm istiqamətlərində inkişaf etmişdir. XX əsrin əvvəllərində geniş araşdırmaları ilə tanınan görkəmli tədqiqatçı Firidun bəy Köçərlinın "Azərbaycan ədəbiyyatı tarixi materialları" əsəri ilk sistemli ədəbiyyat tarixi kimi dəyərlidir.

• EVDƏ İŞ

ARAŞDIRMANI DAVAM ETDİRİN

**1. Sinifdə öyrəndiklərinizi göstərilən mənbələrdən topladığınız məlumat əsasında zənginləşdirin və tamamlayın.**

**2. Araşdırma apararkən aşağıdakı sualların cavablarını da əhatə etməyə çalışın:**

a) Hansı sənətkarların əsərləri tənqidi realizm ədəbi cərəyanının formalaşmasında mühüm rol oynayıb?

b) Romantizm ədəbi cərəyanının nümayəndələrinin yaradıcılığında hansı məsələlər daha qabarıq əks olunub?

**3. Yazılı qeydlər əsasında şifahi təqdimata hazırlaşın.**

• MƏNBƏLƏR

1. Azərbaycan dramaturgiyası antologiyası. 4 cilddə. I cild. Bakı: Şərq-Qərb, 2007, s. 9-12.
2. Azərbaycan nəsri antologiyası. 5 cilddə. II cild. Bakı: Şərq-Qərb, 2006, s. 4-7, 14-15.
3. XX əsr Azərbaycan şeiri antologiyası. (1905–1920-ci illər). Bakı: Şərq-Qərb, 2005, s. 4-9.
4. XI sinif şagirdləri üçün elektron vəsait. http://edebiyyat.ucoz.com.

LAYİHƏ



"... Qələmin müqəddəs vəzifəsi xalqa xidmət etməkdir".

**Cəlil Məmmədquluzadə**
(1869–1932)

# CƏLİL MƏMMƏDQULUZADƏNİN HƏYATI, YARADICILIQ YOLU

• ARAŞDIRMAYA HAZIRLAŞIN

**C.Məmmədquluzadə barədə bildiklərinizi yada salıb yığcam müzakirə aparın. Aşağıdakı qaydalara əməl etməklə mətnin üzərində işləyin.**

1. Mətnkənarı sualların sayı qədər kiçik qruplar yaradılır. Qruplar onlara təklif edilmiş sualın dərslikdəki cavabı ilə tanış olduqdan sonra aşağıdakı işləri yerinə yetirirlər:
   a) İlk mətnkənarı sualın cavabını əhatə edən mətni qrupun üzvü ucadan və aydın şəkildə oxuyur.
   b) Mətndəki əsas fikirləri ümumiləşdirərək bir neçə cümlə ilə ifadə edir.
   c) Mətnə aid bir neçə sual verir. Cavablandırmada qrup üzvləri ilə yanaşı, bütün sinif iştirak edir.
   d) Səthi qavranılmış çətin məqamlara aydınlıq gətirməyə çalışır.
   e) Mətnə daha nələri əlavə etməyin lazım olduğu barədə fikrini bildirir.
2. Sonrakı mətnkənarı sualların cavablarını da digər qrupların şagirdləri bu qayda ilə oxuduqdan sonra kiçik qrupların təqdimatları əsasında fikir mübadiləsi və müzakirə aparılır.

? Ədibin həyat yolunun başlanğıcı hansı cəhətləri ilə diqqəti cəlb edir?

Qədim Naxçıvan şəhərində dünyaya göz açan C.Məmmədquluzadənin ailəsi firavan yaşamasa da, atası Məşədi Məmmədqulu övladının təhsil almasına xüsusi diqqət yetirmiş, onu kiçik yaşlarından mollaxanaya qoymuşdur. Mollaxana təhsili səmərəsiz olmamışdır; xatirələrindən, eləcə də əsərlərindən məlum olur ki, onun burada oxuması fars və ərəb dillərini mənimsəməsinə, müsəlman Şərqi barədə təsəvvür qazanmasına əhəmiyyətli təsir etmişdir. O, təhsilini Naxçıvan şəhər üçsinifli məktəbində da-

LAYİHƏ

vam etdirmişdir. Lakin onun fikri inkişafında, dünyagörüşünün formalaşmasında Qori Müəllimlər Seminariyasında aldığı təhsil (1882–1887) mühüm rol oynamışdır. Seminariyanı uğurla bitirən C.Məmmədquluzadə təxminən on il (1887–1897) İrəvan quberniyasının və Naxçıvanın kəndlərində müəllim işləmişdir. Kənd həyatını, insanları dərindən müşahidə edən gənc müəllimdə bədii yaradıcılığa böyük həvəs yaranır və ilk qələm təcrübələri meydana çıxır.

Bir müddət (1897–1903) hüquq orqanlarında çalışsa da, bu iş onun ürəyincə olmamışdır. Xəstə xanımını 1903-cü ildə müalicə üçün Tiflisə aparan C.Məmmədquluzadənin həyatında yeni səhifə açılır.

Yazıçının həyatında Tiflis mühitinin hansı rolu olmuşdur?

Burada o, görkəmli ictimai xadim və ziyalı olan Məhəmməd ağa Şahtaxtlı (1846–1931) ilə görüşür. Onun təklifi və təkidi ilə Tiflisdə qalıb naşiri olduğu "Şərqi-rus" qəzetində çalışır. Mətbuat və qəzetçiliklə bağlı təcrübə toplayan C.Məmmədquluzadə "Poçt qutusu", "Kişmiş oyunu" hekayələrini, çoxlu sayda məqalələrini "Şərqi-rus"da çap etdirir. Qəzet bağlanandan (1905) sonra o, Ömər Faiq Nemanzadə və tacir Məşədi Ələsgər Bağırovla birlikdə "Şərqi-rus"un mətbəəsini M.Şahtaxtlıdan alır. "Qeyrət" adlandırdıqları bu mətbəədə bədii əsərlər, tərcümələr və s. çap olunur.



C.Məmmədquluzadənin 25 il redaktoru olduğu "Molla Nəsrəddin" jurnalının ilk nömrəsinin üz qabığı (1906)

Tiflisdə çıxan qəzetlərlə əməkdaşlıq edən C.Məmmədquluzadə bədii və publisistik yaradıcılığını davam etdirmiş və oğlanlar üçün açdığı məktəbdə müəllim kimi çalışmışdır. Artıq zəngin təcrübə toplamış yazıçı və publisist kimi tanınan C.Məmmədquluzadə fəaliyyətini genişləndirmək, xalqı, vətəni üçün daha faydalı iş görmək üzərində düşünürdü. Bu düşüncənin nəticəsində təkcə xalqımızın deyil, qonşu xalqların, bütün müsəlman Şərqinin milli oyanışına əhəmiyyətli dərəcədə təsir edən "*Molla Nəsrəddin*" jurnalı yarandı. İlk nömrəsi 7 aprel 1906-cı ildə nəşr olunan bu jurnal ictimai həyatın bütün sahələrinə (rus hakimiyyətinin ağır müstəmləkəçilik siyasəti, xalqın dözülməz həyat şəraiti, elm və təhsil, din və dil məsələləri, qadın azadlığı və s.) ardıcıl münasibət bildirir, insanların maariflənməsində misilsiz rol oynayırdı.

C.Məmmədquluzadə 1920-ci ildə ailəsi ilə birlikdə (o, 1907-ci ildə ziyalı qadın olan Həmidə xanımla ailə qurmuşdu) Təbriz şəhərinə gedir. Təxminən 9 ay Təbrizdə yaşayan ədib çoxcəhətli fəaliyyət göstərir; "Molla Nəsrəddin" jurnalını nəşr etdirir, "Ölülər" əsərini tamaşaya qoyur, ziyalılarla vaxtaşırı görüşərək mədəni-maarif işlərinin həyata keçirilməsində onlara yardımçı olur, ictimai işlərdə daha yaxından iştirak edir...

Yazıçının Təbriz həyatı üçün önəmli olanlar nədir?

Bakıya dönən Mirzə Cəlil özünü "fəhlə-kəndli dövləti" adlandıran sovet hakimiyyətinə böyük ümid bəsləyir, ictimai-mədəni işlərdə fəal iştirak edir, yeni hökumətin həyata

Mirzə Cəlilin həyatının Bakı dövrü hansı cəhətləri ilə səciyyəvidir?

LAYİHƏ

keçirmək istədiyi tədbirləri redaktoru olduğu "Yeni yol" qəzetində müdafiə və təbliğ edir. 1922-ci ildə yenidən nəşrə başlayan "Molla Nəsrəddin" cəmiyyətin tərəqqisinə mane olan nə varsa, kəskin tənqid edir. Lakin böyük humanist və demokrat olan C.Məmmədquluzadənin yeni quruluşa bəslədiyi inam və ümid tədricən əriyib yox olur. Həqiqi demokratiya və insan azadlığına qənim kəsilən sovet hakimiyyəti Mirzə Cəlili və uzun illər redaktoru olduğu jurnalı gözdən salır, ədib haqsız təzyiqlərə məruz qalır. O, 1931-ci ildə – vəfatından bir il əvvəl jurnalın baş redaktorluğundan imtina edir.

Yazıçının nəsr əsərlərində hansı problemlər diqqət mərkəzinə çəkilmişdir? Bu problemlərin yaranmasının səbəbini o nədə görürdü?

Bədii yaradıcılığa kənddə müəllim işləyərkən başlayan C.Məmmədquluzadənin "*Danabaş kəndinin əhvalatları*" (1894) povesti ədəbiyyata qüdrətli bir sənətkarın gəldiyindən xəbər verirdi. Ozamankı Azərbaycan kəndinin və kəndlisinin vəziyyətini, həyat tərzini, düşüncəsini parlaq boyalarla əks etdirən bu əsərdə ciddi ictimai problemlər qaldırılmışdır. Bu problemlər insan talelərinin yığcam, amma ibrətamiz təsviri ilə diqqətə çatdırılır. Yazıçı povestdə xarakter, davranış və həyata baxışı ilə bir-birindən kəskin fərqlənən surətlər qrupu yaratmışdır. Bunlardan biri hakim təbəqəni və onun əlaltılarını təmsil edir. İkinci qrup yoxsul və hüquqsuz insanlardan ibarətdir. Birinci qrup sadə insanların üzərində ağalıq edir, ədalətsiz, zorakı əməlləri ilə bu müdafiəsiz insanların haqqını tapdalayır, hər cür zülmü onlara rəva görür. Xeyirxah Məhəmmədhəsən əmi, qeyrətli Zeynəb Xudayar bəyin zülmünə tuş gələnlərdəndir. Qlavaya, qazıya, digər hakimiyyət adamlarına arxalanan Xudayar bəy katdası olduğu kənddə kimi istəsə, cəzalandırır. Nə Məhəmmədhəsən əmi, nə də güclü iradəsi olan Zeynəb ona müqavimət göstərə bilir. Milli-mənəvi dəyərlərdən üz çevirən Xudayar bəyin öz ailəsindəki davranışı da heç bir əxlaq çərçivəsinə sığmır.

C.Məmmədquluzadə kiçik hekayənin böyük ustadıdır. Kiçikhəcmli hekayələrində ciddi ictimai mətləbləri, cəmiyyəti düşündürən mühüm sosial-siyasi məsələləri adi məişət mövzusu zəminində böyük sənətkarlıqla ifadə etməsi onun yaradıcılığının özünəməxsusluğudur.

Adi poçt qutusundan istifadə qaydasını bilməyən Novruzəlinin ("Poçt qutusu"), mövhumatın təsiri ilə aciz bir vəziyyətə düşmüş Usta Zeynalın ("Usta Zeynal"), mühüm siyasi hadisələr, inqilabi mübarizələr dövründə yaşasa da, "hürriyyət" kəlməsini yenicə eşidən, qəflət yuxusundan ayılmayan Kərbəlayı Məmmədəlinin ("İranda hürriyyət") və digər "kiçik" adamların taleyi, hüquqlarının müdafiəsi vətəndaş sənətkarı ciddi düşündürmüş və narahat etmişdir.

Azərbaycan qadınının faciələrlə dolu həyatı və bunun səbəbləri humanist yazıçının hekayələrində ("İranda hürriyyət", "Xanın təsbehi", "Konsulun arvadı", "Molla Fəzləli" və s.) ardıcıl diqqət yetirilən mühüm problemlərdəndir. Onun qadın qəhrəmanları çox güclü qüvvələrlə qarşı-qarşıya gəlirlər; onlar bəzən ədalətsiz hakimiyyət nümayəndələrinin, bəzən də ikiüzlü qazı və mollaların təqiblərinə məruz qalırlar.

Yazıçının sovet hakimiyyəti illərində yazdığı hekayələr mövzuca rəngarəngdir. Onlarda qadın azadlığı ("İki ər", "Qiyamət"), dilin təmizliyinin, xəlqiliyinin müdafiəsi ("Şeir bülbülləri", "Sirkə"), bürokratizmin, süründürməçiliyin tənqidi ("Qəza müxbiri", "Ucuzluq") və s. problemlərin bədii həlli verilmişdir.



LAYİHƏ

Yazıçının dramatik əsərlərinin mövzu, problem, konflikt özəlliyi hansılardır?

Ədəbiyyatımızın zəngin ənənələrindən ustalıqla bəhrələnən yazıçının qiymətli dramaturji irsi vardır. Bu dramaturgiya dərin ictimai mənası, mühüm problemləri əhatə etməsi, parlaq realizmi və orijinal bədii keyfiyyətləri ilə seçilir. Yaşadığı zəmanənin ictimai eyiblərini, ziddiyyət və konfliktlərini hərtərəfli qavrayan sənətkar dramatik əsərlərində onları məharətlə əks etdirməyi də bacarmışdır. Bir tərəfdən təsirli satira, sarkazm, digər tərəfdən komizm, gülüş bu əsərlərin ideya-məzmununun əsasında dayanır. Faciəvilik yazıçının komediyalarının ruhuna hopmuş, onlara fərqli rəng, çalar vermişdir. Dramatik əsərlərinin əksəriyyətinin *tragikomediya* adlanması da məhz bununla bağlıdır.

Müəllifin ilk qələm təcrübəsi olan "*Çay dəsgahı*" (1889) nəzmlə yazılmış alleqorik dramdır. Yazıçı nə bu əsərini, nə də ondan üç il sonra yazdığı "*Kişmiş oyunu*" pyesini çap etdirməmişdir. Məşhur "*Ölülər*" tragikomediyası bu əsərlərdən xeyli sonra, 1909-cu ildə çap olunmuşdur. O, müəllifi ömrü boyu düşündürmüş, narahat etmiş ciddi problemin – fanatizmin və cəhalətin törətdiyi bəlaların əleyhinə yazılmış əvəzsiz sənət əsəri idi. Əsərdəki İskəndər – Şeyx Nəsrullah xətti Cəlil Məmmədquluzadəyə mənəvi əsarətin acı təzahürlərini, aydın, vətəndaş ziyalı mövqeyinin çətinliklərini və üstünlüklərini göstərməyə imkan vermişdir.

Bədii həlli verilən problem və konflikt baxımından "Ölülər" dramaturgiyamızın ən dəyərli nümunələrindəndir.

Fərqli mövzularda yazılmış digər dramatik əsərlərində də yazıçı diqqəti həlli vacib olan ciddi həyati problemlərə yönəltmişdir. Bədnam qonşuların xəyanətindən doğan böyük faciələr ("Kamança"), müstəmləkə zülmü altında xalqın yadelli və yerli ağaların qapazaltısı olması, maarifçiliyin milli zəmində inkişafı ("Danabaş kəndinin məktəbi"), cəmiyyətin əqidə, əməl və əxlaq dünyasının təhlili ("Dəli yığıncağı"), sovet gerçəkliyinə tənqidi münasibət ("Ər") onun dramaturgiyasında əksini tapmış mühüm məsələlər idi.

Mirzə Cəlil publisistikasında daha çox hansı problemlərə diqqət yetirmişdir? Bu problemlərin həlli yolunu o nədə görürdü?

Yazıçının yaradıcılığının böyük bir qismini publisistik əsərlər təşkl edir. Uzun müddət baş redaktoru olduğu "Molla Nəsrəddin" jurnalında, müxtəlif qəzetlərdə onun yüzlərlə felyetonu, publisistik məqalələri çap olunmuşdur. Əksəriyyəti satirik məzmunda olan bu yazılarda zəhmət adamının məişət çətinlikləri, cəmiyyətdə mövcud olan ciddi ictimai-siyasi problemlər, mühüm beynəlxalq məsələlər doğru-dürüst şəkildə, obyektiv mövqedən işıqlandırılmışdır. Məhz buna görə də yazıçının publisistikası ədəbi və ictimai fikrin inkişafında əhəmiyyətli rol oynamışdır.

Fanatizmin, mövhumatın, ətalətin baş alıb getməsi, ictimai inkişafa mane olması ("Molla Nəsrəddinin cavabı", "Qəbirdən məktub", "Baş"...), çar Rusiyasının dinə münasibətdə ikiüzlü mövqeyi və müstəmləkə siyasəti ("Məzhəb azadlığı", "Missionerlər", "Din məsələsi"...) və s. felyetonlarında xüsusi diqqət yetirilən məsələlərdən idi. Onun müxtəlif illərdə yazdığı məqalələr ("Sizi deyib gəlmişəm", "Niyə məni döyürsünüz?"...) felyetonlarında qaldırılan problemlərlə yaxından səsləşir və maraqla qarşılanırdı. Böyük əks-səda doğurmuş "Azərbaycan", "Cümhuriyyət" məqalələri isə millətin və ölkənin taleyi ilə bağlı yazıçının demokratik mövqeyini əks etdirirdi.

LAYİHƏ

Publisistik yaradıcılığını sovet hakimiyyəti illərində davam etdirən ədib tərəqqi, inkişaf naminə nöqsanları tənqid yolunu davam etdirmiş, beynəlxalq mövzuda da kəsərli felyetonlar yazmışdır.

• EVDƏ İŞ

ARAŞDIRMANI DAVAM ETDİRİN

**1. Sinifdə öyrəndiklərinizi göstərilən mənbələrdən topladığınız məlumat əsasında zənginləşdirin və tamamlayın.**

**2. Araşdırma apararkən aşağıdakı sualların cavablarını da əhatə etməyə çalışın:**

a) C.Məmmədquluzadənin nəsr və dramatik əsərləri üçün ortaq olan cəhətlər hansılardır?

| № | Müqayisə olunanlar | Onların oxşar cəhətləri | | |
|---|---|---|---|---|
| | | | | |
| | | | | |

b) Yazıçının publisistik və bədii yaradıcılığı hansı cəhətlərə görə müqayisə oluna bilər?

**3. Yazılı qeydlər əsasında şifahi təqdimata hazırlaşın.**

• MƏNBƏLƏR

1. C.Məmmədquluzadə. Əsərləri. Dörd cilddə. I cild, Bakı: Öndər, 2004, səh. 6-8; 13-14; 17-18; 22-23.
2. XI sinif şagirdləri üçün elektron vəsait. http://edebiyyat.ucoz.com.

## ANAMIN KİTABI

*(ixtisarla)*

• I dərs

• MƏZMUN ÜZRƏ İŞ

OXUYA HAZIRLAŞIN

**Sualların üzərində düşünün, cavablarını cədvəldə qeyd etdikdən sonra fikir mübadiləsi və müzakirə aparın.**

– "Milli birlik" nə deməkdir?
– Sizcə, milli birlik hansı hallarda daha önəmli olur?
– Milli birliyə necə nail olmaq mümkündür?

| "Milli birlik" nə deməkdir? | Sizcə, milli birlik hansı hallarda daha önəmli olur? | Milli birliyə necə nail olmaq mümkündür? |
|---|---|---|
| | | |

**Aşağıdakı qaydalara əməl etməklə əsərdən verilmiş parçanı oxuyun.**

1. Bir səhifə həcmində mətn rollar üzrə oxunur.
2. Müəyyənləşdirilmiş cütlər mətni oxuyanlara növbə ilə suallar verir. Cavablar cütləri qane etməsə, digər şagirdlərin cavabları dinlənilir.
3. Cütlər və mətni oxuyanlar əvəz edilir, sonrakı səhifələrin oxusu da bu qayda ilə davam etdirilir.
4. Nəzərdə tutulan parçanın oxusu başa çatdırıldıqdan sonra seçilmiş hissələrin məzmununu bir neçə şagird yığcam nağıl edir.

• **Unutmayın:** Suallar əsərdəki məlumatların hansı səviyyədə öyrənildiyini, əsas fikirlərin necə başa düşüldüyünü, nə cür nəticələrin çıxarıldığını aydınlaşdırmağa imkan yaratmalıdır.



LAYİHƏ

**Birinci məclisdə iştirak edənlər:**

Z ə h r a b ə y i m – 60 yaşında
R ü s t ə m b ə y – onun böyük oğlu, intelligent, 40 yaşında
M i r z ə M ə h ə m m ə d ə l i – onun ikinci oğlu, elmi-ilahi müəllimi, vaiz, 35 yaşında
S ə m ə d V ah i d – onun üçüncü oğlu, türk dili müəllimi, 30 yaşında
G ü l b a h a r – qızı, müsəlmanca oxumuş, 20 yaşında
Z i v ə r x a n ı m – Rüstəm bəyin övrəti, rusca tərbiyə tapmış, 25 yaşında
M i r z ə H ə s ə n – Rüstəm bəyin dilmancı, 30 yaşında
T e y m u r b ə y – cəmiyyəti-xeyriyyənin dəftərdarı, 25 yaşında
Q ə n b ə r – Rüstəm bəyin sərkarı, 45 yaşında.

*Əhvalat vaqe olur tarixi-hicrinin min üç yüz otuzuncu ilinin yavıqlarında, Azərbaycan şəhərlərinin birində, Rusiya hökuməti əsrində.*

## B İ R İ N C İ M Ə C L İ S

*Rüstəm bəyin, Mirzə Məhəmmədəlinin və Səməd Vahidin ümumi kabinəsi ...*
*Otaqda oturub tək Rüstəm bəy ... oxuyub-yazmağa məşğuldur...*
*İçəri qapı açılır və Zəhrabəyim qorxa-qorxa başını uzadıb yavaşca soruşur.*

Z ə h r a b ə y i m. Bala, görəsən, niyə uşaqlar yubandılar?

R ü s t ə m b ə y *(başını stolun üstündən qovzamayıb)*. Ana, məni danışdırma, lüğət yazıram.

*(Zəhrabəyim dinməyib yox olur. Yenə bir dəqiqə sakitlik ilə keçir. Çöl qapını tıqqıldadırlar).*

R ü s t ə m b ə y. Kimsən? Gir içəri.

*(Mirzə Həsən girir içəri.)*

M i r z ə H ə s ə n. Səlam əleyküm.

R ü s t ə m b ə y. Əleykəssəlam. Mirzə, nə əcəb bu gün yubandın?

M i r z ə H ə s ə n. Bağışlayasınız. Rüstəm bəy, çox səy elədim, tez gələ bilmədim.

R ü s t ə m b ə y. Əyləş. Dünən harda qaldıq?

M i r z ə H ə s ə n *(kağıza baxır və oxuyur)*. Necə ki Yevropa, habelə Asiya millətlərinin hürufatının əvvəlincisi “A” sövtünün əlamətidir ki, biz ona “əlif” deyirik.

R ü s t ə m b ə y. Mirzə, dayan, gərək bir yerini dəyişək. Necə yazıbsan? Yevropa və Asiya millətlərinin?

M i r z ə H ə s ə n. Necə ki Yevropa, habelə Asiya millətlərinin hürufatının ...

R ü s t ə m b ə y. Dayan bir, yaxşı olar artırasan: cümləsinin.

M i r z ə H ə s ə n. Xub, cümləsinin *(yazısını düzəldir)*, cümləsinin hürufatının əvvəlincisi “A” sövtünün əlamətidir ki, biz ona “əlif” deyirik....

R ü s t ə m b ə y *(kitaba baxır)*. Yaz, *(yavaş-yavaş deyir)* bundan əlavə, xah Şərq tayfalarının bəzilərinin, habelə slavların, qreklərin....

M i r z ə H ə s ə n. Yunanların....

R ü s t ə m b ə y. Yunanların və qədim yəhudilərin dilində hürufatın əvvəlincisinin mənası həmi birdir, həmi mindir; necə ki, məsələn, ərəb dilində “əlif” ləfzi. *(İçəri otaqdan uşaq səsi gəlir.)* Səs eləməyin, mən lüğət yazıram *(əlində kitab var-gəl edir)*. Mirzə, yaz; və lakin həmin “A” sövtü millətlərin bəzisinin dilində çox işlənir, bəzisinin dilində az işlənir...

M i r z ə H ə s ə n *(yaza-yaza)*. Bəzisinin dilində...

LAYİHƏ

Rüstəm bəy. Bəzisinin dilində çox işlənir, bəzisinin dilində, bəzisinin dilində az işlənir.

*(İçəri otaqdan Zivər xanım ətirli və kirşanlı, sinəsi və qolları açıq, qıvraq gəlir, Rüstəm bəyin yazı stolunun üstündəki telefonun dəstəyini qalxızıb qoyur qulağına və belə danışır.)*

Zivər xanım. Kto u telefona? Kimdi telefonda? Kimdi? Səlimə xanım? Səlam əleyküm. Sağ ol, sağ ol. Necə? Kim? Hə, yaxşı! Gəlin bir yerdə gedək. Yaxşı, evdədi. Yaxşı, səlamət qal.... *(Dəstəyi qoyur yerinə.)* Rüstəm, Səlimə xanımgil indi gələcəklər; gərək bu gün biletləri paylayaq, sabah da ki, bilirsən, bizdə cəmiyyəti-xeyriyyənin yığıncağıdı. Bilmirəm sənin hələ işin çoxdur?

Rüstəm bəy. Mən sonra da yaza billəm. Deyirsən nə vaxt gələcəklər?

Zivər xanım. Yarım saata burada olallar. *(Rüstəm bəy bir söz deməyib yenə kitaba məşğul olur. Zivər xanım qıvraq çıxıb gedir.)*

*(Çöl qapıdan Mirzə Məhəmmədəli girir içəri, salam verib başmaqlarını çıxardır və keçib oturur öz yerində.)*

Rüstəm bəy. İndi keçək "almas" ləfzinə. Yaz, "almas", latınca "atamas", pür qiymət daşlar cərgəsindən gözəl şəfəqli və kimya aləmində bundan bərk və səxt daş hələ bu vaxtadək dünyada tapılmayıb; bərklikdə cəvahiratın heç biri buna bərabər deyil. Nə zümrüd, nə tupaz, nə dendrit, kvars, yaşma, tormalin və nə qeyriləri.

*(Mirzə Həsən yazır.)*

Mirzə Məhəmmədəli *(başını qalxızıb Rüstəm bəyə tərəf deyir)*. Mənim qanacağıma görə, sizin kitabınızda olan məlumat məhz Yevropa və Rusiya mənbəyindən əxz olunmuşdur... Mənə qalarsa, haman ittilaatı ki, siz o zəhmətnən cəm edirsiniz, onları Şərq və islam elmləri ilə tətbiq eləməyinizin bir eybi yoxdur. Məsələn, götürək haman almas barəsində bərklik söhbətini. Mənim qanacağıma görə, "almasdan bərk şey dünyada yoxdur" demək özü bir səhv və qələtdir. Almasdan bərk şey dünyada çoxdur.

Rüstəm bəy. Hər nə sözün var, de.

Mirzə Məhəmmədəli. Söhbət haman səxtlik üstədir ki, siz orada yazdınız. Necə ki məlumdur və kərrat ilə eşitmişik və kitablardan təhsil eləmişik ki, Həqq-təala bizə on şey təyin edib ki, bir-birindən bərkdir...

*(İçəri qapıdan Zəhrabəyim görsənir.)*

Rüstəm bəy və Mirzə Məhəmmədəli *(ikisi də əllərini qalxızıb birdən)*. Ana, dayan, hələ gəlmə, söz danışırıq.

*(Zəhra bəyim yox olur.)*

Mirzə Məhəmmədəli. Haman bərk şeylərin əvvəlincisi daşdır.

Rüstəm bəy. Yəni, necə daş? Axır dünyada daş çoxdur, görək hansını deyirsən?

Mirzə Məhəmmədəli. Heç təfavütü yoxdur. Hansı daş olur-olsun.

*(Rüstəm bəy və Mirzə Həsən gülürlər.)*

Mirzə Məhəmmədəli. Dəxi burada gülmək, yəni çe? Siz xahiş etdiniz, mən də deyirəm. Lazım deyil, məni əfv buyurunuz; dəxi gülmək yəni nə olsun? Heç dəxli var?

Rüstəm bəy *(gülümsünə-gülümsünə)*. Yaxşı, sözünü de, gülmərik. Sonra? Daşdan sonra?

Mirzə Məhəmmədəli. İkinci mərtəbədə daşdan sonra bərk olan şey dəmirdir, zira bu iki cisimləri bir-birinə vuranda *(əllərini qoşa tutub yavaşca bir-birinə vurur)* aşkardır ki, dəmir daşı sındıracaq.

*(Rüstəm bəy və Mirzə Həsən yenə gülürlər.)*

Mirzə Məhəmmədəli. Hə ... gülərsiniz, gülərsiniz. Vay sizin halınıza!... Afərin lüğət yazanlar!

Rüstəm bəy *(gülə-gülə)*. Sonra? Dəmirdən sonra bərk olan şey hansıdır?



LAYİHƏ

*(Mirzə Məhəmmədəli durur ayağa, istəyir getsin. Rüstəm bəy durur, onun qabağını kəsir.)*

R ü s t ə m  b ə y. Məhəmmədəli, uşağa uşaq deyərlər, böyüyə də böyük deyərlər. Sən sözünü de, əgər sənin sözün haqdır, gərək onu deməkdən çəkinməyəsən.

M i r z ə  M ə h ə m m ə d ə l i *(bir qədər fikir eləyib oturur yerində və sonra başlayır)*. Dəmirdən bərk olan şey oddur ki, dəmiri əridir və özü də səxtlik ənasirində üçüncü dərəcədədir. Oddan bərk olan şey sudur ki, odu söndürür və səxtlik ənasirinin dördüncü dərəcəsindədir. *(Rüstəm bəy və Mirzə Həsən əllərini ağızlarına basıb gülürlər.)* Sudan bərk olan şey buluddur ki, su haman buluddan əmələ gəlir. *(Yenə içəri otaqdan səs gəlir, yenə Mirzə Məhəmmədəli hirsli deyir.)* Səs gəlməsin! Görürsünüz ki, biz burda söz danışırıq! Bəli, ağama ərz olsun ki, buluddan bərkraq olan şey yeldir ki, buludlara həmişə yeldən fərman çıxır. *(Bir qədər dikəlib həvəsə gəlir.)* Yeldən bərk olan şey mələkdir ki, yelləri idarə edir; yəni haraya göndərməlidir, göndərir; göndərməli deyil, göndərmir. *(Bir az da ucadan və həvəsli.)* Mələkdən bərk şey məlakül-mövtdür ki, məlaki qəbzi-ruh edir. Hı ... gülərsiniz! Gülün, eybi yoxdur, gülün! Vay halınıza! Məlakül-mövtdən də bərk olan şey bilirsiniz nədir? Ölümdür, ölüm! Hı ... gülərsiniz! *(Dəxi də hirsli.)* Bəs bilirsiniz ki, ölümdən bərk şey nədir? Bilirsinizmi, ey lüğət yazanlar?... *(çığıra-çığıra durur ayağa.)* Niyə gülürsünüz? Burada ilan oynatmırlar ki? Məgər insan öz qəbahətini gərək annamaya? Eyb deyil? *(Hirsli gedir qapıya tərəf.)*

*(Çöl qapıdan Səməd Vahid girir içəri və qiylu-qalı görüb deyir.)*

S ə m ə d  V a h i d. İştə irkaklar! Haydı arkadaşlar!

M i r z ə  M ə h ə m m ə d ə l i *(hirsli və ucadan Səməd Vahidə)*. A kişi, hələ bilmirəm bu nə deyir ey!..

*(Səməd Vahid gedib oturur yerində və kağız-qələmini çıxardır. Rüstəm bəy və Mirzə Həsən yenə gülməkdədirlər. Mirzə Məhəmmədəli istəyir başmaqlarını geyə, gedə. Zəhra bəyim qapıda görsənir.)*

Z ə h r a b ə y i m *(Mirzə Məhəmmədəliyə)*. Ay balam, bir dayan görüm, hara gedirsən? Axı nə üstə bu qədər savaşırsınız? Ay belə sizə mən qurban olum, axır min dərd-sərimiz, dost-düşmən var!

M i r z ə  M ə h ə m m ə d ə l i. Ana, sən Allah, sən də əl götür bizdən!

Z ə h r a b ə y i m. Bala, sizin belə mən qadanızı alım, mənim axır siznən vacib işim var. Məhəmmədəli, bala, bir gəl otur, arxayın danışaq. Sən özün, Allaha şükür, yaxşı-yamanı bilənsən. Axır o qızı hər yandan istəyirlər; qız uşağının evdə qalmağının da bir vaxtı var. Nə deyirsən, ay Rüstəm bala? Sən nə deyirsən, Səməd bala? Niyə dinmirsən, Məhəmmədəli bala! Bir deyin görüm, nə məsləhət görürsünüz? Sizə gələn qada-bala mənə gəlsin.

M i r z ə  M ə h ə m m ə d ə l i *(acıqlı)*. Mənə dəxli yoxdur! Hər kəsə istəyirsiniz, verin.

R ü s t ə m  b ə y *(kitabı qoyur, durur ayaq üstə)*. Ana, mən qabaqca da sənə demişəm, indi də yenə deyirəm, qoy oğlanların da eşitsinlər: qız gərək öz xoşu ilə hər kəsə ki kefi istədi, onu görə və bəyənə və ərə gedə. Dəxi o əsrlər keçibdi ki, qızı zornan istəmədiyi adama ərə verirdilər. Ancaq yenə mən məsləhət görürəm ki, Gülbaharı Aslan bəyə verək.

M i r z ə  M ə h ə m m ə d ə l i *(hirsli)*. Əstəğfürullah! Əstəğfürullah! Əgər Gülbahar mənim bacımdır, mən bu əmrə hərgiz razı ola bilmənəm!

R ü s t ə m  b ə y. Nə səbəbə razı ola bilmirsən? Xub, nə eybi var, razı olmursan, sən de görək, kimə verək?

M i r z ə  M ə h ə m m ə d ə l i. Mən nə bilim? Kimə qismət olar, ona verərik.

R ü s t ə m  b ə y. Axır necə kimə qismət olar? Hazır qızı istəyirlər, dəxi yüz il gözlətməyəcəyik ki?



LAYİHƏ

M i r z ə M ə h ə m m ə d ə l i *(bir qədər dinməyib).* Mənə qalırsa, Gülbaharı Mirzə Bəxşəliyə verərik.

*(Rüstəm bəy gülür.)*

S ə m ə d V a h i d. Necə Mirzə Bəxşəliyə? Müəllim Mirzə Bəxşəliyə?

M i r z ə M ə h ə m m ə d ə l i. Bəli, haman Mirzə Bəxşəliyə.

S ə m ə d V a h i d. Bən buna hərgiz razı olmam.

M i r z ə M ə h ə m m ə d ə l i *(təəccüblü).* Necə yəni razı olmazsan? Hələ sən nəçisən?

S ə m ə d V a h i d. Bənə qalıyorsa, Gülbaharı Hüseyn Şahidə verməli.

M i r z ə M ə h ə m m ə d ə l i *(sağ əlini fırladır).* Pəh-pəh-pəh, buna bax, sən Allah! Bu da bizə müştəri tapdı.

Z ə h r a b ə y i m. Ay balalarım, sizə belə mənim canım qurban, bir mənə deyin görüm, o dediyiniz adamlar kimdilər? Yaxşımı adamdılar, nəçidirlər?

R ü s t ə m b ə y. Ana, mən dediyim Aslan bəy çox yaxşı adamdı; özü də keçən il yurist dərsi oxuyurdu, sonra peşiman oldu, vastoçni fakultetə girdi. İndi istəyir mal həkimi olsun.

Z ə h r a b ə y i m *(Səməd Vahidə).* Bala, sən dediyin adam kimdi, nəçidi? Bir qulluğu varmı?

S ə m ə d V a h i d. Ana, Hüseyn Şahid bizim gənc ədiblərimizdəndir, özü də xeyriyyə məktəbində ədəbiyyat dərsi müəllimidir.

*(Mirzə Məhəmmədəli başını bulayır.)*

M i r z ə M ə h ə m m ə d ə l i. Pəh-pəh-pəh! Elə bizim gənc ədibimiz əskik idi. Allah bəd nəzərdən saxlasın. *(Hirsli.)* A kişi, mən bilmirəm, ədib nədi axır ey?

R ü s t ə m b ə y. Qardaşlarım, mən sizdən xahiş edirəm ki, hər nə eləmək istəyirsiniz, məsləhətnən və ağıl ucuynan eləyin... Sən bir söz deyirsən, mən bir söz deyirəm, o bir söz deyir. Qardaşlarım, beləliknən bir mətləb hasil olmaz. Qız hazır, bax, o qapının dalındadı *(əlini içəri qapıya uzadır),* çağıraq bu saat özündən sual eləyək ki, görək meyli kimədi?..

S ə m ə d V a h i d. Belə məsləhətə qarşı bən bir söz söyləməm.

R ü s t ə m b ə y *(Mirzə Məhəmmədəliyə).* Niyə dinmirsən, Məhəmmədəli?

M i r z ə M ə h ə m m ə d ə l i. Özünüz bilin, mənim işim yoxdur.

*(Rüstəm bəy durur, qapıdan Gülbaharı çağırır. Gülbahar girir içəri.)*

Z ə h r a b ə y i m *(Gülbahara).* Bala, Gülbahar, gəl otu yanımda, durma ayaq üstə.

R ü s t ə m b ə y. Gülbahar, keç otu və qulaq as, gör nə deyirəm. Biz bu saat sənin barəndə danışırdıq. Sözün açığı budur ki, səni üç adam istəyir: biri Aslan bəydi, biri Mirzə Bəxşəlidi, biri də Hüseyn Şahiddi... Qəlbin kimə yapışır, ona da get; bizim heç sözümüz yoxdu...

*(Gülbahar dinmir).*

Z ə h r a b ə y i m *(Gülbahara).* Bala, niyə dinmirsən?

G ü l b a h a r *(Rüstəm bəyə).* Dadaş, əvvəl bu ki, sən dediyin adamların heç birinə mən bələd deyiləm və qaldı ki, sizin mənim barəmdə çalışmağınız əbəsdir; çünki mən bilirəm ki, mən bir kəsi xoşlasam da, sən razı olsan, Məhəmmədəli dadaşım razı olmayacaq; Məhəmmədəli dadaşım razı olsa, sən izin verməyəcəksən; hər ikiniz də xoşlasanız, Səməd dadaşım bəyənməyəcək. Bir yadınıza salın, görün indiyə kimi mənim üstümdə siz üç qardaşın neçə dəfə dava-mərəkəsinə qonşular yığışıb tamaşaya. Yox-yox, mən heç kəsə getmək istəmirəm. Kaş siz bir-biriniznən yola gedin. *(Durub çıxır gedir. Mirzə Məhəmmədəli gəlib oturur yerində).*

R ü s t ə m b ə y. İş belə olan surətdə mən məsləhət görürəm ki, bir surətdə ki Gülbahar biz dediyimiz adamların heç birinə bələd deyil, sabah axşam gərək ki cəmiyyəti-xeyriyyənin zasedaniyasıdır, özü də növbətə görə gərək bizim evə yığışalar. Aslan bəy necə ki üzv, zasedaniyaya gələcək. Gərək hesabnan müəllimlərdən



LAYİHƏ

də olalar; çünki proqramlar barəsində müəllimlərdən cavab istəyiblər. Gərək onlardan şikayət də var. Xülasə, onlar gərək gələlər zasedaniyaya. Gülbahar da istəyər, çıxar onlarnan tanış olar.

*(Çöl qapı tıqqıldayır).*

R ü s t ə m  b ə y. Kimsən? Gəl!

*(Daxil olur Teymur bəy, qoltuğunda papka; Zəhra bəyim üzünü tutur o tərəfə ki, Teymur bəy görməsin.)*

T e y m u r  b ə y. Səlam əleyküm.

R ü s t ə m  b ə y. Ay əleykəssəlam, Teymur bəy. Gəl əyləş.

*(İçəri otaqdan Zivər xanım çıxır, Teymur bəyə əl verir.)*

Z i v ə r  x a n ı m (gülə-gülə). A, zdravstvuyte, Teymur bek!

T e y m u r  b ə y *(Zivər xanımın əlini öpür)*. Zdravstvuyte, Zivar xanum!

*(Teymur bəy də, Zivər xanım da otururlar Rüstəm bəyin yanında. Mirzə Məhəmməddəli acıqlı baxır bunlara. Teymur bəy papkanı açır, kağızları aralayır, sonra üç kağız qoyur Rüstəm bəyin qabağına; bu da kağızlara qol çəkir, verir Zivər xanıma, o da qol çəkib verir Teymur bəyə. Teymur bəy də yığışdırır, qoyur papkaya.)*

T e y m u r  b ə y *(saatına baxıb deyir)*. Deyəsən, yubanırıq ha!...

*(Zivər xanım və Teymur bəy dururlar ayağa. Zivər xanım ayna qabağına gedib, şlyapasını düzəldir və Teymur bəy ilə çıxıb gedir. Mirzə Məhəmmədəli yenə acıqlı-acıqlı baxır bunların dalınca. Qənbər, uzun çuxalı və belində xəncər, yanında çoban Qurban, girirlər içəri. Qurbanın bir əlində uzun çomaq, bir əlində dəsmala düyülü bir qab. İkisi də baş yendirirlər.)*

R ü s t ə m  b ə y. Qənbər, nə var, qoyunlar necədi?

Q ə n b ə r. Sağlığın, bir şey yoxdu. Amma qoyunlara bərk qızdırma düşüb, yaman qırır; heç bir əlacı da yoxdu. *(Qurbanın əlindən düyünçəni alıb qoyur yerə.)* Buyuraydınız, bu yavanlığı boşaldaydılar; bir az kərədi, bir az da təzə şordu. *(Qənbər düyünçəni aparır içəri, qapının yanına qoyur.)*

Z ə h r a b ə y i m. Qənbər, niyə çoxdandı görünmürsən?

Q ə n b ə r. Xanım bəyim, vallah, macalımız olmur. Qoyunun azarı başımızı bərk qatıb.

R ü s t ə m  b ə y. Qənbər, bilirsən nə elə? Sabah axşam mal həkimi bizdə olacaq, cəmiyyəti-xeyriyyənin yığıncağıdı; sən də gəl, yadıma sal, deyək, bəlkə qoyunların qızdırmasına bir dava deyə.

Q ə n b ə r. Baş üstə, gələrəm. (*Qənbər və çobanlar çıxırlar. Rüstəm bəy gəlir anasının tərəfinə və gülə-gülə deyir).*

R ü s t ə m  b ə y. Ana, kefin necədi? Yaxşıdır? Ana, bilirsən nə var? Mən lüğət yazıram. Bilirsən lüğət nədi? Yəni insanın dilində hər nə qəribə söz var, gərək o kitaba yazıla; hamısı gərək yazıla ki, bir söz də qalmaya. Bəlkə, sən də elə bir qəribə söz bilirsən ki, bizim yadımıza düşməmiş ola. Hə, nə deyirsən, ana? Bir qəribə söz de, yazım.

Z ə h r a b ə y i m. Bala, qadan mənə gəlsin, mən nə bilirəm ki, nə deyim?

M i r z ə  M ə h ə m m ə d ə l i *(durur ayağa)*. Dadaş, əgər qəribə söz axtarırsan, məndən soruş, deyim; dəxi ağbirçək arvad nə bilir, nə desin? Qəribə söz budu ki, indi, maşallah, kraxmallı alimlər dəxi hicabı-zadı bilmərrə atıb, başlayıblar rus-sayağı üzüaçıq zindəganlıq eləməyə. Elə mənnən olsa, lüğətə bu mətləbi də yazsan, pis olmaz. *(Başmaqlarını geyir getsin.)*

R ü s t ə m  b ə y *(acıqlı və ucadan)*. Məhəmmədəli, səni and verirəm atavın goruna, məndən əl çək.

*(Mirzə Məhəmmədəli başmaqlarını geyir getsin.)*

Z ə h r a b ə y i m *(Məhəmmədəliyə)*. Bala, Məhəmmədəli, bir dayan. Bala, bir dayan, bir getmə.



LAYİHƏ

*(Zəhrabəyim qalxır ayağa, qoltuğundan bir bayaz çıxardır, gedir Məhəmmədəlinin dalıyca: o da qulaq verməyib gedir. Zəhrabəyim yenə gəlib oturur yerində və bayazı qoyur qoltuğuna. Səməd Vahid yazıya məşğul olduqda içəridən uşaq ağlamağı eşidilir. Səməd Vahid, əlində qələm, durur gedir qapıya tərəf və hirsli.)*

Səməd Vahid. Çocuq ağlamasın, bən şer yazıyorum *(gəlib oturur yerində və Rüstəm bəyə.)* Dadaş, ədəbiyyatdan lazımsa, nümunə olaraq bir şer deyim, yaz lüğətə.

Rüstəm bəy. Nə eybi var. Amma bu şərt ilə açıq olsun. Yoxsa, doğrusu, mən sənin dilini qanmıram.

Səməd Vahid *(kağızlarını əlləşdirir və bir yerdən şairanə oxuyur):*

Ənzari-şəbabımda pədidar olan, ey zill!
Ey zilli-tüluat, oluyorsun yenə peyda!

Rüstəm bəy *("eh" eləyib çönüb gedir öz stoluna tərəf).* O dili mən özüm qanıram ki, lüğətə də yazam?

Səməd Vahid *(durur ayağa və kağızlarını yığışdırır ki, getsin).* Dadaş, mən söylədiyim "Faust"dan türk dilinə tərcümədir. Bizim müəllimlər bunu indi bu saat məktəblərimizdə balaca çocuqlara öyrədiyorlar. Sən ki bunu qanmıyorsan, sənayei-nəfisədən bibəhrə olmağını müşahidə ediyorsın, zənnindəyim, əfəndim. *(Səməd Vahid acıqlı, kağızı qəfəsənin içinə atıb, durur gedir. Rüstəm bəy təəccüblü baxır onun dalıyca.)*

Zəhrabəyim *(durur ayağa, bayazını qoltuğundan çıxardır və Səməd Vahidin dalıyca).* Bala, bir dayan! Bala, bir dayan. Səməd bala, bir dayan! *(Rüstəm bəy də kağızlarını yığışdırır və acıqlı, hazırlaşır çıxıb getməyə. İndi də Zəhrabəyim bayazını buna tərəf tutub yalvarır.)* Rüstəm, Rüstəm, ayaqlarının altında ölüm! Bir dayan! Bala, bir dayan, bir bu kitaba bax.

Rüstəm bəy *(acıqlı).* Eh, ana, sən Allah, əl çək!

*(Rüstəm bəy də çıxıb gedir. Zəhrabəyim qalır ortalıqda tək, əlində kitab.)*

**• EVDƏ İŞ**

1. Əsərdən müstəqil oxuduğunuz ikinci və üçüncü məclisləri nəzərdən keçirin.
2. Hər iki məclisdə ifadə olunmuş mühüm fikirləri müəyyənləşdirməyə çalışın.
3. Tanış olmayan sözlərin mənasını aydınlaşdırın.
4. Mənasını aydınlaşdırdığınız sözlərin (beşdən az olmayaraq) alınma, yaxud dilimizə aid olduğunu əsaslandırın.

| Tanış olmayan sözlər | Mənası | Öz sözümüzdür | Alınma sözdür |
|---|---|---|---|
| | | | |

5. Daha maraqlı hesab etdiyiniz məcazları yazın.

| Maraqlı hesab etdiyim məcazlar və onların növü | Bu məcazları maraqlı hesab etməyimə səbəb nədir? |
|---|---|
| | |

6. Yazılı qeydlər əsasında şifahi təqdimata hazırlaşın.

LAYİHƏ

• II dərs

• MƏZMUN ÜZRƏ İŞ

1. **Tapşırığı fərdi olaraq yerinə yetirin:** İkinci və üçüncü məclislərdə ifadə olunmuş mühüm fikirləri müəyyənləşdirib cədvəldə qeyd edin.

| | |
|---|---|
| İkinci məclisdəki başlıca fikirlər | |
| Üçüncü məclisdəki başlıca fikirlər | |

2. **Parta yoldaşınızla birlikdə suallara cavab hazırlayın:**
   a) Cəmiyyəti-xeyriyyənin iclasında ilk mübahisəyə səbəb nə olur? Bu mübahisədə hansı tərəfin mövqeyini müdafiə edərdiniz?
   b) İclasın gündəliyinə daxil edilmiş məsələlər hansılardır, onları əhəmiyyətli saymaq olarmı?
   c) Cəmiyyətin illik hesabatı barədə nə danışılır, icra olunmuş işlər, sizcə, faydalıdırmı?
   d) Məktəb proqramı ilə bağlı məsələdə diqqətinizi çəkən nə oldu, onun necə həll olunmasını istərdiniz?
   e) Ehtiyacı olan, aclıq çəkən insanların ərizəsi ilə bağlı məsələnin müzakirəsi nə ilə nəticələndi, siz problemin necə həll olunmasını ədalətli sayardınız?
   f) Senzorun qardaşlarla bağlı ittihamları və gəldiyi nəticə sizdə hansı qənaətin yaranmasına səbəb oldu?
   g) Oxuduğunuz məclislər hansı mənəvi dəyərlər barədə danışmağa imkan verir?
3. **Kiçik qruplarda birləşib qənaətlərinizi bölüşün, fikirlərinizi dəqiqləşdirib ümumiləşdirin.**
4. **Təqdimatlar əsasında fikir mübadiləsi və müzakirə aparın.**
5. **Məclislərin birindən seçdiyiniz hissənin məzmununu iki formada – yığcam və yaradıcı danışmağı öyrənin, nümunələri dinləyib onlara münasibət bildirin.**

• EVDƏ İŞ

1. Əsərin ardını – dördüncü məclisi nəzərdən keçirin.
2. Qardaşlar haqqındakı ilkin təəssüratınızı "xarakterlər xəritəsi"ndə qeyd edin. Əsərdən nümunələr göstərməyi unutmayın.




3. Tanış olmayan sözləri müəyyənləşdirin, daha maraqlı hesab etdiyiniz məcazları yazın.
4. Mənasını aydınlaşdırdığınız sözlərin (beşdən az olmayaraq) alınma, yaxud dilimizə aid olduğunu əsaslandırın.

| Tanış olmayan sözlər | Mənası | Öz sözümüzdür | Alınma sözdür |
|---|---|---|---|
| | | | |

5. Bu məclis hansı mənəvi dəyərlər barədə danışmağa imkan verir?
6. Yazılı qeydlər əsasında şifahi təqdimata hazırlaşın.

LAYİHƏ

**III dərs**

**TƏHLİL ÜZRƏ İŞ**

**Mətni fərdi olaraq oxuyun, ardıcıllığa əməl etməklə tapşırığı yerinə yetirin. Öncə tapşırıqla tanış olun.**

1. Birinci mətnkənarı sualı və onun cavabı ilə bağlı hissənin ilk cümlələrini oxuyun. Düşünün: Mətn sizin üçün çətin deyil ki?
2. Mətndəki başlıca fikirləri oxuda anlamağa çalışın. Bunun üçün mətnkənarı sualların məqsədini, onlardan irəli gələn fərziyyələri müəyyənləşdirin.
3. Hər bir sualla bağlı hissənin oxusu başa çatdıqdan sonra onu necə anladığınız barədə düşünün.
4. Oxu başa çatdıqdan sonra bütövlükdə mətndə əks olunmuş başlıca fikirləri necə anladığınızı yoxlayın. Öyrəndiklərinizi fərziyyələrlə müqayisə etməklə bunu aydınlaşdıra bilərsiniz. Lazım gələrsə, mətni yenidən nəzərdən keçirin.
5. Vacib saydığınız fikirləri silinə bilən işarə ilə mətndə oxu zamanı qeyd edin və gəldiyiniz nəticələri qısaca yazın.
6. Kiçik qruplarda birləşərək qənaətlərinizi bölüşün, təqdimatlar etməklə müzakirə aparın. Qardaşların səciyyəvi xüsusiyyətlərini “xarakterlər xəritəsi”ndə əks etdirin.

> ? Əsər hansı mövzuda yazılmışdır? Yazıçının bu mövzuya müraciət etməsinə səbəb nə olmuşdur?

İyirminci yüzilliyin əvvəllərində Azərbaycanda yaranmış mürəkkəb ictimai-siyasi vəziyyət vətənpərvər yazıçını dərindən düşündürürdü. “Xalqın və ölkənin qarşılaşdığı problemləri necə həll etmək olar? Çıxış yolu nədədir?” qəbildən suallara C.Məmmədquluzadə həm publisistik, həm də bədii əsərlərində cavab verməyə çalışır, müasirlərinin diqqətini taleyüklü məsələlərə cəlb edirdi. “Anamın kitabı”nda (1920) məhz belə bir ziddiyyətli dövrün problemləri təsvir edilmişdir. *Araşdırma əsərin mövzusu barədə dolğun cavabın hazırlanmasına imkan yaradacaqdır.*

> ? Əsərdə qaldırılmış problemlər və konflikt üçün özəl olan cəhətlər hansılardır?

İdeyaca zəngin olan “Anamın kitabı” tragikomediyası bədii həlli verilən problemlərin çoxluğu ilə də fərqlənir: xalqa yadlaşmış ziyalıların məslək ayrılığı, soykökündən uzaqlaşmağın acınacaqlı nəticələri, milli müstəqillik və milli birliyin vacib olması və s.

Bütün bunlar, eləcə də digər ciddi problemlər əsərdə real, təbii səhnələr, orijinal bədii vasitələrlə təqdim edilmişdir. Qardaşların yaşadıqları evdə baş verənlər, cəmiyyəti-xeyriyyənin iclasındakı danışıqlar, eləcə də digər təsvirlər əsərdə qaldırılmış problemləri hərtərəfli əks etdirir.

Əsərin maraqla oxunmasının bir səbəbi də konfliktin çoxcəhətli olması və real həyati hadisələrlə səsləşməsidir. Əsərdə obrazların arasında baş verən konflikt mövcud cəmiyyətdəki prosesləri əks etdirir. Təhsil aldıqları ölkələrin düşüncə, davranış tərzini, dilini mənimsəyən qardaşlar nəinki vətənləri, həm də doğma adamları və bir-biri üçün yad adama çevrilmişlər.

Qardaşların düşüncəsinə hakim kəsilən yad əqidə onlar üçün milli birlik və vətənpərvərlik anlayışının üstündən qələm çəkmişdir.

> ? Tragikomediyada hansı milli-mənəvi dəyərlər ön plana çəkilmişdir?

Yüz illər boyu yaşadılan, bütün dövr və zamanlarda qorunub saxlanan bir çox milli-mənəvi dəyərlərə etinasız münasibət əsərdə kəskin tənqid edilmişdir. Məsələn, milli-mənəvi dəyərlərdən üz çevirməyin ailə münasibətlərində doğurduğu acı nəticələr əsərdə daha qabarıq əks etdirilmişdir. Milli-mənəvi dəyərlərə laqeydliyin yaratdığı fəsadları

LAYİHƏ

tragikomediyanın bütün epizodlarında ardıcıl müşahidə etmək mümkündür. *Bunları əsərə yenidən müraciət etmək və mənbələr üzrə araşdırmalar aparmaqla ətraflı aydınlaşdırmaq mümkündür.*

Əsərdəki bütün obrazlar elə ustalıqla yaradılmışdır ki, oxucu-tamaşaçı onların hər biri haqqında aydın təsəvvür qazana bilir. "Məsləkayrı qardaş"ların – *Rüstəm bəy, Mirzə Məhəmmədəli* və *Səməd Vahidin* obrazlarının yaradılmasına isə yazıçı xüsusi diqqət yetirmişdir. Bu, əsərin ideyasının bütün incəliklərinə qədər aydın başa düşülməsi niyyətindən irəli gəlmişdir. Qardaşlar vətənsevər ataları Əbdüləzim bəyin arzusuna uyğun olaraq, ali təhsil almışlar. Böyük qardaş Rüstəm bəy Rusiyada, ortancıl qardaş Mirzə Məhəmmədəli İranda, kiçik qardaş Səməd Vahid isə Türkiyədə oxumuşdur. Lakin qardaşlar vətənlərinə fayda verə bilən elm-bilik sahibi, kamil mütəxəssis kimi qayıtmamışlar. Onların hər biri doğma yurdlarına təhsil aldıqları ölkənin mənafeyinə uyğun əqidə ilə dönmüşlər. Bu, qardaşlar üçün ortaq cəhətdir. Rüstəm bəy zahirən təmkinli, demokrat fikirli adam təsiri bağışlayır. Lakin bunun zahiri, aldadıcı olduğu çox tez aşkara çıxır. Mirzə Məhəmmədəli xasiyyətcə daha tünd olduğu kimi, qatı mühafizəkarlığı, kobudluğu ilə də seçilir. Səməd Vahid həlimtəbiətli adam təsiri bağışlasa da, yersiz inadkarlıqda qardaşlarından heç də geridə qalmır. Yad ölkələrin dili və əqidəsinə üstünlük vermələri və həmin istiqamətdə fəaliyyət göstərmələri bir ailənin övladlarını ayrı salmışdır.

? Qardaşların xarakter və əməlləri üçün mühüm olanlar nədir? Onların oxşar və fərqli cəhətləri hansılardır?

Senzor *Mirzə Cəfərin* müstəqil Azərbaycan hökuməti ideyası ilə bağlı çar hakimiyyətinin narahatlığını ifadə edən sözləri ölkədəki mürəkkəb ictimai-siyasi vəziyyət, həlli vacib olan məsələlər barədə aydın təsəvvür yaradır. Belə bir dövrdə qardaşların çürük əqidə ilə yaşaması, mənasız "fəaliyyəti" acı təəssüf hissi oyadır.

*Mənbələr üzrə qazanılmış biliklər əsasında mətnə yenidən müraciət etməklə bu obrazları daha ətraflı təhlil etmək mümkündür.*

**• EVDƏ İŞ**

**ARAŞDIRMANI DAVAM ETDİRİN**

1. **Sinifdə öyrəndiklərinizi göstərilən mənbələrdən topladığınız məlumatlar əsasında zənginləşdirin və tamamlayın.**

| Məlumatın əldə edildiyi mənbə | Məlumatın məzmunu və aid olduğu mətnkənarı sual |
|---|---|
| | |

2. **Araşdırma apararkən aşağıdakı sualların cavablarını da əhatə etməyə çalışın:**
   a) Əsərdə təsvir olunanlarla səsləşən real hadisələri yazıçı harada və hansı illərdə müşahidə edə bilərdi?
   b) Tragikomediyada diqqət mərkəzinə çəkilmiş problemlərdən hansılar bu gün də aktual sayıla bilər? Cavabları qısaca olaraq sxemdə yazın.

"Anamın kitabı" əsərində qaldırılan problemlər … ➡ Onlardan hansılar bu gün də aktual sayıla bilər? … ➡ Günümüzdə bu problemlərin yaranmasına səbəb nə ola bilər? … ➡ Bu problemləri aradan necə qaldırmaq olar? …

3. **Yazılı qeydlər əsasında şifahi təqdimata hazırlaşın.**

LAYİHƏ

• MƏNBƏLƏR

1. C.Məmmədquluzadə. Əsərləri. Dörd cilddə. I cild, Bakı: Öndər, 2004, səh. 20-22.
2. XI sinif şagirdləri üçün elektron vəsait. http://edebiyyat.ucoz.com.

• IV dərs

• TƏHLİL ÜZRƏ İŞ

**Aşağıdakı qaydalara əməl etməklə mətnin üzərində işləyin.**

1. **Üç kiçik qrup yaradılır (şagirdlərin sayı çox olarsa, bir sualın üzərində iki qrup da işləyə bilər), qrup üzvləri növbə ilə aşağıdakı işləri yerinə yetirir:**
   a) İlk mətnkənarı sualın cavabını bir nəfər ucadan və aydın şəkildə oxuyur.
   b) Mətndəki əsas fikirləri ümumiləşdirərək bir-iki cümlə ilə söyləyir.
   c) Mətnə aid bir neçə sual verir. Cavablandırmada qrup üzvləri ilə yanaşı, bütün sinif iştirak edir.
   d) Səthi qavranılmış çətin məqamlara aydınlıq gətirməyə çalışır.
   e) Mətni hansı əlavələrlə zənginləşdirməyin lazım olması barədə fikirlərini bildirir.
2. **Digər mətnkənarı sualların cavabları da bu qayda ilə oxunduqdan sonra kiçik qrupların təqdimatları əsasında fikir mübadiləsi və müzakirə aparılır.**

? Əsərdəki digər obrazlar hansı cəhətləri ilə diqqəti cəlb edir?

Əsərdəki *Zəhrabəyim ana* obrazı oxucunun diqqətini dərhal cəlb edir. Ailədə nüfuz və söz sahibi kimi qəbul edilməli olan ana oğulları ilə ehtiyatlı davranmağa məcburdur. Ailə ilə bağlı ən vacib sözü belə deməyə günlərlə imkan tapmayan ana ətrafında baş verənləri yaxşı duyur. Övladlarının davranışı və tutduqları yanlış yol Zəhrabəyim ananın rahatlığını əlindən almışdır. Ərinin vəsiyyətini dönə-dönə oxuyan ana yaxşı bilir ki, qardaşlar sonda peşman olub vicdan əzabı çəkəcəklər. O, son nəfəsinə kimi övladlarını milli-mənəvi birliyə səsləyir. Ailənin düşdüyü çıxılmaz vəziyyəti vaxtında dəyərləndirməsi, qızı  Gülbaharla bağlı düşüncələri ananın uzaqgörən olduğunu deməyə əsas verir.

*Gülbahar* ailədə sonbeşikdir, ağıllı və həssasdır, anasını üzən dərdi, atasının vəsiyyətində deyilənləri dərindən anlayır. Başa düşür ki, qardaşları doğru yol seçməyiblər. Qardaşlarının və onların ardıcıllarının – *Aslan bəy, Mirzə Bəxşəli, Hüseyn Şahidin* əqidəsi, fəaliyyəti Gülbahar üçün yad və qəbuledilməzdir. Çobanların danışığı, söhbəti isə ona doğmadır; bu onun xalqına, vətəninə bağlılıqdan, məhəbbətdən irəli gəlir.

Gülbaharın sualı dərin rəmzi məna daşıyır: "... adamlar niyə hərə bir yana gedir?.. Niyə hamısı bir yerə getmir, niyə hərə bir tərəfə gedir?" Hərəsi "bir yana gedən" qardaşlarının mənasız  kitablarını yandırmaqla Gülbahar cəsarətli addım atır: onların əqidələrinin və tutduqları yolun puç olduğunu üzlərinə deyir.

*Aslan bəy, Teymur bəy, senzor Mirzə Cəfər, Zivər xanım, Qənbər, Qurban, Zaman* və digər obrazlar əsərdə az görünsələr də, fərdi xüsusiyyətləri, danışıq və əməlləri ilə dərhal seçilir, bir-birindən fərqlənirlər. Əsərdəki səhnələr obrazları müqayisə etməyə geniş imkan verir. Cəmiyyəti-xeyriyyənin iclasında ərizələri rədd edilən ac



LAYİHƏ

insanlara cəmiyyət üzvlərinin və çobanların fərqli münasibətini əks etdirən səhnə bu baxımdan daha səciyyəvi və təsirlidir.

Əsərin bədiiliyini artıran cəhətlər hansılardır?

Yazılmasından yüz ilə yaxın bir zaman keçməsinə baxmayaraq, "Anamın kitabı" bu gün də maraqla oxunur və tamaşaya qoyulur. Bunun bir mühüm səbəbi onun yüksək bədii keyfiyyətə malik olmasıdır. Bu keyfiyyət əsərin dilində, obrazların yaradılmasında istifadə olunan bədii vasitələrdə, təsvirlərdəki realizmdə, süjet və kompozisiyanın özünəməxsusluğunda aydınca müşahidə edilir. Obrazların danışığı, müxtəlif məqamlarda keçirdikləri psixoloji hallar, başqalarına münasibətdə davranışları və s. xüsusi dəqiqliklə əks etdirilmişdir. Bədii təsvir vasitələrindən gen-bol istifadə olunmasa da, kinayə və təkrirlər qəhrəmanların nitqini daha təsirli etmişdir.

Əsər bitkin kompozisiyasına görə diqqəti cəlb etdiyi kimi, dialoq və monoloqların yığcam, mənalı olması ilə də maraq doğurur. Müəllif hadisələrin daxili bağlılığına və təbii inkişafına xüsusi diqqət yetirmişdir. Qardaşların arasındakı ziddiyyət hadisələrin təbii axarı gözlənilməklə tədricən açılmış, bununla da süjetin maraqla izlənilməsi təmin edilmişdir. Əsərin əvvəlində iştirakçılar – obrazlar haqqında verilən məlumat *bədii müqəddimə* sayıla bilər. Bu yığcam məlumatda əks olunanlar əsərin hər səhifəsində öz təsdiqini tapır. Oxucu-tamaşaçı elə *birinci* məclisdəcə qardaşlar haqqında xeyli təsəvvür qazanır. Onların hər biri "öz dilində" danışır, Rüstəm bəy rus, Mirzə Məhəmmədəli fars, Səməd Vahid osmanlı-türk sözlərini işlətməklə fikirlərini ifadə edirlər. Sonrakı – *ikinci* məclis təkcə obrazların deyil, bütövlükdə əsərin ideyasının başa düşülməsində əhəmiyyətli rol oynayır. Əsərin iştirakçılarının, demək olar, hamısını xeyriyyə cəmiyyətinin iclasına toplayan yazıçı onları öz danışıq, davranış və əməlləri ilə tanıdır. Hadisələrin inkişafı *üçüncü* məclisdə ən yüksək nöqtəyə – zirvəyə yüksəlir. Aydınlaşır ki, qardaşların tutduqları yol birləşə bilməz. Bunu *dördüncü* məclisdə öz dilləri ilə təsdiq edən qardaşlar fərqli məslək sahibi olduqlarını etiraf edirlər. Göründüyü kimi, əsərdə əks olunanlar bir-biri ilə sıx bağlı olub, biri digəri üçün zəmin rolunu oynayır, ideyanın ifadəsinə layiqincə xidmət edir.

C.Məmmədquluzadənin əsərdəki dil sənətkarlığı, artıq qeyd edildiyi kimi, cəlbedici olması ilə diqqəti dərhal çəkir. Həm rus, həm də Şərq dillərini mükəmməl bilən yazıçı, qardaşların nitqini ustalıqla fərdiləşdirmiş, digər obrazları da səviyyələrinə müvafiq dildə "danışdırmışdır". Qardaşların nitqini qəlizləşdirən təkcə alınma sözlər deyil, həm də onların danışıq tərzi, cümlələrinin əksər hallarda anlaşılmaz və mənasız olmasıdır.

Əsərin başlıca ideyası nədir?

Çar Rusiyası hakimiyyətinin hiyləgər və dözülməz müstəmləkə əsarəti kapitalist inkişaf mərhələsini keçə bilməyən Azərbaycanı iyirminci yüzilliyin əvvəllərində ciddi əngəllərlə üz-üzə qoymuşdu. Belə əngəllərdən biri yetkin olmayan ziyalıların, xüsusən də xalqdan uzaq düşmüş ziyalıların ölkənin taleyi, xalqın müqəddəratı ilə bağlı taleyüklü məsələlərə münasibətdə əqidə birliyi nümayiş etdirə bilməmələri idi. Fərqli məslək sahibi olan bu ziyalılar milli oyanışa və inkişafa istiqamət verməkdə



LAYİHƏ

ciddi çətinlik çəkir, yad, zərərli fikirləri təbliğ etməklə ümumi mənafeyə zidd mövqe tuturdular. Yad təsir və ideyaların milli birliyə, müstəqilliyə, soykökünə bağlılığa vurduğu ağır zərbənin nəticələri barədə “Anamın kitabı” əsərindən aydın təsəvvür qazanmaq olur.

“Anamın kitabı” – əsərdəki üç qardaşın komediyası, Ananın faciəsi, Gülbaharın dramıdır. Gülbaharın monoloqu milli birlik marşı kimi səslənir: “Qaldı bircə kitab, bu da anamın kitabı. Budur, atam öz əli ilə yazdığı vəsiyyət... Yer, Göy, Ay və ulduzlar göylərdə seyr edib gəzə-gəzə genə Günün başına dolanırlar... Mən etiqad edirəm ki, mənim də balalarım dünyada hər yanı gəzib dolansalar, genə əvvəl-axır anaları Zəhranın ətrafında gərək dolanalar... Vay o kəsin halına ki, təbiətin həmin qanununu pozmaq istəyə!”

“Anamın kitabı” – Azərbaycanın milli birlik kitabıdır.

*Əsərin zəngin ideyasını mənbələri araşdırmaqla daha əhatəli şərh etmək mümkündür.*

**• EVDƏ İŞ**

**ARAŞDIRMANI DAVAM ETDİRİN**

**1. Sinifdə öyrəndiklərinizi göstərilən mənbələrdən topladığınız məlumat əsasında zənginləşdirin və tamamlayın.**

| Məlumatın əldə edildiyi mənbə | Məlumatın məzmunu və aid olduğu mətnkənarı sual |
|---|---|
| | |

**2. Araşdırma apararkən aşağıdakı tapşırığı da əhatə etməyə çalışın:**

a) Ana obrazını tanış olduğunuz hansı ədəbi qəhrəmanla müqayisə etməyin məqsədəuyğun olduğunu müəyyənləşdirin.

b) Onların oxşar və fərqli cəhətləri hansılardır?



**3. Yazılı qeydlər əsasında şifahi təqdimata hazırlaşın.**

**4. Mövzulardan birini seçib yığcam məqalə yazın (məqalə haqqında dərslikdəki lüğətdə və digər mənbələrdə verilmiş məlumatı öyrənin):**

a) C.Məmmədquluzadənin “kiçik” qəhrəmanlarının böyük faciəsi.

b) C.Məmmədquluzadənin publisistikasında ana dili məsələsi.

**• MƏNBƏLƏR**


1. C.Məmmədquluzadə. Əsərləri. 4 clddə. I cild, Bakı: Öndər, 2004, səh. 20-22.
2. XI sinif şagirdləri üçün elektron vəsait. http://edebiyyat.ucoz.com.


**• V dərs**

**• TƏTBİQ**
**• MÜZAKİRƏ**
**• YARADICI İŞ**

**1. Mövzulardan birini seçib işləyin.**

a) “Qardaşların müqayisəli təhlili” mövzusunda inşa yazın.

b) “Ana obrazı məndə hansı təəssürat yaratdı?” mövzusunda esse yazın.

**2. İşin icrasına ayrılan vaxt tamamlandıqdan sonra parta yoldaşınızla yazılarınızı dəyişib oxuyun. Uğurlu saydıqlarınızı və arzunuzu – nələri artırmağı və dəyişməyi lazım bildiyinizi qeyd edin.**

**3. Təqdimatlar etməklə yazılardan nümunələri müzakirə edin.**

**• EVDƏ İŞ**

**Yığcam məruzə yazın: C.Məmmədquluzadənin Cənub mövzusunda əsərləri.**

LAYİHƏ



**Mirzə Ələkbər Sabir**
**(1862–1911)**

Azərbaycan ədəbiyyatında yeni bir cığır açan Sabir əfəndi millətdən ötrü çalışırdı. O gördüyü tənədən, yağış kimi üstünə yağan töhmətdən əsla geri dönməyib öz məsləkində əzmlə davam etdi və sevgili millətinə xidmətdən bir an qafil olmadı.
Sabir əfəndi köhnə şeirlə yeni şeir arasında bir əsrlik uçurum yaratdı.

*Abbas Səhhət*

# MİRZƏ ƏLƏKBƏR SABİRİN HƏYATI, YARADICILIQ YOLU

• ARAŞDIRMAYA HAZIRLAŞIN

1. **M.Ə.Sabir haqqında bildiklərinizi yada salıb yığcam müzakirə aparın.**
2. **Mətni fərdi olaraq oxuyun, məlumatları aşağıdakı işarələrlə nişanlayıb qruplaşdırın:**
   + tanış olan məlumatlar;
   □ əvvəl öyrənilmiş bilik və məlumatlara zidd olanlar;
   ! maraqlı və yeni olan məlumatlar;
   ? açıqlanmasına, daha əhatəli öyrənilməsinə ehtiyac duyulan məlumatlar.
3. **Gəldiyiniz nəticəni aşağıdakı cədvəldə qısaca yazın.**

| + | □ | ! | ? |
|---|---|---|---|
| Bilirdim | Bildiklərimə ziddir | Mənim üçün yeni və maraqlı məlumatdır | Bu barədə daha çox bilmək istəyirəm |
| | | | |

4. **Kiçik qruplarda birləşərək fikir mübadiləsi və müzakirə aparın.**

Sabirin uşaqlığı, gəncliyi və yaradıcılığının ilk dövrü hansı məqamları ilə diqqəti daha çox çəkir?

Qədim mədəniyyət beşiyi olan Şamaxıda xırda ticarətlə məşğul olan Zeynalabdinin ailəsində dünyaya göz açan Ələkbər səkkiz yaşında mollaxanaya qoyulmuşdur. Üç ilə qədər burada oxuyan Ələkbər on iki yaşına çatanda Seyid Əzim Şirvaninin yeni üsullu məktəbində təhsilini davam etdirmişdir. Müəllim yeni şagirdinin həssas, diqqətli və istedadlı olduğunu dərhal duymuş, ona xüsusi qayğı ilə yanaşmışdır.

Oğlunu tacir görməyi arzulayan ata onu təhsildən ayırıb yanında – dükanda işləməyə məcbur edir. Bir gözü şeirlərini yazdığı dəftərdə olan Ələkbəri ticarət işi qətiyyən maraqlandırmırdı...

LAYİHƏ

Səyahətə çıxan Ələkbər bir sıra Şərq ölkələrinin həyatı ilə tanış olur. Bu, dünyagörüşünün inkişafında əhəmiyyətli rol oynadığı kimi, gələcək yaradıcılığına da təsirsiz ötüşmür. O, atasının ölüm xəbərini eşidib vətənə dönür. Bir müddət sonra ailə quran Ələkbər böyük bir külfətin yaşayışını təmin etməli olur. O, sabun bişirib satmaqla ailənin ehtiyaclarını ödəməyə çalışır.

İlk şeirlərini çox erkən yazan Sabir bədii yaradıcılıqla XIX yüzilliyin sonlarında ardıcıl məşğul olmağa başlamışdır. Klassiklərimizi, Şərq ədəbiyyatını dərindən öyrənən şair ilk *lirik şeirlərini* ənənəvi mövzu və janrlarda yazmışdır. *Qəzəl, mərsiyə, qitə* və *rübailəri* istedadı barədə təsəvvür yaratsa da, o, sələflərindən ciddi şəkildə fərqlənmirdi. Qəzəllərini daha çox məhəbbət mövzusunda yazan şair ənənəvi yanaşmadan əksər hallarda kənara çıxmır, əsasən, məlum təsvir və ifadə vasitələrindən istifadə edirdi. Onun lirik qəhrəmanı da sələfləri kimi saf məhəbbətlə sevən səmimi aşiqdir:

Xahişin tərki-dilü can idi, mən həm etdim,
Söylə, ey yar, görüm şimdi nə fərmanın var?

Sədaqətli aşiq eşq üzündən düşdüyü dərdə dərmanın tapılmamasını arzulayır:

Mübtəlayi-dərdi-eşqəm, əl götür məndən, təbib!
Eylə bir tədbir kim, bu dərdə dərman olmasın!

Lakin elə həmin dövrdə artıq gənc şairdə zəmanəsinin eyiblərinə kəskin tənqidi münasibət yaranmışdı. Ədalətsizlik, mədəni gerilik və bunların acı nəticələri onun pak qəlbində qarşısıalınmaz narazılıq dalğası yaratmışdı. Bunun nə vaxtsa üzə çıxacağı, özünə münasib ifadə forması tapacağı şübhəsiz idi.

Şairin həyatının, yaradıcılığının sonrakı dövrləri üçün daha önəmli olanlar hansılardır?

Zaman ötdükcə M.Ə.Sabirin lirikası ictimai məzmun qazanır. İndi onun lirik qəhrəmanı həyatdakı eyibləri, ziddiyyətləri dərindən duyan, bununla barışmayan, mübarizə yolunu üstün tutan vətəndaşdır.

Şairin ictimai mövzuda olan lirik şeirləri üçün ortaq cəhətlər çoxdur. Məsələn, “Səttarxana” şeirində ifadə olunmuş azadlıq ideyaları əldə silah milli azadlıq uğrunda ölüm-dirim savaşına girən qəhrəmanların idealları ilə yaxından səsləşir.

Sabirin əsl istedadının üzə çıxmasına, satirik şeirimizin ən qüdrətli yaradıcısı kimi tanınmasına imkan yaradan şərait yetişdi. Çar Rusiyasının zəifləməsi, imperiyanı inqilab dalğasının bürüməsi milli ucqarlarda da azadlıq ideyalarının güclənməsinə, etiraz və çıxışların artmasına səbəb oldu. Siyasi iqlimin 1905-ci ildən başlayaraq yumşalması demokratik meyilli qəzet və jurnalların çapına yol açdı. Milli mətbuatımızın tarixində böyük hadisə baş verdi – “Molla Nəsrəddin” jurnalı işıq üzü gördü. Sabir illər uzunu qəlbində yığılıb qalan ictimai dərdləri, fikrini, düşüncəsini daim məşğul edən taleyüklü problemləri dilinə gətirmək, insanlara çatdırmaq imkanı qazandı. Çox az bir müddətdə – 1906–1911-ci illərdə onun jurnalda çap olunmuş bir-birindən kəskin satirik şeirləri ölkənin hüdudlarından çox-çox uzaqlarda da böyük maraqla qarşılandı, insanları mühüm mətləblərdən agah etdi, müəllifə böyük şöhrət gətirdi. Lakin şairin şəxsi həyatında ciddi problemlər vardı. Artıq sabun bişirib satmaqla ailəni saxlamaq mümkün deyildi. 1907-ci ildə Bakı şəhərinə gələn şair bir müddət “İrşad” qəzetinin redaksiyasında çalışır. 1908-ci ildə isə ana dili və şəriət müəllimi olmaq üçün imtahan verir, az sonra diplom alır. Şamaxıda açdığı “Ümid məktəbi”ndə böyük həvəslə işə başlasa



LAYİHƏ

da, məktəbin ömrü uzun olmur. 1910-cu ildə Bakıya gələn şair “Zənbur” jurnalının redaksiyasında çalışır, az sonra həm də Balaxanı məktəbində müəllimlik edir. Bakıda yaşadığı qısa zaman kəsiyində o, gərgin çalışır; “Günəş” və “Həqiqət” qəzetlərinin redaksiyalarında da işləyir, bir-birinin ardınca yazdığı satirik şeirlərini “Günəş” qəzetinə əlavə kimi çap olunan “Palanduz” adlı həftəlik gülüş səhifəsində dərc etdirir, “Molla Nəsrəddin”lə əməkdaşlığını kəsmir, yeni qələmə aldığı əsərlərini ardıcıl olaraq jurnala göndərir.

Qaraciyər xəstəliyinə tutulan şair Bakıda və Tiflisdə müalicə olunur. Tiflisdə olarkən C.Məmmədquluzadə dostuna böyük qayğı göstərir, məşhur həkimləri evində qonaq saxladığı Sabiri müalicə üçün dəvət edir. Həkimlərin əməliyyat təklifinə razı olmayan şair Şamaxıya qayıdır, lakin xəstəliyi şiddətləndiyindən yenidən Bakıya getməli olur. Əməliyyata razı olsa da, həkimlər artıq bunun faydasız olduğunu bildirirlər. Şamaxıya qayıdan Sabir 1911-ci ilin iyul ayının 12-də dünyasını dəyişir. Lakin şair xalqına qoyub getdiyi bədii yaradıcılığı, xüsusilə satiraları ilə əbədi ömür qazandı. Bəs bu əsərlərin şairi əbədiyyətə qovuşdurmasına səbəb nədir? Sabir əsərlərində zəmanənin eyiblərini, problemlərini göstərməklə kifayətlənməmişdir. Satiraların hər birində xalqının azadlığını və tərəqqisini ürəkdən arzulayan, bunun üçün yollar arayıb göstərən böyük humanistin, həqiqi vətəndaşın mövqeyi ifadə olunmuşdur. Onun əsərlərinin yüz ildən də artıq bir müddətdə sönməyən maraqla oxunmasının başlıca səbəbini də bunda görmək lazımdır.

Sabir satiraları mövzu baxımından son dərəcə zəngin olsa da, onlar bir nöqtədə – xalqın həyatı və taleyi məsələsində birləşir. Başqa sözlə, şairin əsərlərinin baş mövzusu xalq həyatıdır. Onun satiralarının əsasında ya birbaşa, ya da dolayısı ilə xalqın mənafeyinin, hüquq və azadlığının müdafiəsi dayanır. Bu, ölməz sənətkarın əsas yaradıcılıq məramnaməsi idi. O, “pisi pis, əyrini əyri, düzü həmvar” yazmağı şairlik borcu bilirdi və ömrü boyu buna sadiq qaldı. Sabir başqalarının görmədiyi, yaxud görmək istəmədiyi “pisi” elə aydın və təsirli şəkildə təqdim edirdi ki, buna laqeyd qalmaq mümkün deyildi:

İki qonşu bir-birinin milləti,
Hər ikisi bir peyğəmbər ümməti,
Biri kəsir qurban, bişirir əti,
Bayram edir Xəlilüllah eşqinə,
O biri də baxır Allah eşqinə.

Bu misralarda ifadə olunmuş fikir – ölkədəki aclıq, səfalət şairi daim düşündürmüş, bir-birindən kəskin əsərlərin (“Bizə nə?!”, “Dilənçi”, “Ağlaşma” və s.) yaranmasına səbəb olmuşdur. Eləcə də kəndlinin dözülməz yaşayışı, mülkədar-bəy zülmü (“Əkinçi”, “Səbr eylə!”), fəhlənin ağır həyatı, haqqını, hüququnu müdafiəyə qalxması və buna görə də sahibkarın hiddətinə, qəzəbinə tuş gəlməsi (“Bakı fəhlələrinə”, “Fəhlə, özünü sən də bir insanmı sanırsan?”, “Təraneyi-əsilanə”) ölməz sənət əsərləri üçün mövzu olur, Sabir realizminin qüdrəti sayəsində milyonların gözünü açırdı.

Çarizmin – rus hakimiyyətinin yürütdüyü mənfur müstəmləkəçilik siyasəti, milli ucqarlardakı mürtəce mövqeyi, idarəçilikdə fərsizliyi və bunun fəsadları şairin satiralarında həyati faktlar əsasında ardıcıl ifşa edilmişdir. Hökumətin xalqa zidd siyasətini, vəd etdiyi azadlıqların riyakarlıqdan başqa bir şey olmadığını açıqlayan şair (“Hə, de görüm”, “İstiqbalımız lağlağıdır” və s.) Dumaya ümid bəsləyib təbliğat aparanlara incə kinayə, inadlı məntiqlə müraciət edirdi:



LAYİHƏ

Sən demədinmi dumada rəf olur ehtiyacımız?
Mən də dedimmi çox yemə, tez pozular məzacımız?
Qara buludlar oynaşır, indi nədir əlacımız?
Çulğalayır bizi duman, mən deyən oldu, olmadı?

Ölkənin inkişafdan qaldığını, geriliyin, ətalətin, mövhumatın, cəhalətin tərəqqiyə mane olduğunu, gənc nəslin elmdən, təhsildən uzaq düşdüyünü dərin təəssüf hissi ilə qələmə alan şair ("Dindirir əsr bizi", "Millət şərqisi", "Oxutmuram, əl çəkin!", "Uşaqdır", "Bəxtəvər" və s.) əcnəbilərin tərəqqisini xatırlatmaqla qəflət yuxusunda olanları ayıltmağa səy edirdi:

Seyr etməyə fəzanı icad olub balonlar,
Bir yandan avtomobillər, bir səmtdən vaqonlar,
Hər ixtiraya dair təsis olur salonlar,
Vallah, bular azıblar başdan-ayağa, millət!
İndi bir az da dincəl, baş qoy yatağa, millət!

Fanatizmin törətdiyi bəlaların ifşası, qadın əsarətinin tənqidi, milli mətbuata əngəl olanlara etiraz və s. Sabir satiralarının hədəflərindəndir. Qonşu İranda, Türkiyədə, bir sıra hallarda isə dünyada baş verən mühüm siyasi hadisələrə ayıq münasibətin ifadəsi onun yaradıcılığının səciyyəvi xüsusiyyətlərindən idi. Səttarxanın başçılığı ilə İranda baş verən milli azadlıq hərəkatını diqqətlə izləyən şairin yazdığı əsərlər mücahidlərin dilinin əzbəri idi.

*Mənbələr üzrə araşdırma, şeirlərlə tanışlıq şairin satira yaradıcılığının mövzusu, əhatə olunan məsələlər barədə ətraflı fikir yürütməyə imkan verir.*

Sabirin *uşaq şeirləri* ("Məktəb şagirdlərinə töhfə", "Uşaq və buz", "Yaz günləri" və s.) kiçik oxucularda məktəbə, təhsilə maraq və həvəs oyatmaq, təbiət hadisələri barədə aydın təsəvvür yaratmaq baxımından qiymətlidir.

Şairin bədii irsinə daxil olan *tərcümələr* (Firdovsinin "Şahnamə"sindən parça və s.), *təmsillər* ("Hörümçək və ipəkqurdu" və s.), *mənzum hekayələr* ("Molla Nəsrəddin və oğru" və s.), *felyetonlar* ("Hamısını tapa bilirəm, birini tapa bilmirəm" və s.), *məqalələr* ("Mətbuat" və s.) dəyərli nümunələr kimi bu gün də maraqla oxunur.

Şairin satiraları hansı bədii xüsusiyyətləri ilə diqqəti cəlb edir?

Sabirin satiraları özəl bədii xüsusiyyətləri ilə seçilir. Yaratdığı fərdi satirik tipi xarakter və dünyagörüşünə uyğun bir dildə danışdıran şair bu üsulla onun haqqında dolğun təsəvvür yaratmağa nail olur. Dialoq, sual-cavab, deyişmə və s. şairin satiralarında tez-tez müraciət olunan üsullardan olub obrazların mənəvi aləminin, həyatdakı mövqeyinin başa düşülməsində əhəmiyyətli rol oynayır.

Məcazlardan (bənzətmə, epitet və s.) orijinal istifadə baxımından Sabir satiraları misilsiz nümunələrdir.

Satiralarını əruz vəznində yazan şair bu vəznin imkanlarından bəhrələnməklə kifayətlənməmiş, onu öz yaradıcılıq üslubuna, satirik şeirin məzmununa, tələblərinə uyğunlaşdırmışdır.

*Mənbələrin araşdırılması şairin satirik şeirlərinin bədii xüsusiyyətləri barədə dolğun təsəvvür yaradır.*



LAYİHƏ

**• EVDƏ İŞ**

**ARAŞDIRMANI DAVAM ETDİRİN**

**1. Sinifdə öyrəndiklərinizi göstərilən mənbələrdən topladığınız məlumat əsasında zənginləşdirin və tamamlayın.**

**2. Araşdırma apararkən aşağıdakı suallara xüsusi diqqət yetirin:**

a) Sabirin lirikasında hansı ictimai-siyasi hadisələrə münasibət bildirilmişdir?

b) Sabirin satirik şair kimi formalaşmasına təsir edən amillər hansılardır?

c) Şairin satirik şeirlərini hansı mövzular üzrə qruplaşdırmaq olar?

| № | Əsərlərin adı | Aid olduqları mövzular | | | | |
|---|---|---|---|---|---|---|
| | | | | | | |
| | | | | | | |

**3. Mövzulardan birini seçib məruzəyə hazırlaşın:**

a) Sabir və "Molla Nəsrəddin" jurnalı.

b) Sabir və İranda baş vermiş milli azadlıq hərəkatı.

**4. Yazılı qeydlər əsasında şifahi təqdimata hazırlaşın.**

**• MƏNBƏLƏR**

1. XI sinif şagirdləri üçün elektron vəsait. http://edebiyyat.ucoz.com.
2. M.Ə. Sabir. Hophopnamə. Bakı: Turan nəşrlər evi, 2002, səh. 3-5; 14-15.

## NEYLƏRDİN, İLAHİ?!

*(ixtisarla)*

**• I dərs**

**• MƏZMUN ÜZRƏ İŞ**

### OXUYA HAZIRLAŞIN

**Sualın üzərində düşünün, cavabını cədvəldə qeyd etdikdən sonra fikir mübadiləsi və müzakirə aparın.**

– "Laqeydlik", "biganəlik" anlayışlarını necə izah edərsiniz?

| Laqeydlik nədir? | Biganəlik nədir? |
|---|---|
| | |

**Aşağıdakı qaydalara əməl etməklə şeirin məzmunu üzərində işləyin.**

1. Əsəri fərdi olaraq səssiz oxuyun.
2. Oxu zamanı fikrinizdə yaranan, cavabını müəyyənləşdirməyə çalışdığınız sualları dəftərinizdə və ya iş vərəqində yazın.

| Məni düşündürən suallar | Onların cavabı |
|---|---|
| | |

3. Kiçik qruplarda birləşərək sualları cavablandırmağa çalışın.

| Məni düşündürən suallar | Onların cavabı |
|---|---|
| | |

4. Cavablarını hazırladığınız sualları digər qruplardan soruşun.
5. Dinlədiyiniz cavablarla bağlı fikir mübadiləsi və müzakirə aparın.
6. "Əsərdə əksini tapmış milli-mənəvi və başəri dəyərlər" mövzusunda təqdimata hazırlaşın.
7. Təqdimatlardan nümunələri dinləyib müzakirə edin.

LAYİHƏ

Daş qəlbli insanları neylərdin, ilahi?!
Bizdə bu soyuq qanları neylərdin, ilahi?!

Artdıqca həyasızlıq olur el mütəhəmmil,
Hər zülmə dözən canları neylərdin, ilahi?!

Bir dövrdə kim, sidqü səfa qalmayacaqmış, –
Bilməm belə dövranları neylərdin, ilahi?!

Məzlumların göz yaşı dərya olacaqmış, –
Dəryaları, ümmanları neylərdin, ilahi?!

Səyyadi-cəfakardə rəhm olmayacaqmış, –
Ahuləri, ceyranları neylərdin, ilahi?!

Bağın, əkinin xeyrini bəylər görəcəkmiş, –
Töxm əkməyə dehqanları neylərdin, ilahi?!

İş rəncbərin, güc öküzün, yer özününkü, –
Bəyzadələri, xanları neylərdin, ilahi?!

Hökm eyləyəcəkmiş bütün aləmdə cəhalət, –
Dildadeyi-irfanları neylərdin, ilahi?!

Surtuqlu müsəlmanları təkfirə qoyan bu
Döşdüklü müsəlmanları neylərdin, ilahi?!

Yaxud buların bunca nüfuzu olacaqmış, –
Beş-üç bu süxəndanları neylərdin, ilahi?!

Qeyrətli danosbazlarımız iş bacarırkən, –
Tənbəl, dəli şeytanları neylərdin, ilahi?!

• EVDƏ İŞ

**1. Şeir haqqındakı hiss və düşüncələrinizi ikihissəli gündəlikdə qeyd edin.**

| Əsərdə diqqətimi daha çox cəlb edənlər | Bunun səbəbi |
|---|---|
| | |

**2. Sabirin satiralarını nəzərdən keçirin. Bu şeiri hansı satira ilə müqayisə etmək olar? Fikrinizi nümunələrlə əsaslandırın.**

| Müqayisə olunanlar | Müqayisə üçün əsaslar | | |
|---|---|---|---|
| | | | |
| | | | |

LAYİHƏ

**• II dərs**

**• TƏHLİL ÜZRƏ İŞ**

**KİÇİK QRUPLAR YARADARAQ TAPŞIRIĞI YERİNƏ YETİRİN**

**1. Mətnkənarı sualları qrupların arasında bölün. Qrupların sayı çox olarsa, iki qrup bir sualın üzərində işləyə bilər.**

**2. Suallara yığcam cavab yazın. Bədii əsərin məzmunu ilə bağlı öyrəndiklərinizdən bəhrələnin.**

| Mətnkənarı suallar | Onlara hazırlanan cavablar |
|---|---|
| | |

**3. İşin icrasına ayrılan vaxt başa çatdıqdan sonra sualların dərslikdəki cavablarını oxuyun və yazdıqlarınızla müqayisə edin.**



**4. Gəldiyiniz nəticələri və əlavə olaraq nələri öyrənməyin vacib olduğunu təqdimatlar əsasında müzakirə edin.**

**5. Şeirin ilk iki beytinin ifadəli oxusuna hazırlaşın.**

Əsər hansı mövzuda yazılmışdır?

Kəskin tənqidi məzmunu ilə seçilən “Neylərdin, ilahi?!” satirası 6 yanvar 1908-ci ildə “Molla Nəsrəddin” jurnalında çap olunmuş, böyük maraqla qarşılanmış və oxucuların arasında yayılmışdır. Sabirşünaslar insan təbiətindəki ətaləti, cəhaləti tənqid edən, cəmiyyətdəki haqsızlıqlara qarşı etiraz səsini qaldıran bu əsərin mövzusunun Azərbaycan həyatı ilə məhdudlaşmadığını göstərmişlər.

*Şeirin üzərində düşünməklə, xüsusən mənbələr üzərində işləməklə bu barədə dolğun təsəvvür qazanmaq olur.*

Satiranın ideya-məzmunu üçün daha önəmli olanlar nədir?

İnsan həyatına laqeydlik humanist şairi sarsıtdığı kimi, insan taleyi ilə amansız rəftar da onu hiddətləndirir, daha kəskin, ifşaçı əsərlər yazmağa sövq edirdi. Onun həssas qəlbini yaralayan başqa bir cəhət də vardı; o, zalımın zülmünə məzlumun dözməsi, səbirli olması ilə barışa bilmirdi. Məzlumun səbirli davranışı onun tərəfində duran şairi təbii halından çıxarırdı:

Artdıqca həyasızlıq olur el mütəhəmmil,
Hər zülmə dözən canları neylərdin, ilahi?!

Haqsızlıq və ədalətsizliklə barışmadığını heç vaxt gizlətməyən Sabir xilas yolunu milli-mənəvi oyanış və özünüdərkdə görürdü. Bu əsərində şair bəşəri dəyərlərin qoruyucusu mövqeyində dayanır. Xeyirxahlıq, ədalət carçısı olan Sabir əsərində insanlığın taleyindən narahatlığını ifadə edir, məzlumların haqqınınhüququnun müdafiəçisi kimi səsini qaldırır:

Məzlumların göz yaşı dərya olacaqmış, –
Dəryaları, ümmanları neylərdin, ilahi?!

Satirada milli və bəşəri bəlaların qovuşmuş şəkildə təqdimi humanist şairin ədalətli mövqeyinin ifadəsi idi.

Şeirdə bədiilik hansı vasitələrlə yaradılmışdır?

Əsər mükəmməl bədii keyfiyyəti ilə diqqəti cəlb edir. Şeirdəki orijinal epitet, təzad, mübaliğə və s. onun maraqla oxunmasına səbəb olan tutarlı vasitələrdəndir. Qafiyələrin (qanları, canları, ceyranları və s.), sözlərin (sidq, səfa, iş, güc və s.) uğurlu seçimi, misra daxilində məharətlə işlədilməsi şeirdə güclü ahəngin yaranmasına səbəb olmuşdur.

LAYİHƏ

Satira öz məzmununa uyğun bəhrdə – əruzun həzəc bəhrində yazılmışdır. Məlumdur ki, "*həzəc*" sözünün bir mənası da "*aramla oxumaq*" anlamındadır. "Neylərdin, ilahi?!" aramla, təmkinlə oxunur. Bu isə ideya-məzmunun başa düşülməsinə əhəmiyyətli dərəcədə təsir edir.

Aşağıdakı cədvəl şeirin ahənginin başa düşülməsini və ifadəli oxusunu asanlaşdırır.

| məfUlü | məfAİlü | məfAİlü | fəUlün |
|---|---|---|---|
| Daş qəlbli<br>Bizdə bu | insanları<br>soyuq qanları | neylərdin,<br>neylərdin, | ilahi?!<br>ilahi?! |

• EVDƏ İŞ

ARAŞDIRMANI DAVAM ETDİRİN

**1.Sinifdə öyrəndiklərinizi mənbələrdən topladığınız məlumat əsasında zənginləşdirin və tamamlayın.**

| Məlumatın əldə edildiyi mənbə | Məlumatın məzmunu və aid olduğu mətnkənarı sual |
|---|---|
| | |

**2. Araşdırma apararkən aşağıdakı sual və tapşırıqlara xüsusi diqqət yetirin:**

a) Şeirdə tənqid hədəflərinin müxtəlif olmasına səbəb, sizcə, nədir? Şair nə üçün məhz onların üzərində dayanmışdır?

b) Əsər hansı mənəvi dəyərlər haqqında daha geniş danışmağa imkan verir?

c) Məcazların obrazlılığın, bədiiliyin artmasındakı rolunu nümunələrlə əsaslandırın.

| Əsərdə işlənmiş məcazlar | Obrazlılığın, bədiiliyin artmasında onların rolunu təsdiq edən nümunələr |
|---|---|
| | |

**3. Mövzulardan birini seçib işləyin:**

a) "Sabir satiralarının tənqid hədəfləri" mövzusunda yığcam məqalə yazın.

b) "Sabirin yaradıcılığında qadın əsarətinin tənqidi" mövzusunda məruzə mətni hazırlayın.

• MƏNBƏLƏR

1. XI sinif şagirdləri üçün elektron vəsait. http://edebiyyat.ucoz.com.
2. XX əsr Azərbaycan şeiri antologiyası (1905-1920-ci illər). Bakı: Şərq-Qərb, 2005, səh. 6-8; 10-13.

LAYİHƏ



**Hüseyn Cavid**
(1882–1941)

Hüseyn Cavid nə sələflərinə, nə də xələflərinə bənzəyir. Onun sənətdə öz səsi, öz nəfəsi, öz dəsti-xətti vardır. Poeziyada da, dramaturgiyada da nə yazmışdırsa, öz vicdanının pıçıltısı ilə yazmışdır. Bütün yaradıcılığı boyu Cavid nəyi tərənnüm etmiş, nəyi axtarmışdır? Qoy bu suala yazıçının özü cavab versin: "Əsiri olduğum bir şey varsa, o da həqiqət, yenə həqiqətdir".

*Abbas Zamanov*

# HÜSEYN CAVİDİN HƏYATI, YARADICILIQ YOLU

• ARAŞDIRMAYA HAZIRLAŞIN

**1. H.Cavidin həyatı, yaradıcılığı və yaşadığı dövrlə bağlı nə bilirsiniz? Ədəbiyyat, tarix, coğrafiya dərslərində qazandığınız bilikləri xatırlayın, yığcam müzakirə aparın.**

**2. BİBÖ cədvəlinin "Bilirik" və "Bilmək istəyirik" sütunlarında müvafiq qeydlər edin.**

| Bilirik | Bilmək istəyirik | Öyrəndik |
|---|---|---|
| | | |

**3. Kiçik qruplar yaradaraq aşağıdakı tapşırıqları yerinə yetirin:**

1. Mətnkənarı suallarla bağlı cavabları oxuyun, məzmununu ümumiləşdirib bir neçə cümlə ilə yazın.

| Mətnkənarı suallar | Onların ümumiləşdirilmiş cavabı |
|---|---|
| | |

2. Digər qruplara vermək üçün mətnlə bağlı bir neçə sual müəyyənləşdirin.

| Müəyyənləşdirilmiş suallar | Onların cavabı |
|---|---|
| | |

3. Təqdimatlar etməklə gəldiyiniz nəticələrlə bağlı məlumat mübadiləsi və müzakirə aparın. Aşağıdakı fikirlərə münasibət bildirin.

– *Hüseyn Cavidin bütün yaradıcılığı ümumbəşəri məsələlərə həsr edilmişdir. O, məişət təsvirçisi deyil, o, filosof şairdir. (Əziz Şərif)*

– *Hüseyn Cavidin həyatın mənasını, insanın mənəvi-ruhi aləmini daim pak və gözəl görməyi arzulaması qüdrətli insan idealının real aləmdəki fənalıqlara qələbə çalacağına bəslədiyi tükənməz inamını ifadə edir. (Məsud Əlioğlu)*

**4. BİBÖ cədvəlinin "Öyrəndik" sütununda müvafiq qeydlər edin.**

LAYİHƏ

Yazıçının həyat və yaradıcılığında İstanbul, Tiflis və Naxçıvan ədəbi mühitlərinin hansı rolu olmuşdur?

Hüseyn Molla Abdulla oğlu Rasizadə Naxçıvanda anadan olmuşdur. O, əvvəlcə mollaxanada ərəb-fars dillərini öyrənmiş, Şərq tarixi və ədəbiyyatına dair ilkin biliklər əldə etmişdir. Sonra Naxçıvanda açılan yeni tipli "Tərbiyə" məktəbində təhsil alan H.Cavid burada dünyəvi elmlərə yiyələnmiş, məktəbin müdiri, tanınmış şair Məhəmməd Tağı Sidqinin təsiri ilə ilk şeirlərini yazmışdır. Gənc Cavid 1898–1903-cü illərdə Cənubi Azərbaycanda yaşamış, Təbrizdəki "Talibiyyə" məktəbində təhsilini davam etdirmişdir.

1906–1909-cu illərdə İstanbul Universitetində təhsil alan Cavidin dünyagörüşünün inkişafında görkəmli türk şairlərinin yaradıcılığı böyük rol oynamışdır. Tələbə ikən "İrşad" qəzetində "Növhə", "Füyuzat" dərgisində isə "Bir ahi-məzlumanə" əsərləri çap olunmuşdur. O, universiteti bitirdikdən sonra Naxçıvana qayıdaraq müəllimliklə məşğul olmuş, lirik şeirlər, "Ana" pyesini yazmışdır. 1911-ci ildən etibarən H.Cavid ədəbi-pedaqoji fəaliyyətini Tiflisdə davam etdirmiş, burada "Keçmiş günlər" adlı ilk şeir kitabını (1913) nəşr etdirmişdir.

O, 1918–1919-cu illərdə Naxçıvanda "Rüşdiyyə" məktəbində dərs demişdir. Bu dövrdə "Bahar şəbnəmləri" şeirlər kitabının çap olunması, "İblis" və "Uçurum" faciələrinin yazılması, "İblis"in tamaşaya qoyulması ədibin böyük sənət uğurları idi.

Hüseyn Cavidin sovet dövründəki fəaliyyəti hansı cəhətləri ilə səciyyələnir?

Azərbaycanda sovet hakimiyyətinin qurulmasından sonra müəllim kimi fəaliyyət göstərən H.Cavidin dram əsərlərinin nəşri, müvəffəqiyyətlə tamaşaya qoyulması ona böyük şöhrət qazandırmışdır. Bütün bunlar H.Cavidin nüfuzunu artırmaqla bərabər, sənətinə və şəxsiyyətinə paxıllıqla yanaşanların da meydana çıxmasına səbəb olmuş, dövri mətbuatda ədib haqqında haqsız tənqidi məqalələr çap olunmuşdur. Əsərlərinə ədəbi məhkəmələr qurulmuş, üzvü olduğu Yazıçılar İttifaqının yığıncaqlarında o, "burjua yazıçısı", "müasir həyatı əks etdirməyən" sənətkar kimi tənqid olunmuşdur. Bütün bunların nəticəsində H.Cavid 1937-ci ilin iyun ayında günahsız yerə həbs olunmuş, 1941-ci ildə Sibirdə həbs düşərgəsində vəfat etmişdir. Ədibə 1956-cı ildə bəraət verilmişdir. Ümummilli lider Heydər Əliyevin təşəbbüsü və köməyi ilə H.Cavidin cənazəsi 1982-ci ildə Sibirdən vətənə gətirilmiş, Naxçıvanda torpağa tapşırılmışdır.

Sənətkarın poeziyasını səciyyələndirən başlıca xüsusiyyətlər hansılardır?

Azərbaycan ədəbiyyatında romantizmin əsas yaradıcılarından olan H.Cavid həm əruz, həm də heca vəznində şeirlər yazmışdır. Humanist, işıqlı duyğular, nəcib amalla yaşayıb-yaradan H.Cavid "Mənim tanrım gözəllikdir, sevgidir" deyirdi. Bu qayə onun poema və dram əsərləri ilə yanaşı, fəlsəfi-lirik şeirlərində də öz əksini tapmışdır. Sənətkarın "Çoban türküsü", "İlk bahar" kimi şeirləri nikbinliyi, xeyirxahlığı, insana məhəbbət ruhu, yüksək sənətkarlığı ilə seçilir. "Qız məktəbində" şeiri təkcə ədibin yaradıcılığında deyil, ümumən poeziyamızda süjetli lirikanın mükəmməl nümunələrindən sayılır. Üsyankar ruhda



LAYİHƏ

yazılmış “Qadın” şeirində şair onu daim düşündürən ictimai problemdən – qadının taleyindən, mövhumatdan, cəhalətdən uzaqlaşması, qəflət yuxusundan ayılmasından söz açır, azad, bəxtiyar bir insan kimi ömür sürməsini arzulayır. “Hərb və fəlakət” əsərində ədib dünyada gücün, zorun haqqı üstələməsi ilə barışa bilmir, hərb yolunu tutanların bəşəriyyəti fəlakətə sürüklədiyini göstərir.

H.Cavidin “Bir ahi-məzlumanə” (1907), “İştə bir divanədən bir xatirə” (1912), “Hübuti-Adəm” (1913) əsərlərində epik təsvirlərdən çox, lirik-romantik düşüncələr öz əksini tapmışdır. “Azər” poemasında şairin Qərbə və Şərqə, eyni zamanda Şərq–Qərb müstəvisində Azərbaycana baxışları əks olunmuşdur.

Sənətkarın dramatik əsərlərinin mövzu, problem, konflikt özəlliyi hansılardır?

H.Cavid ədəbiyyatımızda mənzum romantik dramaturgiyanın banisidir. Ədibin ilk dram əsəri olan “Ana” (1910) mənzum faciəsinin mövzusu Dağıstan həyatından alınmışdır. “Maral” (1912) pyesi pula, sərvətə aludəçiliyin cəmiyyətdə törədə biləcəyi faciələri əks etdirir. Bakı mətbəə işçilərinin həyatından bəhs edən “Şeyda” (1916) pyesində ədibin digər dram əsərlərindən fərqli olaraq, çətin, ağır həyat tərzinin və azadlıq düşüncəsinin təqdimi ön plana çəkilmişdir. Dramaturq “Şeyx Sənan” (1914) mənzum faciəsində dini-əfsanəvi şəxsiyyət olan Şeyx Sənanın timsalında insanın mənəvi ucalığını, əsl eşqin dini etiqad üzərindəki təntənəsini, buxovları qırmaq qüdrətini əks etdirmişdir. “Uçurum” (1919) faciəsi ilə Hüseyn Cavidin yaradıcılığının birinci mərhələsi başa çatır.

Sonrakı illərdə qələmə alınmış “Peyğəmbər” və “Topal Teymur” əsərlərində tarixi şəxsiyyətlərə, tarixdən alınmış hadisələrə müraciət olunmuşdur. “Knyaz” (1929) dramında Cavid azad sevginin və pak mənəviyyatın təntənəsi motivini diqqət mərkəzinə çəkmişdir. 1932-ci ildə yazdığı “Səyavuş” faciəsində dramaturq Ə.Firdovsinin “Şahnamə” əsərinin motivlərinə müraciət edərək öz humanist düşüncələrini qələmə almışdır. H.Cavidin dramaturgiyası “Xəyyam”, “İblisin intiqamı” əsərləri ilə tamamlanır.

**• EVDƏ İŞ**

**ARAŞDIRMANI DAVAM ETDİRİN**

**1. Sinifdə öyrəndiklərinizi göstərilən mənbələrdən topladığınız məlumat əsasında zənginləşdirin və tamamlayın.**
**2. Yazılı qeydlər əsasında şifahi təqdimata hazırlaşın.**
**3. “İblis” faciəsini oxuyun, əsərin məzmunu üzrə müzakirəyə hazırlaşın.**

**• MƏNBƏLƏR**


1. Azərbaycan dramaturgiyası antologiyası. Dörd cilddə. I cild, Bakı: Şərq-Qərb, 2007, s.13-14.
2. Cavid H. Əsərləri. Beş cilddə. I cild, Bakı: Lider Nəşriyyat, 2005, səh. 7-13, 10-23.
3. XI sinif şagirdləri üçün elektron vəsait. http://edebiyyat.ucoz.com.




LAYİHƏ

**İBLİS**

Faciə – 4 pərdə

*(ixtisarla)*

• **I dərs**

• **MƏZMUN ÜZRƏ İŞ**

OXUYA HAZIRLAŞIN

**Sualların üzərində düşünün, cavablarını cədvəldə qeyd etdikdən sonra fikir mübadiləsi və müzakirə aparın.**

| Müharibələrin qarşısını almaq mümkündürmü? | Sizcə, ədalətli müharibə nədir? | Ədalətsiz müharibə nədir? |
|---|---|---|
| | | |

**1. Müstəqil oxuduğunuz əsərdən aşağıdakı parçanı nəzərdən keçirin. Tapşırıqları fərdi olaraq yerinə yetirin:**

a) Mənasını aydınlaşdırdığınız sözlərin alınma, yaxud dilimizə aid olduğunu əsaslandırın.

| Tanış olmayan sözlər | Mənası | Öz sözümüzdür | Alınma sözdür |
|---|---|---|---|
| | | | |

b) Seçdiyiniz məcazların növünü dəqiqləşdirin. Onları daha maraqlı hesab etməyinizə səbəb nədir?

| Əsərdən seçilmiş məcazlar | Onların növü | Daha maraqlı hesab etməyimin səbəbi? |
|---|---|---|
| | | |

c) Oxuduğunuz parçada diqqətinizi daha çox cəlb edən məsələləri ikihissəli gündəlikdə yazın.

| Əsərdə diqqətimi cəlb edənlər | Bunun səbəbi |
|---|---|
| | |

d) Oxuduğunuz parça hansı mənəvi dəyərlər barədə danışmağa imkan verir?

**2. Kiçik qruplarda birləşərək qənaətlərinizi bölüşün.**

**3. Təqdimatlar əsasında fikir mübadiləsi və müzakirə aparın.**

**Əşxas:**

– İ b l i s – . . .
– M ə l ə k – . . .
– İ x t i y a r ş e y x – ağsaqqal bir sövməənişin…
– X a v ə r – İxtiyarın torunu
– A r i f – pərişan saçlı, sadə geyimli bir gənc
– V a s i f – könüllü bir türk zabiti (Arifin küçük qardaşı)
– K ü ç ü k z a b i t – Vasifin arqadaşı
– R ə n a – son dərəcə gözəl bir şəfqət həmşirəsi (türk)
– İ b n Y ə m i n – qırx beş yaşında qaraşın bir ərəb zabiti
– Y a r a l ı z a b i t – rus ordusuna mənsub bir gənc
– T e y f – Rənanın məqtul babasının xəyalı
– E l x a n – zabit (əskəri qaçaq)
– Zabitlər, əskərlər, haydutlar.

## İLK PƏRDƏ

*Bağdad civarında ağaclıq, mənzərəli bir guşə... Pərdə açıldıqda Arif bir tərəfdə, taxta bir karyola üzərində əlinə təkyə edərək, uzanıb düşüncəyə dalmış, səhnə qaranlıq, ətrafda göy gurultusu, şimşək çaqışı, tranpet sədaları, top, tüfək, bomba patlayışları... Qarşıda, səhnənin nihayətində iki böyük göz (pəncərə)*

LAYİHƏ

*atəşlər, alevlər içində dəhşətli bir müharibə təsvir edər. Bir qaç zabit əldə durbin müharibə komandasilə məşğul... Gözlərin birində İblis, digərində Mələk görünür. Gurultudan sonra sükut...*

İ b l i s *(məmnun qəhqəhələrlə)*

Dəryalərə hökm etmədə tufan,
Səhraları sarsıtmada vulkan,
Sellər kibi aqmaqda qızıl qan,
Canlar yaqar, evlər yıqar insan... *(qəhqəhə)*

M ə l ə k

Ya Rəb, bu nə dəhşət, nə fəlakət?
Ya Rəb, bu nə vəhşət, nə zəlalət?
Yoq kimsədə insafü mürüvvət,
İblisəmi uymuş bəşəriyyət!?

*İblisin müstəhzi və sürəkli qəhqəhələrilə bərabər, yenə göy gurultusu, top, mitralyoz sədaları başlar. Sonra sükut...*

İ b l i s *(çılğın qəhqəhələrlə)*

Toplar veriyor aləmə dəhşət,
Dəhşət!.. Qopuyor sanki qiyamət,
Yağmur kibi göydən yağar atəş!..
Atəş!.. Qaralar, dalğalar atəş!..

M ə l ə k

Ya Rəb, azacıq lütfü inayət!
Qəhr olmada artıq bəşəriyyət.
Başdan-başa həp yer yüzü vəhşət,
İblis ilə həmrəngi-siyasət.

*Gözlər qapanır, səhnə aydınlaşır.*

A r i f *(uyqudan oyanır kibi alnını və gözlərini ovuşdurur. Yerindən qalqar, göyə doğru)*

Dünyaları yoqdan yaratan, ey ulu Tanrı!
Ey xaliqi-hikmət!
... Ey varlığı yoq, yoqluğu vardan daha dilbər!
Ruhum səni izlər.
Lütf et, o gözəl çöhrəni bir an bana göstər,
Könlüm səni özlər.
Uydum da peyğəmbərlərə, qanunə, kitabə,
Duydum yenə qəsvət.
Başdan-başa həp qəhrü qəzəb, tövbə-inabə,
Həp zəfə əlamət...
Hər fəlsəfə bir vəlvələ, həp tatlı xəyalat,
Yoq rəhbəri-vicdan;
Sənsiz doğamaz qəlbimə, vicdanıma, heyhat,
Bir şöleyi-irfan.
En, gəl bana, yaxud bəni yüksəklərə qaldır,
Gəzdir qonağında;
Yerlərdə süründüm, yetişir; göylərə qaldır,
Dindir qucağında,
Qaldır bəni, bir seyr edəyim xoşmu, gözəlmi
Cənnətdə mələklər?
Qaldır bəni, ta görməyim insandakı zülmi,
Baq, yer üzü inlər.



LAYİHƏ

Ya Rəb, bu cinayət, bu xəyanət, bu səfalət
Bulmazmı nihayət?
İnsanları xəlq etmədə var, bəlkə də, hikmət,
İblisə nə hacət!?

*Yorğun və düşüncəli bir halda iskəmləyə oturur. Dərhal səhnənin işığı azalır. İblis sürəkli və istehzalı qəhqəhələrlə yerdən – alevlər içindən çıqar. Yaldızlı və əflatuni ridasının ətəkləri hərəkət etdikcə atəşrəng sima və əlbisəsi parlar, durur.*

İ b l i s

Arif! Bana baq, sən də mi evhamə qapıldın?
Biçarə çocuq, sən də mi İblisə taqıldın?
Dahilər, ululəzm nəbilər belə bəndən
Hiç vəchlə təxlisi-giriban edəməzkən
Daim bəni təhqir edərək əylıniyorsun…
Həp söylıniyor, söylıniyor, söylıniyorsun…
Bir gün gəlir, əlbəttə, şu izan ilə sən də
Baziçə olursun qoca İblisin əlində.
İblis, o böyük qüdrət, o atəşli müəmma
Bir gün səni də kəndinə eylər kölə… amma
Heyhat, olamaz dərdinə bir kimsədən imdad,
İmdadə qoşar, qoşsa fəqət ah ilə fəryad.

*Ridasının ətəklərini Arifin yüzünə sürər, laübali qəhqəhələrlə çəkilib gedər. Səhnə aydınlaşır.*

A r i f *(şaşqın, sinirli bir tevr ilə saçlarını qarışdırır, içəri girməkdə olan İxtiyara həyəcanlı və müztərib)*

Gəl, gəl bana! Gəl, eylə bənim dərdimə çarə!

İ x t i y a r

Oğlum, mədəni aləmi nifrətlə bıraqdın,
Gəldin şu cədəlsiz, bədəvi aləmə çıqdın.
İnsandakı haqsızlığı, zülmü unut artıq,
Qəlbindəki nifrətləri, vəhşətləri yaq, yıq.
Yüz, bin deyil İblisə uyan… həp bəşəriyyət
Etmiş bu gün ev yıqmağa, qan içməyə adət.
Arif! Unut, oğlum, unut artıq, bəni dinlə,
Sən kəndini məhv eyləyəcəksin bu gedişlə.

*… Bu sırada dəhşətli göy gurultusu başlar. Gurultu ilə bərabər, İblisin qəhqəhələri eşidilir. İxtiyar məyus və düşüncəli bir halda qülbədən çıqar. Arif əli alnında olaraq gurultu və qəhqəhələri dinlər. Eyni zamanda səhnənin ışığı azalır.*

A r i f *(fəsini qoyaraq, şaşqın)*

Kimsin, nəçisin? Söylə, nədir fikrü məramın?
Nerdən gəliyorsun, nə imiş şöhrətü namın?

İ b l i s *(məğrur qəhqəhələrlə)*

Bən şimdi bir atəş, fəqət əvvəlcə mələkdim,
Həp Xaliqə təsbih idi, təhlil idi virdim,
İlk öncə mələklər bəni təqdis ediyordu,
Adəm kibi bir saygısız axır ləkə vurdu.
Alçalmadı, yüksəldi fəqət şöhrətü şanım,
Allah ilə bir zikr edilir namü nişanım.



LAYİHƏ

A r i f

Artıq yetişir, anladım, izahə nə hacət,
Qarşımdakı İblis imiş, eyvah, nə dəhşət!
Həp qəhr oluyorkən şu cihan xain əlinlə,
Bilməm nəyə gəldin, nəyə gəldin bana, söylə?!

İ b l i s

Baqdım, əziyor ruhunu həp qeydi-əsarət,
Gəldim edəyim ta səni hürriyyətə dəvət.
Baqdım, səni məhv etmədə bin dürlü xəyalət,
Gəldim verəyim qəlbinə bir nuri-həqiqət.

... A r i f

Haydı, çəkil, iştə açıq yol!..

*(Fəsini bir tərəfə atıb əsəbi hallar keçirir. Səhnə aydınlaşır.)*

X a v ə r *(gəlir, həyəcan və təlaş ilə)*

Söylə, Arif! Aman, nə oldu yenə,
Yenə kimlər göründü gözlərinə?

A r i f

Sorma, hiç sorma, nazənin Xavər,
Bəni məhv etdi iztirabü kədər. *(Onu qolları arasına alır.)*
Sən, əvət, sən də olmasan, heyhat!
Bəni bir gün boğar şu qanlı həyat.
Ah, o gözlər bilirmisin nə diyor?

X a v ə r

Nə diyor, söylə...

A r i f

Ruhu cəzb ediyor,
Söylüyor əski xatiratı bana. *(Ətrafa.)*
Sanki qarşımdadır gözəl Rəna.

*...Bu sırada İxtiyar ilə bərabər, İbn Yəmin, Rəna, zənci çavuş və bir əskər, əlində ufaq bir çanta daxil olurlar.*

A r i f *(diqqət və heyrətlə ətrafa)*

Ah, o, Rəna, nazənin afət!

X a v ə r

Yenə bir şeymi oldu, Arif?

A r i f

Əvət. *(Rənayə yaqlaşaraq)*
Söylə, Rənamı isminiz?

R ə n a *(Arifin əlini sıqar, heyrət və sevinclə)*

Arif!

İ b n Y ə m i n *(Arifi, süzər, ətrafa)*

Bizə bir əngəl olmasın şu hərif?!

A r i f

Bu gəliş, əfv edərsiniz, nerədən?

İ b n Y ə m i n *(məğrur və laübali)*

Səhneyi-hərbdən, mücadilədən.



LAYİHƏ

A r i f *(acı təbəssümlə)*
Bir fəzilətsə öldürüb-ölmək,
Canavar bizdən əşrəf olsa gərək.

... İ x t i y a r *(onun qolundan tutaraq)*
Arif, oğlum, bıraq münaqişəyi,
Gəl, işim var səninlə...

... İ b n Y ə m i n *(dışarıda pəncərə önündə, çavuşa)*
Pək düşündün, nə var?
Ç a v u ş
Bəyim, hər şey,
Bir bəla iştə gördüyün Arif,
Çünki Rənayə pək yaqın şu hərif.
Daha müdhiş bəla bizim əskər,
Qorqarım, cümlə sirri faş eylər.
Bizi görmüş də çünki Rənanın
Babasın qətl edən zaman, xain!

*Arif sağ tərəfdən daxil olur, onları dinlər.*

İ b n Y ə m i n *(qafasını oynataraq istehzalı təbəssümlə)*
Bir böyük ordu, bir yığın insan,
Bənim uğrumda oldu həp qurban.
Keyfə sərf eylədim də milyonlar,
Yenə devlətcə etibarım var.
Bən kimim, bir ərəb... nə zənn etdin?
Bir çocuqdanmı qorqar İbn Yəmin? (*Gedərlər.)*

*İşıq azalır, ağsaqallı, möhtəşəm simalı bir miralay xəyalı görünür.*

R ə n a *(şaşqın və həyəcanlı)*
Ah, babam, bir də anlı-şanlı babam!
İntiqam almadan, inan, yaşamam.

B a b a s ı n ı n x ə y a l ı *(mühib və ağır bir ahənglə)*
İntiqam! İntiqam!.. *(çəkilir.)*
A r i f
Aman, bu nə hal! ?
R ə n a
Babamın kim bulursa qatilini,
Ona bən səcdə eylərim ələni.
Bəni çöllərdə gəzdirən duyğu,
İntiqam eşqi... həp bu, yalnız bu.
A r i f
Görünür, sizcə, bəllidir qatil?
R ə n a
Xayır, əsla bilinmiyor o səfil,
Diyor İbn Yəmin: "İnan bana sən,
Bulurum nerdə olsa qatili bən".
A r i f
Bəncə, bir hiylədir bu, dinləmiyin.

*... Bu sırada Vasiflə arqadaşı küçük zabit, silahsız olaraq, yaralı bir rus zabiti gətirirlər.*



LAYİHƏ

A r i f *(Vasiflə küçük zabitə)*
Ah, nə munis, nə mərhəmətlisiniz;
Nerdə rast gəldiniz şu zabitə siz?

V a s i f
Pək yaqınlarda, yol kənarində,
Baqdıq, əhvalı xeyli pəjmürdə.

K ü ç ü k z a b i t
Bir əsir iştə, düşman olsa belə,
Yenə lazım müavinət edilə.

... K ü ç ü k z a b i t
Türk ordusu ətrafə bu gün həmlə edərkən,
İranə və ya Qafqaza imdadə gedərkən,
Rus ordusu durmaz, çəkilirkən önümüzdən,
Vasif! Nə rəvadır ki, şu parlaq günümüzdən
Feyz almayaraq biz olalım qəflətə mail,
Satmaz, satamaz milləti şəxsiyyətə aqil.

V a s i f *(ani bir düşüncədən sonra kəskin və şiddətli)*
Turana qılıcdan daha kəskin ulu qüvvət,
Yalnız mədəniyyət, mədəniyyət, mədəniyyət...

*Bu sırada səhnənin işığı azalır.*

• EVDƏ İŞ

**1. Əsərin davamını – ikinci, üçüncü, dördüncü pərdələri (burada onlardan parçalar verilmişdir) nəzərdən keçirin.**
**2. Oxuduğunuz pərdələrdə ifadə olunmuş mühüm fikirləri müəyyənləşdirməyə çalışın.**

| Oxunmuş pərdələr | Onlarda ifadə olunmuş mühüm fikirlər | Bu fikirləri mühüm hesab etməyimin səbəbi |
|---|---|---|
| II pərdə | | |
| III pərdə | | |
| IV pərdə | | |

**3. Şifahi təqdimata hazırlaşın.**

## İKİNCİ PƏRDƏ

*Ərəb zevqinə uyğun süslü bir salon... İblis xidmətçi ərəb qiyafətində ötəyi-bəriyi düzəltir. Bu sırada Arif sağ qapıdan girər. Rənanın qapıyı qapayıb getdiyini görüncə büsbütün şaşırır.*

... İ b l i s
Söylə, dərdin nədir, aydın söylə!

A r i f
Mərhəmət qıl da, aman, lütf eylə,
Söylə Rənayə ki, Arif gəlmiş.

İ b l i s
Anladım dərdini, lakin bu, zor iş...
Ona nail olur ancaq onlar
Ki, avuclar dolusu altını var.



LAYİHƏ

A r i f

Səndə yoq altın, əzizim, zira
Uymamış sərvətə könlüm əsla.

İ b l i s *(yarımqəhqəhə ilə)*

Altının yoqsa, silahın var ya,
Bəni öldür də, qavuş sonra ona.
Nəyə daldın, niçin oldun məyus?

A r i f

Çünki yoq bir şeyim, əfsus, əfsus!

İ b l i s

Bir şeyin yoqsa da, könlün var ya,
Bana ver könlünü...

A r i f *(masa üzərindəki şərab qədəhini yaqalar)*

Ah, aman! Bir içim olsun, bana su!

İ b l i s *(sürahiyi alıb qədəhi raqı ilə doldurur)*

Al, iç!

A r i f *(yarıya qədər içər. Yüz-gözünü bürüşdürür)*

Eyvah, nə dəhşət, yahu!
Su deyil, səmli bir atəşdir bu.

İ b l i s *(başqa bir şüşədən böyük bir qədəh dolusu şərab verir)*

Bu, fəqət tatlıdır, al iç!

*Rəna əlində bir qaç parça kağız daxil olur.*

İ b l i s

Şu kağızlar nə içindir, yavrum?

R ə n a

Onu bunlar edəcəkdir məhkum.

A r i f

Əcəba, kimdir o xain, miskin?

R ə n a

Səncə, pək bəlli hərif: İbn Yəmin.

A r i f

Bana ver, şimdi o azğın canavar,
Bulur, əlbəttə, cəza, qurtulamaz.

*(Kağızları alır, sürətli adımlarla gəldiyi qapıdan çıqar.)*

İ b n   Y ə m i n *(daxil olur, Rənaya)*

Get, gülüm, sonra məhəbbət edəriz.

*(Ariflə bərabər əlisilahlı iki kanun nəfəri daxil olur. Arif İbn Yəmini göstərir.)*

Tam kəndisi, iştə! Ah, qəddar!

İ b n   Y ə m i n

Lakin çəkilirmi bu həqarət? *(Silah çəkmək istər.)*

A r i f

Bəllidir etdiyin xəyanət. *(İbn Yəmini alıb götürürlər.)*

A r i f

Xain yaqalandı, ən nihayət.



LAYİHƏ

İ b l i s *(yarımqəhqəhə ilə)*
Eşq olsun, əvət, böyük məharət!
A r i f
Rəna hanı? Söylə gəlsin!
İ b l i s
Əfsus,
Bir zabitə uydu getdi...

A r i f *(sözünü kəsərək)*
Bildim, yetişir, o bəlli bir yol. *(Dərhal dışarı fırlar.)*
İ b l i s
Get, durma! *(istehzalı qəhqəhə)*
Fəqət, yazıq! Əmin ol,
Bəklər səni bir yığın cinayət,
İzlər səni bir yığın fəlakət. *(Qəhqəhə...)*

## ÜÇÜNCÜ PƏRDƏ

*Səhnə ilk pərdədə olduğu kibi ixtiyar şeyxin çardağını – qülbəsini göstərir. Şeyx dışarıda, çardağın altında təsbih çəkərək dalıb getmiş... Son bahar, öylə, sisli hava... Arif fəssiz olaraq gəlir, Xavər ona doğru qoşar, yaqlaşdığı sırada birdən-birə küskün və şaşqın bir tevr ilə ürküb geri çəkilir.*

A r i f
Xavər, bana baq, zavallı Xavər!
Bir söylə, nədir bu hali-müztər?

X a v ə r
Qoşdum sana sevdiyimdən, amma
Baqdım ki, sevilməyənlər əsla
Layiq deyil olmağa həmağuş,
Ürkdüm də, çəkildim iştə mədhuş.
A r i f
Dur, qəlbimi bir də yaqma artıq,
Arif fəqət intiharə layiq...
Bəndən babana səlam edərsin,
"Gəlmişdi də, şimdi getdi" dersin. *(Gedəcək olur.)*

X a v ə r *(bir az yaqlaşır)*
Yoq, getmə, babam gəlir bu saət,
Dur bir verəyim xəbər...*(Gedər.)*

A r i f *(cibindən yarıdolu bir raqı şişəsi çıqarır)*
Of! Qəmlərimə təsəlli ol sən,
Hər dərdi unutmaq istərim bən.
*Son damlasına qədər içib şişəyi bir tərəfə atar. Ətrafı süzdükdə gözünə ilişən tabançayı yerdən alır, qurşunlarına diqqət edər.*

A r i f *(səndələyərək)*
Gəldinmi?



LAYİHƏ

X a v ə r

Sərxoşmu, nəsin? Gəl, iştə əvvəl! Məhv et bəni, olmayım da əngəl.

A r i f *(vəhşi bir hücumla boğazından yaqalayıb boğar, İblisdə alçaq və məmnun bir qəhqəhə...)*

Al!.. İştə... budur cavabın ancaq...

*Xavər iztirab və dəhşətlər içində əbədi bir şükutə varır.*

İ x t i y a r *(gəlir, Xavərin cənazəsini görüncə)*

Ah, o nə, eyvah, nə olmuş ona?

*... (Məyus və şaşqın baqışlarla cənazəyə yaqlaşır, qollarını köksündə çapraz edər, titrək və acı bir fəryad ilə.)*

Söylə, aman, söylə, mələk Xavərim!
Kim?.. Sana kim qıydı, aman, söylə, kim?

*(Qucaqlayıb öpər. Cənazəyə acı fəryad ilə.)*

Yavrum! Aman, nazlı, mələk Xavərim...

*Pərdə*

## DÖRDÜNCÜ PƏRDƏ

*(Ormanda bir cığır... Ariflə Rəna gəlir. Kənarda ıslıq çalınır, bir qurşun atılır).*

R ə n a *(diksinir, təlaş ilə)*

Qurşun səsi!..

A r i f *(laübali qəhqəhə ilə cibindən bir revolver çıqarır)*

Hiç qorqma, yanımda həm silah var,
Həm altın... Əvət, nasıl da parlar!..

*Bir avuc altın çıqarır, əlində oynatıb cibinə qoyar. Haydutlar arqa tərəfdə, ağaclar arasında görünür. Heyrətlə onları dinlərlər.*

R ə n a

Nerdən sana anlamam şu sərvət?

A r i f *(məğrur qəhqəhə ilə)*

Bir arqadaşımdan oldu qismət,
Pəncəmdə həlak olub boğuldu,
Sərraf idi, həm də xeyli zəngin...

*Kənardan İblisin mənalı və istehzalı qəhqəhələri eşidilir.*

R ə n a

Sus, bir ləkədir bu söz səninçin;
Beş altına qarşı bunca vəhşət!?

*Haydutlar ortaya fırlar.*

B i r i n c i h a y d u t *(tüfənglə nişan alır)*

Altınları ver!..

İ k i n c i h a y d u t *(xəncərini Arifin köksünə dayar)*

Ver həpsini!



LAYİHƏ

*(Bu sırada vüqarlı, müsəlləh, zabitqılıqlı, qalın bıyıqlı, gur, qarasaqallı, zində və mühib simalı Elxan ağaclar arasından çıqar. Ətrafda iki qurşun atılır, Elxan haydutlara)*

Durmayın, haydı, bir baqın da nə var,
Bəkçilər zərrə qəflət eyləməsin.
Ələ bir av keçərsə, siz gətirin.
Bana baq, kim dökərsə haqsız qan, *(kəndinə işarətlə)*
Ən ağır bir cəza verir Elxan.

*Bu sırada gedən haydutlar iki-üç çingənə ilə İbn Yəmini silahsız olaraq gətirirlər. Elxan onu görüncə tanır. (İbn Yəminə)*

Söylə, kimsin? Adın nə?

İ b n  Y ə m i n

... İbn Yəmin.

E l x a n *(Ariflə Rənayə yarımqəhqəhə ilə)*

Bəni asdırmaq istəyən şu ləin!
İştə bir av ki, izlər avçısını.

İ b n Y ə m i n *(diz çökər)*

Aman, əfv et! Qüsurluyum, Elxan!

*(İblis ağaclar arasından çıqar).*

E l x a n

Yahu, səni kim bıraqdı?..

İ b l i s *(məğrur bir tevr ilə əlini köksünə qoyaraq)*

Kəndim!

A r i f *(Elxana)*

Bir mürşid o, sahibi-kəramət. *(İblisin əlini öpər)*
Xoş gəldin, aman, nə mutlu saət!..

E l x a n

Kimsin, əcəba, səndə ki var böylə məharət?

İ b l i s

Bən hiçlə doğan bir ulu qüvvət, ulu qüdrət,
Bir qüdrəti-külliyyə ki, aləm bana bədxah,
Dünyadə əgər varsa rəqibim, o da: Allah!.. *(qəhqəhə)*

...Bən Şərqdə abid olurum, Qərbdə rahib.
Bir qazi olub, gah edərim fitnələr icad,
Bəzən olurum bir çoban, azadə bir insan,
Bəzən olurum zülmü fəsad aşiqi sultan.

*Bu halda İxtiyar – Xavərin babası – başıaçıq olaraq pərişanhal və məcnunanə bir qiyafətdə ağacların arasından çıqar.*

İ x t i y a r *(həyəcanlı və çılğınca bir fəryad ilə)*

Ah, Xavər! Sana kim qıydı, gülüm!
Bən dururkən sana layiqmi ölüm?
Onlar, eyvah, o səfil insanlar,
Qəlbi, vicdanı sönük qaplanlar!..

E l x a n *(sözünü kəsərək)*

Söylə, aç söylə, bilinsin dərdin,
O sönük qəlbi isındırmaq için,
Nə dilərsin yaparım, etmə kədər...



LAYİHƏ

İ x t i y a r *(müztərib)*
Bana imdad edin, eyvah, imdad! Əmr edin, şimdi bulunsun cəllad!

X a v ə r i n  x ə y a l ı *(görünür və çəkilib gedər)*
İntiqam!..
İ x t i y a r
İştə o, dilbər mələyim!
Getmə, dur, bən də bərabər gələyim.

*Çılğınca qəhqəhələrlə onu izlər. İslıq səsi eşidilir. Vasif və İbn Yəminin çavuşu iki nəfər başqa haydutla gəlir.*

V a s i f *(Rənayə)*
Şu zalım xunxar,
Babanın qatili olmuş...

E l x a n *(növbətçiyə)*
Al bunu, söylətmə daha!
*(İbn Yəmin növbətçinin göstərdiyi yerdə çəkilib durur.)*

E l x a n
Hazır ol! Bir, iki, üç...
*(Nişançılar ortada sıraya duranları yaylım atəşilə qurşuna düzərlər.)*
H ə p s i
Ah, eyvah!..

E l x a n *(Vasifə, İbn Yəminin cənazəsini göstərir)*
Bana baq, izləməsəydin də dəmin,
Ələ keçməzdi, inan, İbn Yəmin.
Xeyli məmnunim, əzizim, səndən,
Söylə, yavrum, nə dilərsin bəndən?
İ b l i s *(Rənayı göstərir)*
O gözəl afətə məftun şu çocuq.

R ə n a *(Arifə)*
Sən bənim əski pərəstişkarım, *(Vasifi göstərir.)*
Bu isə ən yeni bir dildarım;
Haqqı, əfsus, edəməm bən inkar,
Çünki Tanrımla bənim əhdim var,
Bulsa hər kim babamın qatilini,
Bil ki, məmnun edər ancaq o bəni.

A r i f *(Rənayə)*
Nə demək!.. Sən bu çürük lafı bıraq!
Yoq, bu, mümkün deyil əsla, bana baq!
Bir düşün, əldə dururkən şu silah,
Böylə təhqirə dayanmam...

...A r i f *(ətrafa, təhəssür ilə)*
Ah, bir Vasifi görsəm... əfsus!.. *(Həyəcanlı və müztərib.)*
Qardaşım, sevgili Vasif, bana gəl!
Səni görsəm, bəni qorqutmaz əcəl.


LAYİHƏ

V a s i f *(ətrafa)*
Ah, fəqət,
Qardaşım Arifə qaldım həsrət. *(Yaralı bir ahənglə.)*
Nerdəsin? Gəl bana, Arif!.. Əlan
Kim bilir, bəlkə, əcəl verməz aman.
İ b l i s
Hazır ol! Bir, iki, üç... *(Silahlar açılır.)*
V a s i f *(düşər)*
Ah!..
R ə n a
Vasif! Eyvah!.. *(Cənazə üzərinə qapanıb ağlar.)*
A r i f *(şaşqın)*
Nasıl? Vasifmi?!

İ b l i s *(acı qəhqəhə ilə)*
Öylə ya, Vasif!.. O Vasif ki, səni
Eşqi yıllarca əsir etmişdi,
Sana qurban oluyor, baq, şimdi.
A r i f *(şaşırır, Vasifə yaqlaşır, dəlicəsinə tədqiq edər, son dərəcə həyəcanlı)*
Qardaşım, ah, o əvət!.. *(Qucaqlar.)*
Vasif! Oyan,
Ah, visalın nə yaman oldu, aman!
Şu vidain daha müdhiş... Vasif!
Dur, bərabər gedəlim... *(Əlindəki silah ilə intihar etmək istər.)*
R ə n a *(mane olur.)*
Of, Arif!
*(Biixtiyar silah Arifin əlindən düşər, Vasifə baqıb qorqar, geri çəkilir. İblisi sərsəmcə baqışlarla süzüb durur).*
Ü m u m (*coşqun, İblisə*)
Sənsin bu cinayətlərə bais.
Qəhr olmalı, məhv olmalı İblis!
*Hər tərəfdən hücum etmək istərlər.*
İ b l i s *(gah istehzalı və məğrur, gah çılğın və qorqunc qəhqəhələrlə)*
Bənsiz də, əmin ol, sizə rəhbərlik edən var:
Qan püskürən, ataş savuran kinli krallar,
Şahlar, ulu xaqanlar, o çılğın dərəbəglər,
Altın və qadın düşkünü divanə bəbəklər.
Bin hiylə quran tilki siyasilər, o hər an
Məzhəb çıqaran, yol ayıran xadimi-ədyan;
Onlarda bütün fitnəvü şər, zülmü xəyanət,
Onlar duruyorkən bəni təhqirə nə hacət?!
İblis nədir?
– Cümlə xəyanətlərə bais...
Ya hər kəsə xain olan insan nədir?
– İblis!..
*(Şiddətli və sürəkli qəhqəhələr içində yerin dibinə çəkilir, Arif əlilə saçlarını yaqalar və məcnunanə bir tevr ilə baqıb durur. Ətrafdakılarda da eyni şaşqınlıq davam edər).*


LAYİHƏ

• **II dərs**

• **MƏZMUN ÜZRƏ İŞ**

**1. Tapşırıqları fərdi olaraq yerinə yetirin:**

a) İkinci, üçüncü və dördüncü pərdələri nəzərdən keçirin.

b) Mənasını aydınlaşdırdığınız sözlərin alınma, yaxud dilimizə aid olduğunu əsaslandırın.

| Tanış olmayan sözlər | Mənası | Öz sözümüzdür | Alınma sözdür |
|---|---|---|---|
| | | | |

c) Seçdiyiniz məcazların növünü dəqiqləşdirin. Onları daha maraqlı hesab etməyinizə səbəb nədir?

| Əsərdən seçilmiş məcazlar | Onların növü | Daha maraqlı hesab etməyimin səbəbi? |
|---|---|---|
| | | |

d) Oxuduğunuz pərdələrdə diqqətinizi daha çox cəlb edən məsələləri ikihissəli gündəlikdə yazın.

| Əsərdə diqqətimi daha çox cəlb edənlər | Bunun səbəbi |
|---|---|
| | |

e) Suallara cavab hazırlayın:
- Arif qatilə, silah və altun hərisinə necə çevrildi?
- İblis cinayətlərin baiskarı olmadığını necə ifadə edir?
- Oxuduğunuz pərdələr hansı mənəvi dəyərlər barədə danışmağa imkan verir?

**2. Kiçik qruplarda birləşərək fikirlərinizi dəqiqləşdirib ümumiləşdirin.**

**3. Təqdimatlar etməklə yerinə yetirdiyiniz bütün işlərlə bağlı fikir mübadiləsi və müzakirə aparın.**

• **EVDƏ İŞ**

**1. İblisin son monoloqunun ifadəli oxusunu hazırlayın.**

**2. Dördüncü pərdənin məzmununu yığcam nağıl etməyə hazırlaşın.**

• **III dərs**

• **TƏHLİL ÜZRƏ İŞ**

**MƏTNİ OXUYUN. AŞAĞIDAKI TAPŞIRIQLARI YERİNƏ YETİRİN**

1. “Xarakterlər xəritəsi”ndən istifadə etməklə Arif obrazını səciyyələndirin.




2. Əsərdəki bədii təsvir və ifadə vasitələrinin rolunu izah edin.

| Bədii təsvir və ifadə vasitəsinin işləndiyi cümlə | Fikrin təsir gücünün artmasında onun rolu |
|---|---|
| | |

3. Digər bir janrla (komediya və ya dramla) müqayisə etməklə əsərin faciə janrında olduğunu əsaslandırın.

| Hansı cəhətlərinə görə müqayisə edilir? | Faciə (nümunə göstərməklə izah edin) | Komediya (dram) (nümunə göstərməklə izah edin) |
|---|---|---|
| | | |

LAYİHƏ

4. Aşağıdakı fikirlərlə tanış olun. Müzakirədə onlara münasibət bildirin.

*– İblis xəyalın məhsuludur. İnsan İblisi, bəlkə, elə ona görə yaratmışdır ki, törətdiyi qəbahətlərin, cinayətlərin müqabilində özünə bəraət qazandıra bilsin.*

*(Məsud Əlioğlu)*

*– Cavid insan naqisliyini elə başlanğıcdan insanın nəfsə qul olmasında axtarır. İblis də insanın bu naqisliyindən istifadə edir.*

*(Qara Namazov)*

5. Əsərdəki başlıca fikri – ideyanı müəyyənləşdirin. Fikrinizi əsaslandırmaq üçün əsərdən nümunələr göstərin.

| Əsərin ideyasını daha qabarıq əks etdirən misralar | Nə üçün belə düşünürsünüz? |
|---|---|
| | |

6. Kiçik qruplarda birləşərək qənaətlərinizi bölüşün.
7. Təqdimatlar əsasında fikir mübadiləsi və müzakirə aparın.

Əsərin mövzusu nədir? Faciədə diqqətə çatdırılan mənəvi dəyərlər hansılardır?

H.Cavidin yaradıcılığında "İblis" (1918) faciəsinin xüsusi yeri vardır. Görkəmli ədib bu əsərində, ilk növbədə, müharibələrin səbəblərini aydınlaşdırmağa çalışmış, insanlara ölüm, fəlakət gətirən ədalətsiz müharibələrin törətdiyi faciələri əks etdirmişdir. Mələyin müharibələrin səbəbini bəşəriyyətin İblisə uymasında, İblisin isə insanın özündə, onun mənəviyyatındakı nöqsanlarda görməsi əsərə fəlsəfi mahiyyət gətirir. Cavid bu ikili münasibəti müxtəlif xarakterli insanların və hadisələrin fonunda əsər boyu izləmiş, nəfsin, altun, qurşun hərisliyinin yaratdığı dəhşətli məqamları təsvir etməklə müharibələrə nifrət hissi aşılamışdır.

*Araşdırma əsərin mövzusu barədə dolğun cavabın hazırlanmasına imkan yaradacaqdır.*

Əsərdəki obrazların xarakter və əməlləri üçün səciyyəvi olanlar nədir?

Faciənin qəhrəmanı *Arif* ilk səhnədə həqiqət axtarışına çıxan, həyatı dərk etməyə çalışan, mənəvi saflığını qorumağa can atan bir gənc kimi diqqəti cəlb edir. Haqq-ədalət axtarışları Arifi kamil insana çevirmir. Öz nəfsinin quluna çevrilən Arif altun və qurşun sınağından çıxa bilmir, mənəviyyatındakı ciddi qüsurlar onu cinayətə sövq edir. Əsərdə diqqəti daha çox cəlb edən *İblis* mifik obrazdır. İnsanların iradəsizliyi, öz mənfi ehtiraslarının əsirinə çevrilməsi İblisi sevindirir. İblis onu şər əməllər törətməkdə günahlandıran, bütün bəlaların səbəbkarı sayan insanlarla razılaşmır, əsl təqsirkarın insanın özü olduğunu söyləyir.

Əsərdəki *İxtiyar Şeyx, Rəna, Elxan* və başqaları fəlakətləri fərqli şəkildə yaşasalar da, onların hamısı müharibələrin insanlara böyük məhrumiyyətlər gətirdiyi qənaətindədir.

Əsərdə vətənpərvər *zabit Vasif*, var-dövlət hərisliyinin qatilə çevirdiyi *İbn Yəmin* obrazları da diqqəti cəlb edir.

Əsərdə qaldırılmış problemlər və konflikt üçün özəl olan cəhətlər hansılardır? Əsərin başlıca ideyası nədir?

"İblis"də real müharibə səhnələri, gerçək döyüş vəziyyətləri yoxdur. Müharibənin ən böyük şər kimi təqdim olunduğu faciədə orduların deyil, insanların qarşılaşmasının diqqət mərkəzinə çəkilməsi ibrətamizdir. H.Cavid qanlı döyüşlərdə iştirak edən,

LAYİHƏ

böyük fəlakətlərin şahidi və iştirakçısı olan insanların taleyi timsalında müharibəyə münasibəti ön plana çıxarmışdır. Əsərdə qaldırılan problemlər sənətkarın yaşadığı dövrdə baş verən faciəli hadisələrin əks-sədasıdır. Faciədə konfliktin mənəvi aləmin müxtəlif qütbləri arasındakı ziddiyyətlər əsasında qurulması fikrin, mənanın qüvvətli və emosional ifadəsinə xidmət edir. "İblis" müharibələrin əsl mahiyyətini açıb göstərən və müharibə əleyhinə yazılmış faciədir. Dramaturq hərbə uymuş insanlığın faciəsini göstərməklə bəşəriyyəti bu dəhşətli bəladan xilas olmağa səsləyir.

Əsər hansı bədii cəhətləri ilə diqqəti daha çox cəlb edir?

"İblis" faciəsi bənzərsiz bədii sənətkarlıq xüsusiyyətlərinə malikdir. Ondakı monoloq və dialoqların dramaturqun romantik-fəlsəfi üslubunda özünəməxsus yeri var. Əsərdəki orijinal bədii təsvir və ifadə vasitələri, aforizmlər, poetik-fəlsəfi ümumiləşdirmələr obrazların xarakterini açmaqla yanaşı, fikrin hikmət tutumunu artırmışdır. Faciədə lirik ünsürlərdən geniş istifadə olunmuşdur.

• EVDƏ İŞ

ARAŞDIRMANI DAVAM ETDİRİN

**Aşağıdakı mövzulardan birini seçib təqdimata hazırlaşın:**

a) Müəllifin faciədəki qəhrəmanlara münasibəti.

b) Çağdaş şər qüvvələr haqqında düşüncələrim.

• MƏNBƏLƏR

1. Azərbaycan dramaturgiyası antologiyası. 4 cilddə. I cild. Bakı: Şərq-Qərb, 2007, s.13-14.
2. H.Cavid. Əsərləri. 5 cilddə. I cild, Bakı: Lider n., 2005, səh. 7-9, 13, 10-14, 17-23.
3. XI sinif şagirdləri üçün elektron vəsait. http://edebiyyat.ucoz.com.

## • IV dərs

• TƏTBİQ
• MÜZAKİRƏ
• YARADICI İŞ

**1. Mövzulardan birini seçib işləyin:**

a) "Arifin faciəsinin səbəbini nədə görürəm" mövzusunda inşa.

b) "Faciədəki qadın obrazları haqqında düşüncələrim" mövzusunda esse.

**2. İşin icrasına ayrılan vaxt tamamlandıqdan sonra parta yoldaşınızla yazılarınızı dəyişib oxuyun. Uğurlu saydıqlarınızı və arzunuzu – nələri artırmağı və dəyişməyi lazım bildiyinizi qeyd edin.**

**3. Təqdimatlar etməklə yazılardan nümunələri müzakirə edin.**

• EVDƏ İŞ

**Mövzulardan birini seçib işləyin:**

1. "Hüseyn Cavid romantik şair kimi" mövzusunda məruzə hazırlayın.
2. "Hüseyn Cavidin tarixi dramları" mövzusunda məqalə yazın.

LAYİHƏ



Əhməd Cavad
(1892–1937)

O, türkün başında qatılaşan dini, milli, qövmi genosidə qarşı türk birliyi ideyasının beşiyi başında duranlardan biri olub. Elə bütün bunlara görə də onu hamıdan çox təqib ediblər, “xalq düşməni”, “müsavat şairi” anlamına və obrazına tuş olan bütün zərbələr ona dəyib.

*Yaşar Qarayev*

# ƏHMƏD CAVADIN HƏYATI, YARADICILIQ YOLU

• ARAŞDIRMAYA HAZIRLAŞIN

1. **Ə.Cavad haqqında bildiklərinizi yada salıb yığcam müzakirə aparın.**
2. **Aşağıdakı qaydaya əməl etməklə mətni oxuyun:**

**a)** İlk sualı və onunla bağlı mətni oxumaq üçün iki nəfər ayrılır. Onlardan biri mətni ucadan oxuyur, oxunmuş hissə ilə bağlı ikilikdə açar sözlər müəyyənləşdirirlər.
**b)** Mətni oxumayan ikinci şagird açar sözlərdən istifadə etməklə suallar hazırlayır və onlara cavab verməyi birinci şagirdə təklif edir. Cavabların müzakirəsində bütün sinif iştirak edir.
**c)** Cütlüklər əvəzlənməklə digər mətnkənarı suallar və onların cavabları bu qayda ilə oxunub başa çatdırılır.

3. **Müzakirənin gedişində və sonda mətnə hansı məzmunda əlavələr etməyin lazım olduğunu müəyyənləşdirib bəndlər şəklində yazın.**

? Ə.Cavadın uşaqlığı, gəncliyi və yaradıcılığının ilk dövrü üçün səciyyəvi olanlar nədir?

Əhməd Məhəmməd oğlu Cavadzadə (Əhməd Cavad) Şəmkir mahalında, tanınmış ruhani ailəsində dünyaya göz açmışdır. Atasını tez itirsə də, ailə onun mükəmməl təhsil almasının qayğısına qalmışdır. Üç ilə qədər mollaxanada oxuyan Əhməd 1906–1912-ci illərdə Gəncə müsəlman ruhani seminariyasında təhsil almışdır. O, burada fars, ərəb, rus dillərini öyrənmiş, ilk şeirlərini yazmış, həmin illərdə mətbuatda çıxış etmişdir. Elmə, təhsilə ciddi münasibəti, təmkini, nəcib davranışı ilə seçilən Əhmədin “mədrəsə şeirləri” (seminariya bu adla da tanınırdı) onun sənətdə ilk addımları idi. İnadlı axtarışlar bəhrəsini verirdi; ərəb-fars sözlərinin çox işləndiyi, ənənəvi məcazlara geniş yer verilmiş şeirləri zaman keçdikcə durulaşır, onlarda xalq ədəbiyyatının təsiri aydın duyulurdu.



LAYİHƏ

Şairin Cümhuriyyət dövrü yaradıcılığı hansı cəhətləri ilə diqqəti çəkir?

Şeir aləmində Əhməd Cavad kimi tanınan gənc müəllim 1913-cü ildən pedaqoji fəaliyyətə başlamışdır. O, fasilələrlə Şəmkir, Gədəbəy, Quba qəzasında və digər bölgələrdə müəllimlik etmişdir. I Dünya müharibəsi dövründə Xeyriyyə Cəmiyyətinin nümayəndəsi kimi müxtəlif cəbhə bölgələrinə getməsi pedaqoji fəaliyyətində fasiləyə səbəb olmuşdur. Müharibədən zərər çəkmiş, ehtiyac içində olan insanlara yardım olunmasını təşkil edən Ə.Cavad müşahidə etdikləri ilə bağlı mətbuatda onlarla məqalə dərc etdirmişdir.

Şairin 1916-cı ildə çap olunan "Qoşma" adlı ilk kitabında toplanan şeirlər mövzuca fərqli olsa da, onlarda ictimai motiv, "Əhməd Cavad kədəri" güclüdür. Vətənin "məzarlıq aləminə dönməsi"nə etiraz ("Quşlara"), vətən yolunda fədakar olmağa çağırış ("Qafqazlısan, sev Qafqazı!"), dilimizin saflığının qorunması ("Dilimiz"), xalqı qəflətdə saxlayan yalançı axundların tənqidi ("Ey axund...") kimi məsələlərə kitabda geniş yer verilmişdir.

Əhməd Cavadı "cümhuriyyət nəğməkarı" adlandıranlar səhv etmirlər. Hələ 1912-ci ildə "Qafqaz könüllüləri" tərkibində İstanbula – türk qardaşlarımıza köməyə gedən şair üçün vətənin azadlığından, müstəqilliyindən uca heç nə yox idi. Cümhuriyyət dövründə qələmə aldığı əsərlərin əksəriyyəti müstəqil ölkənin tərənnümünə həsr edilmişdir. Bu əsərlərin çoxunun toplandığı "Dalğa" (1919) kitabı böyük maraqla qarşılandı. "Azərbaycan bayrağına", "Al bayraq", "Can Azərbaycan", " Qardaş" və s. dildən-dilə düşərək qısa bir zamanda bütün ölkəyə yayıldı. Dövlət himninin mətnini yazan Ə.Cavad müstəqilliyə qovuşmuş vətənimizi tərənnüm etməkdən, sevincini dilə gətirməkdən usanmırdı:

Torpağına can demişəm,
Suyuna mərcan demişəm,
Canımı qurban demişəm.
Gəlib qızıl vaxtın sənin,
Açılıbdır baxtın sənin!

Şairin doğma vətəninə, onun bənzərsiz təbii gözəlliklərinə, saf məhəbbətin tərənnümünə həsr etdiyi şeirləri oxuculara sevdirən cəhətlər çoxdur. Dilinin aydınlığı, canlı danışıq dili ilə yaxından səsləşməsi, təbii, səmimi hislərin böyük ustalıqla ifadə edilməsi bu əsərlərin hamısı üçün səciyyəvidir:

Mən hey göyə baxdım, göy mənə baxdı,
Yollara baxmaqdan gözlərim axdı.
Şimşək oldu, ancaq bir kərə çaxdı,
Baxdı qurbanına qurban olduğum.

Demokratik Cümhuriyyətin süqutundan sonra şairin həyatında və yaradıcılığında hansı dəyişikliklər baş verdi?

Azərbaycan Xalq Cümhuriyyətinin süqutu şairi sarsıtmış, yaradıcılığına əhəmiyyətli təsir etmişdir. O, ömrünün sonuna kimi ölkəsinin əsir vəziyyətini gah açıq şəkildə, gah da rəmzlərlə, mətnaltı mənalarla ifadə etməkdən çəkinmədi. Bu illər ərzində onun "könül rübabı" kədərə bürünür, nisgil dolu misraların əks olunduğu şeirlərinin ("Nə yazım?", "Unudulmuş sevda", "Olsun qoy" və s.) sayı çoxalır...

O, pedaqoji fəaliyyətə qayıdır, bir müddət (1920-ci ilin oktyabrından 1922-ci ilin yayına kimi) Qusarın Xuluq kəndində müəllim işləyir. 1922–1926-cı illərdə



LAYİHƏ

Pedaqoji İnstitutda təhsil alan Ə.Cavad burada oxuduğu müddətdə müxtəlif sahələrdə (texnikumda müəllim, jurnalda məsul katib) çalışır. 1930–1935-ci illərdə Kənd Təsərrüfatı İnstitutunda işləyən şair 1934-cü ildə Azərbaycan Yazıçılar İttifaqına üzv qəbul edilir, 1935-ci ildə isə "Azərnəşr"in bədii şöbəsində redaktor vəzifəsində fəaliyyətə başlayır. O, əvvəllər də məşğul olduğu tərcüməçilik fəaliyyətini genişləndirir, müxtəlif xalqların ədəbiyyatından (V.Şekspirin "Otello", A.Puşkinin "Kapitan qızı", "Tunc atlı", F.Rablenin "Qarqantua və Pantaqruel" və s.) uğurlu tərcümələr edir.

Sovet rejimi, qırmızı terror "cümhuriyyət şairi"ni, "köhnə müsavatçı"nı, türk xalqlarının birliyini, əlbir olmasını təbliğ edən nüfuzlu şəxsi bağışlaya bilməzdi. Ə.Cavad 1920-ci illərin ortalarından başlayaraq, xüsusi orqanların təqiblərinə məruz qalır. Qələm "dostları" onun hər şeirində, misrasında yeni quruluşun əleyhinə işarələr axtarır, sayı bilinməyən müzakirələr keçirir, böhtan, ittiham dolu yazılar çap etdirirlər. "Sosializm quruculuğunu tərənnüm edən" əsərlər yazmamaqda günahlandırılan şairin bu məzmunda qələmə aldıqları da ("Pambıq dastanı", "Kür" və s.) kəskin tənqid edilir, ona bəslənilən düşmən münasibət dəyişmir. 1920-ci illərdə müxtəlif bəhanələrlə bir neçə dəfə həbs edilən şair 1937-ci ilin iyun ayında həbsxanaya atılır, kiçik rütbəli rus və erməni zabitləri tərəfindən dəhşətli işgəncələrə məruz qalır. Vətənini, millətini sonsuz məhəbbətlə sevən şair həmin ilin oktyabr ayında "xalq düşməni" kimi məhv edildi. Onun həyat yoldaşı Şükriyyə xanım sürgün edildi, kiçikyaşlı övladlarını bir-birindən ayırıb müxtəlif uşaq evlərinə göndərdilər. Adının çəkilməsi, əsərlərinin oxunması və saxlanılması vətənində yasaq edilən Ə.Cavada Türkiyə sahib çıxdı; əsərləri çap edildi, yaradıcılığı ilə bağlı tədqiqat aparıldı, şeirləri dildən-dilə gəzdi. Məşhur "Çırpınırdı Qara dəniz" şeiri Türkiyədə bu gün də milli marş kimi səsləndirilir və sevilir.

**• EVDƏ İŞ**

**ARAŞDIRMANI DAVAM ETDİRİN**

1. **Sinifdə öyrəndiklərinizi göstərilən mənbələrdən topladığınız məlumat əsasında zənginləşdirin və tamamlayın.**
2. **Araşdırma apararkən aşağıdakı sual və tapşırıqların cavablarını geniş əhatə etməyə çalışın:**
   a) Ə.Cavadın Xeyriyyə Cəmiyyətinin nümayəndəsi kimi cəbhə bölgələrindəki fəaliyyəti nədən ibarət olmuşdur? Bu fəaliyyətin əhəmiyyəti nə idi?
   b) Şairin "Qoşma" adlı kitabında toplanmış ictimai məzmunlu şeirləri müəyyənləşdirin. Onlarda, başlıca olaraq, nədən danışılır?

| "Qoşma"dakı ictimai məzmunlu şeirlər | Bu şeirlərdə əks olunmuş əsas məsələlər |
|---|---|
| | |

   c) Şairin "Dalğa" adlı kitabındakı müstəqillik, milli azadlıqla bağlı şeirlərini müəyyənləşdirin. Onların ideya-məzmunu arasında hansı oxşar cəhətlər vardır?

| № | Müqayisə olunanlar | Onların oxşar cəhətləri | | | |
|---|---|---|---|---|---|
| | | | | | |
| | | | | | |

3. **Yazılı qeydlər əsasında təqdimata hazırlaşın.**

**• MƏNBƏLƏR**


1. XI sinif şagirdləri üçün elektron vəsait. http://edebiyyat.ucoz.com.
2. Ə.Cavad. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2005, səh. 4-9.


LAYİHƏ

## SƏSLİ QIZ

*(ixtisarla)*

• I dərs

• MƏZMUN ÜZRƏ İŞ

OXUYA HAZIRLAŞIN

**Sualın üzərində düşünün, cavabını cədvəldə qeyd etdikdən sonra fikir mübadiləsi və müzakirə aparın.**

– Müharibə hansı faciələrə səbəb olur?

| Haqqında məlumatım olan müharibələr | Onların törətdiyi faciələr barədə bildiklərim |
|---|---|
| | |

– Kimlər müharibə qurbanları sayılır?

| Kimlərə müharibə qurbanları deyilir? |
|---|
| |

– Müharibə dövründə mülki əhalinin hansı hüquqları qorunmalıdır?

| Müharibə dövründə mülki əhalinin hansı hüquqları var? |
|---|
| |

**Aşağıdakı qaydalara əməl etməklə əsərdən verilmiş hissəni oxuyun.**

I

1) Müəyyənləşdirilmiş cütlərdən biri ilk parçanı ucadan oxuyur və yoldaşının mətnlə bağlı suallarına cavab verir. Ortaq qərara gəlincəyə qədər cavablar müzakirə olunur.
2) Cütlər rollarını dəyişir: Sual verən ikinci parçanı ucadan oxuyur, ilk parçanı oxuyan isə suallar verir. Cütlər ortaq qərara gəlincəyə qədər cavablar müzakirə edilir.
3) Bütün parçalar bu qayda ilə oxunub başa çatdırıldıqdan sonra kiçik qruplar yaradılır, hər parça üzrə səsləndirilmiş suallar və onların cavabları ilə bağlı fikir mübadiləsi aparılır, çıxarılmış nəticələr müzakirə edilir.

II

– Əsərdə əksini tapmış milli-mənəvi və bəşəri dəyərləri müəyyənləşdirin. Fikrinizi nümunələrlə əsaslandırın.

| Əsərdə əksini tapmış milli-mənəvi və bəşəri dəyərlər | Bunları təsdiq edən nümunələr |
|---|---|
| | |

I

Oxudum tarixlərdə:
Qan içən bir hökmdar
Bir ölkəni amansız
Eyləmişdir tarimar.
Altı aydan çox sürən
Qanlı bir mühasirə,
Tutulmuşdu çox acı
Basqına birdən-birə:
Yüz minlərlə atılan
Can yağısı oxları
Dişlərilə çeynəyib,
Sərilmişdi çoxları.
Doğranmış əllərində
Qırıq qılınc qəbzəsi,
Boğulmuşdu köysündə
İgidlərin son səsi.
Yurdunu verməyənlər
Doğranmışdı xınchaxınc.
Tökülmüşdü yerlərə
Dağ kimi qalxan, qılınc.
O yanda qanlı gövdə,
Bu yanda gövdəsiz baş...
Yüz minlərlə qız-qadın
Dağılmışdı düzlərə.
Ölüm rəngi çökmüşdü
Saralan üz-gözlərə,
Cənnət kimi bir ölkə
Məzarlığa dönmüşdü.
Bir çox evlər yıxılıb,
Xanimanlar sönmüşdü.
İşlənməmiş qalmadı
Bir cinayət, bir günah.
Əzmişdi insanlığı
Ordusuyla padişah.
Haqsızlıq oldu qanun,
Yıxıldı xanimanlar...
Əsgərsiz komandalar
Qırıb atdı yayını.
Fələk döndərdi zəhrə
Bu ölkənin payını.
Gülmək zatən yox idi,
Ağlamaq oldu yasaq.
Zavallı məğlub ölkə
Sənə nə hüquq, nə haqq!..

II

Ertəsi gün çox erkən
Yuyuldu qaldırımlar.
Haqqı yoxdu kimsənin
Söz deyib, dərd açmaya.
Qan içən padişaha
Hazırlandı istiqbal:



LAYİHƏ

Şallaqla güldürüldü
Hıçqırıqlı bir diyar.
Yuyuldu divarlara
Sıçramış qan ləkəsi.
Vay səsi susduruldu,
Əmr edildi toy səsi.

Bəzənib çıxmalıydı
Gələnlər ağlaşmaya.
Döndü, oldu qəhqəhə
Qan qusan hıçqırıqlar.
Çiçək səpəcək oldu
Bütün qəlbiqırıqlar.

– Çıxmalısan qarşıya
İstəyir öl, istər qal!..
Elə bil olmamışdı
Dünənki keşməkeş də.
Çıxdı güləş üzüylə
O bəxtəvər günəş də...

**III**

Bütün şəhər silkinib...
Əsər qoymadı pasdan,
Dünənki matəm hanı?
Doğrudan, çıxdı yasdan.
Düşmən şahın gəlişi
Qanuni bayram oldu.
Bir çox dərdli ürəklər
Qanlı sevinclə doldu.
Qəribədir bu insan;
Al əlindən canını,
İstəyirsən ovucla
Hortlat axan qanını,

Qoparıb əz qəlbini,
Əylən çırpınmasilə,
Sürükləyib yerlərdə
Beyninin bağasilə,
Heç baxma istəyirsən,
Saflığa, günaha əs,
Bir yırtıcı cəllad ol,
Doğra parça-parça, kəs,
Qadınsa, tut, boğ onun
Qan qusan fəryadını,
Qoy çıxarsın yadından
Sevdiyinin adını;

Qızsa, atın döşündə
Ləhlət gün qızmarında.
Gəlinsə, hərraca qoy
Əsirlər bazarında.
Sonra çəkil, uzaqdan
Məğrur baxışla bir bax!
Görəcəksən ölənlər
Baldırında bağırsaq:
Sənin qanlı əlində
Bitməz qüvvət var deyə,
Hazırdır bağışlayıb
Dadsız-dadsız gülməyə...

**IV**

Hazırlandı baş keşiş,
Meçid həyətində də
Eyni ilə canlandı iş:
Danışdı şişman xoca
Üç saatdan yuxarı,
Hazır qıldı beyətə
Mömin müsəlmanları.
Xaçilə keşiş çıxdı
Müshəfilə şeyxana;
Çıxdılar istiqbala
Xaçla məshəf yan-yana...
Qarnı tox tacirbaşı
Dingildəyib gedirdi
Şeyxlərlə yanaşı.
İnsan əlindən yerə
Düşməzdi iynə atsan,

Yalnız küçələr deyil,
Evlər gətirdi insan.
Dırmaşmışdı uşaqlar
Mazqallı divarlara.
Boylanıb dururlardı
Ürkək, zəif, avara!..
Dam üstündə qızların
Solğun dodaqlarında,
Boylanan gəlinlərin
İslaq yanaqlarında
Solan hüznün yerində
İndi vardır bir maraq.
Nə çiçəklər yetirir
Bu qan qoxulu torpaq!
Sayılırkən əvvəldən
Bir ölkənin pənahı,

Qarışmışdı xalqına
Ölkənin məğlub şahı.
Şahın bu gün ağır daş
Asılmışdı boynundan,
Çıxmayırdı əlləri
Xələtinin qoynundan.
Keçən gündə edərkən
Allahlıq iddiası,
İndi bu son cəlala
Kəsildi, durdu asi.
Gir yerə, ey padişah!
Sənin bu boş başından
Nələr çəkdi məmləkət
Bir soruş göz yaşından.

**V**

Açıldı bayraqlar, çalındı boru,
Fələk görməmişdi bu vurhavuru.
Toz ərşə dayandı, göy dumanlandı,
Torpaq şaxa qalxdı, toz da canlandı.
Qıvrıla-qıvrıla boz bir əjdaha
Gəlirdi salama büzülmüş şaha...
Qaçdı məğlub şahın bəti-bənizi,
Coşdu, dalğalandı insan dənizi.
İstidən bayıla, tərdən boğula
Birdən bütün başlar çevrildi yola,
Gözlər qıyılaraq qaşlar çatıldı,
Qələnin bürcündən toplar atıldı...



LAYİHƏ

**• EVDƏ İŞ**

**1. Əsərin davamını oxuyun, hər parçadakı əsas fikirləri ümumiləşdirib bir neçə cümlə ilə yazmağa çalışın.**

| № | Oxunmuş parçalar | Onlardakı əsas fikirlər |
|---|---|---|
| | | |

**2. Tanış olmayan sözlərin mənasını aydınlaşdırın.**

**3. Mənasını aydınlaşdırdığınız sözlərin (beşdən az olmayaraq) alınma, yaxud dilimizə aid olduqlarını əsaslandırın.**

| Tanış olmayan sözlər | Mənası | Öz sözümüzdür | Alınma sözdür |
|---|---|---|---|
| | | | |

**4. Daha maraqlı hesab etdiyiniz məcazları yazın.**

| Maraqlı hesab etdiyim məcazlar və onların növü | Bu məcazları maraqlı hesab etməyimə səbəb nədir? |
|---|---|
| | |

**5. Şifahi təqdimata hazırlaşın.**

**I**

Nədənsə, qatilləri
Boğmayırmış göz yaşı…
Gəldi uğursuz Xaqan,
Əyildi xalqın başı;
Baxaraq azğın-azğın
Qan daman gözlərilə
Ürəkdən məğlub şahın
Əyləndi sözlərilə.
Qalxdı başlar səcdədən,
Başladı çirkin hesab:
Dodaqlar üzəngidə,
Öpüldü çaxçur, corab.
Samur kürkün ətəyi
Öpüldükcə marçamarç
Ayini təqdis etdi
Məshəf ilə qızıl xaç…
Ağsaqqallı bir qoca
Bir ehtişam əsiri,

Uğursuz hökmdarın
Beş tuğlu baş vəziri
Yetirdi məğlub şaha
Buyruğunu xaqanın:
"Malın, mülkün bizimdir,
Amanda ancaq canın.
Qarşı çıxdın xaqana,
Tutmadı, söndü baxtın,
Qılınc çaldıq, qazandıq,
Bizimdir tac və taxtın".
"Yaşasın" bağırtısı
Qopunca hər bir yandan
Hərəkət əmri verdi
Lələkli baş komandan…
Beləcə əski parça
Bir çırtmayla atıldı;
Bütün bu ölkə xalqı
Çox ucuza satıldı…

Yoxsullar boğularkən
Bu qanlı, yaslı vayda,
Xaqan dalmışdı eyşə
Bağlardakı sarayda.
Mərmər sütunlu qəsrin
Sarmaşıqlı eyvanı
Çıraqlarla bəzənmiş,
Nurladırdı hər yanı.
Çiçəkli köşkü axşam
Bəzətmişdi əski şah.
Xaqan demişdi: "İndi
Kef etməmək bir günah.
Mənim sadiq vəzirim,
Gəl, gəl, baxaq hesaba;
Vəzirimin saqqalı
Boyansın bir şəraba!"

**II**

… Göstərdilər xaqana
Kəsmə telli bir qızı,
Dedilər ki, " bu Sara –
Ölkəmizin ulduzu".
Fərqi yox, qoy süzülsün,
Baxsın belə dərindən,
Nə anlar sərxoş baxış
Saranın gözlərindən!
Kim ki Saranı gördü,

Çəkdi xeyli yanıq ah.
Bir şey qanmadı ondan
O qəlbi kor padişah…
Parlayan aləmləri
Anlarmı qan içənlər?!
Nə bilir çiçək nədir,
Kor gəlib, kor keçənlər?!.
"Oxusun!" – əmri çıxdı.
Sara coşdu bir daha.

Can verən sərxoş gecə
Ölürkən yorğun, əzgin,
Coşdu qızın səsində
Ölkədə qaynayan kin.
Boş yerə bir ölkənin
Haqsızca axan qanı
Saranın dodağında
Canlandı, oldu mahnı:

**III**

**Şərqi**

Mən ki səndən doymamışdım,
Quş qonmağa qoymamışdım,
Bir almanı soymamışdım,
Kim sənə kəc baxdı, bağlar?!.

Dargınam mən belə baxta,
Ürəyim qan laxta-laxta.
Bax ki kimlər çıxdı taxta,
Küsdü kimin baxtı, bağlar!

Çıxmamış gün, atmamış dan,
Qanlı bir toz qalxdı yoldan.
Qoç igidlər oldu qoldan,
Qanlı kəfən taxdı, bağlar!

LAYİHƏ

**IV**

... Sara susunca, xaqan
Xırlayıb bağırdı: "Hey,
Mən Saranın əlindən
İstərəm bir qədəh mey!.."
Bir oxla ayrılmışdı
Sara nişanlısından.
Düşündü: "İntiqam al
Gəl onun qanlısından".
Arqunu görməmişdi
Son nəfəsdə gülərkən.
İndi görmək istədi
Cəlladını ölərkən.
Fırlatdı bir qəhqəhə,
Çılğınca qalxdı birdən:

"Arqun, sən olmadıqda
Yaşayaram necə mən?!
Arqun, yetiş, hardasan?
Qaldır mənim qolumdan.
Qurtarım öz yurdumu
Həqarətdən, zülümdən!"
... Sara süzdü bir daha,
Əlində gülgün qədəh.
Rəqqasələr də qalxıb
Başlayınca süzməyə;
İti bir hərəkətlə
Zəhər qatdı qız meyə.
İndi onun halını
Gücdür gətirmək dilə;

Ürək çırpıntısından
Çapqınlandı mey belə.
Qadınlıq qorxusundan
Yarıldı gülgün dodaq,
Yanaşdı titrəyişlə
Düşmən şaha bir sayaq;
Qansız dodaqlarilə
Öpdü şahın əlindən.
"Buyursun padişahım!"
Zorla çıxdı dilindən:
– Sən çoxdan içməliydin
Bu gülgün zəhri, ey şah.
Şahmarı sağ buraxmaq,
Öldürməmək bir günah!

**V**

... Şahı ölmüş görəndə
Açılan gülgün səhər,
Qarışdı məclis bütün,
Qaçışdı rəqqasələr.
... Ayaqlandı bütün xalq –

Arvad, uşaq, qocalar...
Çarpışdı son gücüylə,
Düşmən oldu tari-mar
Bir qızın hümmətilə...
Gözəl qız, həmin ölkə

Dustaqdan azad oldu.
Sara adı xalq üçün
Ən sevimli ad oldu...

**VI**

"Azadlıq" eşidincə
Gülümsəmə belə şad;
Saranın məmləkəti
Köhnə mənada azad.
Orda hər şey asılı
Qan içən bir kraldan,
Sor orda hürriyyəti
Baftalı generaldan.
Yoxsullar o ölkədə
Özgəyə can verməbdə.
Hürriyyətin barını
Tox qarınlar dərmədə.
Sən ancaq istibdadın

Eşitmişsən adını;
Bax, alnımda izi var
Görmüşəm mən dadını.
Bir bu süzgün baxışla
Gün düşən dağlara bax:
Mən bu yaşıl dağlardan
İllərcə düşdüm iraq!
... O qanlı günlər hara,
Bugünkü günlər hara.
Gözəl qız, yaxşı vaxtda
Başladın gül açmağa;
Bu gün sənin yurdunda
Nə qul vardır, nə ağa!

Sən bu sərbəst göylərin
Sərbəstcə ulduzusan.
Qayğısız bir ölkənin
Qayğı bilməz qızısan.
Sərbəstdir alnındakı
Qıvrıcıq tellərin də.
Sərbəstdir sənin kimi
Gün görmüş ellərin də.
Elə isə bir də coş,
Səsin düşsün dağlara.
Sən kimdən çəkinirsən?
Qız hara, susmaq hara?

**• II dərs**

**• MƏZMUN ÜZRƏ İŞ**

1. **Kiçik qruplarda birləşərək evdə oxuduğunuz parçalardakı əsas fikir, tanış olmayan söz və məcazlarla bağlı qənaətlərinizi müzakirə edin.**
2. **Gəldiyiniz nəticə barədə təqdimatlar əsasında fikir mübadiləsi və müzakirə aparın.**
3. **Müzakirədə aşağıdakı sualları ətraflı əhatə etməyə çalışın:**
   a) Məğlub ölkənin varlı adamları, din xadimləri qalib şahı necə qarşılayır? Şairin bu adamlara, qarşılanma mərasiminə, ümumiyyətlə, təsvir olunanlara münasibəti əsərdə öz əksini necə tapıb?

| Yüksək təbəqə nümayəndələri qalib şahı necə qarşılayır? | Müəllifin onlara və hadisələrə münasibətini əks etdirən nümunələr |
|---|---|
| | |

   b) Saranın oxuduğu mahnıda hansı fikir daha qabarıq ifadə olunub?
   c) Sara intiqam barədə düşünməyə bilərdimi?
   d) Saranın yaşadığı ölkəni şair nə üçün "köhnə mənada azad" hesab edir?
4. **Oxuduğunuz hissədən seçdiyiniz parçanın məzmununu hazırladığınız plan əsasında iki formada – geniş və yaradıcı nağıl etməyə hazırlaşın.**

LAYİHƏ

**• EVDƏ İŞ**

**1. İlkin təəssüratınıza əsasən poemadakı obrazlardan birinin xarakter və əməllərindəki başlıca cəhətləri müəyyənləşdirin.**




**2. Şeirlə bağlı hiss və düşüncələrinizi ikihissəli gündəlikdə yazın.**

| Əsərdə diqqətimi daha çox cəlb edənlər | Bunun səbəbi |
|---|---|
| | |

**3. Mənasını aydınlaşdırdığınız sözlərin (beşdən az olmayaraq) alınma, yaxud öz sözlərimiz olduğunu əsaslandırın.**

| Tanış olmayan sözlər | Mənası | Öz sözümüzdür | Alınma sözdür |
|---|---|---|---|
| | | | |

## • III dərs

**• TƏHLİL ÜZRƏ İŞ**

**Aşağıdakı qaydaya əməl etməklə mətni oxuyun:**

a) Bir nəfər ilk mətnkənarı sualın cavabını – dərslikdəki mətni aramla oxuyur.
b) O, mətndəki əsas fikri bir neçə cümlə ilə ifadə edir – ümumiləşdirir.
c) Sonra şagirdlərə mətnlə bağlı suallar verir.
d) Suallar əsasında aparılan müzakirədə çətin, izahına ehtiyac duyulan məsələlərə aydınlıq gətirilir.
e) Sonda mətnə hansı məzmunda əlavələrin edilməsinin vacib olması barədə nəticə çıxarılır və bəndlərlə yazılır.
f) Digər mətnkənarı suallarla bağlı cavabların – mətnin oxusu da bu qayda ilə həyata keçirilir.
g) İşin yekunlaşdırılması və nəticənin çıxarılması üzrə təqdimatlar dinlənilir və müzakirə edilir.

> Əsər hansı mövzuda yazılıb? Şairin bu mövzuya müraciət etməsinə səbəb, sizcə, nədir?

Əhməd Cavadın irihəcmli əsərlərindən olan “Səsli qız” poemasında toxunulan məsələlər çoxdur: vətənə məhəbbət, azad, müstəqil yaşamağın ölkə və vətəndaş üçün hər şeydən vacib olması, işğalçılara dərin nifrət və s. əsərin hər səhifəsində diqqəti cəlb edir. Ə.Cavadın bir vətəndaş və şair kimi milli azadlığa böyük önəm verdiyi də məlumdur. *Poemaya bir daha müraciət etməklə, mənbələr üzrə işləməklə bu deyilənləri zənginləşdirmək, suallara ətraflı cavab hazırlamaq mümkündür.*

> Poemadakı obrazlar hansı səciyyəvi xüsusiyyətləri ilə seçilirlər?

Əsərdə epik təsvirlərə geniş yer verilsə də, yaddaqalan insan obrazları da yaradılmışdır. Bu obrazların əksəriyyətinin iç dünyası, portreti bir neçə kəlmə ilə ifadə edilmişdir. Bu, eləcə də əsərdəki yığcam təsvirlər obrazlar barədə dolğun təsəvvürün qazanılmasına imkan verir. Oxucunun diqqətini daha çox cəlb edən obraz isə poemanın baş qəhrəmanı olan *Saradır*. Əsərin ilk səhifələrini baş qəhrəmanın şərəfinə yazılmış mədhiyyə adlandırmaq olar:

Sənin səsin, gözəl qız,
Səslərin ən gözəli.
Eşitmədim belə səs
Dünyanı dinləyəli...

LAYİHƏ

Əsərin sonrakı səhifələrindən məlum olur ki, bu səsin sahibi Sara həm də vətənini dərin məhəbbətlə sevən, xalqının azadlığı uğrunda həyatını qurban verməyə hazır olan cəsarətli qızdır. Düşmənə yararlanan yaltaq həmyerliləri onu kef məclisinə gətirir və qalib hökmdara "ölkəmizin ulduzu" adı ilə təqdim edirlər. İşğal olunmuş ölkədə baş verən qırğın, dağıntı bu qeyrətli qızı sarsıtmışdır. Dodaqlarının qanı qaçan, solğunbənizli Sara yas içindədir. Rəqs etməyə məcbur edilən Saraya həm də mahnı oxumaq əmri verilir. Sara oxuyur, onun səsində "ölkədə qaynayan kin", mahnının sözlərində isə doğma yurda dərin məhəbbət əksini tapır.

Saranın qaniçən hökmdarı zəhərləyərək öldürməsi ümumxalq üsyanının başlanmasına, nəticədə ölkənin işğaldan azad edilməsinə səbəb olur.

Qalib *hökmdar* obrazı poemada az görünsə də, oxucu onu qədərincə tanıya bilir. Qanlı əməlləri onun haqqında ətraflı təsəvvür yaradır. İşğal etdiyi ölkənin əhalisini qılıncdan keçirən xaqan yas içində olan yerli adamları ertəsi gün bayram keçirməyə məcbur edir. Poemadakı təsvir və işarələr bu obrazı əhatəli təhlil etməyə, müəllifin ona münasibətini aydınlaşdırmağa imkan verir.

Məğlub ölkənin hökmdarı, varlı adamları, din xadimləri barədə poemada deyilənlər onların xarakteri, əməlləri üçün səciyyəvi olanları müəyyənləşdirməyə və qiymətləndirməyə imkan yaradır.

Bitkin kompozisiyası, maraqlı süjet xətti olan poema orijinal məcazları, dilinin aydınlığı ilə diqqəti cəlb edir. Səsli qıza – Saraya müraciətlə deyilənlərin əks olunduğu ilk səhifələri poemanın *proloqu* saymaq olar. Bunun ardınca əsas hadisənin təsviri başlanır. Bir-biri ilə bağlı olan təsvirlər oxucunu sonadək gərgin vəziyyətdə, intizarda saxlayır.

Əsər hansı bədii xüsusiyyətləri ilə diqqəti cəlb edir?

Əsərdə obrazlılığın təmin edilməsində məcazların xüsusi rolu vardır. Saranın qeyri-adi səsini "büllur kimi səs", ölkənin ağır vəziyyətini "qanlı mühasirə", "hıçqırıqlı diyar" şəklində ifadə edən şair məcazlardan ardıcıl istifadə etməklə əsərin bədiiliyinin birə-beş artmasına nail olmuşdur.

Poemada bədiiliyin, obrazlılığın qüvvətlənməsinə əhəmiyyətli təsir edən vasitələrdən biri də sözdən məharətlə istifadə edilməsi, yığcam ifadələr işlətməklə təsvir obyekti barədə zəngin təsəvvürün yaradılmasıdır.

*Əsəri bir daha nəzərdən keçirməklə, mənbələri araşdırmaqla bütün bu deyilənləri nümunələr əsasında geniş şərh etmək mümkündür.*

Poema ideya-məzmununa görə zəngindir: vətənin düşmən hücumundan müdafiə edilməsinin vətəndaşın şərəf işi olması; ölkənin müstəqilliyini, xalqın azadlığını heç nə ilə əvəz etməyin mümkün olmaması; "insanlığın əzilməsinin", insanın qəddarlıqla məhv edilməsinin yolverilməzliyi və s.

Əsərin ideyası nədir?

*Bu deyilənləri diqqət mərkəzində saxlamaqla mənbələrin araşdırılması, poemanın bir daha nəzərdən keçirilməsi əsərin ideyasının əhatəli şərh edilməsinə imkan verir.*

LAYİHƏ

**• EVDƏ İŞ**

**ARAŞDIRMANI DAVAM ETDİRİN**

**1. Sinifdə öyrəndiklərinizi göstərilən mənbələrdən topladığınız məlumat əsasında zənginləşdirin və tamamlayın.**

| Məlumatın əldə edildiyi mənbə | Məlumatın məzmunu və aid olduğu mətnkənarı sual |
|---|---|
| | |

**2. Araşdırma apararkən aşağıdakı sual və tapşırıqların cavablarını geniş əhatə etməyə çalışın:**

a) Döyüşün getdiyi ərazini, məğlub olmuş şəhərin və əhalinin vəziyyətini ətraflı şərh etməkdə şairin məqsədi nədir? Fikrinizi təsdiq edən nümunələr göstərin.

b) Saranın cəsarətli addım atmasının əsl səbəbi, sizcə, nədir?

c) Əsərdəki hökmdar obrazlarının oxşar və fərqli cəhətlərini müəyyənləşdirin. Poemadan nümunələr göstərin.

| Müqayisə olunanlar | Müqayisə üçün əsaslar | | | |
|---|---|---|---|---|
| | | | | |
| | | | | |

d) Müəllifin güc və qəddarlığın qarşısında aciz qalmış insanın davranışı barədəki fikrini necə dəyərləndirirsiniz?

| Müəllifin mövqeyi | Müəllifin mövqeyi barədə fikrim |
|---|---|
| | |

e) Əsərdəki bədiiliyin, obrazlılığın artmasında məcazların rolu nədən ibarətdir? Fikrinizi nümunələrlə əsaslandırın.

| Əsərdə işlənmiş məcazlar | Obrazlılığın, bədiiliyin artmasında onların rolunu təsdiq edən nümunələr |
|---|---|
| | |

**3. Yazılı qeydlər əsasında şifahi təqdimata hazırlaşın.**

**• MƏNBƏLƏR**


1. B.Nəbiyev. Əhməd Cavad. Bakı: Proqres, 2012, səh. 87-92.
2. XI sinif şagirdləri üçün elektron vəsait. http://edebiyyat.ucoz.com.


**• IV dərs**

**• TƏTBİQ**
**• MÜZAKİRƏ**
**• YARADICI İŞ**

**1. Mövzulardan birini seçib işləyin:**

a) "Ə.Cavadın yaradıcılığında milli azadlıq və müstəqillik ideyalarının tərənnümü" mövzusunda inşa.

b) "Poemada təsvir olunanlara və obrazlara müəllifin münasibəti" mövzusunda esse.

**2. İşin icrasına ayrılan vaxt tamamlandıqdan sonra parta yoldaşınızla yazılarınızı dəyişib oxuyun. Uğurlu saydıqlarınızı və arzunuzu – nələri artırmağı və dəyişməyi lazım bildiyinizi qeyd edin.**

**3. Təqdimatlar etməklə yazılardan nümunələri müzakirə edin.**

**• EVDƏ İŞ**

**Yığcam məruzə yazın:** Ə.Cavadın yaradıcılığında vətən mövzusu.

LAYİHƏ

# CƏNUBİ AZƏRBAYCAN ƏDƏBİYYATI



**Məhəmmədhüseyn Şəhriyar**
(1905–1988)

Böyük vətənpərvər şairimiz Məhəmmədhüseyn Şəhriyarın poeziyası dövrün ictimai, siyasi, fəlsəfi və ədəbi düşüncələrinin əksidir. Şair xalq həyatının dərinliklərinə enmiş, zamanın kəskin ictimai təzadlarının, şərin, ədalətsizliyin, mənəvi məhkumiyyətin faciələrini poeziyasının rəvan, aydın və təsirli dili ilə dünyaya car çəkmişdir.

*Ümummilli lider Heydər Əliyev*

## MƏHƏMMƏDHÜSEYN ŞƏHRİYARIN HƏYATI, YARADICILIQ YOLU

• ARAŞDIRMAYA HAZIRLAŞIN

**1. M.Şəhriyar haqqında bildiklərinizi yada salıb yığcam müzakirə aparın.**
**2. Aşağıdakı qaydalara əməl etməklə mətnin üzərində işləyin.**

1. Kiçik qruplara ayrılın. Mətnkənarı suallarla bağlı (iki qrup eyni bir sualın üzərində işləyə bilər) cavabları oxuyun, məzmununu ümumiləşdirib bir neçə cümlə ilə yazın.

| Mətnkənarı suallar | Onların ümumiləşdirilmiş cavabı |
|---|---|
| | |

2. Təqdimatlar etməklə hər sualla bağlı ümumiləşdirmələrə münasibət bildirin və müzakirə aparın.
3. Mətnin bütövlükdə oxusunu başa çatdırdıqdan sonra öyrəndiklərinizlə bağlı gəldiyiniz nəticələri təqdimatlar əsasında müzakirə edin.
4. Araşdırılmasını, zənginləşdirilməsini vacib saydığınız məsələləri bəndlər şəklində yazın.

Məhəmmədhüseyn Şəhriyar Təbriz şəhərində tanınmış məhkəmə vəkili Hacı Mirağanın ailəsində dünyaya gəlmişdir. Onun uşaqlığı ata-baba yurdunda: Xoşginabda, Heydərbaba dağının ətəklərində keçmişdir. Bu yerlərin sadə, səmimi insanları, təkrarsız təbii gözəllikləri balaca Şəhriyarın yadda-

M.Şəhriyarın uşaqlığı, gənclik illəri və yaradıcılığının ilk dövrü üçün daha önəmli olanlar nədir?

LAYİHƏ

şında silinməz iz buraxmışdır. O, burada ilk dəfə məktəbə getmiş, ibtidai təhsil almışdır. M.Şəhriyar Təbrizə qayıtdıqdan sonra ibtidai və orta təhsilini davam etdirmişdir. Hələ məktəbdə oxuyarkən ilk qələm təcrübələrini yazan Şəhriyarın "Ədəb" adlı dərgidə Behcət təxəllüsü ilə şeirləri çap olunmuşdur. O, təhsilini davam etdirmək üçün Tehrana getmiş, bir müddət darülfünunda oxumuşdur. Klassik Azərbaycan və Şərq ədəbiyyatını ardıcıl mütaliə edən gənc Şəhriyar bədii yaradıcılığa ürəkdən bağlanmışdır. Tibb Universitetində oxuduğu müddətdə (1924–1929) onun üç kitabı çap olunmuşdur. Gənc şairin 1929-cu ildə işıq üzü görən üçüncü kitabı ədəbiyyata parlaq istedad sahibinin gəldiyini təsdiq etdi.

Şairin həyat və yaradıcılığının sonrakı dönəmini necə səciyyələndirmək olar?

Təhsilini başa vurmağa bir neçə ay qalmış Şəhriyar universiteti tərk etmişdir. Sevdiyi qızla bağlı gənc şairə rəqib çıxan arxalı bir adam onu həbs etdirmiş, Tehrandan uzaqlaşması şərti ilə azadlığa buraxdırmışdır. Nişapura getməyə məcbur olan şairin bu illərdə qələmə aldığı əsərlərdə kədər motivi güclüdür:

Ya İlahi, qəribəm, eylə kömək,
Olmasın kimsə didərgin mənitək!
Dostlarım düşdü uzaq, getdi Vətən!
Qaldı bir xəstə ürək, xəstə bədən!

Onun "Həzin nalələr", "Odda yanan pərvanə", "Dəli Pəri" və s. şeirlərində isə nakam məhəbbətinin üzüntüləri əks olunmuşdur. Altı ilə qədər Xorasan əyalətində sürgün ömrü yaşayan şairin "Nişapurda günəş batarkən", "Kəmalülmülkün ziyarəti" kimi maraqlı əsərləri meydana çıxır.

1935-ci ildə Tehrana gələn M.Şəhriyar bankda işə düzəlir. Atasının vəfatından sonra böyük bir ailənin qayğısını çəkməli olan şair sıxıntı içində yaşayır. Onda tədricən yaranan ruh düşkünlüyü, mənəvi sarsıntı ağır xəstələnməsinə səbəb olur. Bu xəstəlik uzun sürsə də, ana qayğısı onu yenidən həyata qaytarır. Oğluna qulluq etməyə gələn Kövkəb xanımın doğma el-obadan, xalq ədəbiyyatından təsirli söhbətləri görkəmli sənətkarın həm ruhunu təzələmiş, həm də onu ana dilində yazıb-yaratmağa sövq etmişdir. Şəhriyar bu mərhələdə fars dilində yazdığı kamil şeirlərlə ədəbi mühitdə bir daha parlamış, zəmanəsinin Hafizi adını qazanmışdır.

Şəhriyar 1940-cı illərin ortalarından sonra İranda Azərbaycan dilinin fəaliyyət dairəsinin məhdudlaşdırılmasından, milli ayrı-seçkiliyin qüvvətlənməsindən narazı qalmış, mövqeyini açıq bildirmişdir. Bütün bunlar şairə laqeyd, qısqanc münasibətin daha da güclənməsinə səbəb olmuşdur. Lakin şair qələmi yerə qoymamış, bir-birindən maraqlı sənət əsərləri yaratmaqda davam etmişdir. Mövzu dairəsi geniş olan sənətkarın ən təsirli əsərləri Azərbaycan haqqındadır. Onun Azərbaycana həsr olunmuş şeirlərində Vətənin şanlı tarixi və böyük istiqbalı, taleyi və müqəddəratı mükəmməl bədii əksini tapmışdır. Ustadın "Azərbaycan" şeiri otaylı-butaylı Azərbaycanda həmin mövzuda yazılmış şah əsərlərdən biridir:

Könlüm quşu qanad çalmaz sənsiz bir an, Azərbaycan,
Xoş günlərin getmir müdam xəyalımdan, Azərbaycan!
... Vətən eşqi məktəbində can verməyi öyrənmişik,
Ustadımız deyir, heçdir vətənsiz can, Azərbaycan!

Şəhriyar milli-mənəvi düşüncənin bütövlüyünü, qarşılıqlı əlaqələrin yaranması ideyasını da böyük cəsarətlə şeirə gətirmişdir. Bu fikirlər M.Rahimə,



LAYİHƏ

S.Rüstəmə və b. ünvanlanmış mənzum məktub və ithaflarda da əksini tapmışdır. Şimal ədəbiyyatındakı Cənub həsrətini Şəhriyarın yaradıcılığındakı o tay harayı, Bakı soraqlı mövzular əvəz etmişdir. Şairin "El bülbülü", "Döyünmə – söyünmə", "Qaçaq Nəbi", "Qafqazlı qardaşlarla görüş", "Gözüm aydın" şeirləri, ayrı-ayrı sənətkarlara yazdığı mənzum məktublar uzun illər Güney Azərbaycanda Şimali Azərbaycanla əlaqə və ünsiyyətin etibarlı bələdçisi olmaq vəzifəsini yerinə yetirmişdir. Şairin yaradıcılığında sənətkarların birliyi milli-mənəvi birlik ideyasının timsalı kimi mənalandırılmışdır:

Bülbül kimi qondu o qızıl güllərə könlüm,
Vahidlərə, Qabillərə, Bülbüllərə könlüm.
Şair olalı borcludu Sabirlərə ruhum,
Vurğundu Süleyman kimi Sahirlərə ruhum.
Rahimli, Süleymanlı görüm Bəxtiyar olsun,
Gülgün bacım – Azər qadını bərqərar olsun...

Ümumiyyətlə, Şəhriyar lirikasında ictimai-siyasi məzmunlu şeirlər mühüm yer tutur. Mövcud ictimai quruluşdakı nöqsanları, "pisin yaxşıya qarışdığı", "şeytanın artıb min olduğu" cəmiyyətdə gördüyü eyibləri vətəndaş-şair mövqeyindən ardıcıl tənqid edən sənətkar həyata "qəmdən bir eynək taxaraq" baxmaq məcburiyyətində qaldığını dönə-dönə vurğulayır. Şahlıq rejimi dövründə ölkənin başqa dövlətlərdən asılı vəziyyətə düşməsi ilə barışmayan şair etiraz səsini ucaldır, kəskin tənqidi fikirlər söyləməkdən çəkinmir:

Satar İranı xainlər, xiridar əcnəbilərdir,
Neçin əqli-vətən tutmaz vətən dəllalına divan?

"Şatır oğlan", "Sənəti-məmləkət", "Hara qaçsın insan?", "İman ilə getdi", "Zaman səsi" və s. şeirlərində o, həyatda müşahidə etdiyi haqsızlığı, ədalətsizliyi, yoxsulluğu yanıqlı, təsirli bir dillə əks etdirir. Şair "Varlıq" dərgisinin tarixi, mədəni və siyasi əhəmiyyətini "Azadlıq quşu – "Varlıq" adlı şeirində böyük ustalıqla ümumiləşdirir:

Dil açmada karlıq da gedər, korluğumuz da,
Çün lallığımız doğmuş idi karlığımızdan.
Düşmən bizi əlbir görə, təslim olu naçar,
Təslim oluruq düşmənə naçarlığımızdan.

Ustad Şəhriyarın yaradıcılığında *poema* janrının da xüsusi yeri vardır. Müxtəlif mövzularda olan poemaların bir qismi fars dilində yazılmışdır. "Nişapurda günəş batarkən", "Qardaşım oğlu Huşəngə", "Gecənin əfsanəsi" tərcümeyi-hal səciyyəli əsərlərdir. Onlarda şairin Xorasan vilayətindəki sürgün illərindən, ailə ənənələrindən, uşaqlıq xatirələrindən danışılmışdır. II Dünya müharibəsi ilə bağlı hadisələr ("Stalinqrad qəhrəmanları"), insanları qardaşlığa, xeyirxah əməllərə çağırış ("Şeir və hikmət"), Vətən haqqında səmimi hislərin ("Heydərbabaya salam") ifadəsi və s. onun poemalarının bir qismində aparıcı yer tutmuşdur.

Dillər əzbəri olan "Heydərbabaya salam" poeması Azərbaycan ədəbiyyatının şah əsərlərindən biri olmaqla bərabər, həm də dünya poeziyasının nadir incilərindəndir.

Şairin yaradıcılığına harada yaşamasının da müəyyən təsiri olmuşdur. 1952-ci ildə Tehranda vəfat edən anasını Qum şəhərində dəfn edən sənətkar paytaxtda ona bəslənən biganə münasibətə etiraz olaraq 1953-cü ildə Təbrizə qayıtmışdır. Ata yurdu Xoşginaba səfəri "Heydərbabaya salam" poemasının yazılmasında mühüm rol oynamışdır.



LAYİHƏ

1973-cü ilə qədər Təbrizdə yaşayıb-yaradan Şəhriyar hörmətli şəxs olan Cavad Heyətin təkidi ilə Tehrana köçmüşdür. Bir il sonra arvadı Əzizə xanımın vəfat etməsi onu sarsıtmış və şair birdəfəlik olaraq Təbrizə dönmüş, ömrünün sonunadək orada yaşamışdır. Onun evi şeirsevərlərin sənət məbədinə çevrilmiş, şairlər ustadın ətrafında birləşmiş və beləliklə, Təbrizdə Azərbaycan şeirinin Şəhriyar məktəbi yaranmışdır.

• EVDƏ İŞ

ARAŞDIRMANI DAVAM ETDİRİN

**1. Sinifdə öyrəndiklərinizi göstərilən mənbələrdən topladığınız məlumat əsasında zənginləşdirin və tamamlayın.**

**2. Araşdırma apararkən aşağıdakı sualların cavablarını da əhatə etməyə çalışın:**

a) Şimalda yaşayan şair və ziyalılara mənzum məktublarında Şəhriyar daha çox hansı məsələlərə diqqət yetirmişdir?

b) Şair Azərbaycan türkcəsində yazdığı şeirlərdə hansı ictimai məsələlərə önəm vermişdir?

| № | Ana dilindəki şeirlərə aid nümunələr | Onlarda ifadə edilən ictimai məsələlər |
|---|---|---|
| | | |

**3. Yazılı qeydlər əsasında təqdimata hazırlaşın.**

**4. Mövzulardan birini seçib məruzəyə hazırlaşın:**

a) M.Şəhriyarın həyatında sürgünlük dövrü;

b) Şairin yaradıcılığında vətən mövzusu.

• MƏNBƏLƏR


1. XI sinif şagirdləri üçün elektron vəsait. http://edebiyyat.ucoz.com.
2. M. Şəhriyar. Seçilmiş əsərləri. “Avrasiya-press”. Bakı, 2005, səh.4-6, 7-9.


## TÜRKÜN DİLİ

*(ixtisarla)*

• I dərs

• MƏZMUN ÜZRƏ İŞ

OXUYA HAZIRLAŞIN

**Sualın üzərində düşünün, cavabını cədvəldə qeyd etdikdən sonra fikir mübadiləsi və müzakirə aparın.**

– Ana dilinə həsr edilmiş şeir hansı milli-mənəvi dəyərlər barədə danışmağa imkan verər?

| Ana dilinə həsr edilmiş şeirdə hansı milli-mənəvi dəyərlər ifadə oluna bilər? | |
|---|---|
| | |

**Aşağıdakı qaydalara əməl etməklə şeirin məzmunu üzərində işləyin.**

I

a) Əsəri fərdi olaraq səssiz oxuyun.

b) Oxu zamanı məzmunla bağlı fikrinizdə yaranan, cavabını müəyyənləşdirməyə çalışdığınız sualları dəftərinizdə və ya iş vərəqində yazın.

| Məni düşündürən suallar | Onların cavabı |
|---|---|
| | |

c) Kiçik qruplarda birləşərək sualları cavablandırmağa çalışın.

| Məni düşündürən suallar | Onların cavabı |
|---|---|
| | |

d) Hazırladığınız sualların cavablarını digər qruplardan da soruşun.

e) Dinlədiyiniz cavablarla bağlı fikir mübadiləsi və müzakirə aparın.



LAYİHƏ

**II**

“Şeirdə əksini tapmış milli-mənəvi dəyərlər” mövzusunda təqdimata hazırlaşın.

| Şeirdə əksini tapmış milli-mənəvi dəyərlər | Bunu təsdiq edən nümunələr |
|---|---|
| | |

Türkün dilitək sevgili, istəkli dil olmaz,
Ayrı dilə qatsan, bu əsil dil əsil olmaz.

Öz ləfzini farsa, ərəbə qatmasa şair,
Şerin oxuyanlar, eşidənlər kəsil olmaz.

Şeirin gərək ehsas ilə riqqətlə qarışsın,
Kənd əhli bilirlər ki, doşabsız xəşil olmaz.

Məndən də nə zalım çıxar, oğlum, nə qisasçı,
Bir dəfə bunu anla: ipəkdən qəzil olmaz.

Ötməz, oxumaz bülbülü salsan qəfəs içrə,
Dağ-daşda doğulmuş dəli ceyran həmil olmaz.

Sözlər də cəvahir kimidir, əsli bədəldən
Təşxis verən olsa, bu qədər zir-zibil olmaz ...

Şair ola bilməzsən, anan doğmasa şair,
Missən, a balam, hər sarıköynək qızıl olmaz.

İnsan odu, tutsun bu zəlil xalqın əlindən,
Allahı sevərsənsə, bu insan zəlil olmaz.

Millət qəmi olsa, bu cocuqlar çöpə dönməz,
Ərbablarımızdan da qarınlar təbil olmaz.

Fars şairi çox sözlərini bizdən aparmış,
Sabir kimi bir süfrəli şair pəxil olmaz.

Türkün məsəli, folkloru dünyada təkdi,
Xan yorğanı, kənd içrə məsəldir, mitil olmaz.

Bu Şəhriyarın təbi kimi çimməli çeşmə
Kövsər ola bilsə, demirəm, Səlsəbil olmaz.

• EVDƏ İŞ

**1. Ana dilimizə həsr olunmuş bir şeirlə (məsələn, B.Vahabzadənin “Ana dili”, yaxud X.Ulutürkün “Mənim dilim” şeirini seçə bilərsiniz) “Türkün dili” əsərinin məzmunu arasındakı oxşarlığı müəyyənləşdirib təqdimata hazırlaşın.**

| № | Müqayisə olunanlar | Onların oxşar cəhətləri | | |
|---|---|---|---|---|
| | | | | |
| | | | | |

**2. “Türkün dili” şeiri ilə bağlı hiss və düşüncələrinizi ikihissəli gündəlikdə qeyd edin, təqdimata hazırlaşın.**

| Əsərdə diqqətimi daha çox cəlb edənlər | Bunun səbəbi |
|---|---|
| | |

LAYİHƏ

• II dərs
• TƏHLİL ÜZRƏ İŞ

KİÇİK QRUPLAR YARADARAQ TAPŞIRIĞI YERİNƏ YETİRİN

1. **Mətnkənarı sualları qrupların arasında bölün.** Qrupların sayı çox olarsa, iki qrup bir sualın üzərində işləyə bilər.
2. **Suallara yığcam cavab yazın.** Bədii əsərin məzmunu ilə bağlı öyrəndiklərinizdən bəhrələnin.

| Mətnkənarı suallar | Onlara hazırlanan cavablar |
|---|---|
| | |

3. **İşin icrasına ayrılan vaxt başa çatdıqdan sonra mətnkənarı sualların dərslikdəki cavablarını oxuyun və yazdıqlarınızla müqayisə edin.**

| № | Müqayisə olunanlar | Müqayisə üçün əsaslar | | | |
|---|---|---|---|---|---|
| | | | | | |
| | | | | | |

4. **Gəldiyiniz nəticələri və əlavə olaraq nələri öyrənməyin vacib olduğunu təqdimatlar əsasında müzakirə edib bəndlər şəklində yazın.**

Şeir hansı mövzuda yazılmışdır? Şairin bu mövzuya müraciət etməsinin səbəbini nə ilə izah edərsiniz?

Cənubi Azərbaycanda yaşayan soydaşlarımızın təzyiqlərə, basqılara məruz qalmaları halları az olmamışdır. Mənəvi varlığımız, adət-ənənələrimiz, dilimiz barədə şovinist dairələrin böhtanları cavabsız qalmamışdır. Şah dövründə ana dilimizin sıxışdırılması, bu dildə danışmağın qadağan edilməsi M.Şəhriyar kimi sənətkarları hiddətləndirməyə bilməzdi. “Türkün dili” şeirinin yaranmasının bir səbəbi də bu idi. Şair bu dildən, bu dildə yaranan kamil sənət əsərlərindən digər xalqların, onların sənətkarlarının bəhrələndiyini özünəməxsus məntiqlə diqqətə çatdırır.

*Mənbələrin araşdırılması şeirin yaranma səbəbləri, mövzusu barədə əhatəli məlumat mənimsəməyə, doğru nəticə çıxarmağa imkan verir.*

Şeirdə daha çox önəm verilən məsələlər hansılardır?

Şairin qənaətinə görə, Azərbaycan dili əsil ana dili kimi bu dildə danışanlar üçün əziz və istəklidir. Bu dil calaq sevmir, başqa bir dilə qatılmaq onun təbiətinə yaddır. O elə qüdrətlidir ki, belə bir cəhd onun əsilliyində, varlığında özünü dərhal göstərər və qəbul edilməz. Bu dildə yazıb-yaradanlar onun təmizliyini, saflığını qoruyub saxlamağa borcludurlar.

Şairin fikrincə, dilə qadağa qoymaq onun inkişafının qarşısına sədd çəkmək deməkdir. Azərbaycan dili zəngin olduğu kimi, xalqımızın folkloru, ədəbiyyatı da zəngindir, bunu danmaq, onun inkişafını ləngitmək qeyri-mümkündür...

*Mənbələri öyrənməklə, mətnə yenidən müraciət etməklə şeirdə əksini tapmış digər mətləbləri aydınlaşdırmaq və dəyərləndirmək mümkündür.*

Şeirdə bədiiliyin artmasına hansı vasitələrlə nail olunmuşdur?

M.Şəhriyarın ana dilində yazdığı əsərlərinin içərisində “Türkün dili” şeirinin xüsusi yeri var. Bu təkcə o dövrdə dövlətin yeritdiyi ədalətsiz siyasətə cəsarətli etirazla bağlı deyildir. Bunun bir mühüm səbəbi də şeirin yüksək sənətkarlıqla yazılmasıdır. Əsər, ilk növbədə, dilinin aydınlığı, yerinə düşən sözlərin seçimi ilə diqqəti çəkir. Şeirdə eyni bir sözün təkrarı fikrin daha qabarıq ifadəsinə imkan yaratdığı kimi, güclü ahəngin yaranmasına da səbəb olur. Birinci beytdəki “dil”, “əsil”, sonrakı beytlərdə işlədilən “şair”, “insan”, “zəlil” və s. bu qəbildəndir. Şeirdə yaxınmənalı sözlərin (ötməz, oxumaz), eləcə də fərqli leksik mənalı kəlmələrin (oxuyanlar, eşidənlər) işlənməsi ona həm məna dərinliyi, həm də təkrarsız ahəng gözəlliyi gətirmişdir.

LAYİHƏ

Əsərdəki məcazlar orijinallığı ilə seçildiyi kimi, bədiiliyin, obrazlılığın artmasındakı rollarına görə də diqqəti cəlb edir.

Ayrı-ayrı beytlərdə ifadə olunmuş fikirlərin daxili-məntiqi əlaqələri, bütün bunları tutarlı ifadə edən söz və misralar, uğurlu qafiyə sistemi, mükəmməl forma və s. əsərin kamilliyini təsdiq edən cəhətlərin mühüm bir qismidir.

*Mənbələrdə M.Şəhriyar sənətkarlığı barədə deyilənlər şeirin bədii xüsusiyyətləri barədə geniş və əhatəli fikir söyləməyə imkan yaradır.*

Həcmcə kiçik olan “Türkün dili”ndə ciddi mətləblərə toxunulmuş, taleyüklü problemlər qaldırılmışdır. Əsərdə həm də bunların həlli yolları göstərilmişdir. Deməli, şeir ideya baxımından da zəngindir.

? Şeirin ideyası nədir?

*İdeyanın hərtərəfli araşdırılması, əsaslandırılmış nəticənin çıxarılması mənbələrin əhatəli öyrənilməsi, mətndəki fikirlərin daha dərindən mənimsənilməsi sayəsində mümkündür.*

• EVDƏ İŞ

ARAŞDIRMANI DAVAM ETDİRİN

**1. Sinifdə öyrəndiklərinizi göstərilən mənbələrdən topladığınız məlumat əsasında zənginləşdirin və tamamlayın.**

| Məlumatın əldə edildiyi mənbə | Məlumatın məzmunu və aid olduğu mətnkənarı sual |
|---|---|
| | |

**2. Araşdırma apararkən aşağıdakı sualların cavablarını da əhatə etməyə çalışın:**

a) Şeirdə əksini tapmış məsələlər şairin hansı əsərlərindəki fikirlərlə səsləşir?

b) “Türkün dili” şeirinin ideya-məzmunu haqqında mənbələrdəki fikirlərdən hansını daha dolğun hesab edirsiniz?

| Mənbələr | Daha dolğun hesab etdiyim fikir |
|---|---|
| | |

**3. Yazılı qeydlər əsasında şifahi təqdimata hazırlaşın.**

**4. Mövzulardan birini seçib işləyin:**

a) “M.Şəhriyar və ana dilimiz” mövzusunda məruzə yazın.

b) “M.Şəhriyarın poema yaradıcılığı” mövzusunda yığcam məqalə yazın.

• MƏNBƏLƏR

1. XI sinif şagirdləri üçün elektron vəsait. http://edebiyyat.ucoz.com.
2. M.Şəhriyar. Seçilmiş əsərləri. “Avrasiya-press”. Bakı, 2005, səh.9.

• **III dərs**

• TƏTBİQ
• MÜZAKİRƏ
• YARADICI İŞ

**1. Mövzulardan birini seçib işləyin.**

a) **İnşa:** M.Şəhriyarın yaradıcılığında Vətən mövzusu.

b) **Esse:** M.Şəhriyarın lirik şeirlərində diqqətimi daha çox cəlb edənlər.

**2. İşin icrasına ayrılan vaxt tamamlandıqdan sonra parta yoldaşınızla yazılarınızı dəyişib oxuyun.** Uğurlu saydıqlarınızı və arzunuzu – nələri artırmağı və dəyişməyi lazım bildiyinizi qeyd edin.

**3. Təqdimatlar etməklə yazılardan nümunələri müzakirə edin.**

• EVDƏ İŞ

**Yığcam məqalə yazın:** “Heydərbabaya salam” əsərində kənd həyatının təsviri.

LAYİHƏ

# SOVET DÖVRÜ AZƏRBAYCAN ƏDƏBİYYATI

(1920–1991-ci illər)

• **ARAŞDIRMAYA HAZIRLAŞIN**

Sovet dövrü Azərbaycan ədəbiyyatı haqqında bildiklərinizi yada salıb yığcam müzakirə aparın. Tarix, coğrafiya dərslərində bu dövrlə bağlı qazandığınız biliklərdən istifadə edin.

**Mətni oxuyun. Aşağıdakı tapşırıqları fərdi olaraq yerinə yetirin.**

**1. Mətnkənarı sualların cavablarını ümumiləşdirib yazın.**

| Mətnkənarı suallar | Onların ümumiləşdirilmiş cavabı |
|---|---|
| | |

**2. Oxu zamanı sizi düşündürən sualları qeyd edin. Cavabları müzakirədə dəqiqləşdirib yazın.**

| Məni düşündürən suallar | Onların cavabı |
|---|---|
| | |

**3. Kiçik qruplarda birləşərək qənaətlərinizi bölüşün.**

**4. Təqdimatlar etməklə gəldiyiniz nəticələr barədə fikir mübadiləsi və müzakirə aparın. Müzakirədə aşağıdakı fikirlərə münasibət bildirin.**

– *Sənətkar azadlığının... ilkin şərti ondadır ki, həmin sənətkarın istedadı onun yaradıcılığının estetik təmayülünü, yönünü müəyyən edir... Sovet dövrü ədəbiyyatının ... bədii-estetik faciəsi onda idi ki, fərdi səciyyəli bu seçimi istedadlar yox, sistem etmişdi: sosrealizmi məcburi ədəbi metod kimi hakimliyə gətirmişdi.*

*(Elçin)*

– *Ədəbiyyatın müxtəlif nəsillərdən olan yaradıcılarını qarşı-qarşıya qoymaqla, H.Cavidin, Ə.Cavadın əsərlərinə qarşı mübarizəni genişləndirməklə tənqid ədəbi prosesin birtərəfli – yalnız sovet proletar ideologiyası istiqamətində inkişafını mümkün hesab edir, ədəbiyyatın digər cərəyanlarının qarşısına keçilməz sədlər çəkirdi.*

*(Şamil Salmanov)*

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra ədəbi-bədii düşüncədəki milli və maarifçi idealların, demokratik baxışların yerini tədricən sosialist ideyaları əvəzləməyə başladı. Bədii ədəbiyyatda bolşevik ruhunun bərqərar olması üçün aparılan siyasət yeni quruluşu tərənnüm edən əsərlərin yazılmasını başlıca vəzifələrdən hesab edirdi. XX əsrin 20-ci illərindən etibarən bir sıra gənc

? Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra ədəbi həyatda, ilk növbədə, hansı dəyişikliklər baş verdi?



LAYİHƏ

yazıçılar kommunist rejiminin ədəbiyyatla bağlı məqsədlərini həyata keçirmək üçün yaradılmış ədəbi dərnəklərdə birləşirdi. Onların sovet ədəbiyyatının ilk nümunələri sayılan əsərləri "Maarif və mədəniyyət" jurnalında, "Kommunist", "Gənc işçi" qəzetlərində, ədəbi almanaxlarda, məcmuələrdə çap olunurdu. Həmin əsərlərdə proletar beynəlmiləlçiliyi, sosialist inqilabı, "böyük qardaş" ideyası, "dahi rəhbər" – Lenin tərənnüm olunurdu.

Sosialist realizmi sovet ədəbiyyatının əsas yaradıcılıq metodu kimi qəbul olunmuşdu. Başlanğıc mərhələdə, yəni 1920–1930-cu illərdə yeni ideologiya realist və romantik ənənə ilə yanaşı mövcud olmuşdur. Lakin sovet dövlətinin həyata keçirdiyi proletkultçuluq kampaniyası sosializm ruhunda yazan cavan nəslin ön mövqeyə çıxmasına imkan yaratdı. Ədəbi mühitdə böyük nüfuz sahibi olan sənətkarların 1937-ci il repressiyası zamanı sıradan çıxarılması ilə bu proses başa çatmışdır.

Ədəbiyyatda sinfilik, tarixilik, xəlqilik prinsipləri sovet reallığında hansı mahiyyəti daşıyırdı?

Sovet hakimiyyəti illərində yaranan bədii əsərlərdə qələm sahibləri ideoloji tələblərə uyğun olaraq, *sinfilik* prinsipinə daha çox əməl etməli olmuşlar. Nəticədə tarixi keçmişdən bəhs edən bədii əsərlərdə bəy-xan nəsillərinin nümayəndələri əksər hallarda düşmən obrazı kimi göstərilir, fəhlə-kəndli sinfi ədəbiyyatın əsas qəhrəmanı səviyyəsində təqdim edilirdi. Sovet ədəbiyyatşünaslığının əsas götürdüyü *xəlqilik* prinsipi də geniş mənada millilik anlayışını ifadə etmirdi. Xəlqilik dedikdə ədəbiyyatda daha çox zəhmətkeş sinfin həyatının və fəaliyyətinin təsviri nəzərdə tutulurdu. Sovet ideologiyasının tələb etdiyi zəhmətkeş xalq fabrik və zavodlarda, kolxoz və sovxozlarda çalışan sovet fəhlə və kəndlisi idi. Klassiklərin əsərlərinin əsas mahiyyəti, böyük idealları, humanist ideyaları, ədalətli hökmdar axtarışları nisbətən arxa plana keçirilirdi. Nizaminin "İskəndərnamə" poemasında təsvir olunan xəyali ideal cəmiyyət kommunizm quruluşu kimi qabardılaraq oxuculara çatdırılırdı. Klassiklərin əsərləri təhrif edilir, onlarda güclü ateizm əlamətləri axtarılırdı.

Ədəbiyyatın baş mövzusu təsərrüfat və istehsalat sahəsi olsa da, sənətkarlar imkan daxilində qəhrəmanlarının mənəvi-insani münasibətlərinə, məhəbbət duyğularına da müəyyən yer ayırırdılar. Bir çox sənətkarlar ölkəsinin və xalqının azadlığından söz açmaq üçün xarici ölkələrin, xüsusən Afrika xalqlarının həyatından bəhs edən əsərlər yazırdılar. Bu yolla onlar öz ölkələrinin gələcəyinə işıq salırdılar. İstedadlı sənətkarlar sovet vətənpərvərliyi ideyasından yararlanıb doğma vətən, onun təbii gözəllikləri, tarixi ənənələri barədə ciddi əsərlər yaza bilirdilər.

Sovet dövrü ədəbiyyatımızda Azərbaycan gerçəkliyi necə əks olunurdu?

XX əsrin altmışıncı illərindən sonra ölkədə siyasi mühit bir qədər dəyişmiş, sosialist realizmi yaradıcılıq metodu "yaşasa" da, gerçək ədəbiyyat üstünlük qazana bilmişdir. Beləliklə, sovet dövrü Azərbaycan ədəbiyyatını iki istiqamətə ayırmaq olar:

1) sovet ideologiyası əsasında yaranmış Azərbaycan ədəbiyyatı;
2) sovet dövründə yaranan, lakin gerçəkliyi əks etdirməyə üstünlük verən Azərbaycan ədəbiyyatı.

LAYİHƏ

Sovet dövründə leninizmi, kommunist partiyasını, oktyabr ideallarını, sosializm quruluşunu vəsf edən xeyli bədii əsər yazılmışdır. Bir sıra sənətkarların əsərlərində sovet həyat tərzi, sosializm uğrunda mübarizənin bədii əksi əsas mövzu idi. Lakin böyük istedad sahibi olan yazıçı və şairlər sosializm ideyalarının fonunda həyatın dərin qatlarına enə bilirdilər. Xalq yazıçısı Süleyman Rəhimovun "Saçlı", "Mehman" əsərləri, Əli Vəliyevin "Budağın xatirələri", Əbülhəsənin "Yoxuşlar", Mehdi Hüseynin "Abşeron" romanları həmin dövrün ruhunu, reallığını və maraqlı insan talelərini əhatəli təsvir edən əsərlər idi. Səməd Vurğunun, Rəsul Rzanın və Mikayıl Müşfiqin yaradıcılığındakı bədiiliyin vüsəti və millilik amili ədəbiyyatda ideoloji maneələri ötüb-keçmələrinə imkan yaratmışdı. Süleyman Rüstəmin məhəbbət lirikası və Cənub şeirləri böyük sənət nümunələridir. Mirzə İbrahimov, Mir Cəlal, Əliağa Vahid, Ənvər Məmmədxanlı, İlyas Əfəndiyev, İsa Hüseynov, Hüseyn İbrahimov, Manaf Süleymanov, Nigar Rəfibəyli, Əzizə Cəfərzadə, Mirvarid Dilbazi və başqalarının yaradıcılığında həyat həqiqəti ideologiyanı üstələmişdir.

Bu dövrdə yazıb-yaratmış xalq yazıçısı Mirzə İbrahimov (1911–1993) qüdrətli nasir və dramaturq olmaqla bərabər, həm də görkəmli ictimai xadim, tanınmış tənqidçi və ədəbiyyatşünasdır. O, zəngin bədii yaradıcılığı ilə yanaşı, ana dilinin, milli-mənəvi dəyərlərin qorunması uğrunda mübarizə aparmış vətəndaş yazıçıdır. "Cənub hekayələri" silsiləsi M.İbrahimovun hekayə yaradıcılığının zirvəsi sayıla bilər. Bu əsərlərdə yazıçı özünün uşaqlıq illərinin yaddaqalan təsirli hadisələrindən, Böyük Vətən müharibəsinin ilk illərində İranda rastlaşdığı əhvalat və insanlardan geniş söz açır. Silsiləyə daxil olan "On iki dekabr", "Tonqal başında", "Azad", "İztirabın sonu", "İki həyat" və s. hekayələrdən tanıdığımız *Mahmud, Kərim kişi, Azad, Fərda, Süsən* obrazları milli düşüncəyə malik olan azadlıqsevər insanlar kimi yadda qalırlar. "Cənub hekayələri" ədibin bir qədər sonra tamamladığı "Gələcək gün" romanının yaranması üçün zəmin hazırlamışdır.

"Gələcək gün" romanının əsas qəhrəmanı olan *Firudin İbrahimi* İranda Səttarxan – Xiyabani yolunun layiqli davamçısı, milli azadlıq hərəkatına rəhbərlik vəzifəsini öz üzərinə götürmüş vətənpərvər şəxsiyyətdir. Romandakı *Rza Qəhrəmani, Kərimxan Azadi, Xavər, Mübaşir Məmməd, Hüseyn Məhbusi, Ərbab Hənəfı, Musa kişi* və digər obrazlar həmin tarixi dövrdə ayrı-ayrı qütbləri təmsil edirdilər. Bu obrazlar milli azadlıq hərəkatı ilə bağlı olan dövr haqqında dolğun təsəvvür yaradır. Geniş surətlər silsiləsini əhatə edən, xalqın milli taleyini əks etdirən "Gələcək gün" Cənubi Azərbaycandakı xalq həyatı və milli azadlıq hərəkatı haqqında güclü ümumiləşdirməyə malik qiymətli romandır.

Şəxsiyyətə pərəstişin tənqidi ədəbiyyata necə təsir etdi?

Sovet İttifaqında şəxsiyyətə pərəstişin tənqidindən sonra ədəbiyyatda gerçəkliyin təsvir və tərənnümünə münasibət dəyişmişdir. Keçən yüzilliyin əllinci illərində Bəxtiyar Vahabzadə, İsmayıl Şıxlı, Məmməd Araz, Xəlil Rza, İsa Hüseynov, Nəbi Xəzri, Hüseyn Arif kimi həyat həqiqətlərini əks etdirən, fəal mövqe tutan istedadlı sənətkarlar meydana çıxmışdır.



LAYİHƏ

Həmin mərhələdə Azərbaycan ədəbiyyatında "*altmışıncılar*" adlanan yeni nəsil ədəbi fikrə təzə nəfəs gətirmişdir. Məhz "altmışıncılar" ədəbi nəsli Azərbaycan ədəbiyyatında mövcud ideologiyaya qarşı açıq şəkildə çıxmadan ədəbiyyatda insanı onun mənəviyyatı, düşüncəsi, qayğıları, ağrıları və sevgisi ilə birlikdə əks etdirməklə tədricən mövcud ab-havanı dəyişdirə bilmişlər. Yeni nəslin nümayəndələri ədəbi ənənələru qoruyub saxlasalar da, daha çox müstəqil yaradıcılıq yolu ilə gedirdilər. Bu sənətkarların əsərlərində sovet gerçəkliyinin tərənnümü, insanın əmək fəaliyyəti deyil, onun daxili aləmi, mənəviyyatı, qarşılaşdığı çətinliklər və həyat mövqeyinin ifadəsi başlıca yer tuturdu.

Bu baxımdan sovet dönəmində yaranan ədəbiyyatı yalnız ideoloji mahiyyət daşıyan ədəbiyyat kimi təsəvvür etmək birtərəfli olardı. Bütün maneələrə və çətinliklərə baxmayaraq, sovet dövründə əsl ədəbiyyat nümunələri də yaradılmışdır. Odur ki bu dövrün ədəbiyyatı təhlil və tədqiq edilərkən söz sənətindəki problemlərə və ədəbi şəxsiyyətlərə tarixilik baxımından yanaşılmalıdır.

**• EVDƏ İŞ**

ARAŞDIRMANI DAVAM ETDİRİN

**1. Sinifdə öyrəndiklərinizi göstərilən mənbələrdən topladığınız məlumat əsasında zənginləşdirin və tamamlayın.**

**2. Araşdırma apararkən aşağıdakı sualların cavablarını da əhatə etməyə çalışın:**

a) Sovet dövründə yaranan ədəbiyyatın səciyyəvi xüsusiyyətləri hansılardır?

b) Sovet dövründə bədii yaradıcılıq sahəsində hansı ideoloji tələblər irəli sürülürdü?

c) Bu dövrdə hansı sənətkarların yaradıcılığında gerçək həyat və milli ideallar, mənəvi dəyərlər öz əksini tapmışdır? Nümunələr göstərin.

**3. Yazılı qeydlər əsasında şifahi təqdimata hazırlaşın.**

**• MƏNBƏLƏR**


1. Azərbaycan dramaturgiyası antologiyası. 4 cilddə. I cild. Bakı: Şərq-Qərb, 2007, s.12-17.
2. Azərbyacan nəsri antologiyası. 5 cilddə. II cild. Bakı: Şərq-Qərb, 2006, s.4-7, 14-15.
3. Azərbaycan nəsri antologiyası. 5 cilddə. III cild. Bakı: Şərq-Qərb, 2006, s. 4-7, 14-15.
4. XI sinif şagirdləri üçün elektron vəsait. http://edebiyyat.ucoz.com.


LAYİHƏ



Cəfər Cabbarlı dramaturgiya sahəsində bizim hamımızın böyük müəllimi olmuşdur.
Müasir mövzu, müasir insan Cəfər Cabbarlı sənətinin çarpan ürəyi idi.

*Səməd Vurğun*

**Cəfər Cabbarlı**
**(1899–1934)**

# CƏFƏR CABBARLININ HƏYATI, YARADICILIQ YOLU

• ARAŞDIRMAYA HAZIRLAŞIN

1. **C.Cabbarlı haqqında bildiklərinizi yada salıb yığcam müzakirə aparın.**
2. **Mətni fərdi olaraq oxuyun, məlumatları aşağıdakı işarələrlə nişanlayıb qruplaşdırın:**
   - **+** tanış olan məlumatlar;
   - □ əvvəl öyrənilmiş bilik və məlumatlara zidd olanlar;
   - **!** maraqlı və yeni olan məlumatlar;
   - **?** açıqlanmasına, daha əhatəli öyrənilməsinə ehtiyac duyulan məlumatlar.
3. **Gəldiyiniz nəticəni aşağıdakı cədvəldə qısaca yazın.**

| + | □ | ! | ? |
|---|---|---|---|
| Bilirdim | Bildiklərimə ziddir | Mənim üçün yeni və maraqlı məlumatdır | Bu barədə daha çox bilmək istəyirəm |
| | | | |

4. **Kiçik qruplarda birləşərək fikir mübadiləsi və müzakirə aparın.** "Bu barədə daha çox bilmək istəyirəm" qrafasındakı qeydlərə əsasən əlavə öyrənilməsinə ehtiyac duyulan məsələləri bəndlər şəklində yazın.

Bakının yaxınlığındakı Xızıda – Qafar Cabbar oğlunun ailəsində dünyaya göz açan Cəfər kiçik yaşlarından şəhərdə yaşamalı olmuşdur.

Qafar kişinin ölümündən sonra ailənin bütün ağırlığını ana çəkməli oldu. Cəfəri təhsilli görməyi arzulayan Şahbikə ana onu əvvəl məhəllə mollasının yanına, az sonra isə mollaxanaya göndərmişdir. Daha sonra rus-tatar məktəbini bitirən Cəfər Ali İbtidai Məktəbdə

? C.Cabbarlının uşaqlığı, gəncliyi və yaradıcılığının ilk dövrü üçün daha mühüm sayıla bilən məqamlar hansılardır?

LAYİHƏ

təhsilini davam etdirmişdir. Bu məktəbdəki təhsilini o, 1915-ci ildə başa vurmuş, Bakı Sənaye Məktəbinə daxil olmuşdur.

Cəfər Cabbarlı bu dövrdə bədii yaradıcılıqla ciddi məşğul olmağa başlayır. 1915–1916-cı illərdə onun müxtəlif jurnallarda ("Babayi-Əmir", "Dirilik" və s.), qəzetlərdə ("Bəsirət" və s.) onlarla şeiri çap edilmişdir. Yaradıcılığa *lirik şeirlərlə* başlayan C.Cabbarlıda *maarifçi realizmin* təsiri aydın duyulurdu. Bu həm lirikasında, həm də o dövrdə yazdığı hekayələrdə ("Aslan və Fərhad", "Mənsur və Sitarə" və s.) və pyesində ("Vəfalı Səriyyə") müşahidə olunurdu.

Gənc şairin lirik şeirləri müxtəlif mövzularda olsa da, onlarda ictimai mətləblər aparıcı yer tuturdu. O, cəmiyyətdə müşahidə etdiyi ədalətsizliyi, laqeydliyi, aclıq çəkən, səfalət içində yaşayan insanların acınacaqlı vəziyyətini təsvir etməklə ("Qürub çağı bir yetim", "Sən də bir", "Dilənçi", "Boranlı qış gecəsi" və s.) diqqəti ciddi həyati problemlərə yönəldirdi. C.Cabbarlı yaratdığı ürəkparçalayan lövhələrlə zəngin adamların qəlbində mərhəmət hissi oyatmaq niyyətini də güdürdü:

Qışın boranlı, məşəqqətli bir soyuq gecəsi,
Cahanə lərzə salır yellərin cəfalı səsi…
Xərabə içrə qaranlıqda sanki var bir kəs,
İnildəyor, yayılır, titrəyor çəkincə nəfəs.
Bu bir zəif çocuqdur ki, xəstə, bidərman,
Soyuq xərabədə yatmış, inildəyor hər an…
Bu xəstə beş gün olar dəyməyib çörək dilinə,
Qoca ata bu savuqda nə cür gedib dilənə?
Nəhayət, oğlunu görcək ölüm yatağında,
Gedib, yox isə də taqət zəif ayağında…

Millətin ehtiyaclarına göz yuman varlılar, "millət qəmi" çəkməkdən uzaq olan ziyalılar, xalqa faydası olmayan cəmiyyəti-xeyriyyələr, ictimai dərdlərə göz yumub "nigarına qəzəl yazan" şairlər onun *satirik* şeirlərinin ("Görməmişəm, eşitmişəm", "Dübarə-səbarə", "Görməkdəyəm", "İtil get", "Unudulmaz yara" və s.) hədəfləri idi.

Daha çox ailə-məişət mövzusunda olan ilk hekayələrində və "Vəfalı Səriyyə" pyesində qəhrəmanlara maarifçilik mövqeyindən qiymət verən müəllif onları ya yaxşı, ya da pis əməl sahibi kimi təqdim edir. Yazıçının həyat və yaradıcılıq təcrübəsi artdıqca o, ictimai ziddiyyətlərin səbəbini, kökünü daha dərinlərdə axtarmağa başladı. Bu, "Solğun çiçəklər"(1916), "Nəsrəddin şah" (1916) pyeslərində özünü aydınca göstərir. C.Cabbarlının az sonra qələmə aldığı "Trablis müharibəsi" və ya Ulduz" (1917), "Ədirnə fəthi" (1917) pyesləri Türkiyə ilə bağlı olub mürəkkəb tarixi-siyasi hadisələrlə zəngindir. Yazıçının yaradıcılıq axtarışları bu əsərlərində də davam edirdi. Onlarda realist və romantik cəhətlərin olduğunu təsdiq edən səhnələr vardır. Bu axtarışlar yazıçının sonrakı illərə aid yaradıcılığında da müşahidə olunur.

Azərbaycanda baş verən mürəkkəb ictimai-siyasi hadisələr, kapitalist münasibətlərinin dərinləşməsi və bunun doğurduğu fəsadlar C.Cabbarlını dərindən düşündürür, dünyagörüşünə və yaradıcılığına ("Aydın", daha sonra yazılmış "Oqtay Eloğlu" əsərlərində olduğu kimi) əhəmiyyətli dərəcədə təsir edirdi. Azərbaycan

? C.Cabbarlının həyatının və yaradıcılığının sonrakı dövrləri üçün səciyyəvi olanlar hansılardır?

LAYİHƏ

Demokratik Cümhuriyyətinin yaranmasını sevinclə qarşılayan C.Cabbarlı parlamentdə stenoqrafçı kimi çalışır, "Azərbaycan" qəzetində mütərcim vəzifəsində işləyir. Milli dövlətimizə dərin rəğbət bəsləyən sənətkar bir-birinin ardınca səmimi şeirlər ("Sevdiyim", "Azərbaycan bayrağına" və s.) yazır. Milli dövlətin süqutu ona ağır təsir edir, gənc ədib ömrünün ən böhranlı günlərini yaşayır. O, Bakı Sənaye Məktəbini 1920-ci ildə bitirir, elə həmin il Bakı Dövlət Universitetinin tibb fakültəsinə daxil olur. Sovet hakimiyyətinin ilk illərində müxtəlif işlərdə (tərcüməçi, stenoqrafçı) çalışan yazıçı bir neçə dəfə həbs edilmiş və müəyyən şərtlərlə azadlığa buraxılmışdır.

Taleyini teatra və bədii yaradıcılığa bağlayan sənətkar coşqun fəaliyyətinə ara vermir. Onu yeni quruluşun mədəni inqilab siyasəti cəlb edir. Xalqının inkişafını, mədəni tərəqqisini həmişə arzulayan yazıçı mənəvi rahatlığını bu istiqamətdə çalışmaqda tapır. Bir-birinin ardınca yaratdığı əsərlərin qəhrəmanları xarakterlərinin mükəmməl, məqsədlərinin aydın olması ilə fərqlənməyə başlayır. Ədalətsizliklə barışmayan, "altun dünyasının" əzici qaydalarına qarşı çıxan Aydın ("Aydın") konkret məqsədi, dəqiq mübarizə yolu olmayan, "dumanlı arzularla" yaşayan etirazçı obrazdırsa, Oqtay ("Oqtay Eloğlu") uğrunda çarpışdığı qayəni bütün incəlikləri ilə dərk edən, mücərrəd fikir və danışıqdan uzaq olan ədəbi qəhrəmandır. Elxan isə ("Od gəlini") ondan fərqli olaraq, öz mübarizəsində ardıcıl və qətiyyətlidir. Xalqının milli azadlığı uğrunda işğalçılarla ölüm-dirim mübarizəsinə girişən Elxan öz ideallarına həmişə sadiq qalır və bu yolda heç kimə, heç nəyə güzəştə getmir. Romantikanın qovuşduğu realizm əsasında yazılmış və böyük uğur qazanmış "Od gəlini" faciəsi dramaturqun yaradıcılığında yeni səhifəyə keçid üçün zəmin oldu. İndi onu mədəni inqilabla bağlı problemlər, yeni qəhrəmanlar düşündürür. Bu düşüncənin, bədii axtarışların nəticəsində "Sevil" (1928), "Almaz" (1930), "Yaşar" (1932), "Dönüş" (1932–1933) pyesləri yaranır. Geriliyin, köhnə fikrin əsiri olmaq, yeniliyə qarşı çıxmaq kimi məsələlər bu əsərlər üçün ortaq cəhətlər sayıla bilər. Lakin onlarda bədii həlli verilən problemlər fərqlidir: "Sevil"də qadın hüququ, "Almaz"da kənd təsərrüfatının kollektivləşdirilməsi, "Yaşar"da elmi-texniki tərəqqi, onun tətbiqi, "Dönüş"də mədəni inqilab və yüksəliş diqqət mərkəzinə qoyulmuşdur.

"Sevil"də müəllif qadın azadlığı probleminə sələflərindən fərqli yanaşır: qadınlar kişilərlə bərabərhüquqlu olmalı, sərbəst işləməli, heç kimdən asılı olmadan yaşamalıdır. Avam, gözübağlı, başqasına möhtac olan Sevil yeni həyatın verdiyi imkanlardan bəhrələnərək savad alır, inkişaf edir, qadın azadlığının müdafiəçisinə çevrilir.

"Almaz"da yeni həyat quruculuğu kənddə baş verən hadisələrin zəminində açıqlanır. Almaz müəyyən səhvlərə yol versə də, maneələrə qarşı mübarizədə tərəddüdə yol vermir, qətiyyətli və cəsarətli addımları ilə yeniliyə qənim kəsilənlərin ümidlərini puça çıxarır.

"Yaşar"da təsvir olunanlar zaman baxımından "Almaz"dan sonrakı dövrə aiddir. Almazla açıq mübarizə aparanlar maskalanaraq indi Yaşarla vuruşurlar. Lakin yenilik qarşısıalınmaz güc və sürətlə irəliləyir, onun təntənəsi addımbaşı duyulur. Yaşar və onun həmkarları əldə etdikləri elmi nailiyyətləri kənddə uğurla tətbiq edirlər.

Müasir həyatla teatrın əlaqəsinin gücləndirilməsi, repertuarının daim yenilənməsi, aktyor sənətkarlığının artırılması, teatr tənqidinin sağlam olması və s. "Dönüş"ün qəhrəmanı Gülsabahın fəaliyyətində mühüm yer tutur.

LAYİHƏ

Bu ədəbi qəhrəmanlar müəllifin vətənin tərəqqisi, xalqın mədəni inkişafı arzularını ifadə edirdi. C.Cabbarlı insanın mənəvi azadlığına düşmən kəsilən, sərbəst inkişafına, fikir və düşüncəsinə keçilməz sədd qoyan quruluşun – sosializmin az sonra üzə çıxan gerçək üzünü görsəydi, şübhəsiz, yeni, həm də fərqli məzmunda əsərlər yaradardı.

C.Cabbarlının 1931-ci ildə qələmə aldığı "1905-ci ildə" əsərində izlədiyi niyyət çoxcəhətlidir. Onlardan biri və başlıcası "kütlənin nəzərini inqilabdan uzaqlaşdırmaq məqsədilə iki xalqı bir-biri üzərinə salışdıran rus çarizminin müstəmləkə siyasətini göstərmək idi". Əsər müəllifin gizli niyyətini ifadə edən mətnaltı mənalarla zəngindir.

Hekayə yaradıcılığının sonrakı dövrlərinə aid olan "Dilarə", "Dilbər", "Güllər", "Firuzə" və s. təkcə mövzu-ideya yeniliyi ilə deyil, orijinal bədii keyfiyyətləri ilə də diqqəti cəlb edir.

**• EVDƏ İŞ**

**ARAŞDIRMANI DAVAM ETDİRİN**

1. **Sinifdə öyrəndiklərinizi göstərilən mənbələrdən topladığınız məlumat əsasında zənginləşdirin və tamamlayın.**
2. **Araşdırma apararkən aşağıdakı sualın cavabını da əhatə etməyə çalışın:**

   – C.Cabbarlının satirik şeirləri hansı xüsusiyyətlərinə görə M.Ə.Sabirin əsərlərinə bənzəyir?

| № | Müqayisə olunanlar | Onların oxşar cəhətləri | | |
|---|---|---|---|---|
| | | | | |
| | | | | |

3. **Yazılı qeydlər əsasında təqdimata hazırlaşın.**
4. **Mövzulardan birini seçib şifahi məruzəyə hazırlaşın:**
   1) C.Cabbarlı və Azərbaycan Demokratik Cümhuriyyəti.
   2) C.Cabbarlının tərcüməçilik fəaliyyəti.

**• MƏNBƏLƏR**

1. C.Cabbarlı. Əsərləri. 4 cilddə. I cild, Bakı: Şərq-Qərb, 2005, səh. 5-6, 8, 14, 30-33, 37.
2. XI sinif şagirdləri üçün elektron vəsait. http://edebiyyat.ucoz.com.

LAYİHƏ

## OQTAY ELOĞLU
(ixtisarla)

• I dərs

• MƏZMUN ÜZRƏ İŞ

OXUYA HAZIRLAŞIN

**Sualların üzərində düşünün, cavablarınızı cədvəldə qeyd etdikdən sonra fikir mübadiləsi və müzakirə aparın.**

– Özünün və ailəsinin rahatlığını, səadətini xalqının mənafeyinə qurban verən insanlar haqqında eşitmisinizmi?

| Bu insanları şəxsən tanıyırsınızmı? | Belə insanlar barədə nə düşünürsünüz? |
|---|---|
| | |

– Bu əqidədə olan hansı ədəbi qəhrəmanları tanıyırsınız?

| Tanıdığım ədəbi qəhrəmanlar | Onlarda dəyərləndirdiyim cəhətlər |
|---|---|
| | |

**Aşağıdakı qaydalara əməl etməklə əsərdən verilmiş parçanı oxuyun.**

1. Əsərdən bir səhifə həcmində mətn rollar üzrə oxunur.
2. Müəyyənləşdirilmiş cütlər mətni oxuyanlara suallar verir. Cavablar cütləri qane etməsə, digər şagirdlərin cavabları dinlənilir, bu, ortaq məxrəcə gəlincəyə qədər davam edir.
3. Cütlər və mətni oxuyanlar əvəz edilir, sonrakı səhifələrin oxusu da bu qayda ilə davam etdirilir.
4. Nəzərdə tutulan parçanın oxusu başa çatdırıldıqdan sonra seçilmiş hissələrin məzmununu bir neçə şagird iki formada – yığcam və geniş nağıl edir.

**Unutmayın:** Suallar əsərdəki əsas fikirlərin aydınlaşdırılmasına, faktların dəqiqləşdirilməsinə, nəticələrin çıxarılmasına imkan yaratmalıdır.

İ ş t i r a k e d ə n l ə r:

| | | |
|---|---|---|
| Oqtay Eloğlu | Nadya | Dursun |
| Firəngiz | Nərgiz | Muxan |
| Sevər | Tamara | Elxanlı |
| Səməd bəy | Xaspolat | Rüstəm |
| Gülgəz | Mazandaranski | Özdəmir |
| Hacı Zaman | Şaqqulu | Şvarts |
| Aslan bəy | Şəkinski | Moor |

## BİRİNCİ PƏRDƏ

*Səhnənin arxası. Solda Oqtayın bəzənəcəyi... Aktyorlar "Gavə" qiyafələrində oraya-buraya gedirlər.*

N a d y a. Firəngiz, qoy pərdə qalxsın, Aslan bəy lojada otursun. Sonra gələrik, yoxsa bizi burada görərlər. Hələlik Oqtay da məşğul olar.

F i r ə n g i z. Yaxşı, Nadya, bu gün daha utanmayacağam, gələcəyəm.

N a d y a. Mən səni gətirərəm. Hələ gəl. *(Gedirlər.)*



LAYİHƏ

*Oqtay və Tamara girir.*

O q t a y. O tam başqa bir sözdür. Sonra zalım, yırtıcı bir hökmdar qarşısındasınız, əllərinizi qorxulu bir həyəcan içində uzatmış, bax belə *(göstərir)*. Deyirsiniz. Söyləyin.

T a m a r a. Onun xabarı bala yoxdur.

O q t a y. Yenə bala. Belə ey, belə!

T a m a r a. Nu, bala je deyirəm. Bala, bala!

O q t a y. "Bala" eto rebyonok, "bəla" eto nesçastye, a "belə", eto znaçit tak.

D u r s u n. Oqtay, salonu dağıtdılar, saat ondan işləyir.

O q t a y *(Dursuna.)* Bu saat. *(Tamaraya.)* Siz öyrənin, mən bu saat.

D u r s u n. Bəs biz nə sayaq eləyək, gecə keçdi, heç bir şey hazır deyildir.

O q t a y. Xaspolat gəldimi?

D u r s u n. Yox!

O q t a y. Şəkinski?

D u r s u n. Heç birisi.

O q t a y. Dedim ki, evlərinə adam göndərin.

D u r s u n. Üç yol göndərmişəm, evdə yoxdur.

O q t a y. Axı indi mən başıma nə daş salım! Bu da insanlıqdır ki, caamatı dörd divar arasına doldur da, özün baş götür çıx get! Axı bir anlamalıdır ki, onsuz da teatrdan qaçan xalqımızı, yalvararaq bilet satdığımız üç-dörd zavallını da qaçırırsınız.

M a z a n d a r a n s k i. Oqtay, antreprenyor mənzil pulu istəyir. Deyir, pərdədən əvvəl mənim pullarım verilməlidir.

D u r s u n. İndi nə etməli?

O q t a y. Bəs Tabasaranski haradadır? Get söylə, adamlar gəlməmiş adam tapsın.

M a z a n d a r a n s k i. Raboçilərə də dedi, hamısı getdilər. Çıxıb getdilər.

D u r s u n. Oqtay! Bu gecə heç bir şey çıxmayacaqdır. Camaat da azdır. Çarəsi yox, oyunu saxlamalıyıq.

O q t a y. Olmaz! Sən də get söylə adamlar gəlməmiş. Xalqı oyuncaq kimi əldə oynada bilməz. Bu gün saxlasan, sabah kimsə bu qapıdan keçməz. Bir nəfər də olsa, oyun getməlidir. İvanovski haradadır? *(Getmək istərkən.)*

Ş a q q u l u. Oqtay, İvanovski Gavədən əvvəl Zöhhakın taxt-tacını sərnigun elətdirdi. Deməli, oyun qurtardı.

O q t a y. Əsəd bəy onu görmədimi?

Ş a q q u l u. Əsəd bəy ona dedi ki, oyun cəmiyyəti-xeyriyyə üçün oynanır. Sabah cəmiyyətin pulundan da olsa, mənzil kirayəsini verərəm. Qulaq asmadı. O da dedi oynanmasın, çıxdı getdi. Dekorasiyaları da söküb hərəsini bir divara söykədilər. Özləri də getdilər.

O q t a y. Yəni kassada heç pul yoxdur? Heç olmasa...

Ş a q q u l u. Baxdılar, vur-tut səkkiz manat pul var idi. Onu da paltar üçün vermişlər.

O q t a y. Allah əkbər!

Ş a q q u l u. Oqtay, indi ki Əsəd bəyə demişsən, gəlin oyunu saxlayaq, başqa çarəsi yox...

O q t a y. Olmaz! Oyun saxlanmaz, xalqı çiyrindirirsiniz, anladınızmı? Şaqqulu, al bu üzüyümü, apar ver, söylə sabah parasını düzəldib verərik. *(Şaqqulu gedir.)* Tabasaranski nə oldu? Dursun! *(Çağırır.)*



LAYİHƏ

D u r s u n. Tabasaranski keflənmiş, yatmışdır. Dedim, dedi, cəhənnəmə olsun hamısı, oynamasın. Deyir, mən rejissoram, belə deyirəm.

O q t a y. Bunlar Azərbaycan xalqı üçün sənət yaradacaq, mübarizə aparacaq, səhnə düzəldəcəklər. Dursun, get söylə, birinci pərdədə Həsən Xaspoladın rolunu oynasın.

M a z a n d a r a n s k i. Canım, düz gəlmir, oynamayanda qiyamət qopmaz ki...

R ü s t ə m. Oqtay, qılıncım yoxdur ha.

D u r s u n. Oqtay, İlyasgil qapıları bağlayıb meyxana deyirlər. Həsən də qumar oynayır. Qulaq asmadılar. *(Dursun gedir.)*

T a m a r a. Oqtay, daha mən gedib soyunum da.

O q t a y. İlyas! *(Getmək istərkən.)* Bir dəqiqə durun.

Ş ə k i n s k i. Bu oğlan aşiqdir Leyli adlı bir gözələ. *(Bağıraraq çıxır).*

O q t a y. Zəhrimar "Leyli adlı bir gözələ". Səkkiz saatdır camaat gözləyir, saat on birdə durub gəlmiş ki, "Leyli adlı bir gözələ".

Ş ə k i n s k i. Saat on bir haradan oldu? Nə eləyim, acından ölməyəcəyəm ki, işimi bitirməmiş durdum gəldim, deyəsən, saman yeyəcəm. Top kimi partlayır, sanki əlimə imperial-filan sayacaqdır.

O q t a y. Əzizim, quzum, gözüm, mən pul alıram, sən yox? Boynuna götürmüşsən, cəmiyyətdən utanmırsan, barı camaatdan, səhnədən utan!

X a s p o l a t. Oqtay, mən hansı qapıdan çıxacağam?

Ş a q q u l u. Heç qapı var ki, çıxasan?

O q t a y. Odur də. Xaspolat, əzizim. Bu vaxtacan haradasan?

X a s p o l a t. Vallah, Oqtay, bir-iki orucum qalmışdı, bu gün iftar açdım...

O q t a y. Oruc sənin belini sındırsın... Gəl bura, Muxan oturdu, soldan çıxdın... *(Baş əydi.)* Əyil. *(Özü əyilir.)* Əyil də!

X a s p o l a t. Oqtay, mən orada elərəm.

O q t a y. Sözünü de.

X a s p o l a t. Oqtay! Vallah, mən axşam deyərəm.

O q t a y. Canım, axşamdır də. Saat on birdir ki, evini Allah yıxmasın, hanı rolun?

X a s p o l a t. Vallah, yadımdan çıxıb evdə qalıb.

O q t a y. Of! Allah qırsın sizi. Yaxşı, baş əydin. Əy də, qardaş! Belində ağac bitməyib ki!

X a s p o l a t. Oqtay! Atam, mən oynamıram, vəssalam! Gül kimi əlimdə işim, alış-verişim.

Ş a q q u l u. Saat on ikidir. Onsuz da oyun olmayacaq, get obaşdanlığa.

O q t a y. Mazandaranski, get, bu saat get, sənə deyirəm. Xaspolat, haydı, sən də get suflyordan kitab al. Sözlərinə bax.

M a z a n d a r a n s k i *(gedərək).* Savad var ki, oxusun.

O q t a y. Şəkinski, get geyin.

D u r s u n. Oqtay, üzüyü verdim İvanovskiyə. İndi də raboçilər çıxıb gediblər. Deməli, qaldı.

O q t a y. Allah əkbər!

Ş a q q u l u. Uşaqlar soyunsunlarmı?

O q t a y. Kimsə soyunmasın, özüm işləyəcəyəm.

Ş a q q u l u. Dekorasiyaları haradan tapacaqsan, mıx yox, çəkic yox.

O q t a y (yerdən bir daş götürür). Budur çəkic. Canım çıxar özüm hər şeyi tapar, düzəldərəm.

R ü s t ə m. Oqtay, mənim qılıncım yoxdur, İvanovski vermir.

O q t a y. Get söylə, borcudur versin. Yoxsa gəlib hamısını ayaq altına tökər, parça-parça edərəm. Bu, sağ divar. Qaldır. *(Götürürlər).*

*Pərdə qalxır... O q t a y səhnə arxasındakı otağa girir.*



LAYİHƏ

O q t a y. Gün aydın!
S ə m ə d. Əlin neçin qanamış? Bağla onu!
O q t a y. Heç! Mıx dağıtdı.
S ə m ə d. Oqtay, dünən anan bizə gəlmişdi. Yalvarıb məni göndərdi, axı belə iş olmaz.
O q t a y. Səməd bəy, istəyirsiniz sözlərinizin hamısını əzbər söyləyim. Atadan sonra dükan bağlandı, malı dağıldı, evə gec gəlirsən, çörək yox, bilmirəm, odun yox. Bunların hamısını bilirəm. Nə etmək!
S ə m ə d. Dildə demək asandır. Bir ana, bir də naxoş qız qalmışlar başsız. And içir ki, üç gecədir xəstə uşaq qaranlıqda yatır. Neft almağa pul yox... Çox da bilirsən, çarə ki etmirsən.
O q t a y. Doğrudur! O zavallılar da... fəqət edə bilmirəm. Çünki Səməd bəy, mən qocaman bir xalqı, onun səadətini, gələcəyini iki nəfər qadının istirahətinə fəda edə bilmərəm.
S ə m ə d. İstirahət istəmirlər. Bir parça çörəyə nə deyirsən? Mən xalq deyə özümü şəhid edəcəyəm! Qiymət verən kimdir? Hətta doğma əmin bu gecə nişanlını özgəyə verdi ki, mən arvad tumanı geyən bir adama qız vermərəm.
O q t a y. Mən heç bir şey istəmirəm. Mən bu yola gəlirkən xalqımdan altun taclar gözləmirdim. Mən o şeyi gözləyirdim ki, onu da alıram.
S ə m ə d. Mən də xalq üçün çalışıram. Cəmiyyət də... Upravada üzvəm, fəqət elə işdir ki, adım-sanım, güzəranım. Yoxsa xalq!.. Mən özümü unudacağam ki...
O q t a y. Xalq və “mən” – bu iki söz bir yerə sığışdırılmaz. Ya mən olmalıyam, mənim üçün xalq olmamalıdır. Ya o olmalıdır, mən olmamalıyam. Mən baxdım, ikincini götürdüm. Və o gündən Oqtay bir şəxsiyyət olmaq üzrə yoxdur. O, el oğludur. O, böyük bir vahidin kiçik bir parçasıdır...
S ə m ə d. Oqtay, çocuq olma! Qubernatora dilmanc gərəkdir. Ayda yetmiş manat donluq verir. Amma kənardan yeddi-səkkiz yüz gəliri var. Həm də camaat içində adın, hörmətin. Düyü, yağ, minnətin də minnət. Mən səni göstərdim. Dedim, rüşdiyyəni bitirmiş. İdraklı, rusca-azərbaycanca gözəl savadı. Budur, yalvardı ki, göndər gəlsin. Axır ki, düzəltmişəm.
O q t a y. Çox razıyam, Səməd bəy!
S ə m ə d. Sənət sevirsənsə, eşitdim ki, səni böyük bir pul ilə rus səhnəsinə çağırırlar. Get, həm təqdir olunarsan, həm pulun... O vaxta qədər xalq anlarsa, işlər yoluna düşərsə, qayıdıb gələ bilərsən.
O q t a y. Ha-ha-ha! Aldanırsan, Səməd bəy, aldanırsan! Bunu bizimçin kim edəcəkmiş! Başqalarında səhnə, mədəniyyət, hər şey var. Bizdə yox. Yaşamaq istəyirsək, yaratmalıyıq. XX əsrin təkamülünə qarşı bu yazıq xalqı tək buraxıb qaçmağı kim özünə layiq bilirsə bilsin, mən bilmirəm...
Ş a q q u l u. Oqtay, bir dəstə adam gəldi, iyirmi nəfərədək yaxşı geyinmiş, hamısı da bilet aldı.
S ə m ə d. Oqtay, mən gedirəm. Ağlını topla. Həm çalışacaq, həm də ac qalacaqsan. Həm də xalq sənə güləcək. Arsız, oyunbaz deyəcəklər...
O q t a y. Səməd bəy, gedin! Mən heç bir zaman sizə dəyməyəcəm. Mən bir mübarizəm, cəbhəm bu! Yolum, görürəm, çox ağır. Qoy mənə gülsünlər. Anlamasınlar, söysünlər. Fəqət mən bu dərin uçurumları keçəcək, keçilməz dağları, sıldırım qayaları çeynəyib parçalayacaq və bu keşməkeşlər arasından bir səhnə, yoxdan bir var yaradacağam...
S ə m ə d. Fəqət indilik anan, yazıq bacın!..
O q t a y. Bacım da xalqdan biridir. Onları da xalq özü düşünər.
S ə m ə d. Aldanırsan. Oqtay, hər halda, görüşərik.

*Gedir. Mazandaranski gəlir.*



LAYİHƏ

M a z a n d a r a n s k i. Oqtay, Oqtay. Dörd nəfər çadralı müsəlman qadını gəlmiş, örtülü lojada oturmuşlar...

Ş a q q u l u. Yox ha! Bir baxım. *(Tələsik qaçır.)*

M a z a n d a r a n s k i. Oqtay! Oqtay! Hanı o? Kağız, kağız, hanı o?

Ş a q q u l u. Kim verdi? Səhnəyə getməyəcəksən ki...

M a z a n d a r a n s k i. Bir rus qızı, yoldaşı da var.

Ş a q q u l u. Elə onlardır. Gördün?.. Amma hayıf, onları müsəlman bilmişdim. Bir baxsana.

M a z a n d a r a n s k i. Sən qapıya bax. *(Oxuyur.)* "Möhtərəm Oqtay əfəndi!.. Məharətiniz məni çox sevindirir. Sizinlə görüşməyə müsaidə edəcək olursanız, məmnun olaram... Firəngiz". Çıx. Çıx. Daha bura sənin yerin deyildir. *(Oqtay gəlir.)* Bir rus qızı verdi.

O q t a y *(baxaraq)*. Doğrudanmı? Söylə gəlsinlər. Sən də lütfən bir dəqiqəlik. Ox!..

*Ş a q q u l u çıxır, F i r ə n g i z və N a d y a girirlər.*

N a d y a. Prostite, çto bespokoili! Ancaq bu qız rahat olmur.

O q t a y. Buyurun, buyurun.

F i r ə n g i z. Sağ olun, gedəcəyik. *(Anlaşılmaz bir sükut.)*

N a d y a. Biz rus teatrlarına çox gedirik.

F i r ə n g i z. Mən çox arzu edirəm ki, bizim də dilimizdə belə teatrlar olaydı.

N a d y a. İndi üç dəfədir ki, Aslan bəy gətirir. İlk əvvəl "Qaçaqlar"a gəldik. O qədər sevinmiş ki, o gündən adınız dilindən düşmür. Məktəbdə, evdə bir aktyor sözü danışıldımı, dərhal bizim də teatrımız var, Oqtay Karlı gözəl oynayır, deyə araya atılır. Özünüzü görmək istəyirdi. Bir aydır rahatlığı yoxdur. Ancaq Aslan bəyin qorxusundan gəlmirdik.

O q t a y. Mən çox şadam. Aslan bəy kimdir?

F i r ə n g i z. Qardaşım.

N a d y a. Uprava üzvü. İndi də ondan gizlin gəlmişik.

O q t a y. Nə cür təşəkkür edəcəyimi bilmirəm. Adətən, bizim Azərbaycan xanımları teatra gəlmir. Hamısı evlərdə...

N a d y a. Onu da qoymurlar. Atası qoymur. Qardaşı gizlindən gətirir. Evdən çıxarkən çadra örtür. Sonra Aslan bəylə gedir, o, söz demir. Ancaq bura gəldiyimizi bilsə, qiyamətdir. Ona görə pərdənin yarısında gəlmişik.

F i r ə n g i z. Siz çox gözəl oynayırsınız. Mən çox sevindim.

N a d y a. Deyir ki, Oqtay Karlı ruslardan yaxşı oynayır.

O q t a y. Vallah, xanım, o qədər mütəəssirəm ki, zəhmətinə qarşı, adətən, hər kəsdən töhmət görən zavallıları siz sevindirirsiniz...

F i r ə n g i z. Sağ olun! Mən həmişə sizin oyunlarınıza gələcəyəm. Bir də buraya gəlsək, buraxarlarmı? Mane olmaram ki?

O q t a y. Nə zaman gəlsəniz... Məni çox sevindirdiniz!

F i r ə n g i z. Mən sizin üçün çiçək gətirəcəyəm.

N a d y a. Çiçəkləri ver də, nədən utanırsan? Neçə gündür deyir ki, mən də sizin kimi öz aktyorumuz üçün çiçək aparacağam. Gətirmiş, indi də utanır. *(Firəngizin dirsəyindən itələyir. Firəngiz gözlərini yerə dikərək, çiçəkləri verincə həmən çevrilib qaçırmış kimi.)* Sağ olun. *(Gedir.)*

O q t a y. Allah amanında!



LAYİHƏ

• EVDƏ İŞ

**1. Əsərin ardını – ikinci, üçüncü və dördüncü pərdələri oxuyun, onlarda əksini tapmış mühüm fikirləri müəyyənləşdirib qısaca yazın.**
**2. Tanış olmayan sözlərin mənasını və məcazları müəyyənləşdirməyə çalışın.**
**3. Mənasını aydınlaşdırdığınız sözlərin alınma, yaxud dilimizə aid olduğunu əsaslandırın.**

| Tanış olmayan sözlər | Mənası | Öz sözümüzdür | Alınma sözdür |
|---|---|---|---|
| | | | |

**4. Yazılı qeydlər əsasında şifahi təqdimata hazırlaşın.**

• II dərs

• MƏZMUN ÜZRƏ İŞ

**1. Kiçik qruplarda birləşərək evdə oxuduğunuz pərdələrin məzmunu, tanış olmayan sözlər və məcazlarla bağlı qənaətlərinizi bölüşün.**

| Maraqlı hesab etdiyim məcazlar və onların növü | Bu məcazları maraqlı hesab etməyimə səbəb nədir? |
|---|---|
| | |

**2. Gəldiyiniz nəticələr barədə təqdimatlar əsasında fikir mübadiləsi və müzakirə aparın.**
**3. Müzakirədə aşağıdakı sualları da əhatə etməyə çalışın.**
- Tamaşa ilə bağlı məqalə aktyorlar haqqındakı təsəvvürünüzə nə əlavə etdi?
- Səhnə yoldaşlarının Oqtay barədə fikirləri düşüncələrinizdə hansı dəyişiklik yaratdı?
- Səməd–Oqtay dialoqu bildiklərinizə yeni nə əlavə etdi?
- Firəngizin Oqtaya münasibətini və bu qızın ailəsindəki vəziyyəti necə təsvir edərsiniz?
- Firəngizin “xəyanəti” barədə Oqtayda hansı düşüncələr yaranır?
- Qardaşı sürgün edilən Sevər hansı taleyi yaşayır, onun taleyi fərqli ola bilərdimi?
- Oqtay “dostları” ilə – Səməd və Xaspolatla, eləcə də Muxanla söhbətində daha çox hansı niyyətini vurğulayır, buna səbəb nə idi?

**4. Üzərində işlədiyiniz pərdələrin birindən seçdiyiniz hissənin məzmununu hazırladığınız plan əsasında yaradıcı nağıl edin.**

• EVDƏ İŞ

**1. Əsərin ardını – beşinci, altıncı pərdələri oxuyun. Onların məzmununu ümumiləşdirib bir neçə cümlə ilə yazın.**
**2. Tanış olmayan sözlərin mənasını və məcazları müəyyənləşdirməyə çalışın.**
**3. Mənasını aydınlaşdırdığınız sözlərin alınma, yaxud dilimizə aid olduğunu əsaslandırın.**

| Tanış olmayan sözlər | Mənası | Öz sözümüzdür | Alınma sözdür |
|---|---|---|---|
| | | | |

**4. Beşinci pərdənin məzmununu yaradıcı danışmağı öyrənin.**

LAYİHƏ

**• III dərs**

**• TƏHLİL ÜZRƏ İŞ**

**Aşağıdakı qaydalara əməl etməklə tapşırıqları yerinə yetirin.**

1. **Mətni oxuyun (bunu səssiz oxu, səsli oxunun dinlənilməsi və s. şəklində yerinə yetirə bilərsiniz). Sizi düşündürən suallarla bağlı parta yoldaşınızla fikir mübadiləsi aparın.**
2. **Mətnkənarı sualların cavablarını ümumiləşdirib bir neçə cümlə ilə yazın.**

| Mətnkənarı suallar | Onların ümumiləşdirilmiş cavabı |
|---|---|
| | |

3. **Kiçik qruplarda birləşib qənaətlərinizi bölüşün, gəldiyiniz nəticələr barədə təqdimatlar əsasında müzakirə aparın.**
4. **Aşağıdakı sualla bağlı mövqeyinizi müəyyənləşdirib diskussiya aparın:** *Oqtayın əsl faciəsi nədir?*
5. **Aşağıdakı suallarla bağlı fikrinizi dəqiqləşdirib debata qoşulun:** *Müəllif Oqtay obrazı ilə oxuculara nə təlqin edir? Oqtay örnək ola bilərmi?* (Debatın gedişində mövqeyinizi dəyişib fərqli fikirdə olan tərəfə keçə bilərsiniz.)
6. **Öyrəndiklərinizə hansı məzmunda əlavələr etməyin lazım olduğunu bəndlər şəklində yazın.**

> Faciə hansı mövzuda yazılmışdır? C.Cabbarlının bu mövzuya müraciət etməsinə səbəb nədir?

Mədəni tərəqqi, inkişaf etmiş xalqlarla bir cərgədə dayanmaq arzusu C.Cabbarlının, demək olar, bütün əsərlərində bu və ya digər dərəcədə ifadə olunmuşdur. Yazıçının bu məsələyə xüsusi önəm verməsi təsadüfi deyildi; düşüncələrdə geriliyin güclü olduğu, “yüksək” təbəqə nümayəndələrinin əksəriyyətini yalnız mənsəb, var-dövlət maraqlandırdığı bir zamanədə xalqın həqiqi mənafeyi uğrunda çarpışan insanların sayı az, qarşılaşdıqları maneələr çox idi. “Oqtay Eloğlu” (1922) əsərində bir sıra ciddi problemlərin bədii həlli ilə yanaşı, müəllifin mədəni inkişafla bağlı arzusu da qabarıq əks olunmuşdur. *Araşdırma əsərin mövzusu, yazıçının məhz bu mövzuda əsər yazmasının səbəbləri barədə dolğun təsəvvür qazanmağa imkan verir.*

> Faciədəki obrazlar hansı səciyyəvi xüsusiyyətləri ilə diqqəti cəlb edir?

Faciədə diqqəti daha çox cəlb edən, oxucunu – tamaşaçını dərindən düşündürən *Oqtay*, onun fəaliyyəti və uğursuz sonluqla bitən taleyidir. Milli teatr yaratmağı qarşısına məqsəd qoyan Oqtay ciddi çətinliklərlə qarşılaşır. Maddi imkansızlıq, həmkarlarının çoxunun həqiqi sənətdən uzaq olması, köhnəfikirli adamların töhməti, təhqiri, dost-tanışın, qohum-əqrəbanın ondan üz çevirməsi bu iradəli, istedadlı aktyoru ruhdan salmır. Şəxsi həyatını, rahatlığını büsbütün unudan Oqtay xalqın mənafeyi uğrunda hər kəsin bacardığını etməsini vacib sayır, gələcəyin tələb etdiyi inkişafın qarşısında “bu yazıq xalqı tək buraxıb qaçmağı” özünə layiq bilmir... Firəngizlə tanışlığı, bu səmimi qızı sevməsi Oqtaya yeni güc, yaradıcılıq həvəsi verir, onu daha qətiyyətli edir. Yeniliyi sözdə qəbul edən, Oqtay kimi namuslu sənət adamlarına, teatra alçaq nəzərlə baxan, sərvət, şöhrət qulu olan *Aslan bəy* Firəngizi Oqtaydan ayırır, özünün mənsəb məqsədlərinə qurban verir.

Oqtay sarsılır, lakin bunun səbəbini Firəngizin “xəyanəti” ilə izah etmək doğru olmaz. Bunun dərin ictimai səbəbləri var; pul, “altun dünyasındakı” yalan və sünilik, həqiqət axtarışı və həqiqətsizliyə nifrət “yatmış xalqına bahar nəğməsi

LAYİHƏ

oxuyan" Oqtayın düşüncəsində, şüurunda ikiliyin, ziddiyyətin yaranmasına, nəticədə "müvazinətini itirməsinə" səbəb olur.

Oqtayın Firəngizi qətlə yetirməsi əsər yaranandan bu günə kimi mübahisə obyekti olmuşdur. Oqtay özünə belə haqq qazandırır ki, sevdiyi Firəngizi "qara torpaqlarda sürünəcək qədər rəzil olan bu həşərat içində görmək" istəmir, onu öldürməklə yaramaz mühitdən uzaqlaşdırır, əbədiyyətə qovuşdurur. Əsərin bu hissəsinin romantik məntiqlə yazıldığını nəzərə alsaq, Oqtaya bəraət vermək olar.

Yaşadığı mühitin qurbanı olan *Firəngizin* taleyi oxucunu dərindən mütəəssir edir. Yeniliyi, teatrın yaranması və inkişafını ürəkdən arzulayan, milli təəssübkeşliyi ilə diqqəti cəlb edən bu qız Oqtayın fəaliyyətini yüksək dəyərləndirir, onu dərin məhəbbətlə sevir. Səhnəyə can atsa da, qanadsız quş timsalında olan Firəngiz yalnız sonda qətiyyətli addım atır; Aslan bəylərə, Qalaçıxanovlara qarşı çıxaraq "zavallı ananın" – səhnənin "doğma yavrusu" – aktrisası olmağa razılıq verir...

Aslan bəylə *Danyar bəyin* oxşar cəhətləri çoxdur. Pul, vəzifə, şöhrət onların həyat idealıdır. Bu bəyləri nə mədəni tərəqqi, nə də milli teatrın inkişafı maraqlandırır. Teatra getmələri, onunla bağlı üzdə xoş söz demələri "yuxarıların" yanında mədəni, inkişaf etmiş adam təsiri bağışlamaq niyyətindən irəli gəlir. Əslində, onlar üçün teatr "alçaq yer", aktyor isə "bədbəxt", "yazıq", "ləyaqətsiz" adamdır.

Oqtayı əhatə edən sənət yoldaşları ona münasibətlərinə, fərdi xarakter və əməllərinə görə bir-birindən fərqlənir. Onların, demək olar, hamısı Oqtayın səyi, təkidi sayəsində teatrda qalır, aktyorluq sənətinin sirlərini məhz ondan öyrənirlər...

Oqtayın xarakterinin, həyata baxışının açıqlanmasında *Səməd bəylə* söhbətləri əhəmiyyətli rol oynayır. Onlar bir-birinə zidd obrazlardır. Oqtayı rüşvəti olan vəzifə sahibi kimi görmək istəyən, yaxud onun rus teatrına – çoxlu qazanc arxasınca getməsində təkid edən Səməd bəy bu sənət fədaisinin ideallarını başa düşməkdən çox uzaqdır.

Faciənin maraqla oxunmasının, dəfələrlə tamaşaya qoyulmasının mühüm səbəblərindən biri onun yüksək bədii keyfiyyətə malik olmasıdır. Əsərdə diqqəti ilk cəlb edən isə qəhrəmanların fərqli nitqi, danışıq tərzidir. Oqtay danışdıqca səmimi, xeyirxah, xırda hislərdən uzaq, böyük ürək sahibi olan bir insan göz önündə canlanır. Aslan bəyin nitqi lovğa, şöhrətpərəst, mənən yoxsul olduğunu dərhal büruzə verir. Yaxud *Hacı Zamanın* elə ilk sözlərindən dini fanatizmin, xurafatın əsiri olduğu anlaşılır.

? Əsərin bədii keyfiyyətini artıran mühüm vasitələr hansılardır?

Konfliktin təbiiliyi əsərin bədii məziyyətinin artmasına əhəmiyyətli dərəcədə təsir edir. Onun əsasında burjua cəmiyyəti ilə milli mənafe uğrunda çarpışan haqiqi ziyalıların mübarizəsi dayanır.

Bədii təsvir və ifadə vasitələrinin (bənzətmə, epitet, təkrir və s.) özəlliyi, dialoq və monoloqların yığcam, təsirli olması, süjet və kompozisiya mükəmməlliyi əsərin bədiiliyini artıran mühüm vasitələrdəndir.

*Mənbələr üzrə aparılan araşdırma əsərin obrazlarının, bədii xüsusiyyətlərinin ətraflı aydınlaşdırılmasına imkan yaradır.*



LAYİHƏ

Əsərdə əhatə edilən məsələlər, bədii həlli verilən problemlər çoxdur. Bu, faciənin ideyaca zəngin olduğunu təsdiq edir. Mədəni gerilik, inkişafa qənim kəsilənlərin güclü olması, xalq mənafeyini uca tutanların, yenilik uğrunda mübarizə aparanların böyük maneələrlə üz-üzə gəlməsi, qadın hüququ və s. əsərin ideyasının əsasında dayanır. Faciənin bütövlükdə ideya-məzmunu xeyirxahlıq, dostluq, ailə münasibətləri ilə bağlı mənəvi dəyərlər barədə geniş danışmağa imkan verir.

Əsərdəki başlıca fikir – ideya nədir?

*Mənbələr üzrə aparılan araşdırma əsərin ideyasının, obrazlarının və bədii xüsusiyyətlərinin ətraflı aydınlaşdırılmasına səbəb olur.*

**• EVDƏ İŞ**

ARAŞDIRMANI DAVAM ETDİRİN

1. **Sinifdə öyrəndiklərinizi göstərilən mənbələrdən topladığınız məlumat əsasında zənginləşdirin və tamamlayın.**
2. **Araşdırma apararkən aşağıdakı sualların cavablarını da əhatə etməyə çalışın:**
   a) Əsərin ideya-məzmunu hansı mənəvi dəyərlər barədə danışmağa imkan verir?
   b) Əsərin dili üçün səciyyəvi olan cəhətlər hansılardır?
   c) Obrazların nitqinə əsasən müəllifin mövqeyini müəyyənləşdirmək mümkündürmü? Fikrinizi nümunələrlə əsaslandırın.

| Obrazların nitqindən nümunələr | Yazıçının bu obrazlarla bağlı mövqeyi |
|---|---|
| | |

   d) Faciənin kompozisiya mükəmməlliyini necə əsaslandırarsınız?
3. **Yazılı qeydlər əsasında şifahi təqdimata hazırlaşın.**

**• MƏNBƏLƏR**


1. Azərbaycan dramaturgiyası antologiyası. 4 cilddə. I cild. Bakı: Şərq-Qərb, 2007, səh.14-15.
2. XI sinif şagirdləri üçün elektron vəsait. http://edebiyyat.ucoz.com


**• IV dərs**

• TƏTBİQ
• MÜZAKİRƏ
• YARADICI İŞ

1. **Təhlil xarakterli inşa və esse ilə bağlı mənimsədiyiniz bilik və bacarıqları yadınıza salıb yığcam müzakirə aparın.**
2. **Mövzulardan birini seçib işləyin.**
   a) “Oqtay Eloğlu” əsərinin təhlili” mövzusunda inşa.
   b) “Oqtayın Firəngizi qətlə yetirməsinə haqq qazandırmaq olarmı?” mövzusunda esse.
3. **İşin icrasına ayrılan vaxt tamamlandıqdan sonra parta yoldaşınızla yazılarınızı dəyişib oxuyun. Uğurlu saydıqlarınızı və arzunuzu – nələri artırmağı və dəyişməyi lazım bildiyinizi qeyd edin.**
4. **Təqdimatlar etməklə yazılardan nümunələri müzakirə edin.**

**• EVDƏ İŞ**

1. Yazı işlərinizi təkmilləşdirib təqdimata hazırlaşın.
2. “C.Cabbarlının hekayə yaradıcılığı” mövzusunda yığcam məqalə yazın.

LAYİHƏ



**Səməd Vurğun**
(1906–1956)

Şairin yaradıcılığı xalqımızın keçmişini, bu gününü və gələcəyini əks etdirən nəhəng güzgüyə bənzəyir. Bu güzgüdə xalqın sevinci də, kədəri də, düşüncəsi də, həyatı da, folkloru da müəyyən ölçüdə öz əksini tapmışdır.

*Bəxtiyar Vahabzadə*

# SƏMƏD VURĞUNUN HƏYATI, YARADICILIQ YOLU

• ARAŞDIRMAYA HAZIRLAŞIN

1. **S.Vurğun haqqında bildiklərinizi yada salıb yığcam müzakirə aparın.** Bildiklərinizi BİBÖ cədvəlinin birinci sütununda (Bilirik) yazın. Şairin həyatı və yaradıcılığı barədə sizi maraqlandıran sualları, öyrənmək istədiklərinizi müzakirənin gedişində cədvəlin ikinci sütununda (Bilmək istəyirik) qeyd edin.
2. **Mətnkənarı sualları və onların cavablarını göstərilən qaydaya əməl etməklə oxuyun:** kiçik qruplara ayrılın, hər bir sualla bağlı (qrupların sayı çox olarsa, iki qrup eyni bir sualın üzərində işləyə bilər) mətni oxuyun.
3. **Təqdimatlar etməklə öyrəndikləriniz və araşdırılmasına ehtiyac duyduğunuz məsələlər barədə fikir mübadiləsi və müzakirə aparın. Cədvəlin üçüncü sütununda (Öyrəndik) qeyd edin.**
4. **Araşdırılmasını, zənginləşdirilməsini vacib saydığınız məsələləri bəndlər şəklində yazın.**

? S.Vurğunun uşaqlığı, gəncliyi və yaradıcılığının ilk dövrü üçün önəmli olanlar nədir?

Səməd Vurğun Qazax mahalında tanınmış nəsildən olan ailədə dünyaya gəlmişdir. Atası Yusif ağa müflisləşmiş bəy olsa da, sayılan adamlardan olmuşdur. Anasını altı yaşında itirən Səmədin qayğısına nənəsi Ayişə xanım qalmışdır. Ana nəvazişindən məhrum olan, ailənin maddi sıxıntısını daim hiss edən həssas Səmədin qəlbində dərin kədər kök salmışdı. Bunu şair ömrü boyu unutmamışdır:

Qurban bayramıydı, gülürdü dağlar,
Qonşumuz xınalı bir erkək kəsdi.
O bayram günündə anamı ağlar
Görəndə, üstümdən bir çovğun əsdi...

LAYİHƏ

Doğulduğu Yuxarı Salahlı kəndindəki rus-tatar məktəbində oxuyan Səmədin uşaqlığı fərəhsiz keçsə də, o, zəngin təxəyyüllü, xəyalpərvər bir gənc kimi yetişirdi. Atasının hər gün sazda səsləndirdiyi el havaları, aşıqlardan müntəzəm eşitdiyi dastan və nağıllar, yaşadığı bölgənin bənzərsiz təbiəti onun hiss və duyğularının zənginləşməsinə, düşüncəsinin dərinləşməsinə əhəmiyyətli təsir edirdi. Qori Müəllimlər Seminariyasının Azərbaycan bölməsinin 1918-ci ildə Qazaxa köçürülməsi, Səmədin elə həmin il ora daxil olması həyatında mühüm rol oynadı. Əla qiymətlərlə oxuyan bu çəlimsiz gənc seminariyanın ictimai işlərində, dram və musiqi dərnəklərində fəal iştirak edir, klassik poeziyanı, dünya ədəbiyyatının tanınmış nümayəndələrinin əsərlərini həvəslə mütaliə edirdi. O, seminariyanı bitirdikdən sonra 1924–1928-ci illərdə Qazax, Quba rayonlarında və Gəncədə müəllimlik etmişdir. Şeir yazmağa tələbəlik illərində başlasa da, o, müəllim işlədiyi müddətdə bədii yaradıcılıqla daha ardıcıl məşğul olmuşdur. Onun bu dövrdə yazdığı şeirlərdə nakam məhəbbətinin nisgili, küskünlük, mücərrəd romantika güclü idi:

Başına döndüyüm, əziz Şikəstə,
Dinlə məni, halı yaman olmuşam.
Qəlbdən yaralı, könüldən xəstə,
Nanı zəhər, ruzu fəğan olmuşam.

Şairin həyatının və yaradıcılığının sonrakı dönəmi üçün daha mühüm olanlar nədir?

1928–1932-ci illər şairin yaradıcılığında ciddi axtarış mərhələsi, Səməd Vurğunun “özünü yenidən qurmaq” dövrü kimi səciyyəvidir. 1929-cu ildə Bakıda, az sonra Moskvada təhsil alması onun dünyagörüşünün inkişafına, yaradıcılığında ictimai məzmunun güclənməsinə az təsir etmədi. 1931-ci ildə Bakıya dönən şair təhsilini bir müddət burada davam etdirsə də, coşqun yaradıcılıq həvəsi onu sənətin qoynuna aldı. Şairin 1930-cu ildə “Şairin andı”, 1932-ci ildə isə “Fanar” adlı şeirlər kitabı çap olundu. Bu kitablarda toplanmış şeirlərin çoxu müəllifin yeniliyə can atması, ictimai hadisələrin dərinliklərinə enmək cəhdi özünü göstərir. Bu baxımdan “Şairin andı”, “Hərəkət”, “Səriyyənin ölümü”, “Şairin səsi” şeirləri daha səciyyəvidir. Şair 1931-ci ildə çap etdirdiyi “Ölən şeirlərim” əsərində yeni dövrə qədəm qoyduğunu elan etdi. Onun “Fanar”, “Raport” şeirləri, beynəlxalq mövzuda yazdığı “Qızıl Şərq”, “Rot-Front” əsərləri ciddi irəliləyişdən, ictimai məzmuna dönüşdən xəbər verirdi.

Şeirlərini bir müddət sərbəst ölçüdə yazan şair 1932-ci ildən sonra yenidən heca vəzninə dönür, ondan uğurla istifadə etməklə siyasi-ictimai məzmunlu əsərlərini yaradır.

1933–1941-ci illər Səməd Vurğun yaradıcılığının ən məhsuldar dövrü olur. Bədii cəhətdən bir-birindən geri qalmayan lirik şeirləri (“Azərbaycan”, “Təbriz gözəlinə”, Şairin ölümü” və s.), mövzuca rəngarəng poemaları (“Komsomol poeması”nın əsas hissəsi, “Macəra”, “Muradxan”, “Ölüm kürsüsü”, “Bəsti” və s.), məşhur pyesləri (“Vaqif”, “Xanlar”), uğurlu tərcümələri (Ş.Rustavelinin “Pələng dərisi geymiş pəhləvan” əsərindən bir hissə, A.Puşkinin “Yevgeni Onegin” mənzum romanı, N.Gəncəvinin “Leyli və Məcnun”u) bu dövrün məhsuludur. Şairin həmin dövrdə, eləcə də sonrakı illərdə yazdığı əsərlərdə iki xətt özünü qabarıq göstərir: o, vətənimizi, onun tarixi keçmişini, insanlarını, təbiətini sonsuz məhəbbətlə tərənnüm etməkdən doymur. İkinci xətti isə sovet



LAYİHƏ

hakimiyyətinə, və onun aparıcı simalarına həsr olunan əsərlər təşkil edir. Maraqlıdır ki, ikinci xəttə aid olan əsərlərin çoxunda da vətənə, xalqa məhəbbət, adi vətəndaşın taleyi kimi məsələlər bu və ya digər şəkildə öz əksini tapırdı.

Faşist Almaniyası ilə müharibənin başlanması S.Vurğunun həyatında və yaradıcılığında yeni bir səhifə açdı. Şair öz mövqeyini dərhal elan etdi:

II Dünya müharibəsi şairin həyat və yaradıcılığında hansı izlər buraxmışdır?

Bilsin ana torpaq, eşitsin vətən,
Müsəlləh əsgərəm mən də bu gündən.

O, müharibənin ilk günündən sonuna kimi təkcə qələmi ilə deyil, ictimai fəaliyyəti ilə də insanları qələbəyə ruhlandırdı. Cəbhədə döyüşçülərlə görüşən şairin şeirləri əl-əl gəzirdi. Övladlarını yola salan ata-anaların arzuları, hiss və həyəcanları ("Ananın öyüdü", "Qoca qəhrəmanın dedikləri" və s.), döyüşçü obrazlarının canlandırılması ("Partizan Babaş", "Azərbaycan balası" və s.), arxa cəbhədəki insanların fədakarlığı ("Qızxanımın hünəri" və s.) şairin daha çox müraciət etdiyi mövzulardan idi. Müharibəni insanlıq üçün bəla, şər sayan mütəfəkkir şair onun fəlsəfi şərhini verməyə də çalışır. "Dörd söz", "İstiqbal təranəsi" və s. şeirlərində, "İnsan" pyesində oxucunun diqqətini məsələnin məhz bu cəhətinə yönəldirdi.

Şairin müharibə dövründə qələmə aldığı "Fərhad və Şirin" mənzum pyesi, "Ayın əfsanəsi", "Hürmüz və Əhrimən", "Bakının dastanı" poemaları ədəbiyyatımıza qiymətli töhfələr idi.

S.Vurğun müharibədən sonra ictimai fəaliyyətini daha da genişləndirmişdir. O, 1941-ci ildən 1948-ci ilə kimi Azərbaycan Sovet Yazıçıları İttifaqının İdarə Heyətinin sədri vəzifəsində işləmiş, 1945-ci ildə akademiyanın həqiqi üzvü, 1954-cü ildə isə vitse-prezidenti seçilmişdir. S.Vurğun dəfələrlə SSRİ Ali Sovetinə deputat seçilmiş, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin qərarı ilə ona "Xalq şairi" fəxri adı verilmişdir. İctimai işlər onun bədii yaradıcılığına mane olmamışdır. "Avropa xatirələri" silsiləsi, "Körpünün həsrəti", "Bəstəkar", "Şair, nə tez qocaldın sən", "Yada sal məni", "Mən tələsmirəm" və s. şeirləri fərqli mövzularda olsa da, poeziyamızı ideya-bədii cəhətdən zənginləşdirən misilsiz sənət nümunələri kimi dəyərlidir. Şairin bu illərdə qələmə aldığı "Zəncinin arzuları" (1948), "Muğan" (1948–1949), "Aygün" (1950–1951) və s. poemaları hadisələrin, qəhrəmanların taleyinin geniş epik təsviri ilə seçilir.

Müharibədən sonrakı dövr şairin həyat və yaradıcılığı üçün hansı cəhətləri ilə əlamətdar olmuşdur?

Fəaliyyətinin coşqun bir dövründə – 1955-ci ildə şair ağır xəstələndi. Sağalmaz xəstəliyə tutulan böyük sənətkarın 50 illik yubileyi 1956-cı il may ayının 12-də keçirildi. Bu yubileyi sevinc və təntənə ilə qeyd edən xalq az sonra – mayın 27-də şairin vəfatından matəmə batdı. Onu son mənzilə yola salmaq üçün on minlərlə insan paytaxta yığışmışdı. Xatirəsi əbədiləşdirilmiş, Bakıda heykəli ucaldılmışdır. Azərbaycanın xalq şairi fəxri adı ilk dəfə 1956-cı ildə Səməd Vurğuna verilmişdir.

LAYİHƏ

• EVDƏ İŞ

ARAŞDIRMANI DAVAM ETDİRİN

**1. Sinifdə öyrəndiklərinizi, araşdırılmasına ehtiyac duyduğunuz məsələləri göstərilən mənbələrdən topladığınız məlumat əsasında zənginləşdirin və tamamlayın.**

**2. Araşdırma apararkən aşağıdakı sual və tapşırıqların cavablarını da əhatə etməyə çalışın:**

a) S.Vurğunun lirik şeirlərini mövzu baxımından qruplaşdırın. Hər qrupun özəlliyini müəyyənləşdirin.

b) Şairin poemalarını mövzu baxımından qruplaşdırın. Hər qrupun özəlliyini müəyyənləşdirin.

**3. Yazılı qeydlər əsasında təqdimata hazırlaşın.**

**4. Mövzulardan birini seçib işləyin:**

a) "S.Vurğunun dramaturgiyası" mövzusunda məruzə yazın.

b) "S.Vurğunun ictimai fəaliyyəti" mövzusunda yığcam məqalə yazın.

• MƏNBƏLƏR

1. XI sinif şagirdləri üçün elektron vəsait. http://edebiyyat.ucoz.com.
2. S.Vurğun. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2005. səh. 5-7, 10-11.

# VAQİF

*(ixtisarla)*

• I dərs

• MƏZMUN ÜZRƏ İŞ

## OXUYA HAZIRLAŞIN

**Sualların üzərində düşünün, cavabları cədvəldə qeyd etdikdən sonra fikir mübadiləsi və müzakirə aparın.**

– Həqiqi sənətkarın – şair və yazıçının xalqa bağlılığı, sizcə, özünü nədə göstərməlidir?

| Həqiqi xalq sənətkarının xalqın həyatı və taleyi ilə bağlılığını nədə görürəm? |
|---|
| |

– Ədəbi qəhrəman kimi hansı yazıçı və şair obrazı ilə tanışsınız?

| Tanış olduğum şair və yazıçı obrazları | Onların xarakter və əməllərində diqqətimi cəlb edənlər |
|---|---|
| | |

**Aşağıdakı qaydalara əməl etməklə əsərdən verilmiş parçanı oxuyun:**

**I**

1. Əsərdən bir səhifə həcmində rollar üzrə oxunur.
2. Müəyyənləşdirilmiş cütlər mətni oxuyanlara növbə ilə suallar verir. Cavablar cütləri qane etməsə, digər şagirdlərin cavabları dinlənilir, bu, ortaq məxrəcə gəlincəyə qədər davam edir.
3. Cütlər və mətni oxuyanlar əvəz edilir, sonrakı səhifələrin oxusu da bu qayda ilə davam etdirilir.
4. Nəzərdə tutulan parçanın oxusu başa çatdıqdan sonra seçilmiş hissələrin məzmununu bir neçə şagird yığcam nağıl edir.

**Unutmayın:** Suallar əsərdəki əsas fikirlərin aydınlaşdırılmasına, faktların dəqiqləşdirilməsinə, nəticələrin çıxarılmasına imkan yaratmalıdır.

**II**

**Əsərdən oxuduğunuz parça hansı milli-mənəvi dəyərlər barədə danışmağa imkan verir?**



LAYİHƏ

**İ ş t i r a k  e d ə n l ər:**

Va q i f – XVIII əsrin məşhur Azərbaycan şairi
A ğ a  M ə h ə m m ə d  ş a h  Q a c a r – İran hökmdarı
V i d a d i – Vaqifin müasiri və yaxın şair dostu
İ b r a h i m  x a n – Qarabağ xanı
E l d a r – xanlıq zülmü və Qacar basqını əleyhinə üsyan qaldırmış kəndlilərin başçısı
K ü r d  M u s a, A r ş ak – Eldarın dəstəsindən
X u r a m a n – Vaqifin arvadı
Ə l i  b ə y – Vaqifin oğlu
G ü l n a r – Əli bəyin sevgilisi
Ə m i n ə – Gülnarın anası
T ü k ə z b a n – Vidadinin arvadı
V ə z i r – Qacarın vəziri
T ə l x ə k – İbrahim xanın təlxəyi
Ş a l i k o, T a m a r a, k i ç i k  g ü r c ü – Qacar tərəfindən əsir alınmış gürcülər
Ş e y x  A l ı – Qarabağ şeyxi
İ l y a s – Eldarın dəstəsinə soxulmuş casus
S ə r k ə r d ə – Qacar qoşunlarının sərkərdəsi
Z ü l f ü q a r, T e y m u r – Qacarın əleyhdarlarından
Ə h m ə d  k i ş i, Q u r b a n  k i ş i – kəndlilər
Q a s ı m, M u r a d – çobanlar
Kəndlilər, qaçaqlar, əsgərlər, elçilər və b.

## BİRİNCİ PƏRDƏ

**Birinci şəklin qısa məzmunu.** *Vidadinin namaz üstündəki sözlərində, arvadı Tükəzbanla söhbətində zamanədən narazı olduğu aydın duyulur. Cavad xanın elçiləri Vidadini saraya dəvət edirlər. O, dəvəti qəbul etmir. Qarabağ xanının sarayında yaşayan Vaqif gözlənilmədən gəlir. İki dost səmimi görüşür. Vaqif kəndlilərlə mehriban söhbət edir. Hiss olunur ki, Vaqifin ürəyi xalqın yanındadır. Vaqif gəlişinin səbəbini açıb söyləyir; o, Vidadini və Tükəzbanı Əli bəyin toyuna dəvət edir. Vidadi dəvəti qəbul edir.*

## İKİNCİ ŞƏKİL

*Şuşa qalası. Xan sarayı. Vaqifin evi. Toy məclisi, oyun. İbrahim xan yanında da adamları gəlir. Hamı qalxıb, xana baş əyir.*

İ b r a h i m  x a n. Çox gözəl, Vaqifi çağırın görək...
Bəy öz toyunda oynasın gərək!
*Əli bəy oynayır. Vaqif gəlir.*
İ b r a h i m  x a n. Vəzir, xeyir işiniz xeyli mübarək!
Ağ günlərə çıxsın sizin Əli bəy!
Ancaq çıxarmasın bizi yadından...
V a q i f. Görək, bu növrağı pozmasa zaman...
İ b r a h i m  x a n. Yenə də şikayət? Gəl inan ki, sən
Nə qədər mən sağam, kef edəcəksən!

*Eşikdə tüfəng atılır və “ura” səsləri ucalır, gəlini gətirirlər.*



LAYİHƏ

Y e n g ə. Anam, bacım, qız gəlin,
Əli-ayağı düz gəlin,
Yeddi oğul istərəm,
Bircə dənə qız, gəlin!..

V a q i f. A qızım, üzündən götür duvağı,
Qoy açıq görünsün ayın qabağı.
Açıq yaşamışdır bizim nənələr,
Kəfəndir, a balam, sərapərdələr…

*Hamıda heyrət, həyəcan görünür; gəlini o biri otağa aparırlar.*
*Bu arada Eldar çiynində bir quzu içəri daxil olur.*

V a q i f. Of… dostum, qardaşım, xoş buyurmusan,
Səndə dağ havası duyuram, inan!
Sizdən ayrılmayır könlümün quşu,
Ellərdə görürəm hər qurtuluşu.

E l d a r. Möhtərəm şairə salamlar olsun,
Bu dünya durduqca o da var olsun!

İ b r a h i m x a n *(ətrafa)*.
Aha… heç saymayır bu hərif bizi,
Görünür dadmamış qüvvətimizi…

Ş e y x *(İbrahim xanın qulağına)*.
Bir bax gözlərinə… Baxışı qandır,
Kəndə qarışıqlıq salanlardandır.

İ b r a h i m x a n. Vəzir, çoban-çoluq məclisidir bu?

V a q i f. Düzü, gözləməzdim heç sizdən bunu.

İ b r a h i m x a n. Necə gözləməzdin, lap yersiz, nahaq,
Yox bir başa keçsin çiynində çomaq…

V a q i f. Əziz qonağımdır, dostumdur Eldar.

İ b r a h i m x a n. Xanın hüzurunda nə ölümü var?

V a q i f. Bu mənim evimdir, siz qonaqsınız,
Qonağı sevərlər, lap nahaqsınız…

İ b r a h i m x a n. Qonağı, qonağı – qonağa bir bax,
Hər yoldan ötəni başa çıxardaq!

V a q i f. Onun görkəmindən iyrənməyin siz,
Bir kəndli babadır, vicdanı təmiz,
Dilindən düşməyir gözəl nağıllar;
Ən böyük ürəklər, yetkin ağıllar
Ellər dünyasında yetişir, bilin!
Namusu, vicdanı təmizdir elin!

İ b r a h i m x a n. Doğrusu, yorulub bezikmədin sən
Elə, durub-durub ellər deməkdən?

E l d a r *(Vaqifə)*. Canım, dalaşmayın, mən gedim…

V a q i f. Dayan!
Başqadır könlümdə gülən xaniman…

İ b r a h i m x a n. Getsin gərməsini ayaqlamağa!

E l d a r. Buyruq sizinkidir, möhtərəm ağa,
Ancaq olmasaydı kasıb kəndlilər,
Bunca qudurtmazdı sizi simü-zər…

*Eldar məclisi tərk edir. Onu tutmaq istəyirlər, adamlar arasında iğtişaş düşür.*



LAYİHƏ

İ b r a h i m x a n. Qoymayın, tez olun, tutun Eldarı!
Ona da göstərin daş zindanları!..
*(Vaqifə tərəf.)*
Qudurtdun bunları, doğrudan da, sən,
Bəlkə də, özünsən ona dil verən?

V a q i f. Xeyr, yanıldınız, ona dil verən
Göz ilə dünyada alovlar görən
Kəndistan yeridir, bəli, kəndistan!
Bəzən tanrıya da ağ olur insan...

İ b r a h i m x a n *(qəzəblə çıxaraq).*
Yaxşı, danışarıq...

*Toy adamları dağılır. Vaqif gəzinir. Vidadi heyrətdədir.*

V a q i f. Bu da haqqı-salam, bu da duz-çörək...
Dünyada dərd varmı mənim dərdimtək?..
Bu xan bir ilanmış, saray – yuvası,
Zəhrimar qoxuyur onun havası.

V i d a d i. Vaqif, sabah məni yola sal gedim,
Torpaq evciyimi ziyarət edim.
Ordadır dünyanın zövqü, ləzzəti.
Sən də öz boynundan at bu minnəti.
Kəndimizə qayıt!..

V a q i f. Yox, qayıtmaram!
İş ki belə düşdü – meydanda varam!

V i d a d i. Əl çək bu tərslikdən, qulaq as mana!

V a q i f. Ölsəm də, ölməyim xoşdur mərdana!

V i d a d i. Sən öz dediyindən dönməyəcəksən,
Səni yalqız qoyub gedəmmərəm mən.

Ə l i b ə y *(gəlir).* Ata, həbs etdilər yazıq Eldarı!

V a q i f *(mənalı).* İnsan uçuracaq daş zindanları,
Zəncirsiz, zindansız günlər gələcək,
Bizə təsəllidir böyük gələcək...

Ə l i b ə y. Bəs Eldar nə olsun?

V a q i f. Heç, nə dərdi var,
Vaqif ölməmişdir, onu qurtarar.
*(Vaqif qolunu oğlunun boynuna dolayaraq.)*
Oğlum, xeyir işin olsun mübarək,
Dünyanın kefini, ləzzətini çək!
Mənim də ürəyim hələ cavandır,
Yaşayaq birtəhər, bu da zamandır...

*Vaqif Əli bəyin alnından, Əli bəy də Vaqifin əlindən öpür, o, eləcə də Vidadi ilə öpüşüb gedir.*

V i d a d i. Ağıllı baladır, Allah saxlasın.

V a q i f. Könlümdə dünyanın min sirri vardır,
Ah, duyan, düşünən nə bəxtiyardır...
Dəryalar üstündə süzən sonalar!
Siz, ey göy üzündə uçan durnalar!
Deyin, xoşbəxtəmmi?..
*Xuraman gəlir.*

X u r a m a n. Kişi, bu nə işdir? Küsüb getdi xan?!

V a q i f. Qoy küssün özünün qanacağından! *(Gedir.)*

X u r a m a n. Bir el ağasıydı əvvəlki ərim:
Öz qapım, öz evim, öz nökərlərim;
Hamsı qulluğumda hazır durardı,


LAYİHƏ

Rəhmətlik gündə bir məclis qurardı…
Buna da bir "böyük vəzir" dedilər,
Başımı, beynimi ovub yedilər.
İnandım, dedim ki, nə xəyalı var,
Yəqin ki, bunun da öz cəlalı var.
Bu ki qoltuqlarda gəzib-dolanır,
Çox vaxt da su kimi rəngi bulanır:
Elə dərd tökülür qaşqabağından…
Amma çox razıyam qanacağından:
Şairdir, görünür, düz ilqarı var,
Nə gözəl, nə şirin kəlamları var…
Eh… bir də bunlardan mənə kar aşmaz…

*Vaqif gəlir.*

V a q i f. Nə var, fikirdəsən sən, ey sərvinaz,
Amandır, örtməsin, ey nazlı nigar,
O ay camalını qara buludlar!

X u r a m a n. Niyə, nə dərdim var, Allaha şükür!
Hara baxıramsa, xeyir görünür…

V a q i f. Yox… Sənin səsində bir titrəyiş var,
Gəl məndən gizləmə, aç, söylə aşkar!

X u r a m a n. Heç… Bir az incidir məni bu qürbət.

V a q i f. Yox, bu da olmadı, düz danış, afət!
Yalan yaraşmayır gül dodaqlara…

X u r a m a n. Bıy… Yaxşı, nə deyim mən bəxtiqara?

V a q i f. Aha… bundan danış… danış görüm, sən
Niyə öz bəxtinə qara deyirsən?

X u r a m a n. Deyirlər ki, sən…

V a q i f. Nə, təzə xəbər?..

X u r a m a n. Nə bilim, doğrusu…

V a q i f. Danış!

X u r a m a n. Deyirlər
Səni vəzirlikdən qovlayacaq xan!

V a q i f. Ha… ha… Bəs elə bu?

X u r a m a n. Bəli.

V a q i f. Xuraman!
Xuraman! Gör nəyin xəyalındasan!
Qəfəsdə quş kimi yaşayıram mən.
Nə sənin gördüyün bu saray, bu yurd,
Nə də dişlərində qan donan o qurd
Bu tərlan könlümü ovlaya bilməz!
Dərdin elə busa, lap arxayın gəz!

X u r a m a n. Bəs səni… Bəs səni…

V a q i f. Nə? Çıxarsalar?

X u r a m a n. Necə dolanarıq, dilənçilərtək…

V a q i f. Bizə qəhət olmaz bir parça çörək,
Qorxma, bəxtinə də söyləmə qara;
Kaş ki düşməyəydim bu saraylara,
Yanıldım, doğrusu, uyub aldandım,
Başqadır könlümdə mənim ilk andım…

X u r a m a n. Elə şirin-şirin danışmağın var.

*(Başqa otağa keçir.)*

V a q i f. Yox, sərraf gözüdür mənim bu gözüm,
Özüm tutduğuma heyranam özüm…



LAYİHƏ

Gözüm su içməyir heç Xuramandan…
Onu başqa ruhda böyüdüb zaman.
Deyəsən, şöhrəti çox sevir qadın,
Ah… mənsəb!.. Ah, şöhrət!.. Yaranmasaydın!..

• EVDƏ İŞ
ARAŞDIRMANI DAVAM ETDİRİN

1. **Əsərin davamını (3–6-cı şəkillərin qısa məzmununu, 7-ci və 8-ci şəkilləri) nəzərdən keçirin. 7-ci və 8-ci şəkillərdəki başlıca fikirləri müəyyənləşdirib qısaca yazın.**
2. **Tanış olmayan sözlərin mənasını aydınlaşdırın.**
3. **Mənasını aydınlaşdırdığınız sözlərin (beşdən az olmayaraq) alınma, yaxud dilimizə aid olduqlarını əsaslandırın.**

| Tanış olmayan sözlər | Mənası | Öz sözümüzdür | Alınma sözdür |
|---|---|---|---|
| | | | |

4. **Daha maraqlı hesab etdiyiniz məcazları yazın.**

| Maraqlı hesab etdiyim məcazlar və onların növü | Bu məcazları maraqlı hesab etməyimə səbəb nədir? |
|---|---|
| | |

5. **Şifahi təqdimata hazırlaşın.**

## İKİNCİ PƏRDƏ

**Üçüncü və dördüncü şəkillərin qısa məzmunu.** İbrahim xan qonşu dövlətlərin təzyiqlərindən narahatdır. Vaqifdən məsləhət almaq istəyən xan ondan məzəmmət eşidir; vəzir xanı zalımlıqda, xalqla ədalətsiz rəftar etməkdə günahlandırır.

Vaqifin Qacara yazdığı sərt cavab məktubu göndərilir.

Qızına baş çəkməyə gələn Əminəni Vaqifin evindəki mehribançılıq sevindirir. Xuraman isə başqa cür fikirləşir. Vaqifin fikirli-düşüncəli davranışı, var-dövlətə biganə olması onu açmır. İbrahim xandan göstəriş alan qarı və Şeyx, Xuramanı Vaqifdən boşanaraq İbrahim xana ərə getməyə razı salırlar. Əhvalatdan xəbərdar olan Gülnar Xuramanın qərarını Vaqifə bidirir. Vaqif sarsılır, lakin Əli bəyin Xuramanı cəzalandırmasına icazə vermir.

## ÜÇÜNCÜ PƏRDƏ

**Beşinci və altıncı şəkillərin qısa məzmunu.** Ordugahında Qarabağ xanından cavab gözləyən Ağa Məhəmməd şah Qacarı Vaqifin yazdığı məktubun məzmunu hiddətləndirir. Şuşanın təslim edilməyəcəyini bilən Qacar qəzəbini soyutmaq üçün əsir gürcü qardaşlarını bir-biri ilə vuruşmağa məcbur edir. Qarışıqlıqdan istifadə edən qapıçı gürcü əsirlərinin – Tamaranın və qardaşlarının qaçmasına imkan yaradır. Onlar dağlarda məskən salan qaçaq Eldarın dəstəsinə rast gəlirlər. Eldar gürcüləri hörmətlə qarşılayıb qonaq edir, sonra vətənlərinə yola salır. Əli bəy vasitəsilə Vaqifdən sifariş alan Eldar Qacarın qoşununa hücuma keçir.

## YEDDİNCİ ŞƏKİL

*Dağlıqdır, arxada şiddətli top səsləri, tüfəng səsləri eşidilir. Dağ arxasından, Qacarın ordusu tərəfindən yandırılmış kəndin alovları göyə qalxır. Uzaqdan arvad-uşaq fəryadları eşidilir.*

Q a c a r *(yanan kəndin alovlarını dağ başından seyr edərək.)*
Yan, yan, tərlanların yaşıl yuvası!
Ruhuma can verir ölüm havası…
Çıxsın asimana odlar, alovlar,



LAYİHƏ

Göylərdən od töksün yerə ruzigar!
Yan, yan! Kömür olsun hər qaya, hər dağ,
Baş əysin hökmümə bütün Qarabağ!
... Mənim vicdanım da, qəlbim də qandır,
Dünya qan üstündə bir xanimandır...

V ə z i r. Buyruq sizinkidir, adil hökmdar,
Sizdə fəzilət də, ədalət də var.

Q a p ı ç ı *(qaçaraq yaxınlaşaraq.)*
Şahım! Bağışlayın, hüzurinizə
Bir kəndli gəlmişdir, sözü var sizə.

Q a c a r. De, gəlsin!

Q a p ı ç ı. Gəl, ata, gəl, budur Qacar!

*(Qoca kəndli yaxınlaşır.)*

Q o c a. Sizə bir sözüm var, böyük hökmdar!
Mən bu yanan kəndin ağsaqqalıyam,
Ellərin dərdindən bir az halıyam.
Yanır od içində körpə uşaqlar,
Bizim kəndlilərin nə təqsiri var?
Əmr edin, dayansın yanğınlar, barı,
Xaraba qoymayın bu obaları!
Bu dağlar qoynunda aslan yatmışdır,
Burda Koroğlular at oynatmışdır...

Q a c a r *(hiddətlənərək qocanın səsini kəsir.)*
Yaxşı, sus, qoca köpək!
*(Kinayə ilə.)*
"Burda Koroğlular at oynatmışdır..."

*Qacar gedir.*

Q o c a *(Qacarın arxasınca.)*
Ah, cəllad, bimürvət! İndi qulaq as,
Süleyman dünyası sənə də qalmaz.

*(Qalxıb gedir. Qacar yenə qayıdır. Qaya başında dayanır. Bu arada Qacarın sərkərdəsi tələsik gəlir.)*

S ə r k ə r d ə. Şahım! Arxa cəbhə çox qorxuludur,
Elə bil, doğrudan, cahan yoludur...
Eldarın dəstəsi gəlir irəli,
Qırır sərçə kimi bizimkiləri;
Odur, yaxınlaşır! Gizlənin, barı...
Oralar çox bərkdir...

Q a c a r. Çəkin atları!
Bir bölük göndərin arxaya sarı,
Qabağı saxlasın gizlənincə biz.

S ə r k ə r d ə. Budur, burdadır ki, əsgərlərimiz.

*(Qapıçı gəlir.)*

Q a p ı ç ı. Şahım! Qarabağın şeyxidir gələn.

Q a c a r. De, gəlsin!

*(Şeyx bir dəstə əyan ilə gəlir.)*

Ş e y x. Ey şahım! Ey fəxri-vətən!
Sizin yolunuzu gözləyirdik biz,



LAYİHƏ

Sizə duaçıdır nəsillərimiz…
Buyurun, qapımız açıqdır sizə;
Yurdu tapşırırıq əllərinizə.

Q a c a r *(kinayə ilə.)*
Yaxşı, bəs nə oldu, o İbrahim xan?

Ş e y x. Siz arxayın olun İbrahim xandan!
Bu gecə qaçmışdır o, Dağıstana!

Q a c a r. Ha… ha… ha… Qaçmışdır kələbaş dana!
Yaxşı, qoşul bizə, bizimlə də get,
Bu vəhşi dağlarda bələdçilik et!

Ş e y x. Buyurun, buyurun!

*(Gedirlər. Bir bölük əsgər danışa-danışa qabağa gəlir.)*

T e y m u r. Əlimiz, dişimiz, tüfəngimiz qan,
Yorulub bezmədik vuruşmalardan…
Dünyadan doymadı şahların gözü,
Lap cana doymuşam bunlardan, düzü.

Ə s g ə r. Dava meydanında bir əsgərik biz,
Nə desə, hazırıq öz sərkərdəmiz,
Sən nə danışırsan?..

T e y m u r *(kinayə ilə.)*
"Bir əsgərik biz!.."
Yıxır evimizi öz əllərimiz…
Axmaq! Bu dediyin davalarda sən
Gülləyə rast gəlib it kimi ölsən,
Şahların keyfindən nə azalacaq?

Ə s g ə r. Orduya pozğunluq gətirmə, sarsaq!
Bizi qırıb tökür bir qaçaq Eldar.

T e y m u r. Nə qədər qırsa da, onun haqqı var;
Bu torpaq onundur!

Ə s g ə r. Aha!.. satqınsan!

*(Qılınc vuruşuna keçirlər. Əsgərlər toplaşıb, iki tərəf olub vuruşurlar. Bu halda Eldarın dəstəsi görünür. Vuruşma gedir. Teymur və bir neçə əsgər Eldar tərəfə keçirlər.)*

Teym u r. Biz də sizinləyik, gəlin, qardaşlar!

E l d a r. And için qılınca!

*(Əsgərlər qılınca and içirlər. Vuruşma davam edir. Qacarın əsgərləri qaçmağa məcbur olurlar. İlyas arxadan Eldarı vurmaq istəyir, tüfəng açılmır, ikinci dəfə atana qədər Kürd Musanın gülləsi onu yıxır.)*

E l d a r. Bu nədir, ay Musa?!

K ü r d M u s a. Nolacaq?! Heyvan
Vurmaq istəyirdi səni arxadan.

E l d a r. Yaxşı, di durmayın, dayanmaq olmaz!

K ü r d M u s a. Tələsmə, gözləyək burdaca bir az,
Arxada qalanlar gəlib çatsınlar.

*(Bu arada Əli bəy bir neçə adamla tələsik gəlir.)*

Ə l i b ə y. Ayə, hardasınız?.. Eldar, ay Eldar!

E l d a r. Əli bəy, sən hardan? Tez ol, bir danış!


LAYİHƏ

Əli bəy. Eldar! Daha bizə ümid qalmamış,
Çəkilin meşəyə, çəkilin, Eldar!
Nahaq qırılmasın bizim adamlar.

Eldar *(hirsli.)*
Əli bəy! Nə olub? Bir danış, niyə,
Sən nə danışırsan? Necə, geriyə?

Əli bəy. Qaçdı tülkü kimi, qaçdı qabaqdan…
Qaçdı İbrahim xan, açıldı yollar,
Bizə qəh-qəh çəkib güləcək Qacar…

Eldar. Yox… yox… basılmaz Vətən!
Hələ bu dağlarda ölməmişəm mən.
Durmayın, çəkilin tez meşələrə!
Bizim yuvamızdır bu dağ, bu dərə.
Böyük bir qüvvətlə yenə gələrik,
Qacarın üstünə biz də gülərik.

*(Eldar gedir, adamları da onun arxasınca geri çəkilirlər.)*

## SƏKKİZİNCİ ŞƏKİL

*Qarabağ. Şuşa qalası. Xan sarayı. Qacarın kef məclisi. Məclisdə əyanlar, bəylər iştirak edirlər.*

Qacar *(böyük bir qürurla.)*
Keçdi pəncəmizə gözəl Qarabağ,
Öpsün qılıncımı hər qaya, hər dağ.
Mən Qacar nəsliyəm, şahlar şahıyam,
Mən də yer üzünün bir Allahıyam.
Gərək biz qoymayaq daşı daş üstə,
Atın yığın-yığın leşi baş üstə!..

Vəzir. Buyruq sizinkidir, adil hökmdar,
Sizdə fəzilət də, ədalət də var.

Şeyx. Ey böyük hökmdar! Ey ulu Qacar!
Sizdəki qüvvətə baş əyir dağlar.
Biz də sayənizdə ömür sürürük,
Bu fani aləmdə ağ gün görürük.
Sizə kömək olsun böyük Yaradan,
Bu müqəddəs kitab, müqəddəs "Quran".

Qacar *(xanəndələrə kinayə ilə.)*
Belə deyirlər ki, ağladır yeri
Sizin Qarabağın xanəndələri.
Hünəriniz varsa, bir "Rast" oxuyun!

Xanəndə *(oxuyur.)*
Gözüm yollarda qalmışdır, xəbər yox Kür qırağından,
Usanmaq bilməyir könlüm yaşılbaşlar sorağından…
Çəmənlər, yasəmənlər göz vurub min cilvə göstərsə,
Durar könlüm, çıxar seyrə həyatın qəm otağından…
Keçər aylar, keçər illər, yaz, ey Vaqif, ömür azdır,
Düşər bir gün laçın könlün şeir-sənət marağından.



LAYİHƏ

Q a c a r. Qəzəl Vaqifindir?
Ş e y x. Bəli, Vaqifin!
Q a c a r. Nə oldu? Onu tez tapıb gətirin!
*(Sərkərdə baş əyib çıxır.)*
Vəzir! Bu, doğrudan, böyük qüdrətdir,
Hər sözü, söhbəti canlı sənətdir.
Böyük təhlükədir bu şair bizə,
Sən nə fikirdəsən?
V ə z i r. Nə deyim sizə,
Buyruq sizinkidir, adil hökmdar,
Sizdə fəzilət də, ədalət də var.
Ş e y x. Şahım! Təhlükədir Vaqif, doğrudan,
Onu gözünüzdən qoymayın bir an…
Deyir, qanunlarda yoxdur həqiqət,
Deyir ki, pərdədir bütün şəriət.
Nədənsə el-oba çox sevir onu,
Bilməyir bu qədər tərs olduğunu.
Bir də, bərk dostudur o qaçaq Eldar –
Sizin düşməniniz, bəli, o murdar!
Vaqif yaşadıqca – qorxudur bizə,
Şair görünməsin gözlərinizə!..

Q a c a r. Yazdığı cavabdan bilmişəm onu,
Dayan, sovuraram göyə tozunu!
Qoy gəlsin, əylənib gülüşək bir az,
Bizim dilimizi o bağlayammaz.
*(Vaqifi gətirirlər.)*
Q a c a r *(heyrətlə.)* Aha… baş əyməyir hüzurumda bu!
Ş e y x. Yoxdur vicdanında qanun qorxusu.
Q a c a r *(Vaqifə.)* Şair, hökmdarın hüzurundasan!
V a q i f. Bunu sizsiz belə düşünürəm mən.
Q a c a r. Bəs baş əymədiniz?
V a q i f. Əymədim, bəli!
Əyilməz vicdanın böyük heykəli.
Q a c a r. Qılınclar toqquşub iş görən zaman,
Neynər dediyiniz quru bir vicdan?
V a q i f. Vicdan dedikləri bir həqiqətdir –
Beşiyi, məzarı əbədiyyətdir…
Q a c a r. Bəs zindan necədir, qaranlıq zindan?!
V a q i f. Soyuq məzara da zinətdir insan.
Q a c a r. Yenə göylərdədir şair xəyalın?
V a q i f. Əzəldən hüdudu yoxdur kamalın…
Q a c a r. Aha… sınayırdım idrakınızı,
Doğrudan, bir şair görürəm sizi,
Xoşbəxt xəlq eləmiş sizi Yaradan!
V a q i f. Dünyada qalacaq yalnız yaradan!..
Q a c a r. Çox gözəl, çox gözəl, inanın ki, mən
Sizin ruhunuzu sevdim ürəkdən.
Bu dövlət, bu cəlal, bu şanlı saray,


LAYİHƏ

Göylərin büsatı o ulduz, o ay
Sizə tapşırılsın bu gündən gərək.
Ancaq bir şərtim var.

V a q i f. Buyurun görək!

Q a c a r. Gərək fars dilində yazsın sənətkar.

V a q i f Farsın öz qüdrətli şairləri var,
Nə çoxdur onlarda böyük sənətkar.
Bizim bu dağların oğluyam mən də,
Az-az uydururam yeri gələndə.

Q a c a r. Yaxşı, gəl əl götür bu inadından,
Bu qədər naşükür olmasın insan!

V a q i f. Aldada bilməmiş dünyanın varı
Bir məslək eşqilə yaşayanları!
Mən ellər bağında azad bir quşam,
Mənsəbə, şöhrətə satılmamışam!..

V ə z i r. Ayağı çarıqlı kiçik bir ölkə
Böyük Firdovsilər yaratdı bəlkə?..

V a q i f. Dayan! Bu bağçanın hər bir budağı
Üstündə min çiçək, min gül bitirmiş,
Sizin güldüyünüz çoban torpağı
Nizamilər, Füzulilər yetirmiş!

Q a c a r *(kinayə ilə.)* Nizamiyə bax… Füzuliyə bax…

V a q i f. Günəşi örtsə də qara buludlar,
Yenə Günəş adlı bir qüdrəti var.

Q a c a r. Görünür, Günəşə iştahan vardır.

V a q i f. Günəşdən gizlənən yarasalardır…

Ş e y x. Buna qulaq asmaq çətin peşədir.

V a q i f. Niyə, qulağınız çoxdan şeşədir –
Böhtan eşidəndə qızarıb yanar,
Doğru söz gələndə pambıq tıxanar.

V ə z i r. Sizin sözünüzün kəsəri azdır.

V a q i f. Oxuyan bülbüldür, dinləyən qazdır!

V ə z i r. Of… məndə olsaydı bundakı hünər!..

V a q i f. Ağılsız köpəklər ulduza hürər.

Q a c a r *(vəzirə.)* Di, ver cavabını, nə durmusan? Din!
Hə… yenə döyükür sarsaq gözlərin!..

V a q i f. Neynəsin, yazığın nə təqsiri var?
İşıq güclənəndə çaşar qarovlar…

Ş e y x *(kinayə ilə.)* Şairə sənətdir tikanlı sözlər.

V a q i f. Sözdən qızarmaz ki, bozarmış üzlər…
*(Qapıçı daxil olur.)*

Q a p ı ç ı. Şahım, bir qoca var, gəlsin içəri?

Q a c a r. De, gəlsin.
*(Vidadi daxil olub təzim edir.)*

V i d a d i. Hakimin hökmü, hünəri
Onun vicdanilə qardaş olmalı!
Bizə qalmayacaq dünyanın malı…
*(Vaqifi göstərərək)*
Şairdir… qəlbi var, şirin sözü var,



LAYİHƏ

Böyük bir ölkənin onda gözü var,
O ölsə... dağlar da dil deyib ağlar,
Əfv edin... yaxşılıq qalır yadigar.

Q a c a r. Dinin düşmənidir, o ölsün gərək!

V i d a d i. Xeyr! O, Vaqifdir, eşqə gələrək
Bəzən qamçılayır zəmanəsini,
Allah da çox sevir şeirin səsini.

Q a c a r *(acıqlı.)* Allah da çox sevir? Allaha yalvar,
Onun məndən də çox ədaləti var,
Əgər bacarırsa, qoy sağ saxlasın...

V i d a d i. Siz hökmdarsınız...

Q a c a r. Yaxşı, qoca, mən,
Artıq əl çəkirəm ölüm fikrindən.
Ancaq kəsəcəyəm yazan əlini,
Bir də həcv deyən acı dilini.
Razısan?

V a q i f. Razıyam, böyük hökmdar!..
Mərhəmət sahibi olur ağalar.
Eyb etməz, sizə də çatar bir əvəz,
Qatır cinsisiniz, doğub-törəməz.

Q a c a r. Vaqif, indi get,
Saray həyatını büsbütün tərk et,
Gərək yaşamasın qədirnaşünas!

V a q i f. Sənsə həqiqətin ağzına daş bas!
Mən az görməmişəm bu sarayları,
Burda göyə çıxan ahü-vayları...
Görmüşəm şahların vəfasını mən,
Xanların zülmünü, cəfasını mən.
Görmüşəm zamanın min rüzgarını,
Dustaq anaların göz yaşlarını.
Nifrət! Qan çanağı taclara nifrət!
Var olsun azadlıq, bir də məhəbbət...
*(Çıxır.)*

Q a c a r *(hiddətlənərək, Vaqifin arxasınca.)*
Aparın, aparın onu zindana,
Göz dağı çəkdirin Azərbaycana!

V i d a d i. Qızılı udsa da qara torpaqlar,
Yenə qiymətini özündə saxlar...
*(Çıxır.)*

Q a c a r. Bəri bax, dayanma, burda, Zülfüqar!
Vaqifi zindana sən özün apar,
Bir quş da səkməsin onun yanından!

Q a p ı ç ı *(ikimənalı.)*
Baş üstə, yatmaram gecəni bir an,
Əsən küləkdən də gözlərəm onu...

Q a c a r. Mənim vicdanım da, qəlbim də qandır,
Dünya qan üstündə bir xanimandır!..



LAYİHƏ

V ə z i r. Buyruq sizinkidir, adil hökmdar,
Sizdə fəzilət də, ədalət də var…

Q a c a r *(dəlicəsinə.)* Dağılın, dağılın, boğuldum yenə…

*(Hamı çıxır.)*

Q a c a r *(öz-özünə.)* Nə deyim, nə deyim tale deyənə?
Könlüm ayrılmayır xanimanından,
Gözlərim doymayır insan qanından.
*(Xəstə kimi özündən şübhələnərək.)*
Bu nədir, canımda üşütmələr var?
Aha… nə dərindir bu uçurumlar?..
Gözlərim qaralır… aman… ölürəm!..
Ha… ha… ha… Bu nədir? Yoxsa gülürəm?
Günahsız qanlarmı gözümə durur?
*(Özünün nəbzini tutaraq:)*
Yox, yox! Hələ qəlbim qaydayla vurur,
Xeyr, ölməmişəm, hələlik sağam,
İndi mən ölümlə çarpışacağam!

*Qılıncı çıxarır, qolları boşalır, qılınca dirsəklənərək taqətsiz bir vəziyyət alır.*

• **II dərs**

• **MƏZMUN ÜZRƏ İŞ**

**1. Kiçik qruplarda birləşərək evdə təkrar etdiyiniz parçalardakı əsas fikir, tanış olmayan söz və məcazlarla bağlı qənaətlərinizi bölüşün.**

**2. Gəldiyiniz nəticə barədə təqdimatlar əsasında fikir mübadiləsi və müzakirə aparın.**

**3. Müzakirədə aşağıdakı sualları da əhatə etməyə çalışın:**

a) Qacarın Qarabağa münasibəti barədə sizdə hansı təsəvvür yarandı?
b) Qacar haqqında ilkin təəssüratınız nə oldu?
c) Qarabağda ona münasibət necədir? Fikrinizi təsdiq edən nümunələr göstərin.
d) Vaqif – Qacar qarşılaşması sizdə hansı təəssürat yaratdı?
ə) Bu qarşılaşma hansı milli-mənəvi dəyərlər barədə danışmağa imkan verir?

| Vaqifin və Qacarın nitqindən nümunələr | Milli-mənəvi dəyərlərin ifadəsi |
|---|---|
| | |

**4. Oxuduğunuz hissədən seçdiyiniz parçanın məzmununu hazırladığınız plan əsasında yığcam nağıl etməyə hazırlaşın.**

• **EVDƏ İŞ**

**1. Əsərin davamını (9-cu və 11-ci şəkilləri bütövlükdə, 10-cu şəklin isə qısa məzmununu) nəzərdən keçirin, onlardakı başlıca fikri bir neçə cümlə ilə yazmağa çalışın.**

**2. Mənasını aydınlaşdırdığınız sözlərin (beşdən az olmayaraq) alınma, yaxud dilimizə aid olduqlarını əsaslandırın.**

| Tanış olmayan sözlər | Mənası | Öz sözümüzdür | Alınma sözdür |
|---|---|---|---|
| | | | |



LAYİHƏ

**3. Daha maraqlı hesab etdiyiniz məcazları yazın.**

| Maraqlı hesab etdiyim məcazlar və onların növü | Bu məcazları maraqlı hesab etməyimə səbəb nədir? |
|---|---|
| | |

**4. Şifahi təqdimata hazırlaşın. Aşağıdakı sualların cavablarını da əhatə etməyə çalışın:**

a) Doqquzuncu şəklin məzmunu obrazlar (Vaqif, Vidadi, Xuraman) haqqındakı təsəvvürünüzü nə ilə zənginləşdirdi?

b) On birinci şəkildə oxuduqlarınız Vaqif – xalq münasibətləri barədə təəssüratınıza yeni nə əlavə etdi?

c) Obrazların (Vaqif, Vidadi, Qacar) nitqi onların xarakteri barədə aydın təsəvvür yaradırmı? Seçdiyiniz nümunələrə əsaslanmaqla müəllifin onlara münasibətini müəyyənləşdirməyə çalışın.

| Vaqif, Vidadi və Qacarın nitqindən nümunələr | Yazıçının onlara münasibətini təsdiq edən faktlar |
|---|---|
| | |

• **III dərs**

• **TƏHLİL ÜZRƏ İŞ**

**1. Aşağıdakı qaydalara əməl etməklə tapşırığı yerinə yetirin.**

a) Aranızdan bir nəfər ilk mətnkənarı sualla bağlı cavabı dərslikdən aramla ucadan oxuyub tamamlayır və ondakı əsas fikri ümumiləşdirib bir neçə cümlə ilə ifadə edir.

b) Sonra şagirdlərə mətnlə bağlı suallar verir. Suallar əsasında aparılan müzakirədə izahına ehtiyac duyulan məsələlərə aydınlıq gətirilir, əsərdən nümunələr göstərilir.

c) Oxuyanlar əvəzlənməklə digər mətnkənarı sualların cavabları da bu qayda ilə oxunur.

**2. Sonda mətnin hansı əlavələrlə zənginləşdirilməsinin və tamamlanmasının vacib olduğu bəndlər şəklində yazılır.**

Səməd Vurğun ilk və ən qüvvətli dram əsəri olan "Vaqif"i 1937-ci ildə yazmışdır. M.P.Vaqifin həyatı, yaradıcılığı ilə şair hələ kiçik yaşlarından maraqlanmış, əsərlərini sevə-sevə oxumuş, ona ayrıca şeir də həsr etmişdir. Lakin pyesi yalnız Vaqiflə, onun həyatı ilə bağlamaq doğru olmaz. Tarixi mövzuda yazılan, lakin tarixi hadisələrə müəllifin sərbəst yanaşması ilə seçilən bu dramda bədii həlli verilən problemlər çoxdur. *Mənbələrin araşdırılması əsərin mövzusu, şairin bu mövzuya müraciət etməsinin səbəbi barədə geniş və əsaslandırılmış fikir söyləməyə imkan verir.*

> Pyesin mövzusu nədir? Şairin bu mövzuda əsər yazmasının səbəbini nə ilə izah edərsiniz?

Yalnız S.Vurğunun yaradıcılığında deyil, ümumən, ədəbiyyatımızda kamil sənət nümunəsi sayılan "Vaqif" pyesinin böyük maraqla qarşılanmasının, oxucuların – tamaşaçıların dərin rəğbətini qazanmasının səbəbi çoxdur. Bunlardan biri əsərdə qüvvətli xarakter və əməlləri ilə yaddaqalan obrazların yaradılmasıdır. Onların sırasında *Vaqif* birinci yerdə dayanır. Oxucu – tamaşaçı bu obrazı hərtərəfli tanımaq imkanı əldə edir; Vaqif – İbrahim xan, Vaqif – Vidadi, Vaqif – Qacar, Vaqif – Eldar, Vaqif – Xuraman və digər xətlər onu dövlət xadimi, həqiqi dost və bu kimi fərqli yönlərdən səciyyələndirməyə imkan verir. *Bunun üçün mənbələrdən toplanmış məlumata əsaslanmaqla pyesin mətninə yenidən müraciət etmək faydalıdır.*

> Əsərdəki obrazların başlıca səciyyəvi xüsusiyyətləri hansılardır?

LAYİHƏ

*İbrahim xan* obrazı pyesin ümumi ruhuna, yazıçı məqsədinə uyğun olaraq, əks qütbün təmsilçisi kimi işlənmişdir. Xalqa, vətənə münasibətdə Vaqiflə onun arasında dərin uçurum vardır. Onlar bir insan, şəxsiyyət kimi də fərqli qütblərdə dayanırlar. *Pyesdəki təsvirlər, mənbələrdən əldə olunan məlumatlar bu iki obrazı müqayisəli səciyyələndirməyə şərait yaradır.*

*Ağa Məhəmməd şah Qacar* həm istilaçı hökmdar kimi, həm də şəxsi keyfiyyətləri ilə özünə nifrət qazandırır. Kəndləri, şəhərləri xaraba qoymaqdan, günahsız insanları qətlə yetirməkdən doymayan bu müstəbid hökmdarın iç üzü Vaqiflə qarşılaşma səhnəsində bir daha üzə çıxır. Məlum olur ki, o, doğma dilinə, mənsub olduğu xalqa da nifrət edir. Qacarı İbrahim xanla birləşdirən ümumi cəhətləri də var. *Bunun aydınlaşdırılması, ümumiyyətlə, bu obrazın hərtərəfli səciyyələndirilməsi pyesdəki təsvirlərin bir daha nəzərdən keçirilməsi, mənbələrdəki məlumatların öyrənilməsi sayəsində mümkün olur.*

Əsərdə *Vidadi* yalnız sədaqətli dost kimi təqdim edilməmişdir. O, insanın halına yanan, ədalətsizliyə, zülmə nifrət edən, sadə yaşayışa qane olan təvazökar, xeyirxah el sənətkarıdır.

Pyesdə az görünsə də, diqqəti dərhal çəkən *Eldar* sadə zəhmət adamlarını, xalqı təmsil edir. Vaqifin onunla əlaqəsi, dostluq etməsi təsadüfi deyildir; bu, "böyük vəzirin" xalqla bağlılığı, həqiqi xalq şairi olması deməkdir. Eldar İbrahim xanın simasında ədalətsiz hakim təbəqəyə, Qacarın timsalında işğalçılara qarşı duran vətənpərvər bir qəhrəmandır. *Vaqif – Eldar xəttinin araşdırılması müəllif niyyətinin başa düşülməsini asanlaşdırır.*

Vaqifin xarakterinin, həyata baxışının aydınlaşdırılmasında *Xuraman* obrazının rolu az deyildir. Ona həqiqi qiyməti də elə Vaqifin özü verir. Dəbdəbə, şöhrət əsiri olan bu qadının yanlış addım atmasının səbəbini dünyagörmüş şair doğru müəyyənləşdirir. *Mənbələrdəki fikirləri öyrənməklə əsərə yenidən müraciət olunması Xuraman obrazı barədə əsaslandırılmış nəticənin çıxarılmasına səbəb olur.*

Pyesdəki *Əli bəy, Gülnar, Eldarın silahdaşları, Vəzir, Şeyx* və b. nitq, davranış və əməlləri ilə fərqlənən maraqlı personajlardır.

Əsəri bədii cəhətcə zənginləşdirən vasitələr hansılardır?

"Vaqif" pyesinin maraqla oxunmasının, uzun illər səhnədə oynanılmasının bir mühüm səbəbi onda bədiiliyin yüksək səviyyədə olmasıdır. Şairin poeziyasına məxsus bütün gözəlliklər pyesin hər səhifəsində, hər misrasında özünü göstərir. S.Vurğun şeiriyyətinin incəliyi, şirinliyi, rəvanlığı oxucunu – tamaşaçını heyran edir, əhvalat və hadisələri intizar içində, böyük zövq duya-duya izləməsinə səbəb olur. Mənzum dramda obrazların nitqinin fərdiləşdirilməsi böyük ustalıq tələb edir, bunu pyesdə ardıcıl müşahidə etmək olur. Maraqlıdır ki, şair bu cəhətə hətta epizodik obrazların nitqində də xüsusi diqqət yetirir. Orijinal məcazlar, aforizm şəklində bu gün də dillərdə əzbər olan misralar pyesin bədii məziyyətini artıran vasitələrdəndir.

Monoloqlar yığcamlığı, dialoqlar canlı, məntiqli olması ilə əsərdə bədiiliyin güclənməsinə əhəmiyyətli təsir etmişdir. Vaqif – İbrahim xan, Vaqif – Qacar, Vaqif – vəzir arasındakı dialoqlar kəskinliyi ilə diqqəti cəlb edir. Bu dialoqlar adi deyişmə deyil, fərqli baxış, dünyagörüş, əməl və qəlb sahiblərinin çarpışmasıdır.

Mükəmməl kompozisiya, süjet əlvanlığı dramın bədiiliyini şərtləndirən mühüm vasitələr kimi dəyərləndirilməlidir. Hadisələrin məntiqi ardıcıllığı, bir-biri ilə əlaqəsi və çevik şəkildə əvəzlənməsi şairin dram sənətinin sirlərinə dərindən yiyələndiyini təsdiq edir.



LAYİHƏ

*Mənbələr üzrə araşdırma, mətnə yenidən müraciət əsərin bədii xüsusiyyətləri barədə əhatəli fikir yürütməyə, əsaslandırılmış nəticə çıxarmağa səbəb olur.*

Sərt sovet ideologiyasının dar çərçivəyə saldığı ədəbiyyatın yarandığı dövrdə – 1930-cu illərin sonlarında "Vaqif"in meydana gəlməsi, əslində, mühüm ədəbi hadisə idi. Əsərdə vətənpərvərliyin qızğın təbliği, qəhrəmanlıqlarla dolu tarixi keçmişin xatırladılması, xalqın qüdrətinə inam, dövlətin idarə edilməsində yol verilən xətaların acınacaqlı nəticələri və s. kimi məsələlərin təsviri həmin illərdə oxşar mövzularda yazılan əsərlərin məzmunundan kəskin şəkildə fərqlənirdi. Oxucu və tamaşaçılarda tarixi keçmişlə bağlı yaddaşın dirçəlməsində, milli qürur hissinin baş qaldırmasında və güclənməsində pyesin misilsiz xidməti danılmazdır. Əsərin ideya zənginliyi barədə danışanlar haqlıdırlar. Bunun bir səbəbi də pyesdə qaldırılan və bədii həlli verilən problemlərin çox olmasıdır.

? Əsərin əsas ideyası nədir?

*Mənbələrin araşdırılması bütün bunların açıqlanmasına, əsas ideyanın müəyyənləşdirilməsinə imkan yaradır.*

• EVDƏ İŞ

**ARAŞDIRMANI DAVAM ETDİRİN**

**1. Sinifdə öyrəndiklərinizi göstərilən mənbələrdən topladığınız məlumat əsasında zənginləşdirin və tamamlayın.**

| Məlumatın əldə edildiyi mənbə | Məlumatın məzmunu və aid olduğu mətnkənarı sual |
|---|---|
| | |

**2. Araşdırma apararkən aşağıdakı sual və tapşırıqların cavablarını geniş əhatə etməyə çalışın:**

a) İbrahim xan və Ağa Məhəmməd şah Qacarla bağlı tarixi faktlar pyesdəki təsvirlərlə səsləşirmi? Fərqin səbəbini necə izah edərsiniz?

b) Pyesdə qoyulmuş başlıca problemlər hansılardır? Onların bədii həlli necə verilmişdir?

| Əsərdə qaldırılmış başlıca problemlər | Əsərdə onların bədii həlli |
|---|---|
| | |

c) Əsərin konfliktinin əsasında nə dayanır?

| Əsərdəki başlıca konflikt nədir? |
|---|
| |

d) Əsərin süjetindəki mərhələləri müəyyənləşdirin, kompozisiya baxımından mükəmməl olduğunu nümunələrlə əsaslandırın.

**3. Yazılı qeydlər əsasında şifahi təqdimata hazırlaşın.**

• MƏNBƏLƏR

1. XI sinif şagirdləri üçün elektron vəsait . http://edebiyyat.ucoz.com.
2. S.Vurğun. Seçilmiş əsərləri. 5 cilddə. I cild. Bakı: Şərq-Qərb, 2005, səh. 12.
3. S.Vurğun. Seçilmiş əsərləri. 5 cilddə. V cild. Bakı: Şərq-Qərb, 2005, səh. 21-22, 35-36.

LAYİHƏ



Rəsul Rza – bənzərsiz bir şair, Azərbaycan poeziyasının novatorlarından biridir. “Rənglər” şeir silsiləsində Rəsul Rza özü-özünü ötüb-keçmişdir.

*Nazim Hikmət*

**Rəsul Rza**
(1910–1981)

# RƏSUL RZANIN HƏYATI, YARADICILIQ YOLU

• ARAŞDIRMAYA HAZIRLAŞIN

**R.RZA HAQQINDA BİLDİKLƏRİNİZİ YADA SALIB YIĞCAM MÜZAKİRƏ APARIN.**

**Aşağıdakı qaydalara əməl etməklə mətni oxuyun:**

1. **Mətni fərdi olaraq bütövlükdə nəzərdən keçirin.** Abzasların başlanğıcına və sonuna, fərqləndirilmiş söz və cümlələrə xüsusi diqqət yetirin.
2. **Mətnin məzmunu ilə bağlı fikrinizdə yaranan sualları dəftərinizdə, yaxud iş vərəqində yazın.** Sual tərtib etməkdə çətinlik çəksəniz, yenidən mətnə müraciət edin.
3. **Yazdığınız suallara cavab hazırlayın, bu zaman qısa qeydlər etməyiniz faydalıdır.** Mətndə birbaşa sualla bağlı yerləri (söz, cümlə, abzas) silinməsi mümkün olan işarə ilə fərqləndirin.

| № | Suallar | Onların qısa cavabı |
|---|---|---|
| | | |

4. **Suallara hazırladığınız cavabları mətnə baxmadan parta yoldaşınıza danışın.** Unutduğunuz yerləri danışdığınız məqamda təkrar edə bilərsiniz.
5. **Kiçik qruplarda birləşib qənaətlərinizi bölüşün.**
6. **Gəldiyiniz nəticələrə və öyrəndiklərinizə daha nələri əlavə etməyin vacib olduğunu təqdimatlar əsasında müzakirə edib bəndlər şəklində yazın.**

Göyçayda – Mirzə İbrahimin ailəsində dünyaya göz açan Rəsul Rza ilk təhsilini burada almışdır. Atasının vəfat etməsi ailənin maddi vəziyyətini çətinləşdirmiş və o, 14 yaşında işləməyə başlamışdır. 1930-cu ildə Bakıya gələn Rəsul *“Gənc işçi”* qəzetində işə düzəlir. Bu, ədəbi mühitlə yaxınlaşmasında əhəmiyyətli rol oynayır; o, M.Müşfiq, M.Hüseyn, S.Rüstəm və digər sənətkarlarla tanış olur. 1920-ci illərin sonlarında

R.Rzanın həyat yolunun və yaradıcılığının başlanğıcı üçün daha mühüm olanlar nədir?

LAYİHƏ

ilk qələm təcrübələrini yazan, Tiflisdə *"Yeni fikir"*, *"Dan ulduzu"* məcmuələrində çap etdirən Rəsulda bədii yaradıcılığa ciddi həvəs yaranır. O, müxtəlif təhsil ocaqlarında – Tiflisdə Zaqafqaziya Kommunist Darülfününun kooperasiya kursunda, Bakıda Tibb İnstitutunda, Azərbaycan Dövlət Elmi Tədqiqat İnstitutunun aspiranturasında, Moskvada Millətlər İnstitutunda və s. oxusa da, taleyini ömürlük olaraq sənətə həsr etmişdir. İlk mətbu əsərini – *"Bir gün"* adlı şeirini Tiflisdə "Qığılcım" almanaxında 1927-ci ildə dərc etdirən R.Rzanın "Çapey" adlı birinci kitabı 1932-ci ildə işıq üzü görür. *Hələ 1931-ci ildə yazdığı "Bolşevik yazı" şeiri ədəbiyyata yeni nəfəsli, fərqli üslublu gəncin gəldiyindən xəbər verirdi.* Yeni çıxan kitabda isə dünyada baş verən mühüm hadisələrə münasibətdə ayıq-sayıq mövqeyi, kəskin məntiqi mühakimələri ilə seçilən şairin gur səsi eşidilirdi.

R.Rzanın sonrakı kitabları: "Qanadlar" (1935), "Çinar" (1939) oxucuların bu qənaətini daha da möhkəmləndirdi; təsvir etdiklərinin daxili mənasını açmaq, lirik qəhrəmanın hiss və duyğularını, mənəvi inkişafını yaddaqalan cizgilərlə diqqətə çatdırmaq istəyi bu şeirlərin əksəriyyətində özünü qabarıq göstərirdi.

> II Dünya müharibəsi şairin həyatında və yaradıcılığında hansı dəyişikliyə səbəb oldu?

Müharibə R.Rzanın həyatında və yaradıcılığında ciddi dönüş yaratdı. *O, könüllü olaraq cəbhəyə yollandı.* Krımdakı Azərbaycan diviziyasında hərbi müxbir kimi fəaliyyətə başlayan şair tez-tez ön cəbhəyə yollanır, əsgərlərlə görüşür, şeir və publisistik yazıları ilə onları qələbəyə ruhlandırırdı. *Müharibə mövzusunda onlarla lirik şeir yazan şair "Vətən", "Bəxtiyar", "İntiqam!.. İntiqam" və s. kitabları ilə oxucuların rəğbətini qazandı.* Bu kitablarda toplanmış şeirlərin ("Azərbaycanlı döyüşçülərə", "Dörd yüz on altı", "Pilot qardaş", "İntiqam" və s.) əksəriyyətində sərt, kəskin mühakimə ilə yanaşı, həzin bir lirizm də duyulur. Bu, təsvir olunan döyüşçü obrazını oxucuya daha yaxın, munis etməklə yanaşı, əsərin maraqla, intizarla oxumasına da səbəb olur. *Belə şeirlərdən biri ön və arxa cəbhədə maraqla oxunan "Bəxtiyar" idi.* Sayca çox olan düşmənlə qarşılaşan Bəxtiyarın qorxmazlığı, düşmənə nifrəti inandırıcı, təbii boyalarla təsvir edilir. Şair sanki qəhrəmanının yanındadır, ona hayandır:

Külək qarı səpələr, Bəxtiyar!
Ağ geyinib təpələr, Bəxtiyar!
Gecə qara, yol uzaq, qardaşım,
Göylər bulud, çöl-düz ağ, qardaşım.
Kaman çalan kimdir o, Bəxtiyar?
Küləkdi, ya simdir o, Bəxtiyar?

R.Rza cəbhədə tanış olduğu tibb bacısını 1943-cü ildə yazdığı "Vəfa" pyesinin qəhrəmanının prototipi kimi seçmişdir. Əsər dəfələrlə tamaşaya qoyulmuşdur. Şair müharibə mövzusuna yaradıcılığının sonrakı illərində də müraciət etmişdir.

> Müharibədən sonrakı illərdə şairin həyatı və yaradıcılığı üçün səciyyəvi olanlar nədir?

Müharibədən sonrakı illərdə R.Rzanın yaradıcılıq axtarışları daha da genişlənir. *İndi dünya, insan və onun taleyi üçün narahat bir sənətkarın düşüncələrinin geniş əks olunduğu fəlsəfi lirikanın təkrarolunmaz nümunələri yaranmağa başlayır.* Bu şeirlərdə insana hörmət, dərin məhəbbət, onu bütün xəbis hislərdən və pisliklərdən uca görmək arzusu ön plana keçir. İnsanın öz ləyaqətini anlaması, şərəfli və xoşbəxt ömür yaşaması şairin ən önəmli istəyinə



LAYİHƏ

çevrilir. *“Mən torpağam”, “İnsan şəkli”, “Açın qapıları, insan gəlir”* və s. şeirlərində oxucu şairin bu qəbildən yüksək ideallarının parlaq ifadəsini görür…

… İnsan qardaşlığı,
İnsan ülfəti yaradın.
Qəlbinizdə məhəbbəti artırın,
Böyük olsun, qaynar olsun!
İnsan məhəbbətilə
Yer üzü bahar olsun!

Şairin lirikasındakı bu axtarışlar onun *“Vaxt var ikən”, “Duyğular, düşüncələr”, “Pəncərəmə düşən işıq”* və s. kitablarına toplanan şeirlərdə geniş əksini tapmışdır. Ədəbiyyatda böyük əks-səda yaratmış “Rənglər” silsiləsinin də mahiyyətində, əslində, insana məhəbbət hissinin ifadəsi dayanırdı. Xalqımızın yaddaşındakı rəng yozumunu da diqqət mərkəzində saxlayan şair rənglərin və onların çalarlarının doğurduğu assosiasiyaları maraqlı poetik dillə ifadə etmiş, ənənədən uğurla bəhrələndiyini və novator mövqeyini təsdiqləmişdir.

R.Rzanın *poemaları* müxtəlif mövzularda yazılsa da, onları birləşdirən cəhətlər də az deyildir; insana dərin məhəbbət, böyük, yaradıcı şəxsiyyətlərin ölməz amallarının yaddaşlarda dirçəldilməsi və s. bu qəbildəndir. Bu əsərlərdə *M.Füzulinin (“Füzuli”), İ.Nəsiminin (“Son gecə”), M.Ə. Sabirin (“Xalq şairi”), M.Müşfiqin (“Qızılgül olmayaydı”)* parlaq sənətkar-vətəndaş obrazları yaradılmışdır.

*Şair bədii tərcümə ilə ardıcıl məşğul olmuşdur.* O, N.Gəncəvinin “Xosrov və Şirin” poemasını, A.Puşkinin, M.Lermontovun, T.Şevçenkonun, N.Hikmətin, V.Mayakovskinin və b. əsərlərini uğurla dilimizə tərcümə etmiş, bu sahədə də oxucuların rəğbətini qazanmışdır.

**• EVDƏ İŞ**

**ARAŞDIRMANI DAVAM ETDİRİN**

**1. Sinifdə öyrəndiklərinizi göstərilən mənbələrdən topladığınız məlumat əsasında zənginləşdirin və tamamlayın.**
**2. Araşdırma apararkən aşağıdakı sualların cavablarını da əhatə etməyə çalışın:**
   a) Şairin ictimai məzmunlu şeirlərində başlıca olaraq hansı məsələlərə diqqət yetirilmişdir?
   b) 1960-cı illərdə cəmiyyətdə müşahidə olunan yeniləşmə şairin yaradıcılığında öz əksini necə tapmışdır?

| № | İctimai şeirlərə aid nümunələr | Onlarda əksini tapmış başlıca məsələlər |
|---|---|---|
| | | |

**3. Yazılı qeydlər əsasında təqdimata hazırlaşın.**
**4. Mövzulardan birini seçib məruzəyə hazırlaşın:**
   a) R.Rzanın yaradıcılığında humanist ideyalar.
   b) Şairin lirikasında vətən mövzusu.

**• MƏNBƏLƏR**

1. XI sinif şagirdləri üçün elektron vəsait. http://edebiyyat.ucoz.com.
2. R.Rza. Seçilmiş əsərləri. 5 cilddə. I cild. Bakı: Öndər, 2005, səh. 5, 7, 8, 12, 15, 16.
3. R.Rza. Seçilmiş əsərləri. 5 cilddə. V cild. Bakı: Öndər, 2005, səh.7, 9, 10, 16, 21.



LAYİHƏ

## QIZILGÜL OLMAYAYDI

*(ixtisarla)*

**• I dərs**

• MƏZMUN ÜZRƏ İŞ

OXUYA HAZIRLAŞIN

**Sualların üzərində düşünün, cavabları cədvəllərdə qeyd etdikdən sonra fikir mübadiləsi və müzakirə aparın.**

– Sovet hakimiyyəti illərində həyata keçirilən repressiya haqqında nə bilirsiniz?

| Repressiyanın həyata keçirildiyi tarix | Repressiya haqqında bildiklərim |
|---|---|
| | |

– Repressiya qurbanlarından kimləri tanıyırsınız?

| Repressiya qurbanı olan söz sənətkarlarımız |
|---|
| |

**Aşağıdakı qaydalara əməl etməklə əsərdən verilmiş parçanın məzmunu üzərində işləyin.**

**1. Mətni bütövlükdə oxuyun (bunu fərqli formalarda həyata keçirə bilərsiniz).**

**2. Kiçik qruplar yaradın, aşağıdakı tövsiyələrdən bəhrələnməklə suallar və onlara cavab hazırlayın.**

a) Məzmunun necə mənimsənildiyini aşkara çıxarmağa xidmət edənlər (Kim? Nə? Harada? və s.).

b) Əsərin məzmununu şərh etməyə istiqamətləndirənlər (Bu əlaqələr hansılardır? Bunun baş verəcəyi gözlənilirdimi? Hansı nəticəyə gəlmək olar? və s. ).

c) Dəyərləndirməyə yönəldənlər (Nə üçün belə oldu? Başqa cür ola bilərdimi? Hansı düşüncəyə səbəb olur? və s.).

d) Münasibət bildirməyə imkan yaradanlar (Ədalətlidirmi? Haqlı saymaq olarmı? Bu səhvi bağışlamaq mümkündürmü? və s.).

**3. Əsərdən oxuduğunuz parça hansı milli-mənəvi dəyərlər barədə danışmağa imkan verir?**

**4. Təqdimatlar etməklə qənaətlərinizi bölüşün və gəldiyiniz nəticələri müzakirə edin.**

Gecə qapım döyüldü.
Görəsən, kimdir gələn?!
– Kimsən?
– Mən!
Açdım qapını
Baxdım,
Baxdım...
Yox, tanımadım.
Vahimədən qorxan körpələr kimi
çəkildim addım-addım.
Bəlkə də, işıq azdı.
İllərin o tayından gələn
yorğun yolçunu
belə adi işıqda
tanımaq da olmazdı.
Başını qaldıranda
gözlərim bircə anlıq
gözlərinə sataşdı.
Elə bil kimsə birdən
köhnə, tanış kitabın
səhifəsini açdı.
Yenə qapandı kitab,
İndi qoçaqsan, buyur,
min bir varaq içindən
o bir səhifəni tap!
– Salam!
– Salam, buyurun!
Əynində nimdaş palto,
başında bir nimdaş şal –
nə ipəkdi, nə də yun.
Saçları ağ –
illərlə bağlı sandıqda qalıb
şəfəqini itirmiş
adicə gümüş kimi.
Gözlər – cüt qara ulduz –
quyuya düşmüş kimi...
– İzin verin, mən asım.
– Yox, yox!
Özüm asaram.
Özü asdı paltonu.
Sonra da aram-aram
otağa göz gəzdirdi.
Birdən üzümə baxdı,
dodaqları titrədi.
Elə bil
oyuncağı qırılmış
uşaq kimi
hıçqırıb
için-için
indi ağlayacaqdı.



LAYİHƏ

Bir az keçdi, toxtadı.
Xəfif, kövrək təbəssüm
qondu dodaqlarına.
Bu zaman xatiratın
Dolaşıq yollarında
Bir fanar yandı-söndü.
Bir anlığa nə isə
Bu aydınlıq içindən
mənə əziz göründü…
İllər qanrıldı geri.
Xatirələr illərin
ardından aşdı gəldi,
Yaddaşımın yolunu
gəzib dolaşdı gəldi…
Qara saçlar,
həzin, qəmli baxışlar,
bir də…
o saçların kölgəsində
titrəyən,
səni oxşayan,
sənə sevgi dastanı deyən
əllər.
Onun əlləri.
Bir uşaq kimi kövrək
o bədbəxtin əlləri…
– Tanıdızmı? – dedin.
– Tanıdım…
Bu sən idin!
Onun, onun Dilbəri…
Baxdım sənə,
bilmirəm, bir saat,
ya da bir an –
həyəcanla,
heyran-heyran…
Səsimizi eşitdi,
tez gəldi şairə də.
Görəndə səni, birdən
yerində dondu-qaldı.
Sonra da qollarını
sınıq bir budaq kimi
sənin boynuna saldı.
Üzünü tutdu yana,
Bütün vücudu əsdi.
Sən də qoşuldun ona.
Elə bil göz yaşları
sözün yolunu kəsdi.
Töküldü damla-damla…
Dərd nələr, nələr etmir
adamla!..
Handan-hana
elə bil
nitqi özünə gəldi.
Xeyli baxdı gözünə.

– Xoş gördük, Dilbər! –
dedi.
Axı o da,
o sərt boranda, qarda,
yollarına əbədi
hicran kölgəsi düşmüş
o kədərli, qorxulu,
ümidli uzaqlarda
bizimlə həmsevincdi,
həmkədər,
həmsöhbətdi…
– Gəl, əzizim, – dedi, – gəl!
Ömrün vəfası budur!
Gəl!
Otur!
Çökdü aralığa
dərin bir sükut.
Nəhayətsiz, zamansız
bir sükut.
Aciz bir düşmən kimi
mərhəmətsiz, amansız
bir sükut.
Ax!..
Bu sükutun dili yansın!
Yandırır bir köz kimi.
Yandırır
bir nadan ağzından çıxan
söz kimi!
Əlimi oda tutub mən
saxlaya bilərəm
bir neçə an.
Çəkmərəm əlimi qızmar
alovdan.
Dişlərimi qıcayaram.
Nə qədər göynəsə yaram,
nə qədər bərk ağrısa, yenə
bir-iki saniyə
qısıb nəfəsimi,
çıxarmaram səsimi.
Lakin belə sükuta
nə tabım var,
nə tavanım,
nə qərarım!
Elə bil ki, dil-dil ötür
hər hüceyrəmdə
göz-göz açılmış yaralarım.
Bir söz de!
Heç olmasa,
məni məzəmmət elə!
Danla!
Qurtar nigarançılıqdan.
Mərhəmət elə.
Gözlərində nifrət görüm.
Sözlərində hiddət görüm.

Dayanma belə məlul,
ümidsiz yollara
göz dikən kimi.
Qəzəbini yığ, yumrula,
Bük ən acı, ən amansız
sözlərə –
at üstümə
bir daş kimi!
Sanc bağrıma,
tikan kimi!
Bir şillə kimi vur!
At üstümə qom-qom,
dəstə-dəstə.
Ancaq bu sükutu kəs!
…Bircə din!
Yoxsa nadir hədiyyən
bu yanıqlı sükutdur?
Budur qəmli yollardan
keçirib gətirdiyin?..
Susursan…
Onda mənə qulaq as!
Qınama gəl, söhbətim
dağınıq olsa bir az…

* * *

Bakıya yenicə gəlmişdim,
Yenicə işə düzəlmişdim,
Başımda kənd havası,
bir də hər riyadan uzaq
gənclik sevdası…
Biz onunla tanış olduq
bir yaz səhəri
"Gənc işçi"də.
Tez məhrəm oldu
bir-birinə
könlümüzün gözü də,
qəlbimizin içi də…
Masamın yanına gəldi.
Əlini uzatdı:
– Mikayıl Müşfiq, –
sonra əlavə etdi:
– Qoçaqsan
qafiyə tapsan!
Dedim: – Ağır olar bu yük! –
Uğundu getdi
bu qəribə, gözlənilməz
qafiyəyə.
Sonra yoldaşlarına qoşuldu
getdi.
Dostluğumuz
belə başladı.
Sonra da illər boyu
bu dostluğu



LAYİHƏ

şeirin səsi,
şeirin nəfəsi,
şeirin duzu bərkitdi.
Ayrılmadıq –
bahar oldu, qış oldu,
gün oldu, yağış oldu...
Qulaq as, bacım!
Qulaq as!
Qəmli söhbət gileysiz olmaz.
Sinəmdə qövr edəndə qubar,
dolu olanda ürək –
deyib boşaldasan gərək!
Tanışlığımız
bir yaz səhəri oldu.
Dedik: ömrümüz
nurlu səhər olacaq.
Nə bilək?!
Nə bilək ki,
baş alıb gedən illərdə
elə günlər gələcək –
yediyimiz-içdiyimiz
ağu, zəhər olacaq...
... Cibimiz puldan azad,
könlümüz qəmdən.
Mən onun axıcı şeirindən
həzz alardım,
o mənim
xalları bərkiməmiş
nəğməmdən...
O hamıdan sadəydi,
hamıdan açıqürək.
Uşaq kimi inanan,
yetim kimi kövrək.
Dilindəydi çox zaman
acığı, qəzəbi.
Həm bədəndən zəif idi,
həm də xeyli əsəbi.
Gah görürdün:
kəskin odlu sözüylə
rəqibini dağladı.
Gah görürdün:
bircə sözdən
qısılıb bir bucağa,
xısın-xısın ağladı.
Hərdən qızıb,
bircə tikana görə
bütün bağı söyərdi.
Hərdən saxta
bir gülüşə inanar,
bədxahını öyərdi.
Dosta sadiq,
ülfəti yumşaq idi.
Nə deyim,
necə deyim,
Yaşlı bir uşaq idi...
Tez-tez şeir oxumağa –
görüşlərə gedərdik:
zavoda, ya məktəbə,
qəsəbəyə, ya kəndə.
Salon susub durardı
alovlu misraları
o, məclisə tökəndə:
"Oxu, tar, oxu, tar!
Səni kim unudar?!"
İndi bu sözləri
ona desək, yeri var:
"Səni kim unudar!"

**• EVDƏ İŞ**

**1. Əsərin davamını (bir parçası aşağıda verilmişdir) oxuyun.**
**2. Məzmunla bağlı sizi düşündürən suallar və onlara ilkin cavablar hazırlayın.**
**3. Tanış olmayan sözlərin mənasını aydınlaşdırın. Onların (beşdən az olmayaraq) alınma, yaxud dilimizə aid olduğunu əsaslandırın.**

| Tanış olmayan sözlər | Mənası | Öz sözümüzdür | Alınma sözdür |
|---|---|---|---|
| | | | |

**4. Daha maraqlı hesab etdiyiniz məcazları yazın.**

| Əsərdən seçilmiş məcazlar və onların növü | Bu məcazları maraqlı hesab etməyimə səbəb nədir? |
|---|---|
| | |

**5. Yazılı qeydlər əsasında şifahi təqdimata hazırlaşın.**

Gözlərini yumardı
(belə şakəri vardı).
Oxuyardı əzbərdən,
bir kəlməsini çaşmadan,
heyran qalardı adam:
"Fikrim, hissim, xəyalım
o qədər yüksəldi ki,
mənə elə gəldi ki,
bizlərdən əvvəl nə göy,
nə yer, nə torpaq olmuş,
nə ağac dallarında
bir yaşıl yarpaq olmuş!"
Ahəng axıcı,
sözlər aydın.
Bəlkə, o, belə şair
olmazdı,
bu xalq,
bu torpaq,
o yaşıl yarpaq,
o aydın səhər,
bir də sən,
Dilbər, –
Bir də sən olmasaydın!
Sevirdi onu
məktəbli də, kəndli də,
fəhlə də.
Bu gün olmuş kimi
gözümün qabağındadır
hələ də
bir şeir gecəsi.
O, şeir oxuyandan sonra
bir qoca səhnəyə qalxdı.
Yanaşdı ona,
gözlərinə xeyli baxdı.
Sonra basdı bağrına onu.
Dedi: – Sağ ol, bala!
Əlinin dalıyla sildi
sevincdən yaşaran
gözlərini,
təkrar etdi onun sözlərini:
"Oxu, tar, oxu, tar!
Səni kim unudar?.."
Yadımdadır!
Pəncərəsi döşəmədən
bircə qarış yuxarı
bir otaq.
Əl vuranda qulun kimi
qışqırırdı qapıları,

LAYİHƏ

Divarları çopur-çopurdu.
Küçədə yüyürsələr,
suvağı parça-parça
qopurdu.
Qapısı qara cəftəli
Oturardıq otaqda.
O, dəli,
mən dəli.
Bəzən də ta sübhə kimi
şeir oxuyardıq
məzəli-məzəli.
O, dəli,
mən dəli.
Ruzumuz yaxşı gündə
bir parça dağlı çörəyi,
bir tikə
Xaçbulaq ətirli
Gəncə pendiri.
Çəkməmizdə bağ yerinə
adi zivə kəndiri...
Mən deyirdim,
o deyirdi.
Füzuli, Nədim, Puşkin,
Bayron, Sabir, Natəvan...
Başımızın üstündə
qapaz kimi
sallanmış tavan.
Çay kəmşirin,
çörək yavan.
Kağızlar qom-qom,
top-top.
Gözlərimiz zilli varaqlara,
miz üstündə:
Lermontov,
Demon – Tamara.
Bir də “Ruhulla”.
Qrex – günah.
Qreşniy – günahkar.
Sonm – güruh.
Dux – ruh...
Dil açıb
türkcə danışdıqca iblis,
uşaq kimi əl çalır,
atılıb-düşürdük biz...
Bir axşamüstü
vədələşdik, ayrıldıq.
“Sabah” gəldi.
O gəlmədi.
Xilaf çıxdımı vədəyə?
Fincandakı çaydan
burula-burula qalxan
buxar kəsildi.
O gəlmədi...
Pəncərədən düşən işıq
divardan endi döşəməyə.
O gəlmədi.
Sinəmdə ürək
başladı üşüməyə.
O gəlmədi.
Fikirlərim pırtlaşdı,
oldu düyün-düyün.
O gəlmədi.
Gözlərim qapıda qaldı,
Gözlədim bütün gün.
O gəlmədi...
Qaranlıqda qərq oldu
qəlbimdəki
ümid,
giley,
intizar.
O gəlmədi.
Evinizə getmədim.
Buna nə ehtiyac var?
Gecə yoxa çıxanları
Gündüz kim axtarırdı?
O gəlmədi!
Demək,
Gələ bilmədi.
Bunu anlamaq çətin
deyildi.
Neçə-neçə ananın
bir gecədə
düz qaməti əyildi.
Gedənlərin neçəsi
axşam evində yatıb
gecə getdi.
Gedənlər bilir: gedən
gedəndə necə getdi?
Bircə anda
“yoldaş”dan dönüb
“vətəndaş” oldular.
Cavanlar vardı ki,
qaynar suya düşmüş
çiçək kimi soldular.
Qocalardan nə deyim?
Əydilər əyim-əyim...

**• II dərs**

**• TƏHLİL ÜZRƏ İŞ**

**Aşağıdakı qaydalara əməl etməklə mətnin üzərində işləyin.**

1. Mətni parta yoldaşınızla birlikdə oxuyun. İlk mətnkənarı sualın cavabını biriniz ucadan oxuyun. Bu parça ilə bağlı bir neçə açar sözü, yaxud termini ikilikdə müəyyənləşdirib yazın. Hansınız mətni oxumayıbsınızsa, həmin açar sözlərdən, yaxud terminlərdən istifadə ilə bir neçə sual hazırlayır.
2. Mətni hansınız ucadan oxumuşsunuzsa, onu bir daha nəzərdən keçirib suallara cavab verin. İkinci şagird – dinləyən cavabla razılaşarsa, onu qeyd edir.
3. Növbəti mətnkənarı sualın cavabı oxunarkən rollarınızı dəyişin. Mətn oxunandan sonra onunla bağlı açar söz, yaxud terminləri hər ikiniz müəyyənləşdirin. Mətni hansınız oxumayıbsınızsa, həmin söz, yaxud terminlərdən istifadə ilə suallar hazırlayıb cavablandırmağı yoldaşınıza təklif edin. Cavabları təsdiq edirsinizsə, onları qeyd edin.
4. Mətn bu qayda ilə sona kimi oxunduqdan sonra hazırlanmış suallar və onların cavabları ilə bağlı bütün siniflə fikir mübadiləsi və müzakirə aparın.
5. Poemadan seçdiyiniz parçanın ifadəli oxusuna hazırlaşın. Şərti işarələrdən istifadə edin.



LAYİHƏ

Artıq qeyd edildiyi kimi, ötən əsrin 60-cı illərində SSRİ adlanan imperiyada siyasi iqlimin az da olsa yumşalması ədəbiyyatda repressiya ilə bağlı bədii əsərlərin yaranmasına, olub-keçmişlərə həqiqət mövqeyindən münasibət bildirilməsinə imkan yaratdı. R.Rzanın "Qızılgül olmayaydı" poeması da belə bir şəraitdə çap olundu. Əsər repressiyanın günahsız qurbanı olan Mikayıl Müşfiqə həsr edilmişdir. Lakin müəllif məsələyə çox geniş anlamda yanaşmış, əsərdə totalitar rejimin qeyri-insani siyasətini ifşa etmişdir. Müəllif, həmçinin bu mövzuya müraciət etməsinin səbəblərini açıqlamış, bunun daha çox vicdani iş olduğunu göstərmişdir.

> ? Poema hansı mövzuda yazılmışdır? Şairin bu mövzuya müraciətinin səbəbi nədir?

*Mənbələrin araşdırılması bütün bunların ətraflı aydınlaşdırılmasına imkan yaradır.*

Poemada müəllif təhkiyəçi kimi çıxış edir. Bütün olanları, hiss və düşüncələrini o, Dilbər xanıma müraciətlə danışır. Baş vermiş hadisələrin şahidi və iştirakçısı olduğundan bu onun üçün çətin deyildir. Bu, oxucu üçün də maraqlıdır. Müəllifin səmimi etirafları, özünüməzəmmət, özünügünahlandırmaları bəzən oxucu üçün gözlənilməz olsa da, bunlar diqqət və həssaslıqla qarşılanır. Gənc Müşfiqin obrazı da müəllifin dilə gətirdiyi xatirələr əsasında yaranır. Onların tanışlığı dostluğa çevrilir. Daha sonra isə əziyyətli və fərəhli yaradıcılıq günləri bir-birini əvəz edir. Müşfiqin sadəliyindən, səmimiliyindən, kövrəkliyindən ürəkdolusu danışan müəllif onun şeir məclislərindəki çıxışlarından, xalq tərəfindən məhəbbətlə qarşılanmasından və sevilməsindən söhbət açır. Müşfiqin şeir, sənət aşiqi olduğuna, bir sənətkar və insan kimi böyüklüyünə oxucuda inam hissi daha da güclənir. Xalqın keçmişinə, mütərəqqi ənənəyə sıx bağlı olan Müşfiqin yeni, mübariz milli poeziya uğrunda narahat axtarışları barədə dolğun təsəvvürün yaradılması poemanın təsir gücünü birə-beş artırır. Vədələşib ayrılan dostların növbəti görüşü, gərgin iş günü baş tutmur. Müşfiq gəlmir. Poemanın bu səhifələri müəllifin keçirdiyi ağır hiss və düşüncələri əks etdirir. Repressiya dövrünün sərt üzü, istedadlı, yaradıcı insanların işgəncələrə məruz qalması və məhv edilməsi konkret adlar çəkilməklə nəzərə çarpdırılır. Beləliklə, poemada oxucunun inamını qazanan, onunla səmimi ünsiyyət yaradan müəllif obrazı da formalaşmış olur.

> ? Əsərdəki obrazlar üçün səciyyəvi olan cəhətlər hansılardır?

*Dilbər* obrazı ilə bağlı deyilən bir neçə cümlə onun haqqında aydın təsəvvür yaradır: nimdaş palto, rəngi solmuş paltar, vaxtsız ağarmış saçlar, quyuya düşmüş gözlər, hər an ağlamağa bəhanə axtaran bəxtsiz qadın... Bu, repressiya qurbanı olan minlərlə ziyalının, yaradıcı insanın ömür-gün yoldaşının taleyi idi.

*Mənbələrin araşdırılması Müşfiq, eləcə də təhkiyəçi – müəllif obrazı barədə əhatəli fikir deməyə imkan verir.*

Əsər 1963-cü ildə çap olunsa da, xeyli əvvəl yazılmışdır. Bu illər şairin yaradıcılığında yeni mərhələ sayılır və o, novator sənətkar kimi diqqət mərkəzində idi. Bu baxımdan da poemanı həmin dövrün ən yaxşı əsəri kimi dəyərləndirmək olar. Şairin özəl bədii sənətkarlığı əsərin quruluşunda, dil və

> ? Poema hansı bədii xüsusiyyətləri ilə diqqəti cəlb edir?



LAYİHƏ

üslubunda, məcazlar sistemində aydın duyulur. Poemanın forması – keçmişə qayıdış və baş vermiş olayların müəllifin dili ilə canlandırılması məzmuna güclü emosional ovqat qatmışdır. Təhkiyəçi, bəzən ona ağır olsa da, ürəyini boşaldır, lakin bir an da olsa, əsas mətləb, məqsəd unudulmur. Bütün deyilənlər bir nöqtədə birləşir: insanlığa qarşı cinayət işlənilmişdir. Şair sərbəst şeirin dilimizin zəngin imkanlarından istifadəyə mane olmadığını hər səhifədə nümayiş etdirir. Cəmi bir neçə kəlmə, yaxud bir-iki misra təkrarsız bədii lövhə yaratmaq, böyük bir fikir ifadə etmək üçün kifayət edir: "Dosta sadiq, ülfəti yumşaq idi", "Yaşlı bir uşaq idi", "Uşaq kimi inanan, yetim kimi kövrək", "Pəncərəsi döşəmədən bircə qarış yuxarı bir otaq" və s.

*Poema maraqlı məcazlarla, orijinal deyimlərlə zəngindir. Mənbələri öyrənməklə, poemaya yenidən müraciət etməklə bunları əhatəli açıqlamaq mümkün olur.*

Əsərin ideyası nədir?

Əsərdə xalqımızın taleyində qara ləkə olan amansız repressiya dövrünün eybəcərlikləri ifşa olunmuşdur. Günahsız, safqəlbli, xalqını, vətənini sonsuz məhəbbətlə sevən M.Müşfiqin və onun kimi yüzlərlə, minlərlə yaradıcı insanlarımızın xüsusi amansızlıqla məhv edilməsi barədə oxucuda aydın təsəvvür yaradılmışdır. Bu deyilənlər poemanın ideyaca zəngin olduğunu təsdiq edir.

*Mənbələrin araşdırılması, əsərdə təsvir olunanların bir daha diqqətlə nəzərdən keçirilməsi onun zəngin ideyası barədə əsaslandırılmış fikir söyləməyə imkan verir.*

**• EVDƏ İŞ**

ARAŞDIRMANI DAVAM ETDİRİN

**1. Sinifdə öyrəndiklərinizi göstərilən mənbələrdən topladığınız məlumat əsasında zənginləşdirin və tamamlayın.**

| Məlumatın əldə edildiyi mənbə | Məlumatın məzmunu və aid olduğu mətnkənarı sual |
|---|---|
| | |

**2. Poema haqqındakı qənaətinizi aşağıdakı cədvəldə qeyd edin.**

| " Qızılgül olmayaydı" poemasında məni | |
|---|---|
| qane edən cəhətlər | qane etməyən cəhətlər |
| | |

**3. Yazılı qeydlər əsasında şifahi təqdimata hazırlaşın.**

**4. Mövzulardan birini seçib işləyin:**

a) "Mikayıl Müşfiq obrazının təhlili" mövzusunda yığcam inşa yazın.

b) "Poemadan hansı təəssüratla ayrıldım" mövzusunda yığcam esse yazın.

**• MƏNBƏLƏR**

1. XI sinif şagirdləri üçün elektron vəsait. http://edebiyyat.ucoz.com.
2. R.Rza. Seçilmiş əsərləri. 5 cilddə. I cild. Bakı: Öndər,2005, səh.19.



LAYİHƏ



Mir Cəlal müəllim gözəl romanlar, povestlər və hekayələr müəllifi kimi geniş şöhrət qazanmışdır. Bədii təfəkkürlə elmi təfəkkürün sintezi, qovuşuğu Mir Cəlal müəllimin həm yazıçılıq, həm də alimlik fəaliyyətinə təkrarolunmaz bir vüsət və qüdrət vermiş, onun hər iki sahədəki böyük uğurlarının məhvəri, əsası olmuşdur. Mir Cəlal müəllim bütöv xarakterli, müstəqil düşüncəli bir şəxsiyyət idi.

*Təhsin Mütəllimov*

**Mir Cəlal**
(1908–1978)

# MİR CƏLALIN HƏYATI, YARADICILIQ YOLU

• ARAŞDIRMAYA HAZIRLAŞIN

**1. Mir Cəlalın həyat və yaradıcılığı ilə bağlı nə bilirsiniz? Ədəbiyyat dərslərində öyrəndiklərinizi yada salıb yığcam müzakirə aparın.**

**2. BİBÖ cədvəlinin "Bilirik" və "Bilmək istəyirik" sütunlarında müvafiq qeydlər edin.**

| Bilirik | Bilmək istəyirik | Öyrəndik |
|---|---|---|
| | | |

**Kiçik qruplar yaradaraq aşağıdakı tapşırıqları yerinə yetirin.**

1. Mətnkənarı suallarla bağlı cavabları oxuyun, məzmununu ümumiləşdirib bir neçə cümlə ilə yazın.

| Mətnkənarı suallar | Onların ümumiləşdirilmiş cavabı |
|---|---|
| | |

2. Digər qruplara vermək üçün mətnlə bağlı bir neçə sual müəyyənləşdirin.

| Müəyyənləşdirdiyim suallar | Onların cavabı |
|---|---|
| | |

**3. Təqdimatlar etməklə gəldiyiniz nəticələrlə bağlı məlumat mübadiləsi və müzakirə aparın, aşağıdakı fikirlərə münasibət bildirin.**

*– Görkəmli nasir Mir Cəlal klassik Azərbaycan nəsrinin ən gözəl ənənələrini davam və inkişaf etdirir və yeni keyfiyyətlərlə zənginləşdirir.*

*(Əhəd Hüseynov)*

*– Mir Cəlal müəllimin mühazirələri də, bədii və elmi əsərləri də sadəliyin arxasında dayanan müdrikliyin ifadəsi idi. O, təbiəti etibarilə necə sadə idisə, danışığı da, elmi və bədii təhkiyəsi də eləcə sadə idi və əsas məsələ burasındadır ki, onun həm şəxsiyyətində, həm də yaradıcılığındakı o sadəlik müdrikliyin nəticəsi idi.*

*(Elçin)*

**4. BİBÖ cədvəlinin "Öyrəndik" sütununda müvafiq qeydlər edin.**

LAYİHƏ

Mir Cəlalın yaradıcılığında aldığı təhsilin və Gəncə ədəbi mühitinin hansı rolu olmuşdur?

Mir Cəlal Cənubi Azərbaycanın Əndəbil kəndində anadan olmuşdur. Uşaqlıqda ailəsi ilə birlikdə Gəncəyə köçmüş, ibtidai təhsilini burada almışdır. Uşaqlıq və gənclik illəri Gəncədə keçmiş, buradakı qaynar ədəbi mühit onda bədii yaradıcılığa meyil yaratmışdır. Gəncə Pedaqoji Texnikumunda təhsil alan Mir Cəlal bir müddət Gəncə və Gədəbəy məktəblərində müəllimlik etmiş, gənc nəslin təlim-tərbiyəsi ilə məşğul olmuşdur.

1930–1932-ci illərdə o, Kazan Şərq Pedaqoji İnstitutunun ədəbiyyat fakültəsində təhsil almışdır. Sonra Bakıya qayıdaraq təhsilini Azərbaycan Dövlət Elmi Tədqiqat İnstitutunun aspiranturasında davam etdirmişdir. Bir müddət elmi fəaliyyətlə məşğul olmuş, mətbuat sahəsində çalışmışdır. 1933-cü ildən ömrünün sonunadək pedaqoji fəaliyyətini Azərbaycan Dövlət Universitetində davam etdirmişdir.

Mir Cəlalın hekayələri üçün səciyyəvi olan cəhətlər hansılardır?

Mir Cəlalın yaradıcılıq fəaliyyəti çoxcəhətlidir. Bədii yaradıcılıq, publisistika və elm sahəsində uğurla fəaliyyət göstərən ədib daha çox yazıçı kimi şöhrət qazanmışdır. XX əsr Azərbaycan bədii nəsrinin yaradıcılarından olan Mir Cəlal hekayə, povest və romanları ilə yüksək ədəbi mövqe qazanmışdır. O, ədəbiyyatımızda kiçik hekayənin əsas yaradıcılarındandır. “Molla Nəsrəddin” məktəbinin ədəbi ənənələrinə xüsusi ehtiramla yanaşan yazıçı Azərbaycan hekayəsini yaşadığı dövrün mövzuları və problemləri ilə zənginləşdirmişdir. Sadəlik, təbiilik sənətkarın “Həkim Cinayətov”, “Bostan oğrusu”, “Təzə toyun nəzakət qaydaları”, “Badam ağacları” və digər hekayələrinin əsasını təşkil edir. Yazıçının fərdi üslubunun özünəməxsusluğunu ifadə edən “Həyat hekayələri” (1945), “Sadə hekayələr” (1955) kitablarında toplanmış əsərlər yüksək ideya-bədii keyfiyyətləri, xəlqiliyi ilə oxucuya saf, səmimi hislər aşılayır.

Mir Cəlalın roman yaradıcılığı hansı xüsusiyyətləri ilə seçilir?

Mir Cəlal “Dirilən adam” (1934) əsəri ilə Azərbaycan ədəbiyyatına mükəmməl tale romanı yaradan yazıçı kimi daxil olmuşdur. Əsərdəki Qədir obrazı sərt ictimai mühitin girdabından çıxmaq üçün var gücü ilə mübarizə aparan, lakin cəmiyyətdə dayaq tapa bilməyən insanların keşməkeşli taleyini özündə ümumiləşdirir.

1941-ci ildə yazılmış, müharibə başladığı üçün 1944-cü ildə çap olunmuş “Açıq kitab” romanında tutduğu doğru yoldan dönməyən yeni nəslin uğurlarının labüdlüyü, maarifçi mühiti bulaşdıran insanların faciəsinin ictimai mahiyyəti açılıb göstərilir. “Yaşıdlarım” (1946) avtobioqrafik romanında qocaman yazıçı Kərimzadənin taleyini əks etdirməklə maarifçi durumun fərqli meyillərinə işıq salan yazıçı, əslində, milli ziyalılığın problemlərini diqqət mərkəzinə çəkmişdir.

Mir Cəlalın “Bir gəncin manifesti” (1938) romanı isə ədəbi tənqiddə haqlı olaraq Azərbaycan ədəbiyyatının yeni dövrünün manifesti kimi təqdim edilmişdir. Bu əsərdə ədibin realizmi bütün gücü və geniş imkanları ilə qabarıq nəzərə çarpır. Romanda yazıçı təkcə əsərin qəhrəmanı Baharın haqlarını müdafiə etmək, ədalətsiz cəmiyyətin əzdiyi insanın çağırışlarını əks etdirməklə kifayətlənmir, bütövlükdə insanlığın manifestini canlandırır. “Yolumuz hayanadır” (1957) romanında isə tarixiliklə müasirlik öz əksini üzvi əlaqədə tapmışdır. Əsərdə Azərbaycan satirik şeirinin banisi Mirzə Ələkbər Sabirin keşməkeşli



LAYİHƏ

həyatı və ədəbi mübarizəsinin fonunda sənətkar və zaman münasibətlərinin məsuliyyəti və gərginliyi ön mövqeyə çəkilmişdir. Bu əsərdə həm də Mir Cəlal zamanına görə müasir mövzularda dilə gətirilməsi çətin olan vətəndaşlıq qayəsi haqqındakı baxışlarını ifadə etmişdir. Əsər həm də müəllifin ürəkdən bağlı olduğu "Molla Nəsrəddin" ədəbi məktəbinə, bu məktəbin görkəmli nümayəndələrinə böyük ehtiramın bədii ifadəsi kimi əhəmiyyətlidir.

Mir Cəlal Paşayev Azərbaycan ədəbiyyatşünaslıq elminin qiymətli nümunələrini yaratmışdır. Onun M.Füzulinin yaradıcılığına həsr olunmuş "Füzuli sənətkarlığı" monoqrafiyası orta əsrlər Azərbaycan poeziyası haqqında mühüm elmi mənbədir. Mir Cəlalın "Azərbaycanda ədəbi məktəblər" monoqrafiyasında maarifçi realizm, tənqidi realizm və romantizm cərəyanlarının elmi-nəzəri məsələləri tədqiq edilmişdir. Böyük demokrat ədib C.Məmmədquluzadənin yaradıcılığının əsl mahiyyətini, sənətkarlıq xüsusiyyətlərini açan tədqiqatları ilə o, Azərbaycan ədəbiyyatında realizmin özünəməxsus cəhətlərinə aydınlıq gətirmiş, ədəbiyyatşünaslıq elmini daha da zənginləşdirmişdir. Mir Cəlalın həmmüəllif olduğu "Ədəbiyyatşünaslığın əsasları", "XX əsr Azərbaycan ədəbiyyatı" dərsliklərindən ali məktəblərimizdə indi də dəyərli mənbə kimi istifadə olunur.

? Mir Cəlalın elmi yaradıcılığı hansı cəhətləri ilə səciyyəvidir?

**• EVDƏ İŞ**

ARAŞDIRMANI DAVAM ETDİRİN

1. **Sinifdə öyrəndiklərinizi göstərilən mənbələrdən topladığınız məlumat əsasında zənginləşdirin və tamamlayın.**
2. **Araşdırma apararkən aşağıdakı sualların cavablarını da əhatə etməyə çalışın:**
   a) M.Cəlalın romanlarının müasir dövrümüz üçün əhəmiyyəti nədir?
   b) M.Cəlalın hekayələrində qaldırılmış problemlər hansı baxımdan aktual hesab edilə bilər?
3. **Yazılı qeydlər əsasında şifahi təqdimata hazırlaşın.**

**• MƏNBƏLƏR**


1. Mir Cəlal. Seçilmiş əsərləri. Bakı: Şərq–Qərb, 2005,səh. 4-14.
2. Azərbaycan nəsri antologiyası. 5 cilddə. III cild. Bakı: Şərq-Qərb, 2006, s. 4-5; 14-16.
3. XI sinif şagirdləri üçün elektron vəsait. http://edebiyyat.ucoz.com.


LAYİHƏ

## AÇIQ KİTAB
*(ixtisarla)*

**• I dərs**

**• MƏZMUN ÜZRƏ İŞ**

OXUYA HAZIRLAŞIN

**Sualların üzərində düşünün, cavablarınızı cədvəldə qeyd etdikdən sonra fikir mübadiləsi və müzakirə aparın.**

– Qarşısına çıxan çətinliklərə baxmayaraq, tutduğu düz yoldan geri çəkilməyən, haqsızlığa qarşı mübarizədə qalib gələn insanlar haqqında eşitmisinizmi?

| Bu insanları şəxsən tanıyırsınızmı? | Belə insanlar barədə nə düşünürsünüz? |
|---|---|
| | |

– Bu əqidədə olan hansı ədəbi qəhrəmanları tanıyırsınız?

| Tanıdığım ədəbi qəhrəmanlar | Onlarda dəyərləndirdiyim cəhətlər |
|---|---|
| | |

**Aşağıdakı tapşırıqları fərdi olaraq yerinə yetirin:**

**1. Əsərdən verilmiş birinci hissəni oxuyun.**

**2. Mənasını aydınlaşdırdığınız sözlərin alınma, yaxud dilimizə aid olduğunu əsaslandırın.**

| Tanış olmayan sözlər | Mənası | Öz sözümüzdür | Alınma sözdür |
|---|---|---|---|
| | | | |

**3. Seçdiyiniz məcazların növünü dəqiqləşdirin.**

| Əsərdən seçilmiş məcazlar | Onların növü |
|---|---|
| | |

**4. Oxuduğunuz hissədə diqqətinizi daha çox cəlb edən məsələləri ikihissəli gündəlikdə yazın.**

| Əsərdə diqqətimi cəlb edənlər | Bunun səbəbi |
|---|---|
| | |

**5. Suallara cavab hazırlayın:**

a) Ata ilə oğulun gözlənilməz görüşü sizdə necə təəssürat yaratdı?
b) Sadıq kişi oğlunun institutdan qovulması xəbərini necə qarşıladı?
c) GəldiyevVahidin institutdan çıxarılmasına necə nail oldu? Onun nitqində, davranışında diqqətinizi daha çox çəkən nədir?
d) Vahidin bayram nümayişində iştirakı Gəldiyevə hansı imkanı yaratdı?
e) Vahidin instituta bərpa olunması necə mümkün oldu?
f) Oxuduğunuz hissə hansı mənəvi dəyərlər barədə danışmağa imkan verir?

**6. Kiçik qruplarda birləşərək fikirlərinizi dəqiqləşdirin və ümumiləşdirin.**

**7. Təqdimatlar əsasında fikir mübadiləsi və müzakirə aparın.**

## BİRİNCİ HİSSƏ

İlin o vaxtı idi ki, yay istisi adamların canından yenicə çıxmış, soyuq isə hələ kar eləməmişdi. Pəncərələr yenicə örtülür, qış tədarükü yada düşürdü.

Sadıq kişi poçt ilə Bakıya, tələbə oğluna göndərəcəyi bağlamanı sahmanlayırdı. Üzüm yeşiyinə bir balaca bərni bal ilə bişirilmiş halva, bir neçə gülöyşə nar, alma-armud qoymuşdu. Fətirlərə yer düşünürdü. "İsti şeydir, – deyirdi, – bura qoysam, yağı çıxar".

"Bismillah" deyib addımını darvazadan, balaca qapıdan eşiyə atanda əlində çamadanı olan və içəri girmək istəyən adamla elə üz-üzə gəldi ki, qara çamadanla ağ bağlama bir-birinə toxundu. Gələnin üzünə baxanda yerində dondu, bir an



LAYİHƏ

hərəkətsiz qaldı. Sonra üzündə ani bir təbəssüm doğdu və yox oldu. Əlini oğluna tərəf uzatdı. Sual və təəccüblə onun üzünə baxa-baxa dedi:

– Nə əcəb, Vahid? Nə əcəb? Bu vaxt?

Vahid dinmir, cavab verməkdə çətinlik çəkirdi. Sadıq kişi dözə bilmədi. Vahidin qolundan tutub silkələdi:

– De görüm, nəyə gəlmisən? Dərs vaxtı ki adamı buraxmazlar?

Vahid başını aşağı saldı, zəif, məyus bir səslə cavab verdi.

– Nəyə gələcəyəm... Məktəbdən çıxartdılar...

– Neyləmisən, məktəbdən çıxardalar?

– Bir xəbis adam var, iş başına soxulub, tələbənin düşməni! Hamısını eləyən odu. Mənə bir onu dedi ki, material verilib.

– Axı nə material?

– Nə material olacaq: atan arı saxlayır, kolxoza yanaşmır, nə bilim, vergi verir...

Sadıq kişini heyrət aldı. Qorxulu bir şeydən qorunmaq istəyənlər kimi qollarını açdı, əllərini qabağa verdi, vücudunu geri əydi.

– Arı saxlamaq qadağandır? Bunu hansı mərdimazar deyir. Qəzeti, qərarı onun gözünə soxaram mən!

Vahid bu bəhanənin yersizliyini daha artıq hiss etdi:

– Bəhanəsi odur ki, kolxozçu deyilsən, təksən!

– Arıçıdan kolxoz var? Şəhərdə beş adam saxlayır, biri də mən!

Vahid bütün təfsilatı atasına danışmağa başladı:

– Partiya komitəsində işləyən var, dediyim o mərdimazar! Ondan bir gün qabaq məndən soruşdu ki, atan kolxozdadır, ya yox? Dedim, yox. Daha bir sözü olmadı. Çıxıb getdi. İki gün keçmədi ki, divara əmr asdılar, məni çıxartdılar.

– Bəs direktorun ağlı hardadı?

– Ağlı başındadır. Amma Gəldiyevə inanır. Partiyaçıdır, özü də büronun üzvü. Onu qoyub mənə inanmayacaq ki.

Sadıq kişi mərdimazardan çox çəkmişdi. Oğluna atılan bu daşın bədxahlar əlindən çıxdığı xəyalına gələndə əsəbiləşdi, ürəyində dedi: “Vahid bacarmasa da, mərdimazarın öhdəsindən özüm gələcəyəm!”

Vahid düz danışmırdı. Gəldiyev onun nə ictimai işə yapışmamağından, nə sözə baxmamağından, nə atasından-filanından yanıqlı idi. Vahidin qovulmasının başqa səbəbi var idi. İnşaat institutunun layihə şöbəsində Rübabə adlı bir qız oxuyurdu. Bakılı tarzən Səttarın qızı idi. Onun fikri-zikri dərs idi, təhsil idi, elm idi.

Həmin illərdə ali məktəblərdə dərslər briqada üsulu ilə gedirdi. Sinifdə dərs briqadalara bölünəndə Rübabə Gəldiyevin briqadasına düşdü. Tələbələr arasında danışırdılar ki, Gəldiyev qəsdən Rübabəni öz briqadasına, ya özünü Rübabənin briqadasına salıb. Riyaziyyat dərsində Rübabə stulunu götürüb Vahidin briqadasına yanaşdı ki: “Mən sizinlə oxuyacağam”.

Gəldiyev tədris müdirinə dedi, dekanı çağırdı. Rübabə dediyindən dönmədi: “Mən Vahidin briqadasında oxuyacağam, vəssalam! Gəldiyev özü nə bilir, mənə nə öyrədə! Gündə üç-dörd dərs buraxır. Onun ucundan mən də imtahandan qala bilmərəm”. Rübabə bu rəftarı ilə Gəldiyevin sinəsinə sanki bir dağ çəkdi. Gəldiyev çox götür-qoy elədi. Eşdi-eşələdi, anketləri roman kimi maraqla oxudu. Bir şey çıxmadı. Təsərrüfat müdirindən təqaüd üçün olan sual vərəqələrini



LAYİHƏ

istədi. Vərəqədə yazılmış bir cavabın üstünə barmaq basdı. Vərəqədə soruşulurdu: "Kənardan gəliriniz və orta hesabla aylıq miqdarı". Vahid cavab vermişdi: "Kənardan gəlirim yoxdur. Heç yerdə işləmirəm..."

Vahidin cavabını çəkə-çəkə komsomol bürosunun iclasına gətirdi. Vahidin özünü də çağırıb müttəhim kimi qapı ağzında xeyli dayandırdılar və sonra dindirdilər. Onu bayıra çıxarandan sonra Gəldiyev ayağa qalxıb partiya komitəsinin adından iclasa nəticə vermək istədi:

– Budur, mövhumatçılar demiş, şükür Allaha, uzaqda deyil, göz qabağındadır. Budur müzür-ünsürün siması! Bu, Nayıbov Vahidin anketi, bu da altında podpisi! Yazır, gəlirim yoxdur. Fakt ilə, sənəd ilə isbat olundu ki, atası Şuşada sürü ilə arı saxlayır. Balın girvənkəsini də filan qədərə satır. Sağa da satır, sola da satır.

Kim isə yerindən söz atdı:

– Atasını danmır ha... O biri sualları niyə oxumursan?

Gəldiyev acıqlandı:

– Dayan, dayan, yoldaş!.. – O sözünə davam etdi: – ... Filan qədər satır, sağa da satır, sola da satır! Bu il hökumətə 225 manat naloq verib, bu nə deməkdir, yoldaşlar?Abman! Bu, sovet hökumətini aldatmaq deməkdir. Öz şəxsi mənfəətinin, necə deyərlər, xeyiri üçün bizi aldatmaq! Yox, yoldaşlar, bəsdir daha! Biz arıçılara aldanmarıq! Qoymarıq! Buna yol verməriк! Hələ biz o qədər də yatmamışıq ki, düşmən üstümüzü alsın. Görün ki, biz necə adamları instituta götürmüşük! Qovmaq, institutdan, komsomoldan!

Doğrudur, direktor Vahidin məsələsi müzakirə olunan iclasa gəlmişdi. Ancaq burada iştirak etmək, tələbənin taleyi ilə dərindən maraqlanmaq üçün gəlməmişdi. Vahid haqqında Gəldiyev onun qulağını doldurmuşdu. Gəldiyev "müzür-ünsür, qolçomaq balası, tərbiyəsiz..." – deyə Vahidi direktorun gözündə tamam nalayiq bir adam kimi qələmə vermişdi. Hətta onun sənədlərindəki saxtalığı eşidəndə Verdiyev bir qədər vahiməyə düşmüşdü. "Sabah bunun da məsuliyyətini çəkməli olacağıq!"

Gəldiyevin odlu nitqindən, direktorun soyuq yoxlamasından sonra Vahidə tərəfdar duran az oldu. Təkliflər var idi ki: "Təhqiqat üçün komissiya seçilsin", "yüngül tərbiyəvi cəza verilsin, töhmət olunsun". Gəldiyev bu təklifi edənlərə az qalırdı ki, göz ağartması verə.

Muxtar onun üzünə baxdı: "Sss!" – deyə sükut istədiyini bildirdi. Sonra sözə başladı:

– İki kəlmə də mən deyim. Vahid haqqında deyilənlər, əlbət ki, bir ittifaq üzvü üçün arzu olunan hərəkətlər deyil. Ancaq yoldaşlar unutmasınlar ki, canlı bir insan, özü də gənc, dünən kənddən gəlmiş bir gənc haqqında, onun taleyi haqqında söhbət gedir...

Uzun mübahisə və deyişmə düşdü. Axırda qət olundu ki, təhqiqat getsin. Vahidin sənədlərini yoxlatmaq direktora tapşırılsın.

Vahidin institutdan qovulmaq xəbərini eşidəndə Rübabə bərk narahat oldu. Dərsdə otura bilmədi. Rübabə axşam, dərsdən sonra Vahidi çox axtardı. Gördüm deyən yox idi. Rübabə institutdan çıxanda nə qədər özünü toxtatmaq, bikefliyini gizlətmək istəyirdisə, olmurdu. Bütün gecəni fikir-xəyal ilə keçirdi. Ancaq yaxşı bilirdi ki, qovrulmağın, ya ağlamağın xeyri yoxdur. Bu saat Vahidə əldən gələn köməyi etmək lazımdır...



LAYİHƏ

Vahidin məktəbdən kənar edilməsi haqqındakı əmri oxuyanda Muxtar təəccüb elədi. Birdən-birə, həm də komitədən xəbərsiz Verdiyevin belə bir əmr verməsi təəccüblü idi.

Gəldiyev taxıl tədarükü müvəkkilliyində çalışanda bir balaca dolaşan kimi olmuşdu. Özündən soruşsan, deyər: "Yoldaşa daverit eləmişəm, başıma bu işlər gəlib".

Rayon icraiyyə komitəsinin sədri yazdı ki: "Ay Kərim, filan qədər taxıl burax!". Kərim buraxdı. Torpaq şöbəsi dedi: "Qəşəng oğlan, arpa ver, atlar acdır". Qəşəng oğlan verdi. Bir başqası zəng elədi ki: "Yoldaş Gəldiyev, bir-iki tay buğdaya gümanın gəlməzmi, bacıoğlunun toyudur, darda qalmışıq". Gəldiyev də rədd eləmədi. "Yoldaş tədarükçü, vacib yer üçün on beş torba taxıl ayırıb mənim sərəncamıma göndərməlisən". Tədarükçü əməl elədi... Axırı bir gün hesabdar Gəldiyevi ayıltdı. Gəldiyev hesabdarı çağırıb açarları verdi, ezam kağızını göstərib, öz haqq-hesabını yazdırdı. Axşam yatacağını, çamadanını icraiyyə komitəsinin maşınına qoyub, birbaş Yevlaxa sürdürdü... Çox çəkmədi ki, Kərim Gəldiyev institutda "mədəni hücum" ştabının rəhbəri təyin olundu.

... Sadıq kişi mehmanxanada və ya kənd evində yatacaq yer tutduqdan sonra oğlunun işi üçün gedəcəkdi...

Onlar direktor kabinetinin ağzındakı dəhlizdə gözləyənlərə qarışdılar. Qapısında xurcunlu kişini görən direktor nəsə dedi. Sadıq kişi içəri girdi.

Direktor Sadıq kişiyə yer göstərdi:

– Əyləşin! Nə qulluq?

– Bu mənim, biədəb də olsa, oğlumdur, yoldaş direktor! Necəsə dolaşdırıb məktəbdən qovublar. İndi neçə müddəti külfətdə ovqat-talxlıqdır. Çox xahiş edirəm, ədalətlə bu işə baxasınız, uşağı oxutmağa düzəldəsiniz.

Direktor Sadıq kişiyə dedi:

– İşə tanış adam burda yoxdur, Gəldiyev yaxşı bilir, sabah gəlin, baxaq.

Bayramı Bakıda qalmalarına xüsusilə Sadıq kişi sevinirdi. O heç vaxt belə yerdə bayram keçirməmişdi. Vahid bələd adam kimi dala baxmadan ötür, atası da onun izincə yüyürürdü. Atası soruşmasa da, Vahid öz məktəblərini axtarırdı. Hər il institut ali məktəblər ilə bir cərgədə gələrdi. Vahid Rübabənin əlini sıxdı, Rübabə Rəşid ilə dünəndən Vahidi axtardığını dedi. Vahid onlara qoşulub, sevinclə yoluna davam etdi. Gəldiyev nizam gözləyən məsul bir adam kimi dəstəbaşını çağırıb danladı:

– Yadların cərgədə nə işi var?

Bayram gününün səhərisi Gəldiyev, Vahidə bir "qardaşlıq" elədi: institutun partiya komitəsi adından "məktəbin sabiq tələbəsi, hazırda ifşa olunub bayıra atılmış müzür-ünsür Nayıbov Vahid" haqqında əməlli-başlı bir xasiyyətnamə yazdı. Məktəb nümayiş komisyonunun akta oxşayan bir məlumatını da əlavə etdi. İnstitut tələbələrinin "bu müzür-ünsürə" qarşı hiddətləndiyini və onun məhkəmə vasitəsilə cəzalanmasını tələb etdiyini, əks təqdirdə işin böyüyəcəyini yazdı və möhürlədi.

Direksiya adından milis rəisinə bir xahiş düzəltdi. Bu xahişi direktora imzalatmaq lazım idi. Gəldiyev kağızları alıb çıxdı, birbaş milis idarəsinə götürüldü. O, Vahidin atasının Bakıda olmağına, nizamsız camaat içində dəstələrə "soxulmağına" ayrıca məna verməyə çalışırdı. İstirahət günü məktəb binasına getmələrini, "qarovulu narahat etmələrini" söyləyir və dizinə döyürdü: "Nə bilirsən, bəlkə, sovet məktəbinə qəsdən ziyan vurmağa, odlamağa gəliblər, nə bilirsən?"

Milis idarəsində bütün yazılanları, deyilənləri yığıb yoxlamaya, istintaqa verdilər. Vahidi isə Səttarzadə zəmanətə götürmüşdü. Rübabə milis idarəsinə



LAYİHƏ

gələndə bildi ki, komsomol komitəsi işin əsl rəngini bunlara hiss etdirmişdir. Milis işçisi bir-birinə tikilmiş müxtəlif sərlövhəli, müxtəlif həcmli, lakin eyni məzmunlu, eyni imzalı kağızlara murdar əsgiyə baxan kimi baxır, təəssüflə deyirdi:

– Bəyəm belə böhtanlar birdir, ikidir!..

Vahid haqqındakı iftira kağızları arxivə veriləndən, bu barədə həm müdiriyyətə, həm institut komsomol təşkilatına yoxlama yazılandan sonra inşaat institutunun rəhbər işçiləri əl-ayağa düşdülər. Gəldiyev xəlvətdə pıçıldayırdı ki: "Burada, deyəsən, rüşvət məsələsi var".

İslam Verdiyev Vahidi də, atasını da hörmətlə qəbul edib köhnə əmri dəyişdi.

• EVDƏ İŞ

**1. Əsərdən müstəqil oxuduğunuz ikinci hissəni (burada ondan parçalar verilmişdir) nəzərdən keçirin.**
**2. Tanış olmayan sözlərin mənasını aydınlaşdırın.**
**3. Daha maraqlı hesab etdiyiniz məcazları yazın.**
**4. Yazılı qeydlər əsasında şifahi təqdimata hazırlaşın.**

## İKİNCİ HİSSƏ

"Yeni Bakı" şəhərinin plan layihəsini çəkmək üçün müsabiqə elan olunmuş, üç mükafat təyin olunmuşdu. Vahid sevindiyindən qərarı dönə-dönə oxudu. Xəyalında dedi: "Fürsətdir!"

"Yeni Bakı" plan-layihəsinin müsabiqəsi haqqında təlimat üçün plan idarəsi sədri, mühəndislər, memarlar yığılmışdılar. Gəldiyev də sədrin yanında əyləşib əlində qələm danışanları qeyd etmək niyyətində idi. Onun gözü Vahidə sataşanda lap yəqin etdi: "İştirak eləyəcək". Gəldiyev şəxsən özü layihə düzəltmək niyyətində idi. Müsabiqədə iştirak etdiyi üçün Vahidin işindən qorxurdu. Vahid heç bir mənsəb sahibi olmasa da, mütəxəssislər arasında böyük hörməti var idi. Hətta müsabiqə haqqında danışanlar onun adını çəkir, iştiraka çağırırdılar. Vəzirbəyli camaatın qabağında açıq dedi ki, "Biz qocaman memarlarla yanaşı, Vahid kimi ümid verən istedadlı mütəxəssisləri mütləq cəlb etməliyik".

Bu da Gəldiyevə çox ağır gəldi. Öz əsərini – "şirin yuxu və istirahət hesabına yaratdığı əsəri" səliqəli bir qutuda "Ürək" adı ilə müsabiqəyə təqdim etmişdi. Gəldiyev "Ürək" əsərini hamıdan qabaq münsiflər heyətinin sədri Poladova göndərmişdi. Üç gün sonra zəng edib rəyini soruşmuşdu, Poladov etiraf etmişdi ki:

– Yoldaş katib, baxa bilməmişəm və yaxın günlərə söz verə bilmirəm.

Gəldiyev belə fürsət axtarırdı. "Ürəy"i sədrdən alıb Vəzirbəyliyə göndərdi. Vəzirbəyli telefonu təzəcə yerə qoymuşdu ki, zəng çalındı. Gəldiyev "Ürəy"ini soruşdu:

– Professor, keyfiniz-zadınız? Uşaqlar necədir? Layihəyə baxdınız, yəqin, hə?

– Mən bu layihəyə baxanda, doğrudan, heyrət etdim. Nə təhər olur, belə adamlar mühəndis adı alırlar? Əsərin başında müəllifin bir məktubu var ki, injenerəm, filanam, görəsən, hansı idarəni kor qoyur...

Gəldiyev bir ah çəkdi:

– Deməli, bəyənmədiniz, hə?

– Bəyənmək nədir, əşi?! Məncə, qeyri-qanuni də olsa, bu adamın paketini açmaq, harada işlədiyini bilmək, tezliklə qovmaq lazımdır. Layihə işindən xəbəri yoxdur. Allah göstərməsin belə mühəndisləri... Guya küçələri çəkir: Bayıldan Ağ



LAYİHƏ

şəhərəcən uzanan küçəni heç bir küçə kəsmir. Bir küçədən o birisinə keçmək üçün damlardan hoppanmaq lazım gələcək. Evlər üst-üstə minib. Bu üzdəniraq mühəndis şəhəri susuz, yolsuz, hərəkətsiz təsəvvür edir. Bina yığını!

Bu həmin Vəzirbəylidir ki, Gəldiyevin diplom alandan sonra ilk tikinti işinə irad tutmuş, hörmətdən salmışdı. Vəzirbəylinin yanında Gəldiyevin dili gödək idi. Layihəni götürüb kənara qoydu, qan-tər içində Vahidin işini tapmağa cidd-cəhd elədi. Gecənin birində Gəldiyev evə bir dəstə ağ, qırmızı, sarı, göy zərflər gətirdi. Gəldiyev əlindəki kibrit çöpünü nəm çəkmiş zərflərin böyründən salır, bura-bura açırdı. Yeddinci zərfdə Vahidin əsərini öyrənə bildi: “Açıq kitab!”

Gəldiyev iki stolu birləşdirdi, pəncərələri örtüb qapını bağladı. Vahidin layihəsini səliqəylə düyməçələdi, başladı üzünü köçürməyə:

– Ağca, buraya heç kəsi buraxmayacaqsan! Eşitdinmi?

Düz on yeddi gün qələm, xətkeş, pərgar, rezin əlindən düşmədi. Gündüz iki saat idarəyə qaçıb görünür, qayıdırdı. Surətini çıxarıb qurtarandan sonra bağladı, üstünə öz layihəsinin adını yazdı: “Ürək”. İstədi Vahidin layihəsini puç eləsin. Heyfı gəldi, bir də “aydın olmayan yerləri öyrənməyə lazım olar”, – deyə büküb bir küncə qoydu. Ağcanı sayıq salmaq üçün əvvəlki tapşırığı təkrar etdi:

– Ağca, bu otağa heç kəsi buraxmayacaqsan! Sözüm sözdü!

Vahid və Rübabəni tanıyanlar arasında elə adam yox idi ki, bu iki cavanın evlənəcəyinə şübhələnsin. Ataların razılaşdığından bir həftə sonra, bir yay axşamında Rübabəgilin böyük zalında toy məclisi qurulmuşdu. Ev qonaqlarla dolu idi. Pəncərələr hər tərəfə açıldığından şənlik, musiqi səsi küçələrə yayılırdı. Səttarzadə sol əlində tutduğu qalın, qırmızı meşin cildli kitabı qulağına aparanda hamı susdu. Səttarzadə bülbül kimi fəğanə gəldi:

Məndə Məcnundan füzun aşiqlik istedadı var!
Aşiqi-sadiq mənəm, Məcnunun ancaq adı var.

Səttarzadə bu beyti elə oxudu ki, hamı əl çalmaq, afərin demək istədi, ancaq bu ləzzətli musiqini bir də eşitmək arzusu hamını susdurdu. Səttarzadə kitabı qabağına qoydu, badəni qaldırıb dedi:

– Qonaqlar, dostlar! Mən burda, sizin hüzurunuzda qızıma, oğluma – Rübabəyə, Vahidə bir hədiyyə verəcəyəm. Övladıma əqidəmi hədiyyə, cehiz verirəm! – Qoca xanəndə kitabı göyə qaldırdı. Ona baxan gözlərə sanki cavab olaraq daha da qaim səsləndi: – Bunun adı məbəbbətdir. Düzdür, əsl məhəbbət həyatdadır. Ancaq bu kitabda əbədi həyat olmuş bir məhəbbət oxunur. Balalarım! Füzuli kimi sevin!

... Xəbər verdilər ki, ayın beşində komissarlar sovetində institutun məruzəsi qoyulur. Nəhayət, gözlənilən vaxt gəlib çatdı. Verdiyev əlində iş qovluğu kürsüyə çıxanda dal cərgələrə göz gəzdirdi. Gəldiyevi görmədi. Ürəyinə bir qorxu düşdü ki: “Görəsən, harda qaldı?!” Vahidin orada olması Verdiyevin təşvişini daha da artırdı, kürsüyə keçən kimi bir udum su içdi. Neçə vaxtdan bəri hazırladığı müqəddiməni bitirəndən sonra “partiyanın rəhbərliyi altında institutun tarixi qələbələrə doğru addımladığından” danışmağa, qrammofon kimi ötməyə başladı. Lakin gözlənilmədən verilən tutarlı suallar onu çaşdırdı. Verdiyevin zəhri yarıldı. Niyyəti, planı pozuldu. Soyuq tər vücudunu islatdı. Gözləri alacalandı, zala baxa bilmədi. Sədr onun üzünə ittihamnamə oxuyurmuş kimi bir az yaxın gəldi, səsini ucaltdı:

– Yoxsa tələbələri, müəllim heyətini aldatmaq sizə asan gəlir? Həmin iştaha ilə də bizi, iclası aldatmaq istəyirsiniz?! – Verdiyev susur, sədr suallı nəzərlə



LAYİHƏ

heyran-heyran ona baxırdı. – Çox qəribədir! Qoy yoldaşlar danışsın, görək institutda nələr olur, bunun baisi kimdir, nədir!..

Vahidin, Muxtarın açıq, ətraflı və hərarətli danışığından sonra sədrin təklifi ilə bir qərar qəbul olundu ki, inşaat institutunda rəhbər işçilərə möhkəm əl gəzdirilsin.

Axşamüstü süfrəyə oturanda Ağca xanım Gəldiyevə sevincli bir xəbər verdi:

– Deyəsən, müsabiqədə udursan, gözün aydın! Proyekt-bürodur, nədir, yoldaşların gəlmişdilər, əsərin üzünü verdim apardılar.

Gəldiyevin boğazı qurudu, tikəsi əlində qaldı, gözü bərəldi. Durub yazı stolunun küncünə, lülə kağızların boş yerinə baxdı. Fəlakət görmüş kimi dizinə döydü. Gəldiyev köynəyinə od doldurulmuş kimi evdə oyan-buyana ha vurnuxdu, papağını başına qoyub çıxdı. Yenə qayıtdı. Nə getməyə yeri qalmışdı, nə oturmağa səbri. Quyruğu basılmış ilan kimi fısıldaya-fısıldaya oyan-buyana keçib söyür, köksünü ötürür, dodağını gəmirirdi. Hava qaranlıqlaşanda Gəldiyev köhnə pencəklərindən birini geydi, yol papağını başına qoyub evdən çıxdı.

Beşcə gün bundan əvvəl plan idarəsinin kiçik zalında müsabiqə heyəti iclas edirdi. On yeddi layihədən "Ürək" adı ilə verilən layihə ikinci mükafata, "Salam" adlı bir başqası isə üçüncü mükafata namizəd göstərilirdi. Heyət üzvləri rəyə gələndən sonra müntəzir oturub zərflərin açılmasını gözləyirdilər. Poladov ayağa qalxdı:

– Yoldaşlar, – dedi,– aydındır ki, ancaq qazanan əsərlərin paketini götürməliyik. Başqalarını açmağa ehtiyac yoxdur.

Gəldiyev tez iki zərfi sədrin qabağına qoydu:

– Yoxdur, – dedi, – qazanmayanları, niyə açıb avtoru utandıraq.

Poladov göy zərfi cəsarətlə cırıb iki qatlanmış kağızı əlinə aldı, oxudu. Hamı diqqətlə dinləyirdi: "Ürək" adlı proyekti mən, Gəldiyev Kərim Abbas oğlu çəkmişəm. Bu mənim əsərimdir".

Gəldiyev sevincindən qızarmış, pörtmüş halda gözünü sədrin əlinə dikmişdi. Nədənsə sədrdə bir soyuqluq görürdü. Poladov ikinci zərfi açdı. "Salam" layihəsinin müəllifi qocaman bir mühəndis idi. Sədr nə demək istəyirdisə, Vəzirbəyli soruşdu:

– "Ürək" layihəsinə mən də baxmışam. Bu necə şeydir? Təəccüblüdür!

Xəyalına nə gəldisə, üzünü məclisə tutdu:

– Yoldaşlar, cavan bir mühəndis var, tanımamış olmazsınız. Vahid! Onun layihəsinə kim baxıb?

Heç kəs cavab vermədi.

Vahid əlində dəsmal, təngnəfəs içəri girdi. Poladov soruşdu:

– Siz müsabiqəyə əsər hazırlayırdınızmı?

– Bəli, hazırlamışam.

– Bəs hanı!

– Sizdə!

– Əsərinin adı nə idi?

– "Açıq kitab".

Vəzirbəyli dedi:

– Mən görürəm ki, Vahidin işi ortalıqda yoxdur. – Üzünü Gəldiyevə tutdu: – Bir zəhmət çək, öz proyektini bura ver!

Poladov danışığı kəsmək istədi:

– Yoldaş jüri üzvləri, gəlin siz bu məsələni mənə etibar edin, arxayınlıqla məşğul olarıq...



LAYİHƏ

Vahid evə gələ bilmədi, deyəsən, onun əsl işi indi, layihəsi qəbul olandan və hökumət adamları onu təbrik edəndən sonra başlanırdı. Becərdiyi bağın tamaşasından həzz alan bağban kimi şəhərin ən uca yerinə – Dağüstü parka getdi. Qaralmaqda olan axşam üfüqlərini, göylərə səpilən, get-gedə qızaran ulduzları, bir nəhəng kimi yatıb dincələn Xəzəri seyr etdi. "Yeni Bakı"nın quruluşu, həyatı, insanları qədər də təbiəti təzələnməlidir. Şəhərə yaşıl don geydirməli. Çoxqatlı binalar, universitet, kitabxana, muzeylər, saraylar, klublar, rəsədxana...

Öz işinin ağası olan adamların sərbəst qələmi ilə Şərqin qapısında, yeni tarixində böyük bir kitab yazılmışdır. Bu kitabın dağlardan sahillərə qədər açılan parlaq vərəqləri kimi, məzmunu, mənası açıq və aydındır. Rahatlıq bilməyən buruqlarda, göylərə baş vuran zavodlarda, çoxqatlı mənzillərdə, məktəblərdə, müalicə evlərində, süzüb gedən maşınlarda, trolleybuslarda körpələr də, uşaqlar da, gənclər də, qocalar da, məşhurlar da, sayalar da, əmr verən komandanlar da, eşidən döyüşçülər də, milislər də, xörək bişirən qadınlar da xoş səslə deyəcəklər:

– Sədaqət, məhəbbət olan yerdə məğlubiyyət olmaz.

**• II dərs**

**• MƏZMUN ÜZRƏ İŞ**

**TAPŞIRIĞI FƏRDİ OLARAQ YERİNƏ YETİRİN**

**1. Mənasını aydınlaşdırdığınız sözlərin alınma, yaxud dilimizə aid olduğunu əsaslandırın.**

| Tanış olmayan sözlər | Mənası | Öz sözümüzdür | Alınma sözdür |
|---|---|---|---|
| | | | |

**2. Seçdiyiniz məcazların növünü dəqiqləşdirin.**

| Əsərdən seçilmiş məcazlar | Onların növü |
|---|---|
| | |

**3. Oxuduğunuz ikinci hissədə diqqətinizi daha çox cəlb edən məsələləri ikihissəli gündəlikdə yazın.**

| Əsərdə diqqətimi cəlb edənlər | Bunun səbəbi |
|---|---|
| | |

**4. Suallara cavab hazırlayın:**

a) Layihə müsabiqəsində qalib gəlmək üçün Gəldiyevin əməli sizdə hansı təəssürat yaratdı?
b) Vahidlə Rübabənin toyunda Səttarzadənin dediyi sözlərin mənasını necə başa düşürsünüz?
c) Həqiqətin üzə çıxması üçün Vəzirbəylinin müsabiqədəki davranışı barədə nə düşünürsünüz?
d) Gəldiyevin ifşa olunduqdan sonra düşdüyü vəziyyətdə diqqətinizi daha çox çəkən nə oldu?
e) Vahidin qurub-yaradacağı yeni şəhər barədə düşüncələrində sizə daha çox nə maraqlı göründü?
f) Oxuduğunuz hissə hansı mənəvi dəyərlər barədə danışmağa imkan verir?

**5. Kiçik qruplarda birləşərək qənaətlərinizi bölüşün, fikirlərinizi dəqiqləşdirib ümumiləşdirin.**

**6. Təqdimatlar əsasında fikir mübadiləsi və müzakirə aparın.**

**• EVDƏ İŞ**

**"Açıq kitab" əsərinin məzmunu üzrə müzakirəyə hazırlaşın.**

LAYİHƏ

**• III dərs**

**• TƏHLİL ÜZRƏ İŞ**

## AŞAĞIDAKI QAYDALARA ƏMƏL ETMƏKLƏ MƏTN ÜZRƏ İŞLƏYİN

**1. Mətni oxuyun.** Mətnkənarı sualların cavablarını ümumiləşdirib bir neçə cümlə ilə yazın.

| Mətnkənarı suallar | Onların ümumiləşdirilmiş cavabı |
|---|---|
| | |

**2. Əsərin mövzusunu, konfliktini, qoyulmuş problemləri müəyyənləşdirin.**

| Mövzu | Konflikt | Qoyulmuş problemlər |
|---|---|---|
| | | |

**3. Vahid və Gəldiyev obrazlarını "xarakterlər xəritəsi" əsasında səciyyələndirin.**




**4. Əsərdəki bədii təsvir və ifadə vasitələrinin rolunu izah edin.**

| Bədii təsvir və ifadə vasitəsinin işləndiyi cümlə | Fikrin təsir gücünün artmasında onun rolu |
|---|---|
| | |

**5. Əsərdəki başlıca fikri – ideyanı müəyyənləşdirin. Fikrinizi nümunələrlə əsaslandırın.**

| Əsərin ideyasını daha qabarıq əks etdirən cümlələr | Nə üçün belə düşünürsünüz? |
|---|---|
| | |

**6. Aşağıdakı fikirlərin üzərində düşünün, müzakirədə onlara münasibət bildirin.**

– *Romanda mərkəzi mövqeyə və sözə sahib satirik tiplərin (Gəldiyev, Verdiyev, Ağca xanım və b.) təqdimində yazıçı ədəbiyyatımızda ona qədər mövcud özünüifşa modellərindən məharətlə bəhrələnir.*

*(Tehran Əlişanoğlu)*

– *Romanın sonunda mənəvi cəhətdən müflis olmuş Gəldiyev özünü meşəyə verir, kəsilmiş qarağacın quru kötüyü üstündə oturur və bu zaman onun içindən bir səs, bir duyğu keçir: "Bir də göyərsəydim!.." Bu ifadə ilə 37-ci illərin hadisələrini – repressiya illərini işarələyir.*

*(Təyyar Salamoğlu)*

**7. Kiçik qruplarda birləşərək qənaətlərinizi bölüşün.**

**8. Təqdimatlar etməklə məlumat mübadiləsi və müzakirə aparın.**

LAYİHƏ

“Açıq kitab” Mir Cəlalın müasir mövzuda yazılmış ilk romanı sayılır. Əsərin mövzusu keçən əsrin 30-cu illərində cəmiyyətdə gedən mürəkkəb proseslərdən, dövr üçün səciyyəvi hadisələrdən götürülmüşdür.

> Əsər hansı mövzuda yazılmışdır? Yazıçının bu mövzuya müraciət etməsinə səbəb nə olmuşdur?

*Mənbələrin araşdırılması mövzunun əhatəli şərhinə, yazıçının bu mövzuya müraciət etməsinin səbəblərini aydınlaşdırmağa imkan verir.*

Cəmiyyətdə saflığın, düzlüyün, həqiqətin bərqərar olmasının zəruriliyi romanda qırmızı xətt kimi keçir. Ölkədə gedən proseslər – müasir dünyagörüşlü, yeniliklərə can atan gənclərlə yanaşı, siyasi şüarlar əzbərləyib ictimaiyyətçi cildinə girən, şər və böhtanla məşğul olan, evlər yıxan insanların getdikcə artan bəd əmərləri sənətkarı narahat etməyə bilməzdi. Ədib həmin dövrdə sovet cəmiyyətində gedən ictimai-siyasi prosesləri diqqətlə izləmiş, həyat həqiqətlərinə sadiq qalaraq müşahidə etdiyi müsbət cəhətləri alqışlamaqla yanaşı, mənfi meyilləri satirik dillə ifşa və tənqid etmişdir.

> Əsərdə qaldırılmış problemlər və konflikt üçün özəl olan cəhətlər hansılardır?

Təsadüfi deyil ki, yazıçının dövrün mənfiliklərini cəsarətlə ifşa etməsinə, problemlərin mahiyyətini açıb göstərməsinə münasibət birmənalı olmamışdır.

Yazıçı romanda müxtəlif xarakterə, dünyagörüşünə, həyat mövqeyinə malik yaddaqalan obrazlar silsiləsi yaratmışdır. Əsərdə müasir gəncliyi təmsil edən *Vahid, Rübabə* və onların tələbə dostlarının hər biri öz daxili aləmi, fərdi psixoloji cizgiləri, fəaliyyəti ilə diqqəti cəlb edir. Saf mənəviyyatlı, istedadlı gənc olan Vahid qurub-yaratmaq arzusu ilə yaşayan, ali təhsil alan gəncliyin nümayəndəsidir. Təsadüfi deyil ki, məhz özünü yeni, xoşbəxt həyatın qurucusu kimi görən bu gənc gəldiyevçilərin hədəfinə çevrilir. Əsərdə Vahidin, Rübabənin *Gəldiyev* və *Verdiyev* kimiləri ilə apardığı prinsipial mübarizə şəxsi deyil, ictimai mahiyyət daşıyır.

> Əsərdəki obrazlar hansı cəhətləri ilə diqqəti cəlb edirlər?

Vahidin mənəvi dünyasının, fikir və hislərinin təsvirinə əsərdə geniş yer verilir, oxucunun gözləri önündə ləyaqətli, sadə, təvazökar bir gəncin obrazı canlanır. Vahid inkişafa, tərəqqiyə mane olan insanlarla mübarizədə şəxsi intiqam, qisas hissindən uzaqdır. O, başqalarını əzmək, ayaqlamaqla mənsəbə çatmaq, güzəran yaratmaq arzusuna düşənlərə öz yaradıcı fəaliyyəti, qurub-yaratmağa yönəlmiş, cəmiyyətə fayda verən əməlləri, mübarizədə əzmkarlığı ilə zərbə vurur.

Romanda *Rübabə*, *Muxtar* kimi gənclər Vahidin *əməl dostlarıdır*. Şəxsi mənafeyini hər şeydən üstün tutan, xudbin qüvvələrlə, “gəldiyevçiliklə” mübarizədə bu gənclərlə yanaşı duran qocaman mühəndis *Vəzirbəyli,* arıçı *Sadıq kişi,* tarzən *Səttarzadə*nin yaddaqalan obrazları diqqəti cəlb edir.

Cəmiyyətdə özünü kəskin şəkildə büruzə verməyə başlayan əliəyrilik, dələduzluq, riyakarlıq, saxtakarlıq, mənəviyyatsızlıq hallarını yazıçı geniş, inandırıcı epik lövhələrlə təsvir edir. Kərim Gəldiyevin simasında o, simasız, el malını dağıdan, eləcə də Verdiyev kimi ikiüzlü rəyasət düşkünlərini kəskin tənqid etmişdir.

“Açıq kitab” yüksək ideya-bədii keyfiyyətləri ilə seçilən satirik romandır. Maraqlı süje-

> Əsərin bədii xüsusiyyətlərində diqqəti daha çox cəlb edən nədir?



LAYİHƏ

tə, bitkin kompozisiyaya malik, lüzumsuz təsvirlərdən uzaq olan bu əsərin mövzusu, ideya istiqaməti müxtəlif ifşa, gülüş üsullarından istifadəni zəruri etmişdir. Lakin məzmun və formaca bitkin olan romanda tənqid, ifşa, satirik ruhla yanaşı, lirik motivlər və məqamlar da vardır.

Əsərdəki hər obraz özünəməxsus fərdi cəhətləri ilə fərqlənir. Obrazların adları da əsərdə müəyyən məna kəsb edir. Mənfi tiplərin Gəldiyev, Verdiyev, müsbət qəhrəmanların Vahid, Rübabə adlandırılması da bu baxımdan düşündürücüdür.

Əsərin dili, üslubu sadəliyi, təbiiliyi, real həyata bağlılığı ilə diqqəti cəlb edir. Yazıçı romanda qəhrəmanların nitqinin fərdiləşdirilməsinə xüsusi diqqət yetirmişdir. Gəldiyevin nitqində işlənən varvarizmlər, "əzməsən, əziləcəksən, ayaqlamasan, ayaqlanacaqsan", "mənsəb cəhənnəmin təkində də olsa, enməyi bacar" sözləri onun mənəviyyatsızlığını göstərir.

Əsərin başlıca ideyası nədir?

"Açıq kitab" oxucunu şərin mövcud olduğu cəmiyyətdə baş verə biləcək faciələrdən xəbərdar edir, silahlandırır. Yazıçının başlıca niyyəti hadisələrin cərəyan etdiyi dövrdə cəmiyyətdə özünü qabarıq göstərən ziddiyyətlərin, mənfilik və eybəcərliyin mahiyyətini açmaq, saf mənəviyyatlı, sağlamdüşüncəli insanların qələbəsinə inamı ifadə etməkdir.

*Mənbələrin araşdırılması əsərin zəngin ideyasını hərtərəfli açıqlamağa imkan verir.*

**• EVDƏ İŞ**

**ARAŞDIRMANI DAVAM ETDİRİN**

1. **Sinifdə öyrəndiklərinizi göstərilən mənbələrdən topladığınız məlumatlar əsasında zənginləşdirin və tamamlayın.**
2. **Yazılı qeydlər əsasında şifahi təqdimata hazırlaşın.**

**• MƏNBƏLƏR**

1. Mir Cəlal. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2005, səh.4-14.
2. Müasir Azərbaycan ədəbiyyatı. 2 cilddə. I cild. Bakı: Bakı Universiteti, 2007, səh. 292-293.
3. Azərbaycan nəsri antologiyası. 5 cilddə. III cild. Bakı: Şərq–Qərb, 2006, s. 4-5, 14-16.
4. XI sinif şagirdləri üçün elektron vəsait. http://edebiyyat.ucoz.com.



LAYİHƏ

# AZƏRBAYCAN ƏDƏBİYYATINDA MİLLİ ÖZÜNÜDƏRKƏ QAYIDIŞ VƏ İSTİQLALÇILIQ MƏRHƏLƏSİ

(XX əsrin 60 – 90-cı illəri)

• ARAŞDIRMAYA HAZIRLAŞIN

**1. 1960–1990-cı illərdə Azərbaycan ədəbiyyatı, onun aparıcı nümayəndələrinin yaradıcılığı haqqında ədəbiyyat dərslərində öyrəndiklərinizi yada salıb yığcam müzakirə aparın.**

Həmin dövrdə Azərbaycanın ictimai-siyasi həyatında, mədəniyyət, incəsənət sahəsində baş vermiş dəyişikliklər haqqında tarix dərslərində qazandığınız biliklərdən istifadə edin.

**2. BİBÖ cədvəlinin ilk iki sütununda qeydlər edin.**

| Bilirik | Bilmək istəyirik | Öyrəndik |
|---|---|---|
| | | |

**3. Mətni oxuyun. Tapşırıqları fərdi olaraq yerinə yetirin.**

1.Mətnkənarı sualların cavablarını ümumiləşdirib yazın.

| Mətnkənarı suallar | Onların ümumiləşdirilmiş cavabı |
|---|---|
| | |

2.Oxu zamanı sizi düşündürən sualları yazın. Cavablarını müzakirədə dəqiqləşdirin.

| Məni düşündürən suallar | Onların cavabı |
|---|---|
| | |

**4. Aşağıdakı fikirlərin üzərində düşünün, müzakirədə onlara münasibət bildirin.**

*– 60-cıların şeirlərini oxuyanda düşünürəm. İllərlə görüb yanından keçdiyim şeylər gözümdə yeni rənglərlə canlanır. Bu şeirləri oxuyanda özümü əvvəl olduğundan artıq daxilən zənginləşmiş hiss edirəm. Əgər şair qardan yazmışdırsa, qarda, ağacdan yazmışdırsa, ağacda, gözlərdən yazmışdırsa, gözlərdə nə isə bu vaxta qədər duyub dərk etmədiyim yeni çalarlar, qoxular, rənglər duyur, görürəm. Məncə, həqiqi poeziyanın yolu budur.*

*(Rəsul Rza)*

*– 60-cılar ədəbi nəsli ədəbiyyatın əsas vəzifəsini insana daha artıq diqqət və maraq göstərməkdə, insanın işindən, fəaliyyətindən çox, onun şəxsiyyətini, mənəviyyatını açmaq, təhlil və əks etdirməkdə görürdülər. Onlar sovet gerçəkliyini tərənnüm və vəsf etmir, onu ciddi bədii mühakimənin mövzusuna və predmetinə çevirirdilər.*

*(Şamil Salmanov)*

**5. Kiçik qruplarda birləşərək qənaətlərinizi bölüşün.**

**6. Təqdimatlar əsasında məlumat mübadiləsi və müzakirə aparın. BİBÖ cədvəlinin üçüncü sütununda qeydlər edin.**



LAYİHƏ

Altmışıncılar ədəbi nəslinin ədəbiyyatımızın yeni istiqamətdə inkişafında rolu nədən ibarətdir?

Adından da göründüyü kimi, ümumən sovet hakimiyyəti illərinə aid olan bu mərhələ iki dövrə ayrılır: ***milli özünüdərkə qayıdış*** və ***istiqlalçılıq dövrü***. Milli özünüdərkə qayıdış Azərbaycan ədəbiyyatında altmışıncıların fəaliyyəti ilə başlanan mərhələdir. Milli azadlıq ədəbiyyatının yaradıcıları olan Bəxtiyar Vahabzadə, Məmməd Araz, Xəlil Rza Ulutürk, Sabir Rüstəmxanlı və başqaları milli özünüdərkə qayıdışın ədəbiyyatımızın əsas qoluna çevrilməsində mühüm rol oynamışlar. Milli özünüdərkə qayıdış ədəbiyyatı XX əsrin altmışıncı illərindən başlayaraq 70–80-ci illərdə ardıcıl və sistemli şəkildə yaranıb, müstəqillik ərəfəsinə qədər davam etmiş ədəbiyyatı əhatə edir.

"Altmışıncılar" ədəbi nəslinin gəlişi ilə söz sənətimizdə sosializm realizmi ədəbiyyatının xarakteri dəyişməyə başlamışdır. Belə ki, ədəbiyyata gələn gənc yaradıcı qüvvələr adi əhvalatları, sadə insanı ədəbiyyatın ön mövqeyinə çəkdi. İstehsalat romanları, sosializm yarışı qaliblərinin obrazının yaradılması, ideoloji xarakterli çağırışlar öz mövcudluğunu saxladığı halda, altmışıncılar ədəbi nəsli gerçək həyat hadisələrinin, sadə insanların, mənəviyyatda gedən proseslərin əks etdirilməsinə söz sənətində vətəndaşlıq hüququ qazandırdılar.

İlk dövrlərdə kəskin tənqidlə qarşılaşan yeni ədəbi nəslin yaratdığı əsərlər sosialist realizmi yaradıcılıq metodunun tələblərinə cavab vermirdi. Altmışıncılar sosialist realizmini birbaşa inkar etmədən həyata, insana, gerçəkliyə sədaqətlə yazıb-yaratmaqda davam edirdi. Onların əsərlərində sosializm cəmiyyətindəki mövcud vəziyyətə tənqidi münasibət ifadə olunur, cəmiyyətin həyatında mənəvi böhranın həyəcan təbili çalınırdı.

Bu proseslər Azərbaycan ədəbiyyatının inkişafında ən yeni dövrün böyük başlanğıcı idi. İctimai quruluş, siyasi sistem hələ dəyişməmişdi. Amma ədəbi prosesdə meydana çıxmış ciddi keyfiyyət dəyişikliyi bədii sözün sovet ideologiyasından xilas olmasında və öz əbədi missiyasına qayıtmasında mühüm rol oynamışdır. Xalqın, insanın, gerçəkliyin əks etdirilməsində yeni münasibət, fərqli bədii düşüncə tərzi formalaşmağa başlamışdır.

Bu ədəbi nəsil, demək olar ki, ədəbiyyatın bütün istiqamətlərində təmsil olunmuşdur. *Nəsrdə* yeni nəsli Anar, Elçin, Sabir Əhmədov, Maqsud İbrahimbəyov, Yusif Səmədoğlu, İsi Məlikzadə, Mövlud Süleymanlı kimi sənətkarlar təmsil edirdi. Onların əsərləri üçün adi insanın mənəvi aləmi, güzəranı, fikir və düşüncələri, ağrı və çətinliklərinin əks etdirilməsi səciyyəvi idi. Anarın "Ağ liman", "Dantenin yubileyi", Elçinin "Gümüşü furqon", "Baladadaşın ilk məhəbbəti", M.İbrahimbəyovun "Ondan yaxşı qardaş yox idi" əsərləri və s. bu nəslin yaradıcılıq uğurlarının göstəricisi idi.

60-cılar ədəbi nəslini təmsil edən Əli Kərim, Fikrət Qoca, Fikrət Sadıq, Vaqif Səmədoğlu, Cabir Novruz və başqa sənətkarların əsərləri *poeziyada* yeni məzmun və forma axtarışlarının nəticəsi kimi meydana çıxırdı. Bu şairlərin lirik qəhrəmanı fərdi daxili dünyası, fikir və həyəcanları olan, sosial mühitin, mənəvi ovqatın təsirini öz taleyində hiss edən insan idi. Əli Kərimin "Qaytar ana borcunu", Cabir Novruzun "İnsan himnləri" şeirləri və s. lirik qəhrəmanın iç



LAYİHƏ

dünyasını, vətəndaşlıq mövqeyini yeni fikir və hislər müstəvisində, orijinal bədii üslubda əks etdirirdi.

*Dramaturgiyada* da yeni ədəbi nəsil uğurlu məzmun və forma axtarışları ilə seçilirdi. Onlar cəmiyyətdəki sosial və mənəvi problemləri, gerçəkliyi insanın taleyi, hiss və düşüncələri, fərdi həyat mövqeyi baxımından əks etdirirdilər.

"Qobustan" toplusu həmin ədəbi nəsli öz ətrafında cəmləşdirdi. Beləliklə, altmışıncılar ədəbi nəsli ədəbiyyatın aparıcı qüvvəsinə çevrildi.

Həmin dövrdə ədəbiyyatşünaslığın da "altmışıncılar" elmi nəsli yetişmişdir. Yaşar Qarayev, Arif Hacıyev, Akif Hüseynov, Şamil Salmanov, Asif Əfəndiyev və başqaları ədəbi prosesi obyektiv, daha dərindən, ideoloji qəliblərə uymadan araşdırmağa başladılar.

Ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə (1969–1982) soykökə və tarixə dönüş, milli ədəbiyyatın və mədəniyyətin dövlət səviyyəsində himayə olunması söz sənətinin meydanını daha da genişləndirmişdir. Bəxtiyar Vahabzadə, Xəlil Rza, Məmməd Araz, İsmayıl Şıxlı, Ziya Bünyadov, Tofiq Hacıyev, Abbas Zamanov, Xudu Məmmədov, Sabir Rüstəmxanlı və digər vətəndaş yazıçıların, alimlərin səmərəli fəaliyyəti Azərbaycan cəmiyyətində milli ədəbi-ictimai fikri sosializm çərçivəsindən irəli aparmışdır. Bu mərhələdə Azərbaycan ədəbiyyatında milli özünüdərkə qayıdış prosesləri daha da genişlənmiş və dərinləşmişdir.

? 1960-cı illərin sonu – 1980-ci illərin əvvəllərində ədəbiyyatımızda hansı dəyişikliklər baş verdi?

Azərbaycan xalqının dövlət müstəqilliyinə hazırlanmasında milli ədəbiyyat mühüm rol oynamışdır. Beləliklə, hələ sosializm cəmiyyətinin mövcud olduğu 70–80-ci illərdə Azərbaycan ədəbiyyatında milli ruh və vətəndaşlıq mövqeyi güclənmişdir.

Milli istiqlal ədəbiyyatı XX əsrin səksəninci illərində yaranmağa başlayan, ölkəmizdə müstəqil dövlətçiliyin bərpa olunması və hətta müstəqilliyin itirilmə təhlükəsinin aradan qaldırılması kimi şərəfli və keşməkeşli mərhələni əhatə edir. Səksəninci illərin axırlarından dövlət müstəqilliyinin bərpasına qədərki dövrdə ədəbiyyatımızda milli azadlıq ideyaları ön plana çıxmışdır. Sovet imperiyasında baş verən proseslərin dalğasında Azərbaycanda gedən milli azadlıq hərəkatının təsiri ilə ədəbiyyatın vətəndaşlıq kəsəri artmışdır. Azadlıq meydanlarında təkcə şairlər deyil, xalq hərəkatının fəalları da xalqa ən təsirli çağırışları ədəbiyyatın, poeziyanın dili ilə səsləndirmişlər. Ədəbiyyat milli azadlıq hərəkatı siyasətinin danışan "dili" vəzifəsini yerinə yetirmiş, meydan hərəkatının müstəqillik, azadlıq çağırışlarını xalqa çatdırmışdır. Ədəbiyyatda ana dili uğrunda mübarizə nəticə etibarilə ana Vətənin istiqlalı ideyasını əks etdirmişdir.

? Milli istiqlalçılıq ədəbiyyatında hansı ideallar ön plana çıxdı?

Azərbaycan ədəbiyyatı özünün çoxəsrlik tarixində xalqın və ölkənin taleyində heç vaxt bu mərhələdə olduğu qədər həlledici rol oynamamışdır. Ona görə də XX əsrin 80-ci illərinin axırları və 90-cı illərinin əvvəlləri Azərbaycan ədəbiyyatının milli azadlıq mübarizəsində fəal iştirakı dövrü, milli istiqlalçılıq mərhələsi hesab edilə bilər.

LAYİHƏ

Xalq şairi Bəxtiyar Vahabzadənin "Şəhidlər" poeması, Məmməd Arazın "Qalx ayağa, Azərbaycan" şeiri, Xəlil Rza Ulutürkün Lefortovo zindanında yazılmış şeirləri, Sabir Rüstəmxanlının "Ömür kitabı", Rüstəm Behrudinin "Dar ağacı" şeiri meydanlarda milli azadlıq himnləri kimi səslənmişdir.

Milli istiqlalçılıq mərhələsində ədəbiyyatda başlanan və qüvvətlənən ümummilli ideallar Azərbaycanda dövlət müstəqilliyinin qələbəsi ilə məqsədinə çatmışdır. Bununla belə, milli istiqlalçılıq ideyalarının əks-sədası bir qədər də davam etmiş, qələbədən doğan sevinci dərhal əvəz etmiş xaos, qarışıqlıq özü ilə müstəqilliyi itirmək səksəkəsi yaratdığı üçün ədəbiyyat bu illərdə də azadlıq uğrunda mübarizədə öz sözünü demişdir.

Ölkəmizdə dövlət müstəqilliyi bərpa olunduqdan sonra Azərbaycan ədəbiyyatı özünün yeni ideallarını formalaşdırmışdır. Bununla belə, bütünlükdə milli istiqlalçılıq mərhələsinin ədəbiyyatı müstəqillik dövrünün ədəbiyyatına hazırlıq demək idi.

**• EVDƏ İŞ**

**ARAŞDIRMANI DAVAM ETDİRİN**

1. **Sinifdə öyrəndiklərinizi göstərilən mənbələrdən topladığınız məlumat əsasında zənginləşdirin və tamamlayın.**
2. **Araşdırma apararkən aşağıdakı sualların cavablarını geniş əhatə edin:**
   a) 60-cı illərdə yaranan ədəbiyyatımız hansı xüsusiyyətləri ilə fərqlənir?
   b) Hansı sənətkarların yaradıcılığında həyatdakı müsbət meyillərin tədqiq edilməsindən çox, həyat həqiqətlərinin göstərilməsinə üstünlük verilmişdir?
3. **Yazılı qeydlər əsasında şifahi təqdimata hazırlaşın.**

**• MƏNBƏLƏR**


1. Azərbaycan dramaturgiyası antologiyası. 4 cilddə. I cild. Bakı: Şərq–Qərb, 2007, s. 17-21.
2. Azərbaycan nəsri antologiyası. 5 cilddə. V cild. Bakı: Şərq–Qərb, 2006, s. 4-6.
3. XI sinif şagirdləri üçün elektron vəsait. http://edebiyyat.ucoz.com.




LAYİHƏ



**İlyas Əfəndiyev**
**(1914–1996)**

Görkəmli sənətkar İlyas Əfəndiyevin ədəbi irsi öz məna və əhəmiyyətini bu gün də qoruyub saxlayır, yeni-yeni nəsillərin ədəbi-estetik, vətənpərvərlik, vətəndaşlıq tərbiyəsində öz mühüm, nəcib və xeyirxah rolunu oynayır. O, həmvətənlərimizin humanist, yaradıcı təbiətini, pak məhəbbət duyğularını həm nəsr, həm də dram əsərlərində həyati konfliktlər, canlı xarakter əsasında yüksək sənətkarlıqla əks etdirən bir yazıçı idi.

*Məmməd Arif*

# İLYAS ƏFƏNDİYEVİN HƏYATI, YARADICILIQ YOLU

• ARAŞDIRMAYA HAZIRLAŞIN

**İ.Əfəndiyev barədə bildiklərinizi yada salıb yığcam müzakirə aparın.**

AŞAĞIDAKI QAYDALARA ƏMƏL ETMƏKLƏ MƏTNİN ÜZƏRİNDƏ İŞLƏYİN

1. **Mətnkənarı sualların sayı qədər kiçik qruplar yaradılır. Qruplar onlara təklif edilmiş sualın dərslikdəki cavabı ilə tanış olduqdan sonra aşağıdakı işləri yerinə yetirirlər:**
   a) İlk mətnkənarı sualın cavabını əhatə edən mətni qrupun üzvü ucadan və aydın şəkildə oxuyur.
   b) Mətndəki əsas fikirləri ümumiləşdirərək bir neçə cümlə ilə ifadə edir.
   c) Mətnə aid bir neçə sual verir. Cavablandırmada qrup üzvləri ilə yanaşı, bütün sinif iştirak edir.
   d) Səthi qavranılmış çətin məqamlara aydınlıq gətirməyə çalışır.
   e) Mətnə daha nələri əlavə etməyin lazım olduğu barədə fikrini bildirir.
2. **Sonrakı mətnkənarı sualların cavablarını da digər qrupların şagirdləri bu qayda ilə oxuduqdan sonra kiçik qrupların təqdimatları əsasında fikir mübadiləsi və müzakirə aparılır.**

İlyas Məhəmməd oğlu Əfəndiyev Füzuli şəhərində tacir ailəsində anadan olmuşdur. Savadlı, incə zövq sahibi olan anası onda mütaliəyə güclü həvəs oyatmışdır. Qarabağda tanınmış bir nəslə mənsub olan bu ailə Azərbaycanın “qırmızı ruslar” tərəfindən istilasından sonra repressiyaya məruz qalmış, bütün mal-mülkləri müsadirə olunmuşdur. İ.Əfəndiyev orta məktəbi bitirdikdən sonra əmək fəaliyyətinə Füzulidə dil-ədəbiyyat müəllimi kimi başlamışdır. İki il sonra Bakıya gəlmiş, Azərbaycan Pedaqoji İnstitutuna daxil olmuşdur. Atasının vəfatından sonra maddi vəziyyəti ağırlaşdığı üçün qiyabi təhsil almağa məcbur

? İlyas Əfəndiyevin həyat yolunun başlanğıcı hansı cəhətləri ilə diqqəti cəlb edir?

LAYİHƏ

olmuş, Füzuliyə qayıdaraq məktəbdə coğrafiya müəllimi işləmişdir. Ali təhsilini tamamlayan İ.Əfəndiyev kənddə müəllim işləyərkən ilk hekayələrini yazmağa başlamış, 1939-cu ildə “Kənddən məktublar” adlı birinci kitabını çap etdirmişdir.

İlyas Əfəndiyev sovet dövründə yaşayıb-yaradan, lakin mövcud ideologiyadan mümkün olduqca uzaqlaşıb həyatı və insanı reallıqları ilə təsvir etməyə üstünlük verən sənətkardır. O, ədəbiyyatımızda lirik-psixoloji nəsrin əsas yaradıcılarındandır. Millilik və müasirlik yazıçının yaradıcılığının cövhərini, başlıca mahiyyətini təşkil edir.

Yazıçının nəsr əsərləri hansı özəllikləri ilə seçilir?

İ.Əfəndiyevin nəsr əsərlərindəki lirizm və nağılvarı bədii təhkiyə həyatın reallıqlarını dolğun təsvir etməyə şərait yaradır. Onun bəzi hekayələri mənsur şeir təəssüratı yaradır. Bu mənada “Kənddən məktublar” kitabındakı hekayələr səmimiyyətinə, emosional düşüncə tərzinə və təhkiyəsinə görə təbii bir məktub təsiri bağışlayır. Məhz bu keyfiyyətlər ədibin ilk kitabına daxil edilmiş hekayələrə oxucu rəğbəti qazandırmışdır. Bu sənət uğuru ədibin “Qarı dağı”, “Şəhərdən gələn ovçu”, “Xəncər”, “Yasəmən ağacı”, “Yun şal” və digər hekayələrində davam və inkişaf etdirilmişdir.

İ.Əfəndiyev əsərlərində zamanı müasirlik baxımından, bir çox məqamlarda qabaqlamış və bu cəhət ədəbi mühitdə müəyyən mübahisələrə də səbəb olmuşdur. İncə psixoloji vəziyyətlərlə zəngin olan “Körpüsalanlar” romanındakı Səriyyə obrazı Azərbaycan ədəbiyyatında müasir qəhrəmanın yeni təqdimi idi. Gerçəklik və macəra, adilikdə dərinlik, müasirlik duyğusu, cəmiyyəti düşündürən mənəvi problemlərin bədii əksi “Sarıköynəklə Valehin nağılı'' romanının ruhunu, aparıcı xəttini təşkil edir. Əsərin qəhrəmanları tikintidə çalışsalar da, yazıçı istehsalat prosesini yox, uşaq evində böyümüş Valehin, Sarıköynəyin və digər qəhrəmanların taleyini, xarakterini, ədalət duyğusunu, mənəvi mövqeyini əks etdirməyə üstünlük vermişdir.

Xalq yazıçısı İlyas Əfəndiyevin yaradıcılığının müxtəlif dövrlərinin məhsulu olan “Söyüdlü arx”, “Geriyə baxma, qoca”, “Üçatılan” romanları həyat həqiqətlərini əks etdirən milli nəsrin mükəmməl nümunələridir. Bu əsərlərdə gerçək həyat, mənəvi problemlər və real insan obrazları lirik-psixoloji üslubda, böyük sənətkarlıqla təsvir edilmişdir.

Ədibin dram əsərləri hansı cəhətləri ilə seçilir?

İ.Əfəndiyev ilk dram əsəri olan “İntizar”ı Mehdi Hüseynlə birlikdə yazmışdır. O, “İşıqlı yollar ” (1948) və “Bahar suları” (1950), “Atayevlər ailəsi” (1954) dramları ilə ədəbiyyatımızda lirik-psixoloji dramaturgiyanın əsasını qoymuşdur. Ədib dram əsərlərində insanın mənəvi axtarışlarını, daxili dünyasının mürəkkəbliyini, yaşantılarını məharətlə əks etdirmiş və bütün bunlar uğurlu səhnə təcəssümünü tapmışdır. Dramaturqun “Sən həmişə mənimləsən” (1964), “Unuda bilmirəm” (1968), “Məhv olmuş gündəliklər” (1969), “Mahnı dağlarda qaldı” (1971) kimi dərin lirizmi və realizmi ilə seçilən dram əsərləri Azərbaycan teatrının və dramaturgiyasının tarixində önəmli hadisələrə çevrilmişdir. Həyatın ilk baxışda adi görünən dərinliklərini, qəhrəmanın daxili aləminin qəribəliklərini, günahı və nakam sevgini səhnəyə gətirən İlyas Əfəndiyevin dram əsərlərindən çıxan ən mühüm nəticə insanın mənəvi təmizlənməsinin zəruriliyidir. Onun yaratdığı obrazlar günahdan, yanlışlıqdan mənən saflaşmağa, bütövlüyə doğru təkamül yolu keçirlər. Bu əsərlərdə ictimai



LAYİHƏ

baxışlar, sinfi qütbləşmələr deyil, mənəvi münasibətlər mübarizə aparır. Ədibin dramlarında son nəticədə ayrı-ayrı adamlar yox, əqidələr, dəyərlər qalib gəlir. Bu məziyyətlərinə görə, İ.Əfəndiyevin dram əsərləri bu gün üçün də aktual olan, həmişə müasir səslənən qiymətli örnəklərdir. İnsan münasibətlərinin dərinliklərinin, mənəvi axtarışların müasir səhnəyə çıxarılması İ.Əfəndiyev teatrının başlıca xüsusiyyətləridir.

İ.Əfəndiyevin yaradıcılığının əsas xətlərindən birini tarixi mövzuda yazdığı dramlar təşkil edir. Ədibin müasir problemlərə həsr olunmuş əsərləri kimi, tarixi mövzularda dramları da yeni insanı və yeni zamanı hazırlamağa xidmət etmişdir. “Xurşidbanu Natəvan” (1981), “Şeyx Məhəmməd Xiyabani” (1986) dramları milli azadlıq hərəkatına həsr olunmuş qiymətli və ibrətamiz sənət əsərləridir. Yazıçının “Mahnı dağlarda qaldı”, “Tənha iydə ağacı” kimi tarixi mövzuda yazılmış əsərlərində də müasir dövrlə səsləşmələr vardır. “Xurşidbanu Natəvan” dramında XIX əsrdə öz xalqının mənafeyini qoruyan, azadlığını arzulayan, xeyirxah əməlləri ilə tarixdə iz qoymuş Natəvanın parlaq obrazı yaradılıb. “Şeyx Məhəmməd Xiyabani” dramında Səttarxan yolunun davamçısı Şeyx Məhəmməd Xiyabaninin xalqımızın azadlığı, şah zülmündən xilası uğrunda mübarizəsindən söz açılır.

? Sənətkarın tarixi mövzuda dramlarını səciyyələndirən cəhətlər hansılardır?

Lirik-psixoloji dram ənənəsini səhnəyə gətirmiş İ.Əfəndiyev teatrı Azərbaycan mədəniyyətində fərqli hadisədir. Yazıçının gerçəkliyi əks etdirən əsərləri yarandığı dövrün sədlərini aşmış, uzunömürlü bir müasirlik həyatı qazanmışdır.

**• EVDƏ İŞ**

**ARAŞDIRMANI DAVAM ETDİRİN**

**1. Sinifdə öyrəndiklərinizi göstərilən mənbələrdən topladığınız məlumat əsasında zənginləşdirin və tamamlayın.**
**2. Araşdırma apararkən aşağıdakı sualın cavabını da əhatə etməyə çalışın:**
– İ.Əfəndiyevin nəsr və dramatik əsərləri üçün ortaq cəhətlər hansılardır?

| № | Müqayisə olunanlar | Onların oxşar cəhətləri | | |
|---|---|---|---|---|
| | | | | |
| | | | | |

**3. Yazılı qeydlər əsasında şifahi təqdimata hazırlaşın.**

**• MƏNBƏLƏR**

1. İ.Əfəndiyev. Seçilmiş əsərləri. 3 cilddə. I cild. Bakı: Avrasiya-press, 2005, səh. 4-17.
2. Azərbaycan dramaturgiyası antologiyası. 5 cilddə. II cild. Bakı: Şərq–Qərb, 2007, səh. 293.
3. XI sinif şagirdləri üçün elektron vəsait. http://edebiyyat.ucoz.com.

LAYİHƏ

## XURŞİDBANU NATƏVAN
*(ixtisarla)*

• I dərs

• MƏZMUN ÜZRƏ İŞ

OXUYA HAZIRLAŞIN

**Sualların üzərində düşünün, cavablarını cədvəldə qeyd etdikdən sonra fikir mübadiləsi və müzakirə aparın.**

| "Vətənpərvərlik" sözünün mənasını necə başa düşürsünüz? | Sizcə, insanın vətənpərvərliyi hansı məqamlarda daha qabarıq üzə çıxır? | Vətənpərvər insanda hansı keyfiyyətlər olmalıdır? |
|---|---|---|
| | | |

**Aşağıdakı qaydalara əməl etməklə əsərdən verilmiş parçanı oxuyun.**

1. Bir səhifə həcmində mətn rollar üzrə oxunur.
2. Müəyyənləşdirilmiş cütlər mətni oxuyanlara növbə ilə suallar verir. Cavablar cütləri qane etməsə, digər şagirdlərin cavabları dinlənilir.
3. Cütlər və mətni oxuyanlar əvəz edilir, sonrakı səhifələrin oxusu da bu qayda ilə davam etdirilir.
4. Nəzərdə tutulan parçanın oxusu başa çatdırıldıqdan sonra seçilmiş hissələrin məzmununu bir neçə şagird yaradıcı nağıl edir.

• **Unutmayın:** Suallar əsərdəki məlumatların hansı səviyyədə öyrənildiyini, əsas fikirlərin necə başa düşüldüyünü, nə cür nəticələrin çıxarıldığını aydınlaşdırmağa imkan yaratmalıdır.

**İştirak edirlər:**

Xurşidbanu Natəvan
Canişin
Knyaz Xasay
Seyid Hüseyn
Hidayət xan
Mirzə Ruhullah
Nəvvab
Mamayı
Ter Vahan
Qoca knyaz
Daşdəmir
Zahir bəy
Bəyim
Kor kamançaçı
Təhminə
Şahmar
Möhnət
Fərəc bəy
Qala rəisi
Mixaylov
Şahzadə
Məliküldövlə
Muradalı

### BİRİNCİ PƏRDƏ

#### Birinci şəkil

*Qafqaz canişininin malikanəsi. Pərdə açılanda geniş otaqda Xurşidbanu ilə Mirzə Ruhullah sükut içində dayanıb zala baxırlar. Knyaz Xasay iti addımlarla gəlib Xurşidbanunun qarşısında dayanır.*

K n y a z  X a s a y. Canişin cənabları indi buyurub sizi dinləyəcəklər, Banu bəyim.

X u r ş i d b a n u. Təşəkkür edirəm, knyaz.



LAYİHƏ

K n y a z  X a s a y. Mən sizin haqqınızda lap əfsanəyə bənzər gözəl söhbətlər eşitmişəm.

X u r ş i d b a n u. Sən mənim haqqımda zəhərli sözlər də eşidə bilərsən, knyaz.

K n y a z  X a s a y. Ola bilməz! Bütün Azərbaycan sizinlə fəxr etməlidir.

X u r ş i d b a n u. Bu sözləri səndən eşitmək mənim üçün xoşdur, knyaz. Qarabağa qonaq gəlsən, bizi şad etmiş olarsan...

K n y a z  X a s a y. Böyük məmnuniyyətlə gələrəm, Banu bəyim.

*Ortayaşlı, yaraşıqlı bir adam olan canişin otağa daxil olur.*

C a n i ş i n. Xoş gəlmisiniz, madmazel. Sizi gördüyümə çox şadam. Rica edirəm, əyləşin. *(Xurşidbanu ilə canişin əyləşirlər.)* Sizin nəslinizə dərin hörmətim olduğuna əmin ola bilərsiniz, madmazel. Qaladakı çinovniklərimizdən razısınızmı? Onlar sizə lazımi qədər hörmət edirlərmi?

X u r ş i d b a n u. Onlarla elə yaxın münasibətim olmasa da, güman edirəm ki, mənə hörmət eləməyə bilməzlər, knyaz həzrətləri.

C a n i ş i n *(Banunun ötkəm cavabına bir qədər təəccüb eləsə də, özünü o yerə qoymur).* Əlbəttə, İbrahim xanın nəvəsinə, general Mehdiqulu xanın qızına hörmət hər kəsin borcudur. Eşitdiyimə görə, siz həm də gözəl şairəsiniz. Sizin haqqınızda kapitan Mirzə Fətəli Axundov mənə danışmışdır. Mən azərbaycanlıların igidliyinə heyranam. Elə bil ki Allah özü də onların qəhrəmanlığını gözəl Qarabağ atları ilə mükafatlandırıb. Ancaq təəssüf ki, belə cəsur xalqın yarısı sizdən ayrı düşüb.

X u r ş i d b a n u. Bu bizim faciəmizdir, knyaz həzrətləri. İki böyük dövlətin qədim bir tarixi olan Azərbaycan xalqını iki yerə parçalayıb qardaşı qardaşdan ayırmaları ədalətli iş deyildir.

C a n i ş i n. Tarixin hadisələri bəzən elə cərəyan edir ki, ağıllı hökmdarlar belə amansız hərəkətlərə məcbur olurlar. *(Söhbəti dəyişir.)* Sizin Tiflisə təşrif buyurmağınızın səbəbi mənə məlumdur, madmazel. Mən çalışaram, atanızdan qalan mülkün bir hissəsi sizə qaytarılsın.

X u r ş i d b a n u. Knyaz həzrətləri, mən bütün mülklərimizin qaytarılmasını tələb edirəm. Mən varisi-yektayam!

C a n i ş i n *(zarafatyana).* Siz tək qızsınız, o qədər mülk nəyinizə lazımdır?

X u r ş i d b a n u *(həyəcanla).* Mən tək deyiləm, knyaz həzrətləri! Mənim yaşadığım Şuşa şəhərinin əhalisi hələ də şor su içir! Kəndlilərimizin uşaqları məktəbsiz, elmsiz, kitabsız böyüyürlər. Mən onlara heç bir kömək eləyə bilmirəm.

C a n i ş i n *(qısa pauzadan sonra).* Yaxşı, madmazel, mən sizin xahişinizi olduğu kimi əlahəzrət imperatora çatdıraram. Ümid edirəm ki, imperator həzrətləri İbrahim xanın nəvəsindən öz iltifatını əsirgəməz.

X u r ş i d b a n u. Təşəkkür edirəm, knyaz həzrətləri. *(Qalxır.)*

C a n i ş i n *(qalxır).* Arzu edirəm knyaginyanın təşkil etdiyi bugecəki balda siz də vaxtınızı xoş keçirəsiniz. Zənn edirəm, knyaz Xasay sizi bala müşayiət etmək şərəfini qəbul edər.

K n y a z  X a s a y. Məmnuniyyətlə.



LAYİHƏ

X u r ş i d b a n u. Diqqətinizə qarşı minnətdaram, knyaz həzrətləri. İcazənizlə biz bu gün Şuşa qalasına yola düşməliyik.

C a n i ş i n. Nə deyə bilərəm, sizə yaxşı yol. *(Əl tutuşur.)*

*Xurşidbanu knyaz Xasaya da baş əyərək, Mirzə Ruhullahın müşayiəti ilə çıxır.*

C a n i ş i n *(Xurşidbanunun ardınca baxaraq)*. Ağıllı qızdır *(Zarafatyana.)* Knyaz, siz nə vaxtacan subay gəzəcəksiniz?

K n y a z  X a s a y *(canişinin eyhamını başa düşərək, zarafatyana)*. Görünür, tale özü qəsdən məni indiyə qədər dayandırırmış, knyaz həzrətləri.

C a n i ş i n *(gülümsəyir)*. Eləmi? Xurşidbanu həqiqətən şahanə xanımdır… *(zarafatyana)* Madam ki tale sizi indiyə qədər subay gəzməyə məcbur eləmişdir, demək, indi öz bəxtinizi sınaya bilərsiniz… Əgər Xurşidbanu ilə evlənsəydiniz, mən sizi ürəkdən təbrik edərdim… Zənn edirəm ki, bu izdivac əlahəzrət imperatorun özünə də xoş gələrdi. Siz ona sadiq, onun taxt-tacına yaxın müsəlman kübar knyazsınız… İbrahim xanın nəvəsi ilə sizin izdivacınız Azərbaycan xalqına da psixoloji cəhətdən müsbət təsir edər, imperator hakimiyyətinə qarşı onların hüsnrəgbətini artırar. *(Zarafatyana.)* Necə deyərlər, siz bizi onlarla qohum edərsiniz.

K n y a z  X a s a y *(ruhla.)* İmperator həzrətlərini məmnun etmək mənim üçün şərəfdir!

*İ ş ı q  s ö n ü r.*

## İKİNCİ ŞƏKİL

*İşıq yananda Şuşa qalası görünür. Xurşidbanunun malikanəsi. Knyaz Xasayla Xurşidbanu eyvana çıxırlar.*

X u r ş i d b a n u. Mən vətənimin keçirdiyi ağır günlər haqqında düşünərkən həmişə özümdə bir gücsüzlük hiss eləyib bir olan Allahdan nicat ummuşam. Elə bil ki o da mənim bu faciəli xalqıma cəsarətlə xidmət eləməyim üçün səni göndərmişdir! *(Həyəcanla.)* Sən güclüsən! Qafqaz canişininin dostusan. Səni əlahəzrət imperatorun özü sevir! Sənin məhəbbətin mənim köməyim, dayağım olacaq!

K n y a z  X a s a y. İndi siz danışdıqca sanki mən də o yalçın qayalar üstündə dayanıb uzaqlara baxan qara yapıncılı Dağıstan igidlərini görürəm… Düşünürəm ki, bizim xalqların taleyi nə qədər bir-birinə bənzəyir.

X u r ş i d b a n u. Ah, knyaz, mənim əzablar, iztirablar çəkmiş qəlbimin sənin sevginə, səmimiyyətinə o qədər ehtiyacı var ki…

*(Qapı döyülür.)*

X u r ş i d b a n u *(knyazdan aralanaraq)*. Gəl.

D a ş d ə m i r *(gəlir)*. Banu bəyim, bir oğlan təkidlə sizi görmək istəyir.

K n y a z  X a s a y. Mən getdim öz otağıma. *(Knyaz keçir o biri otağa, cavan bir oğlan olan Seyid Hüseyn daxil olub təzim edir).*

X u r ş i d b a n u. Kimsiniz, ay oğlan, nə istəyirsiniz?



LAYİHƏ

S e y i d  H ü s e y n. Cənubi Azərbaycandanam, xan həzrətləri. İran ərbabının əlindən qaçıb sizə pənah gətirmişəm.

X u r ş i d b a n u. İranda neyləyirlər sizə?

S e y i d  H ü s e y n. Bizə zülm eləyirlər, xan həzrətləri! Bizi çarmıxa çəkirlər!

X u r ş i d b a n u. Bu mənə məlumdur. Ancaq siz açıq da gələ bilərdiniz, niyə qaçırdınız?

S e y i d  H ü s e y n. Sizdən gizlini yoxdur, xan həzrətləri, biz bir dəstə cavan qərara almışdıq ki, şahın zülmündən vətənimizin xilası uğrunda fədai olaq. Ancaq bir kəndxuda bizim fəaliyyətimizi bilib ərbaba xəbər yetirdi...

X u r ş i d b a n u. İsminiz nədir?

S e y i d  H ü s e y n. Seyid Hüseyn, xan həzrətləri.

X u r ş i d b a n u. Burada nə iş görə bilərsiniz?

S e y i d  H ü s e y n. Hər nə əmr etsəniz. Deyirlər, siz təzə məktəb açdırırsınız, mən müəllimlik də eləyə bilərəm.

*Xurşidbanu zəngi səsləndirir. Daşdəmir daxil olur.*

X u r ş i d b a n u *(Daşdəmirə).* Mirzə Ruhullahı buraya dəvət elə.

D a ş d ə m i r. Baş üstə. *(çıxır.)*

X u r ş i d b a n u *(daxil olan Mirzə Ruhullaha).* Mirzə, xahiş edirəm, mənim adımdan qala rəisindən rica eləyəsiniz ki, bu oğlanın Şuşa şəhərində sakin olmasına icazə versin. Sonra mənim mülkümdən bu oğlan üçün bir otaq ayırıb içini xalı-gəbə ilə döşəsinlər. Cənab Seyid Hüseyn! Şəhərdə açdığımız məktəbə sizi müəllim təyin edirəm.

S e y i d  H ü s e y n. Mən sizin etibarınızı doğruldağacam, Banu bəyim.

*Təzim edərək Mirzə Ruhullah ilə çıxır. Xurşidbanu zəngi səsləndirir.*

*Bəyim daxil olur.*

X u r ş i d b a n u. Tapşır, Şuşaya çəkdirdiyimiz bulağın mühəndisi Əbdürrəhim Talıbzadəni nahardan sonra mənim yanıma çağırsınlar.

*(Xurşidbanu knyazın olduğu otağa keçir. Bəyim yazı stolunun üstündən şairənin "Qərənfil" şeirini götürüb oxuyur.)*

*İşıq sönür.*

## ÜÇÜNCÜ ŞƏKIL

*Muradalının evinin qabağında kiçik bağça. Bağçanın yanından yol keçir.*

*Seyid Hüseyn və Muradalı.*

M u r a d a l ı. Yenə şükür ki, qaçıb canını qurtarmısan, xalaoğlu... Deyirəm, görəsən, bu Şimali Azərbaycan olmasaydı, biz cənublular İran şahının zülmündən hara qaçardıq...

S e y i d  H ü s e y n. Sənin-mənim kimilərinin qaçıb canlarını qurtarmaqları ilə yaralar sağalarmı?! Axı milyonlarla körpəli-qocalı ailə hara qaçsın? Neçə min il tarixi olan igid bir xalqı iki yerə parçalayıb gücdən saldılar.

M u r a d a l ı. On ildir ki, o tayda qalmış anamın, bacımın üzünə həsrətəm. Atam bizim obaya divan tutan o ərbabı öldürüb, məni də götürüb bu taya qaçanda on iki yaşım var idi... Deyirlər, bizdən sonra ərbabın adamları ev-eşiyimizi,



LAYİHƏ

bağımızı viran eləyiblər. Yazıq anam da bacımı götürüb Təbrizə qaçıb. Orada başlarına nə gəldiyindən indi də xəbərim yoxdur. Bilirəm ki, sənin də xəbərin olmaz. Səni də bir tikə vaxtından atan götürüb Tehrana fəhləliyə getmişdi.

S e y i d  H ü s e y n. Tehranda yazıq atam gündə on dörd saat xalı karxanasında fəhləlik eləyib məni oxudurdu. Sonra o cəhənnəm əzabına dözmədi...

## DÖRDÜNCÜ ŞƏKİL

*Xurşidbanunun malikanəsi. Xurşidbanu yazı stolunun qabağında dəftərçədən şeirini oxuyur.*

D a ş d ə m i r *(gəlir)*. Cənab şairlər sizin hüzurunuza müntəzirdirlər, Banu bəyim.

X u r ş i d b a n u *(Daşdəmirə)*. De, buyursunlar.

*Daşdəmir çıxır, Nəvvab, Mamayı, Zahir bəy, Ter Vahan, Seyid Hüseyn və Mirzə Ruhullah daxil olurlar. İşıq sönüb eyni anda da yanır və bu zaman şair Mamayının öz şeirini oxuduğunu görürük.*

S e y i d  H ü s e y n. Banu bəyim, icazənizə möhtərəm şairə bir sual vermək olar?

X u r ş i d b a n u. Əlbəttə. Ağalar, Seyid Hüseyn cənabları sənət və ədəbiyyat aləmindən baxəbər, açıqfikirli bir ziyalıdır. Mən istəyirəm ki, bizim ədəbi məclislərimizdə o da iştirak eləsin.

S e y i d  H ü s e y n. Cənab Mamayı, siz şeirinizlə nə demək istəmisiniz?

M a m a y ı. Məgər aydın olmurdu ki, mən millətimizin dərdini tərənnüm edirəm? Arazın o tayında İran şahlarının bizim qardaşlarımıza nə divan tutduqları gərək ki sizə daha yaxşı məlumdur, cənab Seyid Hüseyn!

S e y i d  H ü s e y n. Məlumdur... yaxşı məlumdur. Fəqət millətə vuruş lazımdır, ağalar, inilti yox!

Z a h i r  b ə y. Bizim əfkarü amalımız məhəbbət və şəfqət olmalıdır. Binaənəleyh cənab Seyid Hüseyn, bilmək istərdik ki, siz nə cür vuruş nəzərdə tutursunuz?

S e y i d  H ü s e y n. Mən xalqı həqiqi azadlığa, birliyə qovuşduracaq mübarizədən danışıram, cənab Zahir bəy.

Z a h i r  b ə y. "Həqiqi azadlıq" bir qədər mücərrəd məfhumdur, bəlkə, lütfən fikrinizi izah eləyəsiniz?

S e y i d  H ü s e y n. Cənab Zahir bəy, həqiqi azadlıq odur ki, insanlar yaltaq, rəzil, casus olmağa məcbur edilməsin! Hamı, sizin buyurduğunuz kimi, izzətnəfsinin sahibi olsun! Cənab Mamayı şeirində bizim öz vətənimizdə vətənsiz olduğumuzu ürək yanğısı ilə yazır, fəqət neyləmək lazım olduğunu göstərmir!

Z a h i r  b ə y *(coşur)*. Ağalar, ərəb, fars dilləri milləti-islamın iftixarı olduğu üçün onların təsiri bizim kəlamımızı müəyyən edir. Milləti-islamın fütuhatı bizi ərəb-fars münəvvərlərinə yaxınlaşdırmışdır.

N ə v v a b. Zahir bəy, bağışlayın, mən deyəndə ki siz öz millətimizi tanımırsınız, rəncidə olursunuz. İslam millət deyil, dindir!

T e r  V a h a n. Rus şairi Lermontov Azərbaycan dilinə valeh olub onu Şərqin fransız dili adlandırmışdır.



LAYİHƏ

X u r ş i d b a n u. Fransızların məşhur ədibi Aleksandr Düma bizə qonaq gələndə Azərbaycan dilinin musiqisinə heyran olduğunu söyləyirdi, fəqət hamıdan qabaq biz özümüz öz dilimizin qədir-qiymətini bilməliyik, ağalar. Dil bizim milli varlığımızdır. Ağalar, nə qədər ki Azərbaycan xalqı yaşayır, Azərbaycan dili də yaşayacaq! Mən Azərbaycan balalarının Homeri, Danteni, Şekspiri, Höteni, Puşkini öz doğma – gözəl ana dillərində oxuyacaqları günü görürəm!

• EVDƏ İŞ

**1. Əsərin 5–8-ci şəkillərini (burada onlardan parçalar verilmişdir) nəzərdən keçirin.**
**2. Oxuduğunuz hissədə ifadə olunmuş mühüm fikirləri müəyyənləşdirməyə çalışın.**
**3. Tanış olmayan sözlərin mənasını aydınlaşdırın.**
**4. Mənasını aydınlaşdırdığınız sözlərin (beşdən az olmayaraq) alınma, yaxud dilimizə aid olduğunu əsaslandırın.**
**5. Daha maraqlı hesab etdiyiniz məcazları yazın.**
**6. Yazılı qeydlər əsasında şifahi təqdimata hazırlaşın.**

## BEŞİNCİ ŞƏKİL

*Xurşidbanunun malikanəsi. Hələ səhnə qaranlıq ikən Xurşidbanunun şəninə alqışlar eşidilir: "Sağ olsun, Banu bəyim! Şairəyə uzun ömür!"*

*Xurşidbanu, Mirzə Ruhullah, Nəvvab, Seyid Hüseyn, Mamayı, Ter Vahan və bir neçə başqa əyanın müşayiətilə səhnəyə daxil olur.*

N ə v v a b. Banu bəyim! Gur meşələrin, sərt qayaların arasından çəkdirib bu uca qalaya çıxartdığımız o bulaq gələcək nəsillərə sizdən unudulmaz yadigardır.

S ə s l ə r . Sağ olsun Xurşidbanu! Ömrü uzun olsun şairənin!

X u r ş i d b a n u *(Mirzə Ruhullaha)*. Mirzə, tapşırın xəbər versinlər ki, bulağın açılışı münasibətilə sabah bütün şəhər əhli mənim qonağımdır. Bu axşam isə siyahı üzrə bütün kasıblara şirniyyat, düyü və yağ paylansın.

N ə v v a b. Sağ olun, Banu bəyim. Sizi bir daha təbrik edirik. Gedək, ağalar. Şairəyə dincəlmək lazımdır. Səhərdən ayaq üstündədir.

*Hamı çıxır. Şairənin üzü fikirli, tutqun bir ifadə alır. O, zəngi səsləndirir. Bəyim daxil olur.*

X u r ş i d b a n u. Knyaz hələ gəzməkdən qayıtmayıb?

B ə y i m. Xeyr.

X u r ş i d b a n u *(dərindən nəfəs alaraq, öz-özü ilə danışırmış kimi)*. Knyaz darıxır...

B ə y i m. Cənab knyazın özü də adamlarla qaynayıb-qarışmır.

X u r ş i d b a n u. Knyaz qəribədir! Məndən ötəri elini, vətənini atıb gəlib.

*Bəyim tələsik gedir. Knyaz Xasay daxil olur.*

X u r ş i d b a n u. Ax, Xasay, nə üçün sən bu gün bizim şənliyimizdə iştirak eləməyib çıxıb getmisən? Bircə görsəydin ki, bulağın açılışına qala əhli necə sevinir... Elə bil ki bayram idi...

K n y a z X a s a y *(gizli dalğınlıqla)*. Bir özünüz düşünün, Banu bəyim, arvad o cür işlər görür, camaat əl çalıb onu alqışlayır, ər isə kənarda dayanıb gözünü döyür...



LAYİHƏ

X u r ş i d b a n u *(alınaraq).* Mən hər bir yaxşı işimdə səni öz yanımda hiss edirəm, knyaz. Elə bil ki biz bir adamıq...

K n y a z X a s a y *(pərt halda gülümsəyir.)* Biz bir-birimizi nə qədər sevsək də, ər ərdir, arvad da arvad! *(Xurşidbanunun pərtliyini hiss edərək)* Mən sizi başa düşürəm, Banu bəyim. Sizin xalqınızı da qiymətləndirirəm... Lakin onu da etiraf edirəm ki, elə bu məni öz gözümdən salır. Mən özüm özümə avara-sərgərdan bir adam kimi görünürəm... İnanın ki, bunun səbəbini soruşsanız, izah eləyə bilmərəm, ancaq... elə bil ki siz mənə məzəmmətlə baxıb soruşursunuz: “Heç öz xalqından xəbərin varmı?!”

X u r ş i d b a n u *(son dərəcə pərişan).* Mən deməyə söz tapmıram, Xasay.

K n y a z X a s a y *(Xurşidbanunu öpərək).* Nə olursa-olsun, mən sizin məhəbbətinizdən başqa heç nə haqqında düşünmək istəmirəm. Əgər, mən indiyə qədər öz xalqımın taleyinə biganə olmuşamsa, günahkar özüməm.

*Xurşidbanunun qoluna girərək o biri otağa keçirlər. Bəyim daxil olub fikirli-fikirli onların ardınca baxır.*

## ALTINCI ŞƏKİL

*Xurşidbanunun malikanəsi. İşıq yananda knyaz Xasay daxil olur, hiss olunur ki, nə isə, dalğındır. Əsəbi hərəkatlə zəngi götürüb səsləndirir. Daşdəmir gəlir.*

D a ş d ə m i r. Ağa, Dağıstandan qonaqlar gəlib.

K n y a z X a s a y. De, buyursunlar. *(Daşdəmir çıxır. Sonra qoca knyaz daxil olur. Knyaz Xasay cəld onun qabağına yeriyərək böyük hörmətlə.)* Xoş gördük, əmi. Təşrif buyurduğunuzu bilsəydim, qabağınıza gələrdim.

Q o c a k n y a z *(kresloda əyləşərək).* Yolda bizə dedilər ki, xan qızı Xurşidbanu Mil düzünə səyahətə çıxıb...

K n y a z X a s a y. Bəli, əmi, Xurşidbanu Arazdan Mil düzünə arx çəkdirmək istəyir.

Q o c a k n y a z. Oho... Bu çox maraqlıdır. *(Kinayə ilə.)* Bəs sən niyə xanımını müşayiət eləməmisən?

K n y a z X a s a y. Mən getmək istəmədim, əmi.

Q o c a k n y a z *(eyni ifadə ilə).* Qorxmadınmı, bu, xan qızının kefinə toxunsun?

K n y a z X a s a y *(tutularaq).* Siz çox qəzəblisiniz, əmi...

Q o c a k n y a z *(yaşına uyuşmayan bir ötkəmliklə).* Bir arvaddan ötəri vətənini – ata-baba yurdunu atan oğula qarşı mən nə cür olmalıyam? Mən on il səni Petroqradda bunun üçünmü oxutdurdum?! Sən ordan qayıdanda dağıstanlılar Allaha dua eləyirdilər ki, onların da elmli, əqilli adamları yetişir. Onlar sənə ümid bağlayırdılar. Canişinin idarəsində sənin kimi adamları olduğuna sevinirdilər. Onlar səninlə fəxr edirdilər.

K n y a z X a s a y. Əmi! Xurşidbanu Allahın buyurub, peyğəmbərin xəbər verdiyi qanunla mənim halal zövcəmdir.



LAYİHƏ

Qoca knyaz. Mən, doxsan yaşlı qoca dörd gün at sürüb, Dağıstandan bura gəlmişəm ki, Xan qızı barədə səninlə söz güləşdirəm? *(Qısa pauza, dərindən nəfəs alaraq mülayim səslə.)* Özün bilirsən ki, məndən sonra bizim neçə yüz il tarixi olan o müqəddəs yurdumuzda bir başıpapaqlı sən qalırsan. Sən də böyük əcdadımızın çırağını söndürüb düşmənlərimizi sevindirmə! İgid babalarının ruhundan utan, qayıt vətəninə! *(Beşmetinin cibindən iri qızıl saatını çıxarıb baxır.)* Mən gedirəm namaza. Özüm də səhərə qədər sənin qərarını gözləyirəm. Səhər qayıdasıyam Dağıstana.

*Qalxıb ağır addımlarla çıxır. Knyaz Xasay əsəbi halda var-gəl edir. Xurşidbanu şən əhvalla daxil olur.*

Xurşidbanu. Salam, əzizim. *(Knyazı öpür.)* Mil düzünü gəzdiyimi eşidib Şahsevən, Afşar camaatı tökülüb gəlmişdilər. Mənim Arazdan Mil düzünə arx çəkdirmək istədiyimi bilib o qədər sevinirdilər ki, əllərindən güclə qurtarmışam. Axı yarı canım qalmışdı sənin yanında. Deyir, Dağıstandan qonaqlarınız gəlib...

Knyaz Xasay. Bəli, əmim gəlib. Banu bəyim, əmim istəyir ki, həmişəlik qayıdım Dağıstana.

Xurşidbanu *(bərk sarsılır. Ağır pauza)*. Bəs sən nə düşünürsən, Xasay?

Knyaz Xasay. Əmimin yaşı doxsanı keçib... Ondan sonra ata-babamızın yurdunda tək mən qalıram. Əgər mən də oranı həmişəlik tərk eləyib xaraba qoysam, düşmənlər sevinəcək, dostlarsa mənə nankor, yaramaz bir oğul kimi lənət yağdıracaq,

Xurşidbanu *(sanki bütün cəsarətini toplayaraq)*. Knyaz, mən sənin öz həmvətənlərinin lənətlərinə məruz qalmağına dözmərəm!

Knyaz Xasay. Bilirəm ki, siz dünyanın ən alicənab qadınısınız. Gedək, Dağıstana, Banu bəyim. İndiyə qədər Qarabağda yaşamışıq, qoy bundan sonrakı ömrümüz də Dağıstanda keçsin.

Xurşidbanu. Yox, Xasay! Öl desən, ölərəm, amma bu faciəli vətənimi atıb getmərəm. Mənim kəndlilərim mənə ana kimi baxırlar. Dərdlərini-sərlərini mənə açırlar. Məndən kömək umurlar.

Knyaz Xasay. Siz tez-tez gəlib onlara baş çəkərsiniz. Axı... axı... Sizin öz həyatınız da var, Banu bəyim!

*Xurşidbanu heç bir cavab verməyərək qəti addımlarla knyaz Xasaya yaxınlaşaraq boynundakı medalyonu açıb onun boynundan asaraq yaxasını düymələyir.*

Xurşidbanu. Bu medalyonun içində bizim övladlarımızın – Mehdiqulu ilə Xanbikənin şəkilləri qoyulub. Apar özünlə! Allah səni həmvətənlərinlə xoşbəxt eləsin.

Knyaz Xasay *(həyəcanla)*. Ax, Banu bəyim... *(Xurşidbanunu sinəsinə sıxır.)*

Xurşidbanu. İndisə get, knyaz! Bizim birlikdə keçirdiyimiz günlərin xatirələri mənim üçün o qədər əzizdir ki, bundan sonra ömrümə on ömür də calansa, yenə də onlar məni yaşatmağa kifayət edər!

*Knyaz Xasay sürətlə otaqdan çıxır. Xurşidbanu bütün gücünü toplayaraq, mərdanəliklə ayaq üstə dayanıb onun ardınca baxır.*



LAYİHƏ

## YEDDİNCİ ŞƏKİL

*Xurşidbanunun malikanəsi. Xurşidbanu gəlir.*

X u r ş i d b a n u. Xoş gördük sizi.

M ö h n ə t. Həmişə xoş günün olsun, Banu bəyim.

X u r ş i d b a n u. Nə əcəb gəlmisiniz?

M ö h n ə t. Arazın iki ağaclığında olan ucsuz-bucaqsız Mil düzünün bərəkətli torpaqları zəbanə çəkib yanır. Şahsevən, Afşar, Ağcabədi, Qarabulaq camaatı su dərdindən o torpaqları əkib-becərə bilmir. Sən xeyir işlər anasısan, Banu bəyim. Bəlkə, Arazdan da Mil düzünə bir arx çəkdirəsən, bizim əlimizi çörəyə çatdırasan.

X u r ş i d b a n u. Mən o barədə fikirləşirəm. İnşallah, tezliklə işə başlarıq.

*Möhnətlə Şahmar gedirlər. Xurşidbanu stulda əyləşib nə isə yazır.*

*Mirzə Ruhullah daxil olur.*

M i r z ə  R u h u l l a h. Banu bəyim, İran şahzadəsi sizinlə nəzakət görüşünə gəlib.

X u r ş i d b a n u. Yaxşı, mirzə, qoy gəlsin.

*Mirzə Ruhullah çıxır. Şahzadə Mirzə Ruhullahın müşayiətilə daxil olur.*

Ş a h z a d ə. İbrahim xanın nəvəsi, Mehdiqulu xanın qızı, Qarabağın gözəl şairəsi Xurşidbanu bəyimə öz dərin hörmətimi bəyan etməklə bəxtiyaram.

X u r ş i d b a n u. Təşəkkür edirəm, əlahəzrət. Ancaq biz qadınlar bir qədər şöhrətpərəst oluruq. Əlahəzrətin nəzərinə çatdırmaq istərdim ki, mən yalnız Qarabağın deyil, bütün Azərbaycanın – həm Şimali, həm də Cənubi Azərbaycanın şairəsiyəm! Özüm də bununla fəxr edirəm!

Ş a h z a d ə. Mən buna çox şadam, Xurşidbanu bəyim. Böyük İran səltənəti şeiri-sənəti qiymətləndirməyi bacarır. Xüsusən də şeir kəlamı bu qədər nəfis xanımın qəlbindən zahir ola...

X u r ş i d b a n u. Görünür, əlahəzrətin özü də şeiri çox sevir.

Ş a h z a d ə. Bəli, Xurşidbanu bəyim, Firdovsinin, Hafizin, Sədinin kəlamı ilə dil açan şəxs şeiri-sənəti sevməyə bilməz.

X u r ş i d b a n u. Dünyada qəribə təzadlar olur, əlahəzrət, şeir-sənət nəcib hislərin, nəcib fikirlərin tərcümanı olduğu halda, bəzən qəddar hökmdarlar da onu sevir.

Ş a h z a d ə *(Xurşidbanunun sözünün üstündən keçərək)*. İran şahları həmişə şeirin, sənətin himayədarı olmuşlar. Firdovsilər, Sədilər, Hafizlər o böyük qayğı və məhəbbətdən ruh almışlar.

X u r ş i d b a n u. Məncə, o ulduzlar qədim İran mədəniyyətindən işıq almışlar. Mədəniyyəti isə xalq yaradır.

Ş a h z a d ə. İran mədəniyyətini belə qiymətləndirməyinizə xeyli şadam, Xurşidbanu bəyim. Ancaq sizin lütfən xalq adlandırdığınız qaragüruhun əksəriyyəti günahkarlardan, canilərdən ibarətdir ki, möhkəm hökmdar olmasa, onların öhdəsindən gəlmək olmaz!

X u r ş i d b a n u *(artıq əsəbiliyini saxlaya bilməyərək.)*. Güman edirəm ki, əlahəzrət xalq haqqında bu qədər sərt mülahizədə olmasaydı, cənubi azərbaycanlılarla, bəlkə də, başqa cür rəftar edərdi...



LAYİHƏ

Ş a h z a d ə. Etiraf edirəm ki, biz azərbaycanlıların zəkasını, cəsurluğunu lazımi qədər qiymətləndirməmişik... Axı, İranın Şah İsmayıl kimi, Nadir şah kimi qəvi hökmdarları azərbaycanlı olmuşdur. Mən hələ Qacarları demirəm.

X u r ş i d b a n u. Biz öz tariximizi yaxşı bilirik, əlahəzrət. *(Saata baxır, bununla da görüşün qurtardığını hiss etdirir.)*

Ş a h z a d ə. Bizim bu görüşümüz cənabınıza qarşı məndə böyük hörmət və heyranlıq hissi doğurdu *(qalxır)*. Xudahafiz, xanım *(Şahzadə çıxır)*.

X u r ş i d b a n u *(artıq qəzəbini saxlaya bilməyərək qışqırır.)*. Cəllad! İkiüzlü qaniçən!

M i r z ə  R u h u l l a h. Əsəbiləşməyin, Banu bəyim. Bizim taleyimiz səbir-mətanət istəyir, mənzil uzaq, yol çətindir.

X u r ş i d b a n u. Ax, Mirzə, elə bil ki məni dəmir məngənə arasına qoyub sıxırlar. Bəzən mənə elə gəlir ki, biz heç bir zaman bu məngənədən xilas ola bilməyəcəyik.

M i r z ə  R u h u l l a h. Azərbaycan oğullarının zəkası, cəsurluğu yaşayır! Tarix bir-iki nəslin ömründən ibarət deyil, Banu bəyim. O böyük azadlığı biz görməsək də, damarlarında bizim qanımız axan gələcək nəsillər görəcək! İndi bizim bu vətən torpağında üst-üstə qoyduğumuz hər kərpic düşmənə bir gülləd! *(Çıxır.)*

*Qısa pauza. Daşdəmir gəlir.*

D a ş d ə m i r. Seyid Hüseyn hüzurunuza gəlmək istəyir.

*Daşdəmir çıxır. Seyid Hüseyn daxil olub təzim edir.*

X u r ş i d b a n u. Əyləşin, cənab Seyid Hüseyn.

S e y i d  H ü s e y n *(əyləşməyərək)*. Banu bəyim, sizin tapşırığınız mövcibincə beş nəfər Rusiyaya, beş nəfər də Parisə təhsilə göndərmək üçün istedadlı gənclər intixab etdik.

X u r ş i d b a n u. Özləri necə baxırlar bu işə?

S e y i d  H ü s e y n. Çox sevindilər, Banu bəyim.

X u r ş i d b a n u. Bəs valideynləri?

S e y i d  H ü s e y n. Bəziləri əvvəl razı olmaq istəmirdilər, deyirdilər, oxutmağa gücümüz çatmaz, fəqət mən onları başa saldım ki, cavanlar onların yox, sizin xərcinizlə təhsil alacaqlar! Ondan sonra məmnuniyyətlə razılıq verdilər.

*Hidayət xan daxil olur.*

H i d a y ə t  xan *(Seyid Hüseynə əhəmiyyət verməyərək)*. Salam, əmizadə.

X u r ş i d b a n u. Xoş gəlmisən, Hidayət.

H i d a y ə t  xan. Bizim Arazqırağı kəndlərimizdəki darğamız bu gün xəbər gətirib ki, guya sən Arazdan Mil düzünə arx çəkdirmək istəyirsən. Özü də bu arx bizim torpaqlardan keçəsidir...

X u r ş i d b a n u. Bəli, elədir.

H i d a y ə t  x a n. Məgər sən bilmirsənmi ki, bizim o yerlərdəki rəiyyətlərimizin hamısı köçəridir. Qışlaqda cəmi iki-üç ay olurlar. Qoyun-quzularını bir ay burada otarırlar, bir ay orada... Demək, onlara sən düşünən arx lazım deyil.



LAYİHƏ

X u r ş i d b a n u. Su olarsa, onlar da yavaş-yavaş köçərilikdən əl çəkib oturaq həyata keçərlər. Özlərinə ev-eşik tikib uşaqlarını oxudarlar, qaraçı günündə yaşamazlar!

H i d a y ə t x a n. Xəbərdarlıq eləyirəm səni, Banu bəyim, mən qoymayacağam o arx bizim torpaqlardan keçsin! Eşitdinmi, qoymayacağam!

*Hidayət xan hirsli halda çıxır.*

S e y i d H ü s e y n. Siz məyus olmayın, Banu bəyim.

X u r ş i d b a n u *(əsəbi coşqunluqla.)*. Məyus olmaq? Yox! Mən öz taleyimə qalib gəlmək istəyirəm!

## SƏKKİZİNCİ ŞƏKİL

*Xurşidbanunun malikanəsi. Harada isə xanəndə Xurşidbanunun şeirini tarın müşayiətilə oxuyur. Birdən Xurşidbanu əllərilə üzünü qapayıb kresloya oturur. Mirzə Ruhullah daxil olur.*

M i r z ə R u h u l l a h *(asta səslə)*. Banu bəyim *(Xurşidbanu cavab vermir. Ona yaxınlaşaraq əlini usdufca çiyninə qoyur)*. Nə olub, qızım?

X u r ş i d b a n u *(əlini üzündən çəkərək)*. Heç nə. Uşaqlıqda siz həmişə mənə deyərdiniz ki, insan xoşbəxtlik üçün yaranmışdır. Mən isə, xoşbəxt olmadım. Ancaq məni düşündürən bu deyil, Mirzə, uşaqlarımın taleyidir! Qorxuram, Mirzə... Qorxuram ki, onların da taleyi mənimki kimi ola...

M i r z ə R u h u l l a h. Sənin öz taleyindən şikayət etməyə haqqın da yoxdur, Banu bəyim. Böyük Yaradan həqiqi insan üçün lazım olan nəcibliklərin heç birini səndən əsirgəməmişdir! Sən bizim igid qızımızsan! Qalx ayağa! İran şahzadəsinin vəziri Məliküldövlə səni təklikdə görmək istəyir.

X u r ş i d b a n u. Yaxşı, Mirzə, qoyun gəlsin. *(Mirzə Ruhullah çıxır. Məliküldövlə daxil olub təzim edir.)*. Buyurun, əyləşin.

M ə l i k ü l d ö v l ə *(səndələ əyləşərək)*. İltifatınıza qarşı mütəşəkkirəm, Banu bəyim həzrətləri. Bu səhər, sizin təzə saldırdığınız bağda əlahəzrət vəliəhdlə seyrə çıxmışdıq. Oradakı dilrüba güllər, çiçəklər mənə Təbrizdəki bağçamızı xatırlatdı.

X u r ş i d b a n u. Mənə nə qulluğunuz vardı, cənab Məliküldövlə!

M ə l i k ü l d ö v l ə. Banu bəyim həzrətləri! Siz ağıllı bir qadın olduğunuz üçün mən heç bir müqəddiməyə şüru etmədən birbaşa mətləbə keçirəm.

X u r ş i d b a n u. Buyurun!

M ə l i k ü l d ö v l ə. İran taxtının vəliəhdi şahzadə həzrətləri sizinlə izdivac təmənnasındadır.

X u r ş i d b a n u. Cənab Məliküldövlə, siz necə ki bizim azərbaycanlımız, soruşuram: bəs belə bir izdivaca siz özünüz necə baxardınız?

M ə l i k ü l d ö v l ə. Banu bəyim, əlbəttə ki, neçə minillik tarixə malik İran səltənətilə qohum olmaq biz azərbaycanlılar üçün xoşbəxtlik olar. Bilirsiniz ki, məmləkəti-Azərbaycan iki böyük dövlətlərdən birinə iltica etməlidir. Belə bir dövlət isə, əlbəttə ki, dini dinimizdən olan böyük İran səltənətidir.

X u r ş i d b a n u. Əgər İran şahları öz dini qardaşlarının qədrini bilirdilərsə, nə üçün qoşun çəkib Azərbaycan əhalisinin əlsiz-ayaqsızlarını qılıncdan keçirirdilər? Nə üçün sizin vəlinemətiniz vəliəhd Cənubi Azərbaycana divan



LAYİHƏ

tuturdu? Nə üçün İran şahları Cənubi azərbaycanlıların dilini, milli hüququnu əlindən alıb onları öz içlərində əritmək istəyirlər?!

M ə l i k ü l d ö v l ə. Banu bəyim! Sizi inandırıram ki, İran hökmdarlarının bizi farslaşdırmaq siyasəti biz azərbaycanlıların xoşbəxtliyidir!

X u r ş i d b a n u. Xoşbəxtliyidir?

M ə l i k ü l d ö v l ə. Şübhəsiz, o zaman biz də farslarla bir hüquqda olarıq, dövlət işlərində onlarla bərabər iştirak edərik! Bəli!

X u r ş i d b a n u *(son dərəcə qəzəbli)*. Tutmayın mənim adımı! Rədd olun, nökər! Qab dibi yalayan nökər, rədd olun!

M ə l i k ü l d ö v l ə *(öz-özünə)*. Bu nədi, baba! *(Cəld çıxır.)*

*Mirzə Ruhullah daxil olur.*

M i r z ə R u h u l l a h. Sən ruhi müvazinətini itirmə, Banu bəyim! Vaxt gələcək, xalq özü vətən xainlərinə divan tutacaq *(Qısa pauza.)* İcazənlə sənə bəzi sözlər ərz etmək istəyirəm. Bütün iftiralara, dedi-qodulara son qoymaq üçün məsləhət budur ki, sən subay qalmayasan.

X u r ş i d b a n u. Yaxşı, Mirzə, mən o barədə fikirləşərəm.

*Mirzə Ruhullah təzim edərək çıxır. Pauza. Xurşidbanu dərin psixoloji sarsıntı keçirir və birdən zəngi səsləndirir. Bəyim daxil olur.*

X u r ş i d b a n u. Get Seyid Hüseyni bura çağır, Bəyim.

*(Bəyim çıxır. Qısa pauza. Seyid Hüseyn daxil olub təzim edir.)*

X u r ş i d b a n u. Seyid Hüseyn! Mənə xəbər verdilər ki, siz hər gün bağçanın qalınlığında dayanıb mənə gizlin tamaşa edirsiniz. Nə üçündür bu maraq?! *(Pauza.)* Niyə dinmirsiniz?

S e y i d H ü s e y n. Əfv buyurun, Banu bəyim! Onsuz da mən gecə-gündüz cəhd edirəm ki, bu günahkar məhəbbəti ürəyimdən çıxarım!

X u r ş i d b a n u. Nə üçün siz o məhəbbəti günahkar hesab edirsiniz?

S e y i d H ü s e y n. Mən özümü bu məhəbbətə layiq bilmirəm.

X u r ş i d b a n u. Nə üçün? Siz belə gözəl, sağlam, savadlı bir oğlan...

S e y i d H ü s e y n. Mən kimsəsiz, yoxsul bir adamam...

X u r ş i d b a n u. Məgər yoxsulların sevməyə ixtiyarı yoxdur? *(Qəribə bir tənə ilə)* Cənab Seyid Hüseyn! Mən, İbrahim xanın nəvəsi, Mehdiqulu xanın qızı Xurşidbanu Allahın buyurub, peyğəmbərin xəbər verdiyi qanun üzrə sizin zövcəniz olmaq istəyirəm. Siz buna razısınızmı?

S e y i d H ü s e y n. Banu bəyim!

X u r ş i d b a n u *(əsəbi)*. Bəsdirin! Məgər mən də öz vətənimdə kimsəsiz deyiləmmi? Məgər bizim səsimiz Qaf dağında tilsimə salınmış əfsanəvi Zümrüd quşunun səsi kimi bir yana gedib çıxırmı? Yox, Seyid Hüseyn, tale bizi əbəs yerə bir-birimizə rast gətirməmişdir! Biz indi əlacsız da olsaq, çərxi-dövranı geriyə döndərə bilməsək də, mücahidik! Qoy böyük Yaradan bizim izdivacımızı vətənimiz üçün uğurlu eləsin!

S e y i d H ü s e y n. Amin!



LAYİHƏ

**• II dərs**

**• MƏZMUN ÜZRƏ İŞ**

TAPŞIRIĞI FƏRDİ OLARAQ YERİNƏ YETİRİN

**1. 5–8-ci şəkillərdə ifadə olunmuş mühüm fikirləri cədvəldə qeyd edin.**

| | |
|---|---|
| Beşinci şəkildə başlıca fikirlər | |
| Altıncı şəkildə başlıca fikirlər | |
| Yeddinci şəkildə başlıca fikirlər | |
| Səkkizinci şəkildə başlıca fikirlər | |

**2. Seçdiyiniz məcazların növünü dəqiqləşdirin. Onları daha maraqlı hesab etməyinizə səbəb nədir?**

| Əsərdən seçilmiş məcazlar | Məcazların növü | Onları maraqlı hesab etməyimin səbəbi |
|---|---|---|
| | | |

**3. Suallara cavab hazırlayın.**

a) Şairlərin məclisində nə barədə mübahisə gedirdi? Mübahisə nə ilə nəticələnir?
b) Xurşidbanunun Şuşaya su çəkdirməsi insanlarda necə əhval-ruhiyyə yaratdı?
c) Knyaz Xasayın kədərlənməsinə səbəb nə idi?
d) Qoca knyaz Şuşaya nə məqsədlə gəlmişdi?
e) O, knyaz Xasayı nədə ittiham edirdi?
f) Xasayın Dağıstana qayıtmaq niyyətini Xurşidbanu necə qarşıladı?
g) Xurşibanu nə üçün Şahzadəni ikiüzlü, cəllad adlandırır?
h) Məliküldövlənin Xurşidbanunun yanına gəlməsi nə ilə əlaqədar idi?
i) Mirzə Ruhullahla söhbəti Xurşidbanunu hansı qərara gəlməyə sövq etdi?
j) Əsər hansı mənəvi dəyərlər barədə danışmağa imkan verir?

**4. Kiçik qruplarda birləşin, fikirlərinizi dəqiqləşdirib ümumiləşdirin.**

**5. Təqdimatlar əsasında fikir mübadiləsi və müzakirə aparın.**

**• EVDƏ İŞ**

**1. Əsəri bütövlükdə nəzərdən keçirin.**
**2. Oxuduğunuz yeni şəkillər hansı mənəvi dəyərlər barədə danışmağa imkan verir?**
**3. Şəkillərdən birinin məzmununu geniş nağıl etməyə hazırlaşın.**
**4. Yazılı qeydlər əsasında şifahi təqdimata hazırlaşın.**



LAYİHƏ

• III dərs

• TƏHLİL ÜZRƏ İŞ

MƏTNİ FƏRDİ OLARAQ OXUYUN, ARDICILLIĞA ƏMƏL ETMƏKLƏ TAPŞIRIĞI YERİNƏ YETİRİN

**1. Xurşidbanu Natəvan obrazını "xarakterlər xəritəsi" əsasında səciyyələndirin.**

| Obrazın adı | | |
|---|---|---|
| | xarakteri | |
| | nitqi | |
| | əməlləri | |
| | başqalarına münasibəti | |

**2. Əsərdə qaldırılmış problemlərdən hansılarını daha mühüm hesab edirsiniz?**

| Əsərdə qaldırılmış problemlər | Onlardan daha mühüm olanlar |
|---|---|
| | |

**3. Əsərin konflikti nədir? Fikrinizi əsaslandırın.**

| Əsərin başlıca konflikti | Nə üçün belə düşünürəm? |
|---|---|
| | |

**4. Əsərdəki bədii təsvir və ifadə vasitələrinin rolunu izah edin.**

| Bədii təsvir və ifadə vasitəsinin işləndiyi cümlə | Fikrin təsir gücünün artmasında onun rolu |
|---|---|
| | |

**5. Faciə və ya komediya ilə müqayisə etməklə əsərin dram janrında olduğunu əsaslandırın.**

| Hansı cəhətlərinə görə müqayisə edilir? | Faciə (komediya) (nümunə göstərməklə izah edin) | Dram (nümunə göstərməklə izah edin) |
|---|---|---|
| | | |

**6. Əsərdəki başlıca fikri – ideyanı müəyyənləşdirin. Fikrinizi əsaslandırmaq üçün əsərdən nümunələr göstərin.**

| Əsərin ideyası | Əsərin ideyasını daha qabarıq əks etdirən cümlələr |
|---|---|
| | |

**7. Aşağıdakı fikirlərlə tanış olun. Müzakirədə onlara münasibət bildirin.**

– *İ.Əfəndiyevin şairanə sənət dilinin müəyyənləşməsində birinci qaynaq folklor bulağıdır.*

*(Tofiq Hacıyev)*

–*Azərbaycan qadınının inkişafı tarixində yeni nəslə məxsus müasir psixoloji qəhrəman tipi bizim nəsrə və dramaturgiyaya İ.Əfəndiyevin əsərləri ilə gəlmişdir. Dramaturgiyada C.Cabbarlı qadınlarından sonra İ.Əfəndiyevin qadın qəhrəmanları Azərbaycan-türk qadınının mənəvi aləmində növbəti mərhələnin ifadəsidir.*

*(Yaşar Qarayev)*

– *İlyas Əfəndiyevin bədii nəsri, xüsusən dramaturgiyası faciələrlə dolu tariximizin həqiqi salnaməsidir.*

*(Qəzənfər Kazımov)*

**8. Kiçik qruplarda birləşərək qənaətlərinizi bölüşün, ümumiləşdirmə aparın.**

**9. Təqdimatlar əsasında fikir mübadiləsi və müzakirə aparın.**



LAYİHƏ

Əsər hansı mövzuda yazılmışdır? Əsərdə qaldırılmış problemlər və konflikt üçün özəl olan cəhətlər hansılardır?

Xalq yazıçısı İlyas Əfəndiyevin tarixi mövzuda yazdığı dramları içərisində Qarabağ xanı İbrahimxəlil xanın nəvəsi, XIX əsrdə yaşayıb-yaratmış Xurşidbanu Natəvana həsr olunmuş "Xurşidbanu Natəvan" əsəri mühüm yer tutur. Pyesdə Xurşidbanunun taleyindən, yaradıcı fəaliyyətindən, öz xalqının rifahı üçün gördüyü xeyirxah əməllərdən, azadlıq, müstəqillik arzularından söz açılır. Natəvanın şəxsi həyatı, bədii-ictimai fəaliyyəti, onun Cənubi Azərbaycanda soydaşlarımızın vəziyyətinə, ana dilimizə münasibəti və s. məsələlərə dramda xüsusi diqqət yetirilib. Əsərin dramatik konflikti Xurşidbanunun çar hakim dairələrinə, xalqı düşünməyən yerli ağalara qarşı apardığı mübarizə üzərində qurulmuşdur.

İ.Əfəndiyevi düşündürən mühüm məsələ – xalqımızın birliyi problemi əsərdə diqqət mərkəzində saxlanılmışdır. X.Natəvan bu faciəli vəziyyətdən doğan narahatlığını, etirazını çar canişininə açıq bildirərək deyir: "İki böyük dövlətin qədim bir tarixi olan Azərbaycan xalqını iki yerə parçalayıb qardaşı qardaşdan ayırmaları ədalətli iş deyil".

Dramda Natəvan və digər obrazlar hansı xüsusiyyətləri ilə diqqəti cəlb edir?

*Xurşidbanu Natəvan* obrazı vətənpərvərliyi, yurduna, xalqına məhəbbəti, azadlıq, milli birlik ideallarına sədaqəti, iki imperiyanın məkrli "parçala, hökm sür" siyasətinin mahiyyətini aydın dərk etməsi ilə diqqəti cəlb edir. O, insanın öz vətəninə, öz mənliyinə, ləyaqətinə, vicdan azadlığına sahib olmasını xoşbəxtlik sayır və bu amal uğrunda bütün həyatı boyu mübarizə aparır.

Çar hakimlərinin istəyinə rəğmən, Natəvan mülkünü, torpaqlarını geri qaytarmağı tələb edərkən yalnız özünü düşünmür, əslini, kökünü unutmayaraq vüqarla: "mənim xalqım var", – deyərək xəbis niyyətli insanları susdurur. Natəvanın fəaliyyəti timsalında əsərdə azadlıq, milli birlik, soykökünə, xalqa bağlılıq, doğma yurda, ana dilinə məhəbbət, xeyirxahlıq yüksək mənəvi dəyərlər kimi əks etdirilir. Xalqının müdafiəçisi olan Natəvan öz var-dövlətini sadə insanların güzəranının yaxşılaşmasına sərf edən xeyriyyəçidir. O, çətin duruma düşən insanların vəziyyətini yaxşılaşdırmaq üçün əlindən gələni edir, Şuşa əhalisi üçün öz imkanları hesabına su çəkdirir.

Xalqın oyanışının, tərəqqisinin, ilk növbədə, təhsillə, elmlə bağlılığı xüsusi vurğulanır. Xurşidbanu maarifçidir. O, vətəninin gələcəyi üçün təhsilli gənclərin rolunu dərk edərək xalqın haqq işi uğrunda mübarizə aparmağa qabil yeni nəslin yetişməsini arzulayır. Bu məqsədlə o, kasıb kəndli uşaqlarını məktəbə cəlb etməklə, gəncləri xaricdə təhsil almağa göndərməklə vətənində gələcəkdə böyük dəyişikliklər üçün zəmin yaradır. Əsərdə Natəvanın məhəbbəti, ailə həyatı, ədəbi fəaliyyəti ilə bağlı səhnələr də onun bir şəxsiyyət kimi bütövlüyünü dərk etməyə imkan verir.

Dramda *canişin* Rusiya imperiyasının Azərbaycanda maraqlarının ifadəçisi kimi çıxış edir. O, Natəvana biganə qalmayan Knyaz Xasayı evlənməyə təhrik etməklə çar Rusiyasına sədaqətli tərəfdaş qazanmaq kimi siyasi məqsəd güdür. Natəvanın öz haqqını israrla tələb edərkən canişinin güzəştə getməsi də məhz



LAYİHƏ

bu niyyətdən irəli gəlir. Lakin Natəvanın vətənpərvərliyi, özünü xalqından ayırmaması bu niyyəti puça çıxarır.

*Knyaz Xasay* obrazı əsərdə Natəvanın şəxsi həyatı və ictimai fəaliyyəti barədə geniş söz açmağa imkan verir. Dərin məhəbbətlə sevdiyi Natəvanla ailə həyatı mürəkkəb hadisələr axarında uğurlu alınmasa da, knyaz Xasayın düşdüyü çıxılmaz vəziyyət haqqında müəllif dolğun təsəvvür yarada bilir.

Oxucu əsərdəki *Mirzə Ruhullah, Seyid Hüseyn, Hidayət xan, Məliküldövlə* və digər obrazlar barədə də əhatəli məlumat əldə edə bilir.

Əsər yüksək bədii keyfiyyətləri, poetik üslubu, zəngin dil özəllikləri ilə diqqəti cəlb edir. Yazıçı obrazları öz səviyyələrinə uyğun dillə "danışdırır". Bu, müəllifin mövqeyini başa düşməyə imkan yaradır. Ədib antonimlərdən, omonimlərdən, sinonimlərdən, çoxmənalı sözlərdən, bədii təsvir və ifadə vasitələrindən gen-bol istifadə etməklə dialoqların təsir gücünün artmasına, lirizmin güclənməsinə nail olmuşdur. Dramda xarakterlərin qarşılaşdırılması, bir-birinə zidd hadisələrin ardıcıl təsviri dramatik konflikti gərginləşdirir. Hadisələrin təbii inkişafı, vahid süjet xətti ətrafında birləşməsi, eləcə də kompozisiya bitkinliyi əsərin mükəmməl bədii keyfiyyəti barədə təsəvvür yaradır.

> ? Əsər hansı bədii xüsusiyyətləri ilə diqqəti cəlb edir?

Dram Azərbaycanın bütövlüyü ideyasının irəli sürülməsi baxımından çox əhəmiyyətlidir və bu gün də öz aktuallığını qorumaqdadır. Ədib ikiyə bölünmüş vətənimizin taleyi, xalqımızın birliyi, azadlıq uğrunda mübarizəsinin davamlı olması və s. haqqındakı düşüncələrini Xurşidbanunun həyatı, fəaliyyəti ilə üzvi vəhdətdə əks etdirmişdir.

> ? Dramaturqun bu əsəri yazmaqda başlıca niyyəti nə olmuşdur?

*Mənbələri araşdırmaqla yazıçının niyyəti, əsərin ideyası haqqında dolğun təsəvvür qazanmaq mümkündür.*

**• EVDƏ İŞ**

**ARAŞDIRMANI DAVAM ETDİRİN**

**1. Sinifdə öyrəndiklərinizi göstərilən mənbələrdən topladığınız məlumatlar əsasında zənginləşdirin və tamamlayın.**
**2. Mövzulardan birini seçib işləyin.**
   a) "Natəvan obrazı haqqında düşüncələrim" mövzusunda esse yazın.
   b) "İlyas Əfəndiyev yaradıcılığında Qarabağ mövzusu" adlı məqalə yazın.
**3. Şifahi təqdimata hazırlaşın.**

**• MƏNBƏLƏR**

1. İ.Əfəndiyev. Seçilmiş əsərləri. 3 cilddə. I cild, Bakı: Avrasiya-press, 2005, səh. 7-10.
2. Azərbaycan dramaturgiyası antologiyası. 5 cilddə. I cild. Bakı: Şərq-Qərb, 2007, səh. 19, 21.
3. XI sinif şagirdləri üçün elektron vəsait. http://edebiyyat.ucoz.com.

LAYİHƏ



Azərbaycan ədəbiyyatının XX əsrdə yetişdirdiyi ən görkəmli şəxsiyyətlərdən biri olan İsmayıl Şıxlı haqqında düşünərkən hər bir azərbaycanlının ağlına "müəllim", "mütəfəkkir", "milli yazıçı", "mərdlik" kimi anlayışlar gəlir. Azərbaycan ədəbiyyatının şah əsərləri sırasında dayanan "Dəli Kür"ə, yazıçının son sözü kimi deyilmiş "Ölən dünyam"a qədər İsmayıl Şıxlının yaratdığı əsərlər nə qədər mükəmməl olsa da, böyük mütəfəkkir yazıçının ən mükəmməl əsəri onun heç zaman unudulmayacaq tarixi şəxsiyyətidir.

*Nizami Cəfərov*

**İsmayıl Şıxlı**
(1919–1995)

# İSMAYIL ŞIXLININ HƏYATI, YARADICILIQ YOLU

• ARAŞDIRMAYA HAZIRLAŞIN

1. **İ.Şıxlı haqqında bildiklərinizi yada salıb yığcam müzakirə aparın.**
2. **Mətni fərdi olaraq oxuyun, məlumatları aşağıdakı işarələrlə nişanlayıb qruplaşdırın:**
   + tanış olan məlumatlar;
   □ əvvəl öyrənilmiş bilik və məlumatlara zidd olanlar;
   **!** maraqlı və yeni olan məlumatlar;
   **?** açıqlanmasına, daha əhatəli öyrənilməsinə ehtiyac duyulan məlumatlar.
3. **Gəldiyiniz nəticəni aşağıdakı cədvəldə qısaca yazın.**

| + | □ | ! | ? |
|---|---|---|---|
| Bilirdim | Bildiklərimə ziddir | Mənim üçün yeni və maraqlı məlumatdır | Bu barədə daha çox bilmək istəyirəm |
| | | | |

4. **Kiçik qruplarda birləşərək fikir mübadiləsi və müzakirə aparın.**

İ.Şıxlının həyat yolu üçün daha səciyyəvi olanlar nədir?

İsmayıl Şıxlı Qazax rayonunun İkinci Şıxlı kəndində anadan olmuşdur. O, qonşu Kosalar kənd məktəbində təhsil almış, oranı bitirdikdən sonra, 1934-cü ildə yaşı az olduğu üçün xüsusi imtahanla Qazaxdakı Pedaqoji Texnikuma daxil olmuşdur. Buradakı ədəbi mühit onda bədii yaradıcılığa maraq oyatmış, ədəbiyyat dərnəyində fəal iştirak edərək ilk şeirlərini yazmışdır. 1937-ci ildə texnikumda keçirilən tədbirdə S.Vurğunun çıxışını dinləməsi, şairlə tanış olması İ.Şıxlıda dərin təəssürat yaratmış, gələcək həyat yolunun müəyyənləşməsində böyük rol oynamışdır.

LAYİHƏ

O, texnikumu bitirdikdən sonra bir müddət müəllim işləmiş, 1937-ci ildə Bakıya gələrək Azərbaycan Pedaqoji İnstitutunun dil və ədəbiyyat fakültəsinə daxil olmuşdur. İnstitutdakı ədəbiyyat dərnəyində fəal iştirak edən İ.Şıxlının şeirləri, hekayələri dərnəyin rəhbəri Məmmədcəfər Cəfərovun diqqətini cəlb etmiş, onun tövsiyəsi ilə “Quşlar” adlı ilk şeiri 1938-ci ildə “Ədəbiyyat qəzeti”ndə, “Dəli Kür” adlı hekayəsi institut qəzetində çap olunmuşdur.

İnstitutu bitirdikdən sonra Qazaxın kənd məktəblərində çalışan İ.Şıxlı 1942-ci ildə cəbhəyə getmiş, qələbə gününədək davam edən döyüş yolunu ədib sonralar çap etdirdiyi “Cəbhə gündəlikləri” əsərində əks etdirmişdir.

Qanlı-qadalı müharibə illəri, ölüm-dirim döyüşləri, çətin sınaqlar onun bir şəxsiyyət kimi formalaşmasına, bədii yaradıcılığına öz təsirini göstərmişdir. Müharibədən sonra bir müddət Qazaxda müəllim işləyən İ.Şıxlı sonra APİ-nin aspiranturasına daxil olmuş, ömrünün qalan illərini bu ali məktəbə həsr etmişdir. O, pedaqoji-elmi fəaliyyətlə yanaşı, “Azərbaycan” jurnalının baş redaktoru, Yazıçılar İttifaqının birinci katibi vəzifələrində çalışmışdır.

İ.Şıxlı bədii yaradıcılığa şeirlə başlasa da, ədəbiyyatımızda qüdrətli nasir kimi iz qoymuşdur. O, müharibə təəssüratı əsasında sonralar “Konserv qutuları”, “Həkimin nağılı”, “Səhəri gözləyirdik”, “Kerç sularında”, “Haralısan, ay oğlan?” hekayələrini yazmışdır.

? Yazıçının bədii yaradıcılığında müharibə mövzusu necə əks olunmuşdur?

Ədibin “Cəbhə gündəlikləri” əsəri müharibə zamanı səngərlərdə yazılmış əsgər qeydlərindən ibarətdir. Əsərin qəhrəmanı müharibənin bütün ağırlıqlarını çəkən, hər gün düşmənlə amansız döyüşə girən, lakin qəddarlaşmayan, qəlbindəki həyat eşqini, mərhəmət duyğusunu qoruyub saxlayan, gələcəyə ümidlə baxan mərd, cəsur əsgərdir. Bu əsgər keçdiyi döyüş yolunun salnaməsini müntəzəm yazır, gənc olmasına baxmayaraq, həyata, keçdiyi ömür yoluna, insanlara müdrik nəzərlərlə baxır, müharibənin bütün çətinliklərinə, məhrumiyyətinə dözür, qələbəyə inamını itirmir. Əsər müharibənin sərt reallıqları, həyat həqiqətləri barədə oxucuda dolğun təsəvvür yaradır, təsvir olunanlara onu laqeyd qalmağa qoymur.

Yazıçının keçən əsrin 70-ci illərində yazdığı “Mənim rəqibim”, “Köynək” hekayələrində də müharibənin insan taleyində buraxdığı izdən söz açılır.

Yazıçının “Ayrılan yollar” (1957) romanı şəxsiyyətə pərəstişin ifşa olunduğu, repressiyaların başa çatdığı bir dövrün məhsuludur. Bu mərhələdə cəmiyyət, insanlar yolayrıcında idilər. Həmin dövrün çətinliklərini əks etdirən əsərdə kəndi, təsərrüfatı, insani münasibətləri yenidən qurmaq kimi həllini gözləyən məsələlər əhatə olunmuşdur. Romanda kolxoz sədri *Kosaoğlu* və onun qohumlarının, prokuror *Əsədovun* təmsil etdiyi qüvvələr stalinizmin yaratdığı qorxu, vahimə ab-havasını, zərərli iş üsullarını qoruyub-saxlamağa cəhd edir, ənənəvi yolla gedib hər cür yeniliyə müqavimət göstərirlər. Onlarla barışmayan gənc aqronom İmran, manqabaşçısı *Zeynəb, Kərim kişi, Nəsib dayı* surətlərini oxucular rəğbətlə qarşılayırlar. Bir-birinə zidd iki dünyagörüşünün, iki baxışın təmsilçisi olan bu qüvvələrin mübarizəsində konflikt ikincilərin – yeni həyatı,

? “Ayrılan yollar” romanında hansı problemlərin bədii həlli verilmişdir?



LAYİHƏ

yeni yolu seçənlərin qələbəsi ilə bitir. Roman müharibədən sonrakı illərdə Azərbaycan kəndinin mənəvi-sosial problemlərini, oradakı dəyişiklik və inkişafı dolğun əks etdirməsi baxımından diqqəti cəlb edir.

> Yazıçının sonrakı illərdə yazdığı nəsr əsərlərində hansı problemlər diqqət mərkəzinə çəkilmişdir?

İ.Şıxlı öz yaradıcılığında cəmiyyəti düşündürən problemləri, ictimai-əxlaqi məsələləri yüksək bədii sənətkarlıqla əks etdirmişdir. Yazıçı "Məni itirməyin" (1984), "Namərd gülləsi" (1991) kitablarındakı "Mənim rəqibim", "Məleykə xala", "Qızıl ilan", "Namərd gülləsi", "Təyyarə gecikir", "Namus qaçağı", "Görüş", "Deputat", "Sapı özümüzdəndir" hekayələrində oxucuya milli-mənəvi dəyərləri göz bəbəyi kimi qorumağın və yeni nəsillərə ötürməyin zəruriliyi fikrini aşılayır.

Yazıçının "Ölüləri qəbiristanda basdırın" (1990) hekayəsində Şəmistan ağanın və "Ölən dünyam" (1995) romanında Halay bəyin taleyi, əməlləri timsalında xalq həyatının bütöv mərhələləri əks etdirilmiş, əyilməzlik, mərdlik, ləyaqət, namus, cəsarət kimi milli kökdən gələn dəyərlərdən söz açılmışdır.

İ.Şıxlının ən böyük yaradıcılıq nailiyyəti ədəbiyyatımızın dəyərli nümunələrindən olan "Dəli Kür" (1957–1966) romanıdır.

**• EVDƏ İŞ**

**ARAŞDIRMANI DAVAM ETDİRİN**

**1. Sinifdə öyrəndiklərinizi göstərilən mənbələrdən topladığınız məlumat əsasında zənginləşdirin və tamamlayın. Yazılı qeydlər əsasında şifahi təqdimata hazırlaşın.**

**2. Mövzulardan birini seçib işləyin:**

a) "İ.Şıxlının ictimai fəaliyyəti" mövzusunda məruzə mətni hazırlayın.

b) "İ.Şıxlının yaradıcılığında müharibə mövzusu" adlı məqalə yazın.

**• MƏNBƏLƏR**

1. İ.Şıxlı. Seçilmiş əsərləri. 2 cilddə. I cild. Bakı: "Şərq–Qərb", səh.7-8, 10-11.
2. Azərbaycan nəsri antologiyası. 5 cilddə. III cild. Bakı: Şərq–Qərb, 2006, səh. 8-9.
3. XI sinif şagirdləri üçün elektron vəsait. http://edebiyyat.ucoz.com.



LAYİHƏ

## DƏLİ KÜR
*(ixtisarla)*

• I dərs

• MƏZMUN ÜZRƏ İŞ

OXUYA HAZIRLAŞIN

**Sualların üzərində düşünün, cavablarını cədvəldə qeyd etdikdən sonra fikir mübadiləsi və müzakirə aparın.**

| Güclü xarakter dedikdə nə başa düşürsünüz? | Güclü xarakterli insan olmaq üçün nə etmək lazımdır? | Sizcə, güclü xarakter hansı hallarda daha önəmli olur? |
|---|---|---|
| | | |

**1. Əsərdən verilmiş birinci hissəni oxuyun. Tapşırıqları fərdi olaraq yerinə yetirin.**

a) Mənasını aydınlaşdırdığınız sözlərin alınma, yaxud dilimizə aid olduğunu əsaslandırın.

| Tanış olmayan sözlər | Mənası | Öz sözümüzdür | Alınma sözdür |
|---|---|---|---|
| | | | |

b) Seçdiyiniz məcazların növünü dəqiqləşdirin. Onları daha maraqlı hesab etməyinizə səbəb nədir?

| Əsərdən seçilmiş məcazlar | Məcazların növü | Onları maraqlı hesab etməyimin səbəbi |
|---|---|---|
| | | |

c) Oxuduğunuz parçalarda diqqətinizi daha çox cəlb edən məsələləri ikihissəli gündəlikdə yazın.

| Əsərdə diqqətimi cəlb edənlər | Bunun səbəbi |
|---|---|
| | |

**2. Suallara cavab hazırlayın:**

a) Zərnigar xanım nə üçün kədərli idi? O ağlamasının səbəbini Şamxala necə izah etdi?
b) Anasının sözləri Şamxala necə təsir etdi? O hansı qərara gəldi?
c) Cahandar ağanın silahdan atəş açması evdəkilərə necə təsir etdi?
d) Bu səhnədə Cahandar ağanın nitqində, davranışında diqqətinizi daha çox nə cəlb etdi?
e) Şamxal atası ilə dava-dalaşdan sonra nə qərara gəldi?
ə) Mələyin qaçırılması Allahyara necə təsir etdi?
f) Oxuduğunuz parçalar hansı mənəvi dəyərlər barədə danışmağa imkan verir?

**3. Doğru hesab etdiyiniz fikirləri müəyyənləşdirin və onlara münasibət bildirin:**

a) Cahandar ağa sərt, ötkəmdir.
b) Mələyin qaçırılması ailə həyatının nizamını pozur.
c) Atası Şamxalı həmişə sərt şəkildə cəzalandırmışdı.
d) Zərnigar xanım Mələyin günü gətirilməsini laqeydliklə qarşılayır.
e) Zərnigar xanımın Mələklə əvvəldən ədavəti var idi.

**4. Kiçik qruplar yaradaraq cavablarınızı dəqiqləşdirin və ümumiləşdirin.**

**5. Təqdimatlar əsasında fikir mübadiləsi və müzakirə aparın.**

### BİRİNCİ HİSSƏ

Göytəpə kəndinin yastı, qazma daxmaları Kürün sahilinə qədər səpələnmişdi. Bu il yağınlıq olduğundan otlar vaxtından əvvəl göyərmiş, yazın ılıq nəfəsini duyandan sonra isə püskürüb qalxmışdı. Kürə enən cığırları da ot basmışdı. Zərnigar xanım bunların heç birini görmürdü. O, başını göy məhəccərli eyvanın direyinə söykəyib için-için ağlayırdı. Tez-tez kəlağayısının ucu ilə gözünün



LAYİHƏ

yaşını silir, "mən bu dərdə necə dözüm, kimdən imdad istəyim?" – deyə inildəyirdi.

...Kürün o tayında, hündür qovaqların seyrəlib yulğunluğun başladığı yerdə beş-altı qaraltı görünürdü. Zərnigar xanım dikəldi. Oğlu Şamxalın da orada olduğunu yəqin etdi. Şamxal üst-başını çırpıb kəmərini daraltdı. Gümüş dəstəkli xəncərini yana çəkdi. Zərnigar xanım oğlunun qabağına gəldi. Şamxal anasını gözüyaşlı görüb evdə bədbəxt bir hadisə baş verdiyini zənn etdi. Şamxal anasına yaxınlaşdı. Qolundan tutub diqqətlə üzünə baxdı:

– Yenə nə olub, niyə gözüyün yaşını on yerindən ələyirsən?

Arvad daha da kövrəldi. Önlüyünün ətəyi ilə gözlərini silib, hikkəsindən boğula-boğula:

– Belə, atan ölmüş təzə eşqə düşüb, ay bala, – deyə Zərnigar xanım göz yaşına ara verib səsini ucaltdı. – Bizi el içində biabır edib. Heç ərlik-boyluq qızı olan, sənin kimi oğul böyüdən kişi də belə iş tutarmı?

Şamxal dinmədi. Zərnigar xanım irəli gəldi, əllərini belinə qoyub Şamxalın qabağında dayandı:

– Deyəsən, mənim dediklərimi qulaqardına vurursan?! Atan ölmüşün tərəfini saxlayırsan?! Yoxsa inanmırsan, hə? Gəl, yaxın gəl, gör atan sənə nə yaxşı ana gətirib?

Şamxalın rəngi qaçdı. Bayaqdan qorxu içində, küncə qısılıb titrəyə-titrəyə qardaşının hərəkətlərinə göz qoyan Salatın özünü Şamxalın üstünə saldı, əllərini tutub yalvardı:

– Qurbanın olum, ay qağa, evimizə qan salma. Amanın bir günüdü, əlini qana bulama!

Şamxal bacısını itələyib kənara yıxdı. Əlini sallamalı kəmərindən asdığı xəncərin gümüş dəstəyinə yetirdi. Qızının dizin-dizin sürünüb əl çəkmədiyini görən Zərnigar xanım:

– Bircə belə dur, gədənin əl-ayağına dolaşma, – deyə Salatının hörüklərindən tutub dartışdırdı.

Şamxal qorxusundan uçum-uçum uçunan bu gəlinin öz tərəflərindən olmadığını dərhal bildi. Görünür, atası onu haradansa, Kürün aşağısındakı uzaq kəndlərin birindən gətirmişdi. Gəlinin gözəlliyi Şamxalı yumşaltdı. Onun qolları boşaldı. Bunu hiss edən Zərnigar xanım oğlunun üstünə qışqırdı:

– Hə, niyə durdun? Bu saat onun saçını biləyinə dolayıb sürüməsən, kişi deyilsən! Di tez ol!

Ani olaraq fikrə gedən Şamxal anasının sözlərindən sonra gəlinə yaxınlaşdı:

– Dur, şələ-küləni yığışdır, rədd ol buradan! – Yolun altı ilə gəlibsən, üstü ilə qayıt xarabana!

Gəlin sapsarı saralsa da, özünü sındırmadı. Onun qanı qaçmış dodaqları aralandı:

– Məni sən gətirməyibsən ki, evdən qovursan?

Hirsindən rəngi ağappaq ağarmış Şamxal gəlinin üstünə yeriyib boğuq bir səslə qışqırdı:

– Bu saat rədd ol burdan, yoxsa bağırsaqlarını ayağına dolayaram!

Gəlin gözünü də qırpmadı:

– Qeyrətli kişi qadına əl qaldırmaz. Hünərin varsa, get atanla haqq-hesab çək!

Artıq Şamxal dözə bilmədi. O, ayaqlarına döşənib sürünən bacısının üstündən keçib irəli şığıdı. Gəlinin saçını biləyinə dolayıb yerə yıxdı. Təpiyinin altına salıb döyəclədi... Arvadların qışqırtısı bir-birinə qarışdığından evdən qayıdan



LAYİHƏ

Cahandar ağanın həyətdə dayandığını heç kəs görmədi. Gözünü qan örtmüş Şamxal isə getdikcə qızışır, gəlini sürüyüb evdən bayıra atmaq istəyirdi. Birdən gəlin var-gücünü toplayıb ayağa durdu. Qabarıq sinəsini irəli verib Şamxalın üstünə qışqırdı:

– Vur, niyə durubsan? Əlin-ayağın niyə titrəyir, arvadı öldürməyə nə var ki? Vur!

Şamxal xəncəri siyirdi. Polad tiyə havada parıldadı. Ayağını üzəngidən yenicə çəkən Cahandar ağanın gözü pəncərəyə sataşdı. Şamxalın xəncəri gəlinin başına endirmək istədiyini gördüyü ilə tüfəngi hərləməyi bir oldu. Güllə açıldı. Şamxalın əlindəki xəncərin tiyəsi iki bölünüb evin ortasına düşdü. Bir anlığa hamı daş kimi donub qaldı. Salatının ürəyi keçdi. Cahandar ağa ağır bədəninə yaraşmayan bir çevikliklə atılıb içəri keçdi və hələ də özünə gələ bilməyən oğlunun üstünü aldı. Şamxal bir əlindəki dəstəyə, bir də hələ də lüləsindən tüstü çıxan tüfəngə baxdı.

Cahandar ağa qolunu hərləyib oğluna bir şillə çəkdi. Şamxal gözləmədiyi bu zərbədən dik atılıb bir pişik çəldliyi ilə geri sıçradı. Onun gözlərində qığılcım oynadı. Ata ilə oğul döyüşə hazırlaşan buğalar kimi qabaq-qabağa dayandılar.

Şamxal quzğun kimi üstünə gələn atasından əvvəlcə qorxdu. Onun nəzərində kişi getdikcə böyüdü və nərildəyərək ov üstünə atılmağa hazırlaşan heybətli bir pələngə döndü. Lakın o özünü ələ aldı və birdən atasının üstünə atıldı.

Oğlunun qəfil hücumunu gözləməyən Cahandar ağa tüfəngin qundağı ilə Şamxalın sinəsindən vurub yerə sərdi. Sonra da təpiklə döyəcləməyə başladı.

Zərnigar xanım özünü kişinin qabağına atdı. Dili dolaşa-dolaşa yalvarmağa başladı:

– A kişi, ağlını başına yığ. Ə, uşaqdan əl çək. Onda taqsır yoxdur, öldürürsənsə, məni öldür. Ayə, qurbanın olum, vurma, yazığam, evimi yıxma.

Salatın yavaş-yavaş özünə gəldi. Sürünüb atasının ayaqlarına döşəndi. Üzünü torpağa sürtdü. Bir göz qırpımında hadisədən çaşıb qalan gəlin yerindən tərpənə bilmədi. Kişi onun nəzərində getdikcə böyüyüb dağa dönürdü. O irəli atılıb iri bədənini qabağa verdi. Cahandar ağanın ağır yumruqları kürəyinə dəysə də, diz çöküb kişinin ayaqlarını qucaqladı:

– Bəsdir, ay insafsız, yazıqda tutar qalmadı. Onu yox, mən başıbatmışı öldür ki, biryolluq canım qurtarsın.

Cahandar ağa onun hönkürtüsünə baxmayıb yenə də oğlunun üstünə yeridi... Nökərlər səs-küyə tökülüşüb gəldilər. Tapdıq bir sıçrayışla özünü araya saldı. Cahandar ağa onun enli kürəyinin arxasında qalan Şamxalı görə bilmədi. O biri nökərlər isə Şamxalın dartınmasına fikir vermədilər. Çəkə-çəkə onu çardağın yanına apardılar. Şamxal birbaş sahilə endi. İndicə baş verən əhvalatın təsirindən yaxasını qurtara bilməyən Şamxal yarğanın kənarında oturdu. Cahandar ağanın heybətli nəriltisi yenidən onun qulaqlarında səsləndi. "Yox, mən bir də onunla üz-üzə gələ bilmərəm. Yəqin, kişinin indi məndən zəhləsi gedir. Harda görsə, yenə üstümə cumacaq".

Şamxal bir dəstə qızın yarğanın qaşı ilə suya endiyini görüb ayağa qalxdı, buradan uzaqlaşmağı qərara aldı.

Hamı evə çəkildi. Cahandar ağa isə qapıda hərlənir, pəncərəsindən zəif işıq gələn otağa yaxınlaşa bilmirdi. İndi o nə etməli idi? Öz hərəkətlərinə necə bəraət qazandırmalı idi?.. Qəlbinin dərinliklərində haqsızlığını duyurdu. Bu hadisənin belə sakitcə gəlib keçməyəcəyini, evdə hər gün dava-dalaş düşəcəyini aydınca görürdü. Kişi lap darıxdı. Ona elə gəldi ki, bu saat Qori Müəllimlər Seminariyasında oxuyan oğlu Əşrəf qapını açıb içəri girəcək, qaşlarını çatıb: "Ata, eyib deyilmi, bu nə işdir, tutmusan?" – deyəcəkdir. Sonra da baş götürüb evdən gedəcək, bir daha buralara üz çevirməyəcəkdir...



LAYİHƏ

Gecədən xeyli keçmiş kəndin aşağısında itlər hürüşdü. Ucqardakı qara damdan kiminsə səksəkəli səsi eşidildi.

– Ayə, a adam, kimsən?

Şamxal Çərkəzə cavab vermədi. Yavaş-yavaş evə yaxınlaşdı. Qara damın qabağındakı çardağın dirəyini özünə dalda edən Çərkəz qaraltının kim olduğunu bilənə qədər əlini tüfəngin tətiyindən çəkmədi. Şamxal çaxmaq şaqqıltısını eşidib dilləndi:

– Ə, mənəm, nə səs-küy salıbsan?

Çərkəz Cahandar ağagildə olan hadisəni bilsə də, üzə vurmadı. O özünü elə aparırdı ki, guya heç nədən xəbəri yoxdur.

Kənd yuxuda idi. Şamxal yata bilmirdi. Elə bil yuxusu ərşə çəkilmişdi.

O, bir daha evə qayıtmayacağını qərara alsa da, hələ nə edəcəyini müəyyənləşdirə bilmirdi: "Birdəfəlik kənddən çıxıb getsəm, necə olar? Özümə bir daxma düzəldəcəyəm. Kənddəki qızlardan birini də gətirib qoyacağam evə". Şamxal durub yerində oturdu. Yenə fikir onu götürdü.

Mələyin yoxa çıxması xəbərini eşidəndən yarımca saat sonra Allahyar yola hazırlaşdı. O, Mələyin evdən baş götürüb getməsini heç cür ağlına sığışdıra bilmirdi. Allahyar kəndə çatan kimi Mələyin əmisigilə adam göndərib məsələni öyrənməyi qət etmişdi. Əgər çıxıb əmisigilə gedibsə, onda özündən küssün. Heç kəs ona minnət etməyəcəkdi. Əgər getməyibsə?! Elə məsələ da bunda idi. Allahyarı narahat edən də bu idi.

Allahyar səhər tezdən, nökəri yola salandan sonra atı minib Kürün sahilinə endi. O nə qədər çalışsa da, sirr açılmış, Mələyin yoxa çıxması hamıya məlum olmuşdu. Allahyarın dodaqları astadan tərpənir, titrək barmaqları tüfəngin tətiyində oynayırdı.

Şamxal kəndin kənarında, biçənəklərin üst tərəfindəki təpənin qaşında özünə ev tikdi. Kənd cavanları ona kömək etdilər. Şamxalın Güləsəri götürüb qaçması xəbərini eşidəndə Cahandar ağa üç gün-üç gecə ağzı üstə yatdı. Hirsindən gözləri qan çanağına döndü. Kişinin əlindən xata çıxa biləcəyini düşünəndə evdəki arvadlar yarpaq kimi əsdilər.

Cahandar ağa Şamxalı yaddan çıxartmaq üçün o biri oğlunu xatırladı. "Görəsən, Əşrəf bu saat nə edir? Evdə olanları eşidibmi? O da mı məndən üz döndərəcək? Yox, Əşrəf ağıllı baladır. Şamxalın tayı deyil".

• EVDƏ İŞ

**1. Əsərdən müstəqil oxuduğunuz ikinci hissədən parçaları nəzərdən keçirin. Onlarda ifadə olunmuş mühüm fikirləri müəyyənləşdirməyə çalışın.**

| Müəyyənləşdirilmiş mühüm fikirlər | Onları mühüm hesab etməyimin səbəbi |
|---|---|
| | |

**2. Tanış olmayan sözlərin mənasını aydınlaşdırın.**
**3. Daha maraqlı hesab etdiyiniz məcazları yazın.**
**4. Yazılı qeydlər əsasında şifahi təqdimata hazırlaşın.**

LAYİHƏ

## İKİNCİ HİSSƏ

Göytəpə kəndinin ucqarında, xır yolunun üst tərəfində üçotaqlı bir bina var. El arasında buraya "Zayej" ("Zayezjiy dom" sözünün el arasında işlənən şəkli) deyirlər. Qocalar deyirlər ki, düz bir il gecəli-gündüzlü işləyəndən sonra yol hazır oldu... Yolun kənarındakı ev isə sahibsiz qaldı. İki il bundan əvvəl buraya iyirmi dörd-iyirmi beş yaşlı bir oğlan gəldi. Camaat arasında bir müddət ona "poçt Əhməd", sonra isə şapka geydiyinə görə "rus Əhməd" dedilər. Əvvəllər ona heç kəs yaxın durmazdı. "Xaçpərəstlə nə işimiz var", – deyə uzaq gəzirdilər. Ancaq yavaş-yavaş ona isinişdilər. Rus Əhməd bəzən "Zayej"in eyvanında oturub kitab oxuyardı. Bəzən də uşaqları başına yığıb məzəli söhbətlər edər, uzaq yerlərdən, qalın meşələrdən, izdihamlı şəhərlərdən, böyük çaylardan, boranlı-çovğunlu diyarlardan söhbət açardı. Bu uşaqların içində Cahandar ağanın kiçik oğlu Əşrəf də olardı.

... Poçtalyonun qapısı döyüldü. Əşrəf içəri girdi. Əlindəki böyük bağlamanı yavaşca pəncərənin qabağına qoydu. Stolun üstünə səpələnmiş kağızlara nə isə yazan Əhməd qanrılıb baxdı.

– Ay xoş gördük səni, demək, gəldin. Çox yaxşı. Bəs bu nədir?

– Anam göndərdi, Əhməd lələ, dedi ki, adam qəribə hörmət edər.

Onlar susdular. Əşrəf kitablara baxdı.

– Bunların hamısını oxumusanmı?

– Oxumuşam. Səni də öyrədəcəyəm. Rusca yazmağı da, oxumağı da biləcəksən.

– Mənim bir-iki dostum var, onları da öyrədərsənmi?

– Niyə öyrətmirəm, qoy gəlsinlər. Elə otağın birini boşaldıb sinif edərik. Özümüzün məktəbimiz olar.

Təpələrin ətəyindəki yolla irəliləyən fayton kəndə yaxınlaşırdı. Atlar yorulmuşdu. Faytonda oturan müsafir sakitcə ətrafı seyr edirdi. Faytonçu geri qanrıldı.

– Bağışlayın, cənab, adınızı da bilmirəm...

– Aleksey Osipoviç.

Aleksey Osipoviç hələ dörd il əvvəl Qori seminariyasının pedaqoji şurasında olan mübahisəni xatırladı. Seminariyanın direktoru Dmitri Semyonov müsəlman şöbəsinin açılması məsələsini irəli sürmüşdü. Şurada böyük mübahisə qalxmışdı. Yeni şöbənin açılmasına qəti etiraz edənlər var idi. Elə həmin axşam Semyonov Aleksey Osipoviçi yanına çağırdı. Semyonov sakitcə sözə başladı:

– Çara və hökumətə yerli məmurlar lazımdır. Elə bunun üçün də məktəblər açırlar. Amma biz daha uzağa baxmalıyıq. Yeni məktəblərdən yeni məqsədlər üçün istifadə etməliyik. Bu işdə fədakarlıq lazımdır. İlk illər çətinlik olacaq. Siz qorxmayın. Mən sizə arxayınam. Əməli təkliflərinizi yazın, fikrinizi mənə bildirin. Hər şeydən əvvəl şagirdlər haqqında düşünmək lazımdır.

– Taparıq, Dmitri Dmitriyeviç, kəndbəkənd gəzməli də olsam, tapacağam.

Elə bu məqsədlə də Aleksey Osipoviç səfərə çıxmışdı...

Gecədən xeyli keçmiş "Zayej"in qapısı döyüldü. Əhməd cəftəni çəkib qapını araladı, qonağı qabağa salıb yol göstərdi. Aleksey Osipoviç göz gəzdirib otağı nəzərdən keçirdi. Divardan asılmış yarımkürələr xəritəsi, küncdəki qlobus, pəncərənin qabağına və stolun üstünə yığılmış kitablar, dəftərlər diqqətini cəlb etdi. O durub stola yaxınlaşdı. Vərəqləri didilib tökülən əlifba kitabını səhifələdi. Sonra dəftərləri açdı.

Atları rahatlayandan sonra içəri, samovar aparmağa gələn Əhməd qonağın dəftərlərlə əlləşdiyini görüb ayaq saxladı.



LAYİHƏ

Aleksey Osipoviç səsə qanrılıb baxdı:
– Siz müəllimsiniz?
– Bəli. Bilirsinizmi, cənab, əslində, mən burada işsizəm. Əvvəllər Bakıya, Yerevana, Gəncəyə gedən poçt faytonları, dilicanlar buradan gəlib keçərdi. Mən də, necə deyərlər, boş evə qarovul çəkirəm. Darıxmamaq üçün uşaqları başıma yığıb yazı-pozu öyrədirəm.
– Siz nə qədər böyük iş gördüyünüzü bilirsinizmi?
– Burada nə var ki? – deyə Əhməd sakitcə cavab verdi.
– Adınız nədir?
– Əhməddir. Əvvəllər kənd arasında mənə “poçt Əhməd” deyərdilər. Sonra nədənsə “rus Əhməd” oldum. İndi isə yavaş-yavaş “uçitel Əhməd”ə çevrilirəm. Görək sonra nə olacaq?
– Poçt Əhməd... – Aleksey Osipoviç qəhqəhə çəkib güldü. – İndi uçitel olmusan. Sənin bu kənddə uşaqlara dərs deməyin böyük xidmətdir. Bilirsinizmi, mən Qori seminariyasında işləyirəm. Biz orada təzə şöbə açmışıq.
– Bağışlayın, Siz Çernyayevski deyilsiniz ki, Aleksey Osipoviç?
– Bəli, düz tapmısınız. Bəs Siz mənim adımı hardan bilirsiniz?
– Əşrəfin məktublarından. O, həmişə Sizdən yazır. Axı onu mən oxutmuşam. İndi Sizin tələbənizdir.
– Çox yaxşı tanıyıram. Ən yaxşı oxuyan tələbələrimizdəndir. Demək, Siz mənə kömək edə biləcəksiniz.
...Yatmağa hazırlaşan Cahandar ağa nökərlərdən ot tayasına od vurulduğunu eşidən kimi çırağı söndürdü. Belə hallarda düşmənin pusquda dayanıb qapını gözlədiyini yaxşı bildiyindən, tüfəngi götürüb pəncərədən bayıra atıldı. İtlərin qəzəblə hürdükləri tərəfə bir-iki güllə atdı. Qaranlıqdan onun atəşinə atəşlə cavab verdilər. Cahandar ağa tətiyi bir də çəkib yenidən nişan almaq istəyirdi ki, itlər qaraltını qovub sahilə endirdilər.
O, səs-səmir kəsəndən sonra tüfəngini çiyninə alıb ağır-ağır evə qayıtdı. Kişini fikir götürdü. Tez-tez “mənə sataşan kim olar?” – deyə özünə suallar verdi. Deyəsən, burda ayrı əl var. Bəlkə...” Cahandar ağa duruxdu. Mələyin əvvəlki ərini indiyə qədər yadına salmadığına, bu barədə təzə arvadı ilə bir kəlmə danışmadığına özü də təəccüb etdi. “Elə o olacaq”.
Nökərlər geri qayıtdılar. Hamıdan sonra həyətə girən Tapdıq atı dirəyə bağlayıb ağanın yanına gəldi. Cahandar ağa gözünü geniş açıb qapının ağzında dayanan nökəri süzdü.
– Nə oldu?
– Tuta bilmədik, ağa, mən qabağını kəsənəcən özünü suya atdı.
Kişi papirosunu sümürüb otaqda gəzindi. Tapdıq cansıxıcı sükutdan yaxasını qurtarmaq üçün astaca dilləndi:
– Ağa, deyirəm, güllənizboşa çıxmayıb.
– Nədən bilirsən?
– Bundan, – deyə Tapdıq əlindəki yun başlığı göstərdi. – Qana bulaşıb.
... Mələk ürəyinə qorxulu bir şey daman adamlar kimi əsə-əsə başlığı götürdü. Özü də hiss etmədən:
– Onundur! – deyə qışqırdı.
Cahandar ağanın dişləri kilidləndi. Mələk nə edəcəyini bilmədiyindən yumaq kimi büzüşdü.
...Kəndin ortasındakı təpədə, iri tut ağacının kölgəsində böyük bir mərəkə vardı. İndi də camaat böyük maraq və intizarla buraya toplaşmışdı. Cahandar ağa da burada idi.


LAYİHƏ

Elə bu zaman Aleksey Osipoviçlə Əhməd mərəkəyə yaxınlaşdı. Aleksey Osipoviç mərəkədəkilərlə bir-bir əl tutdu. Cahandar ağaya yaxınlaşanda xeyli dayandı. Diqqətlə kişinin üzünə baxdı.

– Siz Əşrəfin atası deyilsiniz ki?

– Bəli, – Cahandar ağa yavaşca dilləndi və ayağa qalxdı. – Uşaq necədir, canıbaşı sazdırmı?

– Təkdir, dostlarından ötəri yaman darıxır. Axı bizim məktəbdə Əşrəfdən başqa Göytəpədən heç kəs oxumur. Elə sizin kəndə ondan ötəri gəlmişəm. Gərək kömək edəsiniz, uşaqlardan seçib oxumağa aparaq.

Söhbət bu yerə çatanda aralığa sükut çökdü. Cahandar ağa nə cavab verəcəyini bilmədi.

**• II dərs**

**• MƏZMUN ÜZRƏ İŞ**

**TAPŞIRIQLARI FƏRDİ OLARAQ YERİNƏ YETİRİN**

**1. Mənasını aydınlaşdırdığınız sözlərlə bağlı işi davam etdirin.**

| Tanış olmayan sözlər | Mənası | Öz sözümüzdür | Alınma sözdür |
|---|---|---|---|
| | | | |

**2. Seçdiyiniz məcazların növünü dəqiqləşdirin. Onları daha maraqlı hesab etməyinizə səbəb nədir?**

| Əsərdən seçilmiş məcazlar | Məcazların növü | Onları maraqlı hesab etməyimin səbəbi |
|---|---|---|
| | | |

**3. Oxuduğunuz hissədə diqqətinizi daha çox cəlb edən məsələləri ikihissəli gündəlikdə yazın.**

| Əsərdə diqqətimi cəlb edənlər | Bunun səbəbi |
|---|---|
| | |

**4. Suallara cavab hazırlayın.**

a) Rus Əhmədin və Aleksey Osipoviçin qarşıya qoyduğu məqsəd nə idi?

b) Cahandar ağadan qisas almaq istəyən Allahyar başqa cür hərəkət edə bilərdimi?

c) Oxuduğunuz parçalar hansı mənəvi dəyərlər barədə danışmağa imkan verir?

**5. İkinci hissənin məzmununu yığcam nağıl edin.**

**6. Kiçik qruplarda birləşib qənaətlərinizi bölüşün, təqdimata hazırlaşın.**

**7. Təqdimatlar əsasında fikir mübadiləsi və müzakirə aparın.**

**• EVDƏ İŞ**

**1. Əsərin ardını nəzərdən keçirib müzakirəyə hazırlaşın.**
**2. Yazılı qeydlər əsasında şifahi təqdimata hazırlaşın.**

**• MƏNBƏLƏR**

1. XI sinif şagirdləri üçün elektron vəsait. http://edebiyyat.ucoz.com.
2. İ.Şıxlı. Seçilmiş əsərləri. 2 cilddə. II cild. Bakı: Şərq–Qərb, 2005.

LAYİHƏ

● III dərs

● TƏHLİL ÜZRƏ İŞ

MƏTNİ OXUYUN. TAPŞIRIQLARI FƏRDİ OLARAQ YERİNƏ YETİRİN

**1. Əsərdə qaldırılmış problemlərdən hansılarını daha mühüm hesab edirsiniz?**

| Əsərdə qaldırılmış problemlər | Onlardan daha mühüm olanlar |
|---|---|
| | |

**2. Əsərin konflikti nədir? Fikrinizi əsaslandırın.**

| Əsərin başlıca konflikti | Nə üçün belə düşünürəm? |
|---|---|
| | |

**3. Romanda hansı milli-mənəvi dəyərlərə önəm verilmişdir?**

| Romanda önəm verilmiş milli-mənəvi dəyərlər | Bunun səbəbi |
|---|---|
| | |

**4. Əsərdə işlənilmiş bədii təsvir və ifadə vasitələrinin fikrin təsir gücünün artırılmasında rolunu izah edin.**

| Bədii təsvir və ifadə vasitəsinin növü | Mətndən nümunələr | Fikrin təsir gücünün artırılmasında rolu |
|---|---|---|
| | | |

**5. Cahandar ağa obrazını "xarakterlər xəritəsi" əsasında səciyyələndirin.**




**6. Aşağıdakı fikirlərin üzərində düşünün. Müzakirədə onlara münasibət bildirin.**

– *Cahandar ağa dəliqanlı və zalım mülkədardır. Ağa təbiəti onu yoxsullara qarşı amansız etmişdir.*

*(Bəkir Nəbiyev)*

– *Cahandar ağa öz hərəkətlərində və sözündə sərtdir, qətidir. Dediyi sözdən, elədiyi hərəkətdən dönən deyil. Cahandar ağa sərtdir, lakin zalım deyil.*

*(Təyyar Salamoğlu)*

**7. Kiçik qruplarda birləşərək qənaətlərinizi bölüşün və ümumiləşdirmə aparın.**

**8. Təqdimatlar əsasında fikir mübadiləsi və müzakirə aparın.**

? Əsər hansı mövzuda yazılmışdır?

On ilə yaxın bir müddətdə yazılan "Dəli Kür" romanının mövzusu XIX əsrin ikinci yarısında Azərbaycan kəndində cərəyan edən mühüm hadisələrdən, çarizmin müstəmləkəçilik siyasətinin faciəli nəticələrini əks etdirən gerçəkliklərdən götürülüb. Əsərin adı rəmzi məna daşıyır. Dəli Kür obrazı zamanın diqtə etdiyi qəlibə, çərçivəyə sığmayan Azərbaycan ruhunun ifadəsi kimi mənalandırılır.

*Mənbələrdən əldə olunan məlumat əsərin mövzusu haqqında geniş və əsaslandırılmış fikir deməyə imkan yaradır.*

? Romanda hansı problemlər, konflikt, milli-mənəvi dəyərlər öz əksini tapıb?

Xalqın tarixi taleyinin əks olunduğu əsərdə çoxşaxəli süjet və kəskin konflikt vardır. Romanda əhatə olunan tarixi dönəmdə cəmiyyətdə

LAYİHƏ

gedən ziddiyyətli proseslər, “köhnə” həyat tərzini sıxışdıran yeniləşmə meyillərinin doğurduğu ictimai-siyasi və mənəvi problemlər öz geniş əksini tapmışdır. Çarizmin müstəmləkəçilik siyasətinin nəticəsi olaraq Cahandar ağanın və kəndlilərin torpaqlarının qəsb edilməsi bu ziddiyyətləri daha da kəskinləşdirir.

Gərgin toqquşmaların təsvir edildiyi romanın süjeti və konflikti, ilk növbədə, güclü xarakterə malik Cahandar ağanın və onun ailəsinin taleyi üzərində qurulmuşdur. Cahandar ağanın ailəsindən başlanan konflikt getdikcə genişlənərək Cahandar ağa ilə Allahyar, Molla Sadıq, yerli əhali ilə çar hakimiyyəti nümayəndələri arasında barışmaz münaqişəyə çevrilir.

Yazıçı xalqımıza xas olan mənəvi dəyərlərin: mərdlik, əyilməzlik və qonaqpərvərliyin qorunub saxlanılmasını vacib sayır. Çarizmin mənəvi dəyərlərə – mənəvi mühitə təcavüzünə müqavimətin təsvir olunduğu səhnələr oxucuda milli qürur, iftixar, mübarizlik hissi oyadır.

Cahandar ağa obrazını səciyyələndirən başlıca xüsusiyyətlər hansılardır?

Əsərin baş qəhrəmanı *Cahandar ağa* xaraktercə mürəkkəb, ziddiyyətli obrazdır. Milli xarakteri dolğun şəkildə təcəssüm etdirən Cahandar ağa və onun ailəsinin keşməkeşli həyatı, qarşılaşdığı maneələr şəxsi mahiyyət daşımır, zamanın, dövrün hökmü ilə baş verir. Cahandar ağa *Mələyi* qaçırmaqla etdiyi səhvi aydın dərk edir, arvadı *Zərnigarın* küsməsi, oğlu *Şamxalın* ailədən getməsi onun daxilən çəkdiyi iztirabları artırır. İstər şəxsi düşmənləri, istərsə də çar hakimiyyətinin nümayəndələri ilə qarşılaşmada Cahandar ağa mərd, igid, güclü xarakterli bir şəxsiyyət olduğunu sübut edir. O öz evini, ailəsini, torpağını müdafiə etməyə qadirdir. *Çernyayevski* və *Əhmədi* qaragüruhdan qoruyan Cahandar ağa həm də qonaqpərvərdir, xalqın adət-ənənəsinə qarşı çıxanları susdurmağı bacarır. Lakin onun ağa, mülkədar kimi sinfi təbiəti kəndlilərə, kasıb gəmiçi ailəsinə münasibətində özünü büruzə verir.

Cahandar ağa qarşılaşdığı maneələri dəf etmək üçün son nəfəsinədək mübarizə aparır, əyilməzliyini hər addımda sübut edir. Zamanın sərt axarının yaratdığı yeni ictimai-siyasi şəraitdə məhvə məhkum olan Cahandar ağa dəli Kürün burulğanlı sularında həyata vida edir. Onun faciəsini şərtləndirən yalnız tarixi hadisələrin gedişi deyil, həm də şəxsi həyatındakı mənəvi sarsıntılar, ağır nəticələrə gətirib çıxaran məqamlardır.

**• EVDƏ İŞ**

**ARAŞDIRMANI DAVAM ETDIRIN**

1. **Sinifdə öyrəndiklərinizi göstərilən mənbələrdən topladığınız məlumat əsasında zənginləşdirin və tamamlayın.**
2. **Yazılı qeydlər əsasında şifahi təqdimata hazırlaşın.**

**• MƏNBƏLƏR**

1. İ.Şıxlı. Seçilmiş əsərləri. 2 cilddə. I cild. Bakı: Şərq–Qərb, 2005, səh.8-10.
2. İ.Şıxlı. Seçilmiş əsərləri. Bakı: Çaşıoğlu, 2006, səh.10-11.
3. XI sinif şagirdləri üçün elektron vəsait. http://edebiyyat.ucoz.com.

LAYİHƏ

- **IV dərs**
- **TƏHLİL ÜZRƏ İŞ**

**AŞAĞIDAKI QAYDALARA ƏMƏL ETMƏKLƏ TAPŞIRIQLARI YERİNƏ YETİRİN, TƏQDİMATA HAZIRLAŞIN**

**1. Kiçik qruplarda mətnkənarı suallar üzrə cavabları oxuyun və onlardakı əsas fikri ümumiləşdirib bir neçə cümlə yazın.**

**2. "Xarakterlər xəritəsi"ndən istifadə etməklə obrazlardan birini səciyyələndirin.**




**3. Əsərdəki bədii təsvir və ifadə vasitələrinin rolunu izah edin.**

| Bədii təsvir və ifadə vasitəsinin işləndiyi cümlə | Fikrin təsir gücünün artmasında onun rolu |
|---|---|
| | |

**4. Əsərin ideyası ilə bağlı mühüm fikirlərə aid nümunələr seçin, onlara münasibətinizi bildirin.**

| Seçilmiş nümunələr | Onlara münasibətim |
|---|---|
| | |

Əsərdəki digər obrazlar hansı cəhətləri ilə diqqəti cəlb edirlər?

Romanda müxtəlif dünyagörüşlü insanların canlı, bitkin bədii obrazları yaradılmışdır. Onların hər biri səciyyəvi cizgiləri, fərdi xüsusiyyətləri ilə fərqlənir. Qori Müəllimlər Seminariyası ilə bağlı hadisələr, Əhmədin, Çernyayevskinin simasında ziyalıların maarifçilik fəaliyyəti xalqın həyatında yeni səhifələrin açılacağından xəbər verir.

Cahandar ağanın həyatının və onun təmsil etdiyi həyat tərzinin qürubunda *Əşrəf* yeniliyi təcəssüm etdirən gəncliyin nümayəndəsi kimi diqqəti cəlb edir. Şamxal isə atası ilə aralarındakı ziddiyyətli münasibətlərə baxmayaraq, Cahandar ağanın milli varlıq uğrunda mübarizəsini davam etdirən obraz kimi yadda qalır.

Əsərdəki kəndli obrazları saf niyyətləri, halal əməyə bağlı olmaları ilə diqqəti cəlb edirlər. Ağır güzəran keçirən bu insanlar Cahandar ağanın sahiblik etdiyi kənddə mülkədar-kəndli münasibətlərində öz sinfi mövqelərinə uyğun hərəkət etsələr də, qeyrət, namus məsələlərində milli dəyərlərdən çıxış edirlər.

*Pristav* çar məmurlarının tipik nümayəndəsidir. Çarizmin siyasi, iqtisadi mövqeyi gücləndikcə, milli mənafeyə təcavüzü artdıqca pristavın da yerli əhaliyə münasibəti dəyişir, davranışı sərtləşir. Əsərdə çar hökuməti nümayəndələri ilə onlardan xeyir gözləməyən yerli əhali arasında qarşılıqlı inamsızlıq, "divandərənin" camaatın mövcud həyat tərzinə müdaxiləsi və s. real həyati lövhələrlə əks etdirilir.

Düşmənindən açıq döyüşdə yox, arxadan vurmaqla qisas almaq istəyən *Allahyarın* mənəvi yoxsulluğu oxucuda rəğbət doğurmur. Salatını öldürməyə cəhd etməsi, qaçırmağa çalışması, Qəmərin yalını, quyruğunu qırxması və s. onun namərdliyini təsdiq edir.

Molla Sadıq obrazı bütün din xadimlərinin təmsilçisi deyil, o, mövhumatın, fanatizmin müdafiəçisi, yeniliyin, təhsilin əleyhdarı kimi o dövrün reallığını, həyat



LAYİHƏ

həqiqətini əks etdirir. Lakin kənd əhalisinə məxsus meşənin çar hakimiyyəti tərəfindən qəsb edilməsinə etiraz etməsi Molla Sadığın milli həmrəylik hissindən məhrum olmadığını göstərir.

Roman yüksək bədii keyfiyyətləri ilə diqqəti cəlb edir. Əsərdə süjet xətti tədricən inkişaf etdirilir, hadisələr əsas qəhrəman Cahandar ağa ilə əlaqələndirilir. Surətlərin əksəriyyəti öz fərdi keyfiyyətləri, fərqli dünyagörüşləri ilə Cahandar ağanın xarakterinin açılmasına cəlb olunur. Müəllif surətləri fərdiləşdirmək üçün müxtəlif üsullardan uğurla istifadəyə müvəffəq olmuşdur. Əsərin gərgin konflikti, qəhrəmanların, hadisələrin xarakterinin açılmasında təbiət lövhələrindən istifadə, zəngin bədii dili, tutarlı təsvir və ifadə vasitələri onu oxunaqlı edən mühüm məziyyətlərdir.

Roman hansı bədii keyiyyətlərə malikdir?

Müəllif bir kəndin timsalında dövrün Azərbaycan gerçəkliyi qarşısında qoyduğu “Hansı yolla getməli?” sualının yaratdığı ziddiyyətləri, problemləri romanda əhatəli əks etdirmək niyyətini izləmişdir.

Əsərin başlıca ideyası nədir?

*Müstəmləkə şəraitində milli varlıq uğrunda mübarizəyə diqqəti çəkən, bunun təsvirinə geniş yer verən müəllifin əsl niyyətini anlamaq, əsərin ideyasını əhatəli başa düşmək üçün mənbələr üzrə araşdırmanın aparılması vacibdir.*

**• EVDƏ İŞ**

**ARAŞDIRMANI DAVAM ETDIRIN**

**1. Sinifdə öyrəndiklərinizi göstərilən mənbələrdən topladığınız məlumat əsasında zənginləşdirin və tamamlayın.**

**2. Yazılı qeydlər əsasında şifahi təqdimata hazırlaşın.**

**3. Mövzulardan birini seçib işləyin.**

a) “İ.Şıxlının “Dəli Kür” romanında həyat həqiqətləri” mövzusunda məqalə yazın.

b) “Cahandar ağa obrazına münasibətim” mövzusunda esse yazın.

**• MƏNBƏLƏR**


1. İ. Şıxlı. Seçilmiş əsərləri. 2 cilddə. I cild. Bakı: Şərq–Qərb, səh.8-10.
2. Müasir Azərbaycan ədəbiyyatı. 2 cilddə. II cild, Bakı: Bakı Universiteti nəşriyyatı, 2007, səh.157-160.
3. T.Salamoğlu. İ.Şıxlının bədii nəsri. Bakı: “E.L.”. NPŞ MMC, 2014, səh. 107-113, 119-123.


LAYİHƏ

# MÜSTƏQİLLİK DÖVRÜ ÇOXMETODLU AZƏRBAYCAN ƏDƏBİYYATI

• ARAŞDIRMAYA HAZIRLAŞIN

**Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı haqqında bildiklərinizi yada salıb yığcam müzakirə aparın. BİBÖ cədvəlinin ilk iki sütununda müvafiq qeydlər edin.**

| Bilirik | Bilmək istəyirik | Öyrəndik |
|---|---|---|
| | | |

**1. Mətni oxuyun, tapşırıqları fərdi olaraq yerinə yetirin.**
**2. Mətnkənarı sualların cavablarını ümumiləşdirib yazın.**

| Mətnkənarı suallar | Onların ümumiləşdirilmiş cavabı |
|---|---|
| | |

**3. Oxu zamanı sizi düşündürən sualları qeyd edin. Cavabları müzakirədə dəqiqləşdirib yazın.**

| Məni düşündürən suallar | Onların cavabı |
|---|---|
| | |

**4. Venn diaqramından istifadə etməklə sovet dövrü və müstəqillik dövrü ədəbiyyatımızın başlıca xüsusiyyətlərini müqayisə edin.**



**5. Aşağıdakı fikirlərin üzərində düşünün. Müzakirədə onlara münasibət bildirin.**

– *Keçmişdə yazıb-yaradan alimlərimiz, yazıçılarımız, şairlərimiz, bəstəkarlarımız böyük bir irs qoyub getmişlər. İndiki nəslin borcudur ki, bunların əsasında elmimizi, mədəniyyətimizi inkişaf etdirsin.*
*(Ümummilli lider Heydər Əliyev)*

– *İstiqlala çağırış, milli müstəqillik dəyərlərinin, azad Azərbaycan idealının tərənnümü və ideal uğrunda mübarizənin təsviri 70 illik qadağalardan sonra yeni dövr ədəbiyyatının təməl daşlarını təşkil etmişdir.*
*(İsa Həbibbəyli)*

**6. Kiçik qruplarda birləşərək fikirlərinizi dəqiqləşdirib ümumiləşdirin.**
**7. Təqdimatlar əsasında fikir mübadiləsi və müzakirə aparın. BİBÖ cədvəlinin sonuncu sütununda müvafiq qeydlər edin.**

? Müstəqillik dövrü ədəbiyyatımızın birinci mərhələsi üçün daha səciyyəvi olanlar nədir?

Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı söz sənətimizin çoxəsrlik inkişafı yolunda mühüm tarixi hadisə və xüsusi ədəbi mərhələdir. Bu dövr ədəbiyyatımız iki mərhələni əhatə edir:
1. Müstəqillik axtarışları və yeni dövrün ədəbiyyatının formalaşması;
2. Müstəqillik dövrü Azərbaycan ədəbiyyatının inkişaf edib möhkəmlənməsi.



LAYİHƏ

İctimai-siyasi proseslərin təsiri ilə ədəbiyyatda 1990-cı illərin əvvəllərində taleyüklü məsələlərə və insana münasibətdə baxışlar dəyişir, bədii fikirdə müstəqil dövlətçilik düşüncəsi güclənirdi. Lakin yeni dövlət quruculuğunun başlanğıc dövründə iqtisadi böhran, qeyri-sabit həyat tərzi, cəbhədəki uğursuzluqlar ədəbiyyatda dərin və əhatəli əsərlərin yaranmasını ləngidirdi.

Dağlıq Qarabağın işğalı, qaçqın və köçkün axınının yaratdığı çətinliklər cəmiyyətdə birmənalı qarşılanmırdı. Həmin mərhələdə hərbi-siyasi və iqtisadi-mənəvi çətinliklərin bəzən, hətta ümidsizlik doğurması ədəbiyyatda bir çox hallarda durğunluğa və məyusluğa səbəb olurdu.

Müstəqillik uğrunda mübarizənin gerçəklikləri Azərbaycan ədəbiyyatına öz mövzularını gətirdi. Ədəbiyyatda milli ruh, vətəndaşlıq mövqeyi, həyəcan, çağırış, birlik və vətənpərvərlik duyğusu qüvvətləndi. 20 Yanvar, şəhidlik və milli azadlıq mövzusu Azərbaycan ədəbiyyatının tarixi salnaməsinə yeni motivlər, fərqli obrazlar, təsirli səhifələr əlavə etmişdir.

> Müstəqillik dövrü Azərbaycan poeziyasını səciyyələndirən əsas cəhətlər hansılardır?

1990-cı illərin əvvəllərindən başlayaraq, ictimai-siyasi dəyişikliklərin ədəbiyyatımızın qarşısında qoyduğu vəzifələri poeziyamız daha çevik həyata keçirirdi. Müstəqillik ərəfəsində Bəxtiyar Vahabzadənin “Şəhidlər” poeması milli istiqlal marşının nidaları kimi səslənmişdir. Xəlil Rza Ulutürkün “Davam edir 37” şeirində milli azadlığa köklənmiş xalqımızın hələ ayaqda olan sovet imperiyasına etirazı əks olunmuşdu. Məmməd Arazın, Sabir Rüstəmxanlının, Zəlimxan Yaqubun və başqalarının şeirlərindəki imperiya mifini dağıdan düşüncələr, kəsərli fikirlər Azərbaycan ədəbiyyatında müstəqil dövlətçilik qayəsinin dərinləşməsinə xidmət etmişdir.

Məmməd Aslanın “Ağla, qərənfil, ağla” şeiri 20 Yanvar faciəsinin doğurduğu ümummilli kədərin bədii ifadəsi kimi yaranmışdır. Hidayətin “Qara yanvar”, “Didərginlər” kitablarında toplanmış əsərlər müharibə və qaçqınlıq mövzusuna həsr olunmuşdur. Qarabağ müharibə mövzusu olmaqdan çox, milli istiqlal mövzusuna çevrilmişdir. Hüseynbala Mirələmovun “Yanan qar” romanında partizan hərəkatının təsviri əsasında Qarabağ uğrunda mübarizənin reallıqları əks etdirilmişdir. Xocalı faciəsi Azərbaycanda ölkənin ərazi bütövlüyü uğrunda aparılan mübarizənin faciəli səhnələrini ədəbiyyata gətirmişdir. Nürəngiz Günün “Xocalı simfoniyası” əsəri anaların fəryadı üstündə köklənmişdir. Azərbaycan ədəbiyyatında mübarizəyə çağırış poeziyası qüvvətlənmiş, publisistikanın vətəndaşlıq kəsəri artmışdır.

> Müstəqillik dövrü Azərbaycan nəsri hansı özünəməxsusluğu ilə diqqəti cəlb edir?

Dövlət müstəqilliyinin başlanğıc illərində nəsrdə ilk uğurlu addımlar atılmışdır. Anarın “Otel otağı” romanında Qarabağ müharibəsinin fonunda ölkəni tərk edib getmiş ziyalının faciəsi təqdim olunmuşdur. Elçinin nəsri və dramaturgiyası ədəbiyyatımızda yeni məzmun, forma axtarışlarının uğurlu nəticəsi kimi diqqəti cəlb edir. Sabir Əhmədlinin “20 Yanvar hekayələri”, İsi Məlikzadənin “Məndən nigaran qalmayın” əsərlərində müharibənin ayrı-ayrı məqamları təsvir edilmişdir. Yeni tarixi mərhələdə qaçqınlıq da öz ədəbiyyatını yaratmışdır. Elçin Hüseynbəylinin “Qumru quşu”, “Kəndə gün çıxanda qayıdacağıq”, Əli Səmədlinin “Gəlin gəlir” əsərlərində qaçqın həyatının məşəqqətli mənzərələri canlandırılır. Sabir Rüstəmxanlının “Meydan” romanı müstəqillik uğrunda mübarizənin real dərkinə xidmət edir.



LAYİHƏ

Bu dövrdə ədəbiyyatımız bütövlükdə azərbaycançılıq ideologiyası zəminində inkişaf edir. Müstəqillik dövrünün ədəbiyyatı yeni Azərbaycanın və onun quruculari olan müasir insanın bədii obrazını təqdim edir. Ədəbiyyatımızın inkişafında altmışıncılar və yetmişincilər ədəbi nəsilləri ilə yanaşı, yeni tarixi dövrün meydana çıxardığı müasir yazıçılar nəsli də fəal iştirak edir.

Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı öz yaradıcılarını da yetişdirmişdir. Elçin Hüseynbəyli, Ramiz Rövşən, Afaq Məsud, Vaqif Bayatlı Odər, Aqil Abbas, Rəşad Məcid, Rüstəm Behrudi, Əjdər Ol, İlqar Fəhmi, Adil Cəmil və başqaları müstəqillik dövrü ədəbiyyatının yeni qüvvələrini təmsil edirlər.

Eyni zamanda bilavasitə müstəqilliyin yetirməsi olub bu dövr ədəbiyyatını yaradanların sırasında özünü təsdiq edən Salam Sarvan, Qulu Ağsəs, Səlim Babullaoğlu, Şərif Ağayar, Aqşin Yenisey, Seymur Baycan, Elxan Qaraqan və başqaları yaradıcılıqlarını uğurla davam etdirirlər.

> ❓ Müstəqillik dövrü ədəbiyyatında çoxmetodluluq özünü necə büruzə verir?

Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı çətin, ağrılı yol keçərək çoxmetodlu ədəbiyyat kimi formalaşmışdır. Müstəqillik epoxasında ədəbi cərəyanların yaranmasında müxtəlif qrup və birliklərin mühüm rolu olmuşdur. Müstəqillik dövrünün demokratik ədəbi mühitinin doğurduğu yeni ədəbi cərəyanlar – postmodernizm, dekadentizm, magik realizm və s. ədəbiyyat meydanındadır. Kamal Abdulla və onunla həmfikir olanların timsalında postmodernizm ədəbi cərəyanı tərəfdarlarının çoxalması, müxtəlif janrlarda yeni əsərlərin meydana gəlməsi müşahidə edilir. Keçən əsrin doxsanıncı illərinin ümidsizlik, çaşqınlıq, böhran əhval-ruhiyyəsi üstündə köklənmiş dekadentizm müxtəlif ədəbi nəsilləri təmsil edən yazıçıların yaradıcılığında özünü büruzə verir. İsa Hüseynov, Yusif Səmədoğlu və b. müstəqillik dövrü Azərbaycan ədəbiyyatında magik realizmi təmsil etmişlər.

Müstəqillik dövrü Azərbaycan ədəbiyyatında yeni tipli tənqidi realizm cərəyanı formalaşmışdır. Klassik tənqidi realizmdən fərqli olaraq, müasir dövrün tənqidi realizmi ifşa yolu ilə getməyərək cəmiyyətin dərin, əsaslı bədii dərkini müasirlik mövqeyindən meydana qoyur, yeni insanın gerçək obrazını yaradır, insan mənəviyyatına zərər gətirən hallara qarşı çıxır.

Müstəqillik dövrünün çoxmetodlu ədəbiyyatı Azərbaycanda bərqərar olmuş demokratik ədəbi mühitin çoxsəsli ədəbiyyatıdır. Yeni tənqidi realizm, modernizm, postmodernizm, dekadentizm, magik realizm və digər ədəbi cərəyanların təmsilçiləri olan ən yeni dövr Azərbaycan yazıçı və şairləri ədəbiyyatımızın milli və ümumbəşəri dəyərlər zəminində inkişafına öz töhfələrini verirlər.

Milli müstəqillik dəyərlərinin, azad Azərbaycan idealının tərənnümü, azadlıq uğrunda mübarizənin təsviri, Qarabağ müharibəsi mövzusu müstəqillik dövrü ədəbiyyatımız üçün səciyyəvidir. Azərbaycan ədəbiyyatında sovet ideologiyasından, sosializm realizmindən imtina ilə yanaşı, dünya ədəbi-bədii təcrübəsindən, fərqli ədəbi metodlardan bəhrələnmək meyili bu dövrdə getdikcə güclənmişdir.

**• EVDƏ İŞ**

**ARAŞDIRMANI DAVAM ETDİRİN**

1. **Sinifdə öyrəndiklərinizi göstərilən mənbələrdən topladığınız məlumat əsasında zənginləşdirin və tamamlayın.**
2. **Araşdırma apararkən aşağıdakı sualın cavabını əhatə etməyə çalışın:**
   – Müstəqillik dövründə hansı sənətkarların yaradıcılığında milli ideallar, mənəvi dəyərlər daha qabarıq əks olunmuşdur?
3. **"Müstəqillik dövrü ədəbiyyatımız" mövzusunda yığcam məqalə yazın.**

LAYİHƏ



**Bəxtiyar Vahabzadə**
(1925–2009)

Bizi əhatə edən aləmdə nə varsa, Bəxtiyar Vahabzadəni dərindən düşündürür: xeyir və şəri, gözəlliklə eybəcərliyi, böyüklüklə kiçikliyi, bir sözlə, insan ruhunun ali və xırda duyğularını poeziya səviyyəsinə qaldırmaq onun fitrətindədir. Mütəfəkkir sənətkarın, ustad şairin başlıca qayəsi, uğuru da bundadır.

*Çingiz Aytmatov*

# BƏXTİYAR VAHABZADƏNİN HƏYATI, YARADICILIQ YOLU

• ARAŞDIRMAYA HAZIRLAŞIN

B.VAHABZADƏ HAQQINDA BİLDİKLƏRİNİZİ YADA SALIB YIĞCAM MÜZAKİRƏ APARIN

**Aşağıdakl qaydalara əməl etməklə mətni oxuyun.**

1. **Mətni fərdi olaraq bütövlükdə nəzərdən keçirin. Abzasların başlanğıcına və sonuna, fərqləndirilmiş söz və cümlələrə xüsusi diqqət yetirin.**
2. **Mətnin məzmunu ilə bağlı fikrinizdə yaranan sualları dəftərinizdə, yaxud iş vərəqində yazın. Sual tərtib etməkdə çətinlik çəksəniz, yenidən mətnə müraciət edin.**
3. **Yazdığınız suallara cavab hazırlayın, bu zaman qısa qeydlər etməyiniz faydalıdır. Mətndə birbaşa sualla bağlı yerləri (söz, cümlə, abzas) silinməsi mümkün olan işarə ilə fərqləndirin.**

| № | Suallar | Onların qısa cavabı |
|---|---|---|
| | | |

4. **Suallara hazırladığınız cavabları mətnə baxmadan parta yoldaşınıza danışın. Unutduğunuz yerləri danışdığınız məqamda təkrar edə bilərsiniz.**
5. **Kiçik qruplarda birləşib qənaətlərinizi bölüşün.**
6. **Gəldiyiniz nəticələri və öyrəndiklərinizə daha nələri əlavə etməyin vacib olduğunu təqdimatlar əsasında müzakirə edib bəndlər şəklində yazın.**

? B.Vahabzadənin həyat yolu və yaradıcılığı hansı cəhətləri ilə diqqəti cəlb edir?

Bəxtiyar Mahmud oğlu Vahabzadə Şəki şəhərində anadan olmuşdur. Kollektivləşmə əleyhinə Şəkidə baş verən xalq üsyanı, xalqın igid oğullarını rus ordusunun amansızlıqla qətlə yetirməsi, atasının, əmilərinin həbsi kiçik Bəxtiyara ağır təsir etmiş, onun bütün



LAYİHƏ

sonrakı həyatında dərin iz buraxmışdır. Şəkidə ibtidai məktəbdə oxuyan Bəxtiyar repressiyalardan qorunmaq üçün 1934-cü ildə ailəsi ilə Bakıya köçmüş və təhsilini burada davam etdirmişdir. Orta məktəbdə təhsil aldığı dövrdə o, ədəbi dərnəklərdə fəal iştirak etmiş, ədəbiyyata böyük maraq göstərmişdir.

Bakı Dövlət Universitetinin filologiya fakültəsinə daxil olan B.Vahabzadə Mir Cəlalın rəhbərlik etdiyi ədəbiyyat dərnəyinin fəal üzvlərindən olmuş, şeirləri poeziya almanaxlarında çap olunmuşdur. Gənc şairin "Ana və şəkil" adlı şeiri 1943-cü ildə dərc olunmuşdur. "Mənim dostlarım" adlı ilk kitabı 1949-cu ildə işıq üzü görmüşdür. Sonrakı illərdə onun "Əbədi heykəl" (1953), "Sadə adamlar" (1954), "Ceyran" (1957), "İnsan və zaman" (1964) və s. kitabları nəşr olunmuşdur.

B.Vahabzadənin elmi-pedaqoji fəaliyyəti təhsil aldığı universitetlə bağlı olmuşdur. 1988-ci ildə Ermənistan ölkəmizə qarşı işğalçılıq müharibəsi başlayanda B.Vahabzadə xalq hərəkatının rəhbərlərindən biri olmuş, torpaqlarımızın azad edilməsi uğrunda mübarizəyə xalqımızın səfərbər olmasında böyük rol oynamışdır.

Şairin lirikasında hansı problemlərə önəm verilmişdir?

B.Vahabzadə yaradıcılığının bütün mərhələlərində zəngin ənənələrə malik Azərbaycan lirikasını orijinal şeirlərlə zənginləşdirmişdir. Onun vətəndaşlıq lirikası milli istiqlal düşüncələrindən yoğrulmuş ictimai-fəlsəfi şeirlərinin mükəmməl bir toplusundan ibarətdir. İctimai-fəlsəfi lirikanın kamil nümunələrini yaratmaqla yanaşı, B.Vahabzadə həm də incə ruhlu şeirlər yazmaq ənənəsinə sadiq qalmışdır. XX əsrin altmışıncı illərində yazılmış "Dodaqda gəz", "Biri sənsən, biri mən", "Bəhanəm" şeirləri, yetmişinci-səksəninci illərdə qələmə alınmış "Kəpənək", "İnsan göydə ay kimidir", "Küsəndə" kimi poetik nümunələr təkcə yarandığı dövrün deyil, ümumiyyətlə, Azərbaycan lirik poeziyasının önəmli hadisəsidir.

Müstəqilliyin möhkəmləndirilməsi uğrunda gedən mübarizə günlərində meydana çıxmış "Ömür qatarı", "Mən aldanmaq istəyirəm", "Sənsizliyin içində", "Borcludur" və s. lirik şeirləri xalq şairinin yaradıcılıq imkanlarının tükənməzliyini nümayiş etdirir.

Müharibə dövrünün ovqatı ilə yazılmış "Ana və şəkil" şeirində övladını cəbhəyə yola salan ananın keçirdiyi hislər tərənnüm edilir. "Yaşıl çəmən, ağac altı, bir də ki tünd çay" şeirində cəbhədəki dostundan ürəkdolusu danışan azərbaycanlı döyüşçü obrazı yaradılmışdır. "Məktəb yolları", "İlk cığır", "Tələbə-müəllim", "Yazı taxtası" şeirlərini şair məktəb, təhsil mövzusunda yazmışdır.

B.Vahabzadənin lirikasında vətəndaşlıq duyğularına, ana dilinə həsr olunmuş şeirlər mühüm yer tutur. "Vətəndaş" şeirində insanın vətən qarşısında borcu təsirli bədii dillə xatırladılır. "Ana dili" əsərində şair doğma dilimizdə danışmağı ar bilən insanlara vətən çörəyini haram bilir. "Latın dili"ndə nəinki Azərbaycan ədəbiyyatında, hətta keçmiş Sovet İttifaqı miqyasında milli azadlığın vacib şərtlərindən olan ana dili uğrunda mübarizədən söz açılır. Sənətkarın "Azərbaycan–Türkiyə" adlı məşhur şeiri dövlətçiliyini bərpa edəndən sonra Azərbaycana bütün sahələrdə təmənnasız dəstək verən qardaş Türkiyə Cümhuriyyəti ilə tarixi bağlılığı və çağdaş münasibətləri əks etdirən təsirli poetik nümunədir.

Şairin poemalarının mövzu-problem özəllikləri hansılardır?

B.Vahabzadənin poema yaradıcılığı mövzu-problem əlvanlığı ilə seçilir. Onun ilk poeması Məhəmməd Hadiyə həsr olunmuş "Xəzan bülbülü" (1942) əsəridir. 60-cı illər ədəbiyyatımızın dəyərli nümunələri olan "Şəbi-hicran" M.Füzuliyə, "Ağlar-güləyən" M.Ə.Sabirə


LAYİHƏ

həsr olunmuş, "Muğam" poemasında musiqi sənətimizin nadir incisi olan muğamlarımızdan söz açılmışdır.

Tarixi mövzuda yazılmış "Gülüstan" (1959) poeması geniş əks-səda doğurmuşdur. Əsərdə Azərbaycanın birliyi və azadlığı ideyası önə çəkilmiş, yurdumuzu iki yerə bölmüş rus imperiyası və İranla yanaşı, qəsbkar sovet rejiminə də etiraz, gələcək nəsillərin xalqın azadlıq, müstəqillik ideallarını həyata keçirəcəyinə inam öz əksini tapmışdır.

B.Vahabzadənin sovet dövründəki milli azadlıq düşüncəsi beynəlxalq mövzularda yazılmış əsərlərində öz əksini tapmışdır. Bu baxımdan onun 1967-ci ildə tamamladığı "Təzadlar" poeması, əslində, Azərbaycan həqiqətlərinə həsr olunmuş qiymətli əsərdir. Şair poemada Vyetnam müharibəsi fonunda azadlıq düşüncələrini əks etdirmişdir.

Sənətkarın fəal vətəndaşlıq mövqeyi onun dram əsərlərində də öz əksini tapmışdır. Müxtəlif illərdə yazılmış "Vicdan", "İkinci səs", "Yağışdan sonra", "Yollara iz düşür", "Fəryad" dramları rəğbətlə qarşılanmışdır.

Ədibin dramaturgiyasını mövzu-problem baxımından səciyyələndirən başlıca cəhətlər hansılardır?

Azərbaycanın işğalına, xalq qəhrəmanı Babəkin edam edilməsinə nail olmuş Aqşinin ərəb xilafətinin valisi kimi Azərbaycana qayıtması və həyatını dar ağacında bitirməsi "Dar ağacı" pyesində ibrətamiz hadisə kimi əks etdirilir. Ədibin fikrincə, xalqından ayrı düşən, ona xəyanət edən insan xoşbəxt tale yaşaya bilməz. Mənzum tarixi faciə olan, mövzusu İmadəddin Nəsiminin dövründən, hürufilikdən götürülmüş "Fəryad"da fikir və şəxsiyyət azadlığı problemi qoyulub. Əsərdə azadlıq uğrunda mübarizə aparan, ölümə gedən insanın haqq səsinin – fəryadının eşidilməsi niyyəti ön planda durur.

"Kitabi-Dədə Qorqud"un motivləri əsasında yazılmış "Özümüzü kəsən qılınc" dramında ədib ortaq soykökünə malik türklərin ulu keçmişinin tarixi məqamlarını diqqət mərkəzinə çəkmişdir. Azərbaycanda və Türkiyə səhnəsində böyük uğurla tamaşaya qoyulan bu əsər türk xalqlarının birliyə olan ehtiyacının ədəbiyyatdakı böyük əks-sədasıdır. Son əsərlərindən biri olan "Özümüzü kəsən qılınc" şairin türk dünyasına vəsiyyətnaməsi kimi səslənir.

**• EVDƏ İŞ**

**ARAŞDIRMANI DAVAM ETDİRİN**

**1. Sinifdə öyrəndiklərinizi göstərilən mənbələrdən topladığınız məlumat əsasında zənginləşdirin və tamamlayın.**
**2. Araşdırma apararkən aşağıdakı sualların cavablarını da əhatə etməyə çalışın:**
   a) B.Vahabzadənin tarixi mövzuda yazdığı əsərlər hansı xüsusiyyətləri ilə diqqəti cəlb edir?
   b) Ədibin dramatik əsərlərində hansı siyasi və mənəvi problemlər qoyulub?
**3. Yazılı qeydlər əsasında şifahi təqdimata hazırlaşın.**

**• MƏNBƏLƏR**


1. B.Vahabzadə. Əsərləri. 2 cilddə. I cild. Bakı: Öndər, 2004, səh. 6-7.
2. Azərbaycan dramaturgiyası antologiyası. 5 cilddə. I cild. Bakı: Şərq–Qərb, 2007, səh. 19-20.
3. XI sinif şagirdləri üçün elektron vəsait. http://edebiyyat.ucoz.com.


LAYİHƏ

## ŞƏHİDLƏR
*(ixtisarla)*

• I dərs
• MƏZMUN ÜZRƏ İŞ

OXUYA HAZIRLAŞIN

**Sualların üzərində düşünün, cavablarını cədvəldə qeyd etdikdən sonra fikir mübadiləsi və müzakirə aparın.**

| Şəhid kimə deyilir? | "Şəhidlik zirvəsi," "şəhidlər ölməz" ifadəsinin mənasını necə başa düşürsünüz? | Şəhidlərin keçdiyi yol bizə nəyi öyrədir? |
|---|---|---|
| | | |

**Aşağıdakı qaydalara əməl etməklə əsərdən verilmiş parçanın məzmunu üzərində işləyin.**

**1. Mətni bütövlükdə oxuyun (bunu fərqli formalarda həyata keçirə bilərsiniz).**

**2. Kiçik qruplar yaradın, aşağıdakı tövsiyələrdən bəhrələnməklə suallar və onlara cavab hazırlayın.**

a) Məzmunun necə mənimsənildiyini aşkara çıxarmağa xidmət edənlər. (Kim? Nə? Harada?)

b) Əsərin məzmununu şərh etməyə istiqamətləndirənlər. (Bu əlaqələr hansılardır? Bunun baş verəcəyi gözlənilirdimi? Hansı nəticəyə gəlmək olar?)

c) Dəyərləndirməyə yönəldənlər (Nə üçün belə oldu? Başqa cür ola bilərdimi? Hansı düşüncəyə səbəb olur?)

d) Münasibət bildirməyə imkan yaradanlar (Ədalətlidirmi? Haqlı saymaq olarmı? Bu səhvi bağışlamaq mümkündürmü?)

**3. Əsərdən oxuduğunuz parça hansı milli-mənəvi dəyərlər barədə danışmağa imkan verir?**

**4. Təqdimatlar etməklə qənaətlərinizi bölüşün və gəldiyiniz nəticələri müzakirə edin.**

### NƏ İSTƏYİR BU MİLLƏT?

İstəkləri gözündə, tələbləri dilində,
Millət dənizə döndü dənizin sahilində.
Dalğalandı bu millət,
Alışıb öz oduna, yandı, yandı bu millət.
Dilsiz, sağır göylərə dirək oldu haqq səsi,
Başlandı bu ölkənin meydan mübarizəsi…
O zaman ki özümüz olduq öz dustağımız,
Qəlbimizə sığındı üçrəngli bayrağımız.
O vaxt ki azadlığın işartısı göründü,
Qəlbimizi bir anda dəlib keçdi o bayraq,
Qəlbimizdən boylanıb ələ keçdi o bayraq.
Bir məqsədə calandı,
Əllərdə dalğalandı.
Qatil bunu görüncə pozdu cəlalımızı,
Qanımıza boyadı bizim hilalımızı.

LAYİHƏ

**TƏZADLAR İÇİNDƏ**

Yalana, riyaya nə qədər uyduq,
Biz Qızıl Orduya abidə qoyduq...
Həmin Qızıl Ordu günün birində
Bizim qanımızı tökdü...
Qatil bizimlə bir, o gecə həm də
Haqqı, həqiqəti tutdu qurşuna.
Hansı göstərişlə gəlibmiş, görən,
Silahsız kütləni bu qıran ordu?
Vallah, bu vəhşəti törədə bilməz
Ən qəddar, qudurğan, çıldıran ordu...
Şər üçün nə qayda,
nə şərt, nə qanun?
Bu imiş "haqq işi" Qızıl Ordunun...
Kimdir bəs ölənlər?
İnanmaq çətin!
Dünən Rusiya üçün can verənlərin,
Şəhid düşənlərin şəhid övladı!
Əfsus! Eyni olur şəhidin adı!
O, şəhid, bu, şəhid!
Sən bir işə bax!
O nəyin uğrunda, bu, nəyin ancaq!
O şənbə gecəsi, o məlun gecə
Birdən üzə çıxdı bu fərq gör necə?!
Ədalət də, gerçək də,
Vallah, yoxdu o gecə.
Zülm, zalım əlilə
Haqqı boğdu o gecə.
Tunc zirehli ilanlar,
Haqqımızı nə anlar!
Həqiqəti yalanlar
Küncə sıxdı o gecə!
Kimə deyim dərdimi?
Qəsbkar namərdəmi?
Yetmiş ilin dərd-qəmi
Gözdən axdı o gecə.
Analar amanından
Sinələr oldu şan-şan.
Şəhidlərin qanından,
Şimşək çaxdı o gecə.
Qara geydi bu Vətən,
Yox hayına bir yetən.
Həyata hamiləykən,
Ölüm doğdu o gecə.
Nə deyək bu vəhşətə,
Bu zülmə, bu dəhşətə;
Allah bu müsibətə
Necə baxdı o gecə?



LAYİHƏ

Ertəsi... Bakının küçələrindən
Yudular millətin qızıl qanını.
Yuya biləcəkmi o cəllad, görən,
Qanla ləkələnmiş öz vicdanını?
Gecənin yarısı... hər yan qan-qada,
Qırmızı güllələr uçur havada.
Özünü itirmir adamlar yenə,
Yetirir özünü haya-haraya.
Maşınlar bir yana,
                    çiyinlərdə də
Yaralı daşınır xəstəxanaya.
Güllə vıyıltısı... Bu acı səsdən
Titrəyir,
                    lərzəyə gəlir bina da.
Amansız soldatlar keçirir qəsdən
Bütün çıraqları xəstəxanada.
Gör necə böyükmüş bizə qəzəb, kin,
Burda da göründü, qalmadı qında.
Çarəsiz həkimlər indi neyləsin? –
Əməliyyat gedir şam işığında.
Səhər açılınca adamlar bir-bir
Yığılıb gəlir.
Qan vermək istəyir yaralılara.
Amma insaf hara, qantökən hara?
Soldatlar töküldü hey axın-axın,
Döyükə-döyükə baxdı dörd yana.
Tutuldu bir anda xəstəxananın
Həyəti, bağçası gülləbarana.
Heç kəs bu sifətdə görməyib şəri,
Hələ bəs deyilmiş tökülən qanlar?
Xəstəyə qan vermək istəyənləri
Bir anın içində dağıtdı onlar...
Ertəsi... Bakının küçələrindən
Yudular millətin qızıl qanını.
Yuya biləcəkmi o cəllad, görən,
Qanla ləkələnmiş öz vicdanını?

**EŞQ OLSUN SİZƏ**

Bəzən öz-özümə düşünürəm mən:
Nahaq şəhid oldu bizim cavanlar.
Ömrü ucuz verdi...
                              bir iş görmədən
Boş yerə ölməyin nə mənası var?!
Sonra düşünürəm: onlar qorxmadan,
Cumdular ölümün üstünə belə.
Bir iş görmədilər yaşayan zaman,
Qəhrəman oldular ölümləriylə.



LAYİHƏ

Bizim əlimizdən çoxdan alınmış
Haqqı bu dünyaya bildirdi onlar.
Millətin qəlbinə qəsdən salınmış
Qorxu iblisini öldürdü onlar.
O gecə dağlardan enən sel təki,
Qəzəbdən köpürüb daşdı millətim.
O şənbə gecəsi ürəyindəki
Qorxu hasarını aşdı millətim.
Bu ölüm, bu qırğın dərs olsun bizə,
Deməyək boş yerə candan keçdilər…
Onlar şəhid olub millətimizə,
Cəsarət dərsini təlim keçdilər.
Xəyal bir çiçək də bitirə bilməz,
Bu gündən sabaha körpü salmasa.
Azadlıq ağacı bar verə bilməz,
Şəhidlər qanıyla suvarılmasa…
Baxıb sinələrdən axan al-qana,
Buludlar kişnədi, göy qan ağladı.
O şənbə gecəsi Vətən başına
Elə Vətən boyda qara bağladı.
Azadlıq verilmir, alınır,
dayan!
Onun elçisidir, ölüm, qan-qada.
Ölümə, cəfaya hazır olmayan
Millət hazır deyil azadlığa da.
Yalın əllər ilə tanklar üstünə
Atılan cavanlar, eşq olsun sizə!
Siz təsdiq etdiniz azadlığın da
Halal olduğunu millətimizə!
Şəhid rütbəsinə qalxan cavanlar
Sinəsi hər zülmə qalxan cavanlar,
Böyük Nəsiminin, ulu Babəkin
Xeyir-duasını aldı o gecə.
Zamandan irəli sıçrayıb, yəqin,
Tarixdə tarixtək qaldı o gecə.

• EVDƏ İŞ

**1. Əsərin ikinci hissəsini (burada parçalar verilmişdir) nəzərdən keçirin.**
**2. Oxuduğunuz parçalarda ifadə olunmuş mühüm fikirləri müəyyənləşdirməyə çalışın.**
**3. Tanış olmayan sözlərin mənasını aydınlaşdırın.**
**4. Daha maraqlı hesab etdiyiniz məcazları yazın.**
**5. "Eşq olsun sizə" hissəsindən kiçik bir parçanın ifadəli oxusuna hazırlaşın. Şərti işarələrdən istifadə edin.**
**6. Yazılı qeydlər əsasında şifahi təqdimata hazırlaşın.**

LAYİHƏ

## İKİNCİ HİSSƏ
*(parçalar)*

### MATƏM MƏRASİMİ

Qəzəb şimşəyindən hər baxış nida!
Hər üzdə, hər gözdə bir sual ağlar.
İnsan dənizinin dalğalarında
Üzür asta-asta tabut-qayıqlar.
Xalq dözə bilsə də zülmün şərinə,
Yanır gözlərində kini, nifrəti.
Alıb tabutları çiyinlərinə,
Allaha göstərir bu cinayəti...
Qızıl qərənfillər əllərdə min-min,
Şəhidlər önündə bir an dondular.
Fədakar oğullar Rəsulzadənin
Bayrağı altında dəfn olundular...
Daldı bir anlığa sükuta göy, yer
Millət ürəyini sükutdan asdı.
On səkkizdə ölən köhnə şəhidlər
Təzə şəhidləri bağrına basdı.

### AXI, BİZ NEYLƏMİŞDİK?

Şəhidlər xiyabanı...
Dilə gəlir məzarlar:
– Axı biz neyləmişdik?
Bu ittiham, bu sual
Şəhidlərin birləşən hər yasında səslənir;
Fərizənin, İlhamın
Çırağı söndürülmüş komasında səslənir:
–Axı biz neyləmişdik?
Ağsaqqal babaların, ağbirçək nənələrin
Duasında səslənir:
– Axı biz neyləmişdik?
Bu ittiham, bu sual
Məktəbli Larisanın qara lentə tutulmuş
Partasında səslənir:
– Axı biz neyləmişdik?
Günahsız qurbanların başdaşında səslənir.
Onların yetim qalan körpə balalarının
Dünyadan haqq istəyən göz yaşında səslənir:
– Axı biz neyləmişdik?
Bu ittiham, bu sual
Bağrına dağ çəkilən qocaman bir millətin
Dodağında səslənir:
– Axı biz neyləmişdik?
Cavab verən olmadı.
Boğdular bir millətin



LAYİHƏ

“Axı biz neyləmişdik?”
Deyən o haqq səsini.

* * *

Çadırlar quruldu kənddə, şəhərdə,
Bəlkə, məlhəm idi matəm bu dərdə?
Döndü yas evinə bütün məmləkət,
Kasıb ocaqda da qazan asıldı.
Yası, matəmilə çarəsiz millət
Elə bil qatildən intiqam aldı.
Gücsüzün aldığı intiqama bax!
Zorun qarşısında susduq hamımız.
Qırx gün yas saxlamaq: işə çıxmamaq
Oldu üsyanımız, intiqamımız…
Canlı da, cansız da ağlayır bu gün,
Matəm içindədir ölkə büsbütün.
Qızıl qərənfillə qara bayraqlar
Xalqın kədərinə birgə qan ağlar.

## ŞƏHİDLƏR

Qatil gülləsinə qurban gedirkən
Gözünü sabaha dikdi şəhidlər.
Üçrəngli bayrağı öz qanlarıyla
Vətən torpağına çəkdi şəhidlər.
Zalım öyünməsin zülümləriylə,
Min bir böhtanıyla, min bir şəriylə.
Həqiqət uğrunda ölümləriylə
Ölümü kamına çəkdi şəhidlər.
O şənbə gecəsi, o qətl günü
Mümkünə döndərdik çox namümkünü.
Xalqın qəlbindəki qorxu mülkünü
O gecə dağıdıb sökdü şəhidlər.
Tarixi yaşadıb diləyimizdə,
Bir yumruğa döndük o gecə biz də.
Yıxıb köləliyi ürəyimizdə
Cəsarət mülkünü tikdi şəhidlər…
Onlar susdurulan haqqı dindirər,
Qaraca torpağı qiymətləndirər.
Donan vicdanları qeyrətləndirər,
Axı el qeyrəti çəkdi şəhidlər.
Dözdü hər zillətə, dözdü hər şeyə
“Dünyada mənim də haqqım var”, – deyə.
Kütləni xalq edən müqaviləyə
Qanıyla qolunu çəkdi şəhidlər.
İnsan insan olur öz hünəriylə,
Millət millət olur xeyri, şəriylə.
Torpağın bağrına cəsədləriylə
Azadlıq toxumu əkdi şəhidlər.



LAYİHƏ



Xalq şəhid övladlarını unutmur!

• II dərs

• MƏZMUN ÜZRƏ İŞ

TAPŞIRIQLARI FƏRDİ OLARAQ YERİNƏ YETİRİN

**1. Mənasını aydınlaşdırdığınız sözlərlə bağlı işi davam etdirin.**

| Tanış olmayan sözlər | Mənası | Öz sözümüzdür | Alınma sözdür |
|---|---|---|---|
| | | | |

**2. Seçdiyiniz məcazların növünü dəqiqləşdirin. Onları daha maraqlı hesab etməyinizə səbəb nədir?**

| Əsərdən seçilmiş məcazlar | Məcazların növü | Onları maraqlı hesab etməyimin səbəbi |
|---|---|---|
| | | |

**3. Əsərdə diqqətinizi daha çox cəlb edən məsələləri ikihissəli gündəlikdə yazın.**

| Əsərdə diqqətimi cəlb edənlər | Bunun səbəbi |
|---|---|
| | |

**4. Suallara cavab hazırlayın:**

a) Şəhidlərin matəm mərasimi əsərdə necə təsvir olunub? Bu, bildiklərinizə nə əlavə etdi?

b) Xalq öz igid övladlarının qəhrəmanlığına münasibətini necə ifadə edir?

c) Oxuduğunuz hissə hansı mənəvi dəyərlər barədə danışmağa imkan verir?

**5. Kiçik qruplarda qənaətlərinizi bölüşün, fikirlərinizi dəqiqləşdirib ümumiləşdirin.**

**6. Təqdimatlar əsasında fikir mübadiləsi və müzakirə aparın.**

• EVDƏ İŞ

1. “Şəhidlər – Vətənin azadlığı uğrunda canından keçmiş qəhrəmanlardır” mövzusunda şifahi təqdimata hazırlaşın.
2. “Şəhidlər” hissəsindən seçdiyiniz parçanın ifadəli oxusuna hazırlaşın. Şərti işarələrdən istifadə edin.

LAYİHƏ

• **III dərs**

• **TƏHLİL ÜZRƏ İŞ**

**AŞAĞIDAKI QAYDALARA ƏMƏL ETMƏKLƏ PARTA YOLDAŞINIZLA MƏTNİN ÜZƏRİNDƏ İŞLƏYİN**

1. **İlk mətnkənarı sualın cavabını biriniz ucadan oxuyun.** Bu parça ilə bağlı bir neçə açar sözü, yaxud termini ikilikdə müəyyənləşdirib yazın. Oxunu dinləyən həmin açar sözlərdən, yaxud terminlərdən istifadə ilə bir neçə sual hazırlayır.
2. **Mətni oxuyan onu bir daha nəzərdən keçirib suallara cavab verir.** İkinci şagird – dinləyən cavabla razılaşarsa, onu qeyd edir.
3. **Növbəti mətnkənarı sualın cavabı oxunarkən rollarınızı dəyişin.** Mətn oxunandan sonra onunla bağlı açar söz, yaxud terminləri hər ikiniz müəyyənləşdirin. Mətni hansınız oxumamışsınızsa, həmin söz, yaxud terminlərdən istifadə ilə suallar hazırlayıb cavablandırmağı yoldaşınıza təklif edin. Cavabları təsdiq edirsinizsə, onları qeyd edin.
4. **Mətn bu qayda ilə sona kimi oxunduqdan sonra hazırlanmış suallar və onların cavabları ilə bağlı bütün siniflə fikir mübadiləsi və müzakirə aparın.**

Xalq şairi Bəxtiyar Vahabzadənin 1990-cı ilin qanlı yanvar hadisələrinə həsr etdiyi “Şəhidlər” poeması Azərbaycan milli azadlıq ədəbiyyatının kamil nümunəsidir. Poemada 20 yanvar şəhidlərinin azadlıq mücadiləsi günlərində göstərdiyi misilsiz qəhrəmanlıq tərənnüm edilmiş, əlləri günahsız insanların qanına bulaşmış qatillərə ümumxalq nifrəti öz əksini tapmışdır.

? Poema hansı mövzuda yazılmışdır? Şairin bu mövzuya müraciət etməsinin səbəbini nə ilə izah edərsiniz?

*Mənbələrin araşdırılması əsərin mövzusu barədə əsaslandırılmış fikir deməyə imkan yaradır.*

Poemada milli azadlıq mübarizlərinin qəhrəmanlarının ümumiləşdirilmiş parlaq bədii obrazı yaradılmışdır. Şəhidlərin qəhrəmanlığından, günahsız yerə qətlə yetirilməsindən danışılan əsərdə nikbin ruh, gələcəyə inam var. Şair inanır ki, şəhidlərin qanı yerdə qalmayacaq, xalqın igid övladları mübarizəni davam etdirəcək, üçrəngli bayrağı enməyə qoymayacaqdır. Əsərdə vətən uğrunda həlak olmuş Azərbaycan şəhidlərindən “ana torpağın bağrına azadlıq toxumu səpən” milli qəhrəmanlar kimi söz açılmışdır. Şair əmindir ki, Vətənimizin azadlığı və müstəqilliyini yeni nəsillər ləyaqətlə qoruyacaqdır.

? Poemada şəhidlərin bədii obrazı necə yaradılmışdır?

Poemanın bədii xüsusiyyətləri şairin kamil bir sənətkar olduğunu bir daha təsdiqləyir. Şəhidlərin qəhrəmanlığının tərənnümü ilə faciəli hadisələrin doğurduğu mühakimələr üzvi vəhdət təşkil edir. Bu bədii əksetdirmə üsulu əsərin məzmunundan doğan təəssüratı daha da gücləndirir. Ədib epitet, bənzətmə, təzad, təkrir, metafor kimi bədii təsvir və ifadə vasitələrindən istifadə edərək fikrin daha təsirli ifadəsinə nail olmuşdur.

? Poema bədii sənətkarlıq baxımından hansı xüsusiyyətləri ilə diqqəti cəlb edir?

*Mənbələrin araşdırılması bu barədə əhatəli fikir söyləməyə imkan verir.*



LAYİHƏ

Poemanın başlıca ideyası nədir?

"Şəhidlər" poeması şairin keçən əsrin sonlarında xalqımızın həyatında baş vermiş tarixi hadisələr, azadlıq uğrunda canını qurban vermiş şəhidlər, müstəqillik uğrunda mübarizə ilə bağlı düşüncələrinin bədii ifadəsidir. Poemada azadlıq uğrunda mübarizə aparan bir xalqın şəhid verməsi, vətənin igid oğul və qızlarının şəhidlik zirvəsinə yüksəlməsi qürurverici tarixi hadisə kimi dəyərləndirilir. Şairin qənaətinə görə, azadlıq, müstəqillik istəyən xalq öz mübarizəsində qurban verməyə də hazır olmalıdır. Çünki "azadlıq verilmir, vətənin igid, mərd övladlarının qanı bahasına alınır".

*Əsərin zəngin ideyasını mənbələri araşdırmaqla əhatəli şərh etmək mümkündür.*

**• EVDƏ İŞ**

**ARAŞDIRMANI DAVAM ETDİRİN**

**1. Sinifdə öyrəndiklərinizi göstərilən mənbələrdən topladığınız məlumat əsasında zənginləşdirin və tamamlayın.**

| Məlumatın əldə edildiyi mənbə | Məlumatın məzmunu və aid olduğu mətnkənarı sual |
|---|---|
| | |

**2. Şifahi təqdimata hazırlaşın.**

**3. Mövzulardan birini seçib yığcam məqalə yazın:**

a) B.Vahabzadənin yaradıcılığında ana dili mövzusu.

b) B.Vahabzadənin əsərlərində xalqımızın azadlıq mübarizəsinin bədii əksi.

**• MƏNBƏLƏR**

1. B.Vahabzadə. Əsərləri. 2 cilddə. I cild, Bakı: Öndər, 2004, səh. 5-7.
2. B.Vahabzadə. Seçilmiş əsərləri. Bakı: Çaşıoğlu, 2005, səh. 5-9.
3. XI sinif şagirdləri üçün elektron vəsait. http://edebiyyat.ucoz.com.



LAYİHƏ

# DÜNYA ƏDƏBİYYATINDAN SEÇMƏ



Çingiz Aytmatov qürurlu şəxsiyyət və azad sənətkar idi. Ulu əcdadı Manasın Talas vadisində Şəkər aulunda doğulan, sonralar repressiyaya məruz qalmış valideynlərin övladı kimi çətin ömür yaşayan Çingiz Aytmatov zootexnik kimi təhsil aldı, amma fitri istedadı və parlaq şəxsiyyəti sayəsində Yer üzünün hər tərəfində çap olunan, oxunan, sevilən dünya şöhrətli yazıçı oldu.

*Anar*

**Çingiz Aytmatov**
(1928–2008 )

## ÇİNGİZ AYTMATOVUN HƏYATI, YARADICILIQ YOLU

• ARAŞDIRMAYA HAZIRLAŞIN

**1. Ç.Aytmatovun yaradıcılığı haqqında nə bilirsiniz? Bu barədə biliklərinizi xatırlayın, yığcam müzakirə aparın.**

**2. BİBÖ cədvəlinin ilk iki sütununda müvafiq qeydlər edin.**

| Bilirik | Bilmək istəyirik | Öyrəndik |
|---|---|---|
| | | |

**Kiçik qruplar yaradaraq aşağıdakı tapşırıqları yerinə yetirin.**

1. Mətnkənarı suallarla bağlı cavabları oxuyun, məzmununu ümumiləşdirib bir neçə cümlə ilə yazın.

| Mətnkənarı suallar | Onların ümumiləşdirilmiş cavabı |
|---|---|
| | |

2. Digər qruplara vermək üçün mətnin məzmunu ilə bağlı bir neçə sual müəyyənləşdirin.

| Müəyyənləşdirilmiş suallar | Onların cavabı |
|---|---|
| | |

LAYİHƏ

**3. Aşağıdakı fikirlərlə tanış olun. Müzakirədə onlara münasibət bildirin.**

– *Çingiz Aytmatov "Manas" dastanından doğulan əsərləri ilə yeni tipli Manas fəlsəfəsi və müasir ədəbiyyat təfəkkürü yaradan böyük mütəfəkkirdir. İnsanlığa xidmət edən ölməz əsərləri ilə birlikdə Çingiz Aytmatov dünyanın ən uca zirvələrindən biri olan Tyan-Şan dağlarında bədii sözün qüdrətinə ucaldılan möhtəşəm abidədir.*

*(İsa Həbibbəyli)*

– *Çingiz Aytmatovun yaradıcılığı təsdiq edir ki, qədim türk eposundan gəlmədən, qədim və orta əsrlər türk ədəbiyyatını mənimsəmədən müasir türk ədəbiyyatının (və deməli, dünya ədəbiyyatının) əsərini yaratmaq mümkün deyil.*

*(Nizami Cəfərov)*

**4. Təqdimatlar etməklə gəldiyiniz nəticələrlə bağlı fikir mübadiləsi və müzakirə aparın. BİBÖ cədvəlinin sonuncu sütununda müvafiq qeydlər edin.**

Yazıçının həyat yolu üçün səciyyəvi olan cəhətlər hansılardır?

Çingiz Aytmatov Qırğızıstanın Talas vilayətinin Şəkər kəndində anadan olmuşdur. Dövlət xadimi olan atası repressiyaya məruz qalaraq 1938-ci ildə güllələnmişdir. Ç.Aytmatov 8-ci sinfi bitirdikdən sonra Cambul şəhər zootexnikumunda oxumuşdur. Sonralar Bişkek Kənd Təsərrüfatı İnstitutunda ali təhsil alan Çingizin 1952-ci ildə ilk hekayələri çap olunmuşdur. Ali təhsil aldıqdan sonra o, üç il ixtisası üzrə işləmişdir. Atasına bəraət verildikdən sonra isə Moskvada M.Qorki adına Ədəbiyyat İnstitutunda ali ədəbiyyat kursunda oxuya bilmişdir.

Yazıçının nəsr əsərlərində diqqəti daha çox hansı problemlər çəkir? Bu problemlərin yaranmasının səbəbini o nədə görürdü?

Ç.Aytmatov həcmindən, janrından asılı olmayaraq, bütün əsərlərində ciddi həyati problemlərin bədii həllini verməyə qabil olan qüdrətli sənətkardır. Onun *povest* adlandırılan əsərləri əhatə etdikləri problemlərə, maraqlı, keşməkeşli insan talelərini əks etdirmələrinə görə ciddi roman təəssüratı yarada bilir. "Cəmilə", "Köşək gözü", "Qırmızı yaylıqlı qovağım mənim", "Əlvida, Gülsarı", "Ana tarla", "İlk müəllim" və s. povestlərinin daşıdığı böyük ideya-mənəvi yük cild-cild romanlarla müqayisədə ağır gələr.

Ç.Aytmatov povest və romanlarındakı ("Gün var əsrə bərabər", "Qiyamət", "Kassandra damğası", "Əbədi gəlin", "Ağ gəmi", "Dəniz kənarıyla qaçan alabaş") "kiçik" insanı dünya ədəbiyyatı miqyasında əsas obraza çevirə bilmişdir. Onun əsərlərində sadə qırğız insanının həyat qayğılarından tutmuş dünyanı narahat edən, qlobal əhəmiyyət daşıyan problemlərə qədər dərin, ciddi və məsuliyyətli mətləblər bədii əksini tapmışdır. Çingiz Aytmatov qloballaşma prosesinin təsiri ilə milli dəyərlərin itirilməsi fonunda qırğız xalqının timsalında keçmişindən süzülüb gələn mənəvi keyfiyyətlərin, zəngin mədəni irsin böyük enerjisini uğurla əks etdirməyə, güclü müqavimətini göstərməyə müvəffəq olmuşdur.



LAYİHƏ

Ç.Aytmatovun əsərləri ilə dünya ədəbiyyatı yeni süjet və obrazlarla təzələnmiş, zənginləşmişdir. XX əsrin əllinci illərində, otuz yaşlı Çingiz Aytmatovun yaratdığı Cəmilə obrazı təkcə sovet ədəbiyyatında deyil, eləcə də dünya ədəbiyyatında yeni ədəbi hadisə kimi dəyərləndirilmişdir.

Ədib "Üz-üzə" (1957) povestində Səidə və İsmayıl obrazları ilə ədəbiyyatda cəmiyyət-fərd probleminə dair fəlsəfi məsələ qaldırmışdır. Sosialist realizminin prinsiplərinə zidd olaraq, Totoyun ailəsinin timsalında ilk dəfə müharibə insanının faciəsini təsvir etmişdir.

Ç.Aytmatovun əsərləri kimi, yaratdığı obrazlar da dünyada yeni ədəbiyyatın bənzərsiz təzahürləri olaraq qəbul edilmişdir. *Cəmilə, Daniyar, Sadıq, Tolunay, Aysel, Altınay, Baytemir, Toğulan, Altın, Yedigey, Abutalıb* və başqaları müəllifin nadir istedadından və dərin müşahidələrindən yaranan yeni tipli obrazlardır. Ç.Aytmatovun obrazları sovet ədəbiyyatında model kimi qəbul edilmiş müsbət qəhrəman və mənfi obraz qəlibini aşıb keçir. Yazıçı ədəbiyyatda sovet adamını yox, sadəliyi, təbiiliyi ilə seçilən insanı təsvir etmişdir. Yovşanlı çöllərdə yaşayıb-çalışan bu adi insanların taleyində bütövlükdə insanlığın taleyi və düşüncələri öz əksini tapmışdır.

? Yazıçının əsərlərinin qəhrəmanları hansı xüsusiyyətləri ilə seçilir?

Qloballaşmanın milli dəyərləri arxa plana keçirmək meylinin qüvvətləndiyi bir dövrdə "kiçik" insanı böyük ədəbiyyatın əsas daşıyıcısına çevirmək Ç.Aytmatov sənətinin qələbəsi idi.

**• EVDƏ İŞ**

1. **Sinifdə öyrəndiklərinizi göstərilən mənbələrdən topladığınız məlumat əsasında zənginləşdirin və tamamlayın.**
2. **Araşdırma apararkən aşağıdakı sualların cavablarını da əhatə etməyə çalışın:**
   a) Ç.Aytmatovun nəsr əsərlərində hansı mənəvi dəyərlər öz əksini tapıb?
   b) Yazıçının romanlarında çağdaş dövrün hansı problemlərinə diqqət yetirilmişdir?
3. **Yazılı qeydlər əsasında şifahi təqdimata hazırlaşın.**

**• MƏNBƏLƏR**

1. Ç.Aytmatov. Seçilmiş əsərləri. 2 cilddə. I cild. Bakı: Öndər nəşriyyat, 2004, səh. 4-10.
2. Ç.Aytmatov. Seçilmiş əsərləri. Bakı: Çaşıoğlu, 2004, səh. 5-8.
3. XI sinif şagirdləri üçün elektron vəsait. http://edebiyyat.ucoz.com.

LAYİHƏ

## GÜN VAR ƏSRƏ BƏRABƏR
*(ixtisarla)*

• I dərs

• MƏZMUN ÜZRƏ İŞ

**OXUYA HAZIRLAŞIN**

**Sualların üzərində düşünün, cavablarını cədvəldə qeyd etdikdən sonra fikir mübadiləsi və müzakirə aparın.**

| Manqurt kimə deyilir? | İnsanın manqurt edilməsində məqsəd nə olur? | İnsan manqurta çevrilməmək üçün nə etməlidir? |
|---|---|---|
| | | |

**1. Əsərdən verilmiş aşağıdakı parçanı nəzərdən keçirin. Tapşırıqları fərdi olaraq yerinə yetirin.**

a) Tanış olmayan sözləri seçin və onların mənasını lüğətlərdən aydınlaşdırın.

| Tanış olmayan sözlər | Mənası |
|---|---|
| | |

b) Seçdiyiniz məcazların növünü dəqiqləşdirin.

| Əsərdən seçilmiş məcazlar | Onların növü |
|---|---|
| | |

c) Oxuduğunuz hissədə diqqətinizi daha çox cəlb edən məsələləri ikihissəli gündəlikdə yazın.

| Əsərdə diqqətimi cəlb edənlər | Bunun səbəbi |
|---|---|
| | |

d) Suallara cavab hazırlayın:
- Yedigeyin və Ukubalanın Qazanqapın ölümü ilə bağlı düşüncələri onların mənəvi aləmi haqqında hansı fikirləri söyləməyə əsas verir?
- Əsərdə Nayman-Ana əfsanəsi haqqında nə deyilir?
- Ana-Beyit qəbiristanlığının tikanlı məftillərə alınması insanlarda hansı hislər doğurur?
- Oxuduğunuz parçalar hansı mənəvi dəyərlər barədə danışmağa imkan verir?
- Əsərdən bitkin bir parça seçin, hissələrə ayırın, plan tərtib edin, məzmununu yığcam nağıletməyə hazırlaşın.

**2. Kiçik qruplarda birləşərək fikirlərinizi dəqiqləşdirin və ümumiləşdirin.**

**3. Təqdimatlar əsasında fikir mübadiləsi və müzakirə aparın.**

## BİRİNCİ HİSSƏ
*(parçalar)*

Bu yerlərdə qatarlar şərqdən qərbə, qərbdən də şərqə gedir... Gecəyarı kim isə yoldəyişən növbətçinin köşkünə tərəf tələsirdi. Yedigey o saat hiss elədi ki, gələn arvadıdır və bu gəliş elə-belə gəliş deyil, onun bu gəlməyinə nəsə çox vacib bir səbəb var. Doğrudan da, məlum oldu ki, gümanı düz imiş. Lakin iş üstə olduğuna görə yerindən tərpənə bilməzdi. Sonuncu vaqon da gəlib keçəndən, yolda hər şeyin qaydasında olduğunu bələdçiyə işarə verəndən sonra tələsik arvadına tərəf döndü:

– Xeyir ola?

Qadın həyəcanla ona baxıb dodaqlarını tərpətdi, nəsə pıçıldadı.

– Nə olub?

– Qazanqap ölüb.



LAYİHƏ

– Nə vaxt?

– Elə indi baş çəkməyə getmişdim, dedim, görüm necədir, bəlkə, bir şey-zad lazımdır. İçəri girdim, gördüm işığı yanır, uzanıb yerində, amma saqqalı belə birtəhər dik durub... Yaxınlaşıb soruşdum ki, Qazı əkə, bəlkə, sizə isti çay gətirim? Gördüm ki... – səsi tutuldu, qəhər onu boğdu, qapaqları nazilib qızarmış gözləri doldu, içini çəkib yavaşdan ağlamağa başladı. – Sən bir adamın axırına bax?! Necə insan idi! Ölüb getdi. Yanında gözünü qapamağa bir adam da olmadı. – Hönkürdü, ağladı. – Axı kimin ağlına gələ bilərdi! Elə-beləcə də kimsəsiz-kimsəsiz öldü...

Cəbhədən qayıdandan bəri Yedigey Boranlı razyezdində xidmət edirdi.

– İndi nə eləyək? – deyə arvadı sükutu pozdu.

Yedigey başını qaldırıb arvadına baxdı və acı-acı qımışdı:

– Nə eləyəcəyik? Ölü düşəndə nə eləyirlər? Dəfn eləyəcəyik. – O, qəti qərara gəlmiş adam kimi ayağa durdu. – Arvad, sən qayıt geri, amma indi mənə qulaq as.

– Qulağım səndədi...

– Osmanı oyat. Baxma ki razyezdin rəisidir, dəxli yoxdur, ölüm qabağında hamı bərabərdir. Ona de ki, Qazanqap ölüb. Kişi qırx dörd il burda can çürüdüb.

– Bəs uşaqları?! Axı əvvəlcə uşaqlara xəbər vermək lazımdır! Ataları ölüb.

Yedigey başını yellədi:

– Mən də bilirəm ki, uşaqlarsız olmaz... Amma ixtiyar məndə olsaydı, heç yaxına da buraxmazdım!

– Oğlu, görəsən, şəhərdən özünü çatdıra bilər?

– İstəsə, çatdırar. Srağagün stansiyada olanda özüm teleqram vurmuşam. Yazmışam ki, atan ölüm ayağındadır, daha bundan artıq nə yazmalı idim ona. Gəlməyinə gələcək, amma adını kişi qoysa da, qonaq kimi dayanıb baxacaq. Sən ləngimə, get necə demişəm, elə də elə.

Ukubala yol alıb getdi, sonra tərəddüdlə ayaq saxladı, təzədən yola düzələndə Yedigey özü onu səslədi:

– Əvvəlcə növbətçi Şahmərdanın yanına get a!.. Qoy mənim yerimə adam göndərsin, sonra əvəzini artıqlaması ilə işlərəm. Kişinin cənazəsi bomboş evdə qalıb, yanında da bır allah bəndəsi yox. Belə şey olmaz! Elə-belə də deyərsən ona!

Yedigey teleqraf dirəyinə söykənib fikrə getdi. Dəmir yolundan xeyli uzaqda otlayan dəvələrin tutqun qaraltısını seçə bildi. Onun dəvəsi Sarı-Özəkdə yüyrəkliyi, zoruyla ad çıxartmışdı, öz sahibi kimi Boranlı Qaranər adı ilə tanınırdı.

* * *

...Deyilənlərə görə, nə vaxtlarsa Nayman-Ananın öz manqurt oğlunu axtardığı bu yerlərdə yarğan boyunca çox uzun bir yol keçəndən sonra daha Ana-Beyitə bir şey qalmamışdı. Boranlı Yedigey gah saatına, gah da Sarı-Özək üzərindəki günəşə baxıb fikirləşirdi ki, hələlik işləri öz qaydasınca gedir. Dəfndən sonra onlar vaxtında evə qayıdıb hamıyla birlikdə ehsanda iştirak edəcək və Qazanqapı yad eləyə biləcəkdilər. Qabaqda Yedigey qotazlı tərliklə bəzədilmiş Qaranərin üstündə, ondan sonra yedəkli traktor, lap arxada da "Belarus" ekskavatoru Ana-Beyit düzünə çıxdılar. Elə burda da gözləmədikləri maneəyə rast gəldilər – tikanlı məftildən çəkilmiş çəpərlə rastlaşdılar.

LAYİHƏ

Göylərin altında yatıb qalmış böyük Sarı-Özək düzlərinin sonu görünməsə də, Ana-Beyit qəbiristanlığına yol yox idi. Hamı bu tikanlı çəpərin qabağında çaşıb-qalmışdı.

Sükutu birinci caydaq Ədilbəy pozdu:

– Nə var, Yedigey, məgər bu, əvvəllər burda yox idi?

– Heç izi-tozu da yox idi! Birinci dəfədir görürəm.

– Belə çıxır, sahəni xüsusi məqsədlə çəpərə alıblar. Bəlkə, kosmodrom üçündür? — deyə caydaq Ədilbəy öz gümanını bildirdi.

– Belə görünür. Kimin ağlına nə gəlir, onu da eləyir, lənət şeytana, – deyə Yedigey deyindi.

Yenə də susdular. Caydaq Ədilbəy fikirləşib bir çıxış yolu axtarırdı:

– Yaxşı, indi nə cür olsun, Yedigey? Məsləhətin nədir? Qəbiristanlığa başqa bir yol-iz yoxdur?

– Olsun gərək. Niyə də olmasın? Burdan sağa, beş kilometrlikdə yol var, – deyə Yedigey ətrafına nəzər salaraq cavab verdi.

Təzədən yola düzəldilər. Düz şlaqbaumun üstünə çıxdılar.

Onların yaxınlaşmasıyla gözətçi postundan cavan, çiynindən üzüaşağı avtomat sallanmış bir əsgər çıxdı.

– Salam, – deyə əlini gicgahına aparıb rəsmi təzim elədi. Hələ də uşaqlıq yağan açıq-mavi gözləri ilə Yedigeyə baxıb soruşdu: – Kimsiz? Hara gedirsiniz?

– Biz buralıyıq, saldat, – deyə Yedigey onun uşaq ciddiyyətinə baxıb gülümsündü. – Ölü aparırıq, qocalarımızdan biri rəhmətə gedib, bizim qəbiristanlıqda basdırmaq istəyirik.

– Buraxılış vərəqəsi yoxdursa, olmaz, bu sahə nəzarət altındadır, – deyə əsgər məsələnin nə yerdə olduğunu başa saldı.

– Bunu başa düşürəm, axı biz qəbiristanlığa gedirik. Lap yaxındadır. Burda nə var ki, basdırıb qayıdarıq.

– Olmaz! İxtiyarım yoxdur, – deyə gözətçi cavab verdi.

Elə bu vaxt Sabitcan yersiz olaraq, işgüzar bir görkəmlə irəli soxuldu:

– Nə var, nə olub? Mən vilayət həmkarlar şurasındanam, – deyə özünü nişan verdi. – Niyə durmuşuq?

– Ona görə ki olmaz.

– Axı ağzımda deyirəm ki, yoldaş gözətçi, həmkarlar şurasından gəlmişəm.

– Hardan gəldiyinizin qətiyyən mənə dəxli yoxdur.

– Necə yəni yoxdur? – deyə Sabitcan çaşıb qaldı.

– Yoxdur, vəssalam. Bura qorunan sahədir.

– Daha burda nə söz ola bilər! – Sabitcan əsəbiləşdi. – Mən elə əvvəldən bilirdim! – deyə Yedigeyə tənə vurdu. – Bilirdim ki, bu işin axırı puçdur! Xeyr! Nə danışırsan, gərək Ana-Beyit ola! Ana-Beyit! Bu da səninçün Ana-Beyit! – O, təhqir olunmuş halda, hirslə tüpürüb uzaqlaşdı.

Yedigey:

– Bağışla, oğlum, – bir ata kimi əsgərə üz tutdu. – Aydın işdir, sən xidmət başındasan. Amma indi bu mərhumu nə cür eləyək? Axı kötük deyil ki, atıb çıxıb gedək.

Sabitcan getdikcə qızışırdı, axır Caydaq Ədilbəyə yaxınlaşdı:

– Mən axı dedim! Bu boyda yol basmağın mənası yoxdur! Bu, mövhumatdır, gerilikdir! Özünü də, bizi də işə saldı! Ölünü harda quylayırsan quyla, nə fərqi var! Xeyr, ölsən də, partlasan da, gərək Ana-Beyit ola! Sən də bu yandan ona qoşuldun, çıx get, sənsiz dəfn eləyərik! Hə, indi elə görüm, necə eləyəcəksən!



LAYİHƏ

Caydaq Ədilbəy cavab verməyib uzaqlaşdı.

– Mənə bax, dostum, – deyə o, şlaqbauma yaxınlaşaraq gözətçiyə müraciət etdi. – Mən də xidmətdə olmuşam. Bəzi qanun-qaydalardan mənim də başım çıxır. Burda telefon var?

– Əlbəttə, var.

– Onda sən belə elə – keşik rəisinə zəng vur. Ona xəbər ver ki, yerli camaat gəlib. Ana-Beyit qəbiristanlığına getmək üçün icazə istəyir!

Qapı açıq olduğu üçün Yedigey hər şeyi eşidirdi.

– Yoldaş leytenant! Yoldaş leytenant! – deyə gözətçi həyəcanlı, zil səslə danışırdı.

Nəhayət, məlumat verdi, dedi ki, yerli adamlar gəlib, ölülərini burdakı qəbiristanlıqda dəfn eləmək istəyirlər. Necə olsun? Yedigey gərildi. Leytenant desə ki, burax, vəssalam, iş düzələcək! Halal olsun Ədilbəyə! Ağlı başında olan oğlandır. Amma nədənsə gözətçinin söhbəti uzanırdı. İndi o, təkcə suallara cavab verirdi:

– Hə... Neçə nəfər? Altı adamdır. Mərhumla yeddi. Bir qoca rəhmətə gedib. Bəs mən nə deyim? Deməli, olmaz? İcazə yoxdur? Oldu, baş üstə!

Caydaq Ədilbəy gözətçi otağından qanıqara çıxdı, amma dedi ki, leytenant özü gəlib sözünü elə burda deyəcək.

Artıq saat üç idi. Yolları çox uzaq olmasa da, hələ ki Ana-Beyitə çatmamışdılar. Qarşıdakı yolda maşın göründü. "Gəlir! – deyə Yedigey sevindi. – Allah qoysa, hər şey qaydasına düşər. Gözətçi də maşının gəlməyini gözləyirdi. Keşik rəisi şlaqbaumun o tayında dayanan adamlara tərəf döndü:

– Kimdir burda kənar adam? Gözləyən kimdir? Sizsiz? – deyə o, Boranlı Yedigeyə müraciət elədi.

– Biz, bozqoy, karaqım. Ana-Beyitgə jeltpey tırıp kaldık. Kolay da bolsa, jardamdeş, karaqım,[1] – deyə Yedigey ordenlərini cavan zabitə göstərməyə çalışdı.

Bu, leytenant Tansıkbayova heç bir təsir göstərmədi:

– Yoldaş kənar adam, mənimlə rus dilində danışın. Mən xidməti vəzifə başındayam, – deyə xəbərdarlıq etdi.

Yedigey leytenant Tansıkbayovun üzünə baxır və görürdü ki, bu işdən bir şey çıxmayacaq. O, şlaqbaumun o tərəfində dayanmışdı ki, elə-belə, formal olaraq kənar adamların şikayətinə qulaq assın. Alçalıb pərt olmuş Yedigey tədricən qəzəbləndiyini hiss edirdi, amma iradəsini toplayıb özünü təmkinli saxlamağa çalışırdı. Yox, nə qədər ki mərhum dəfn edilməyib, onun özündən çıxmağa haqqı yoxdur.

Bayaqdan kənarda gəzişib səsini çıxarmayan Sabitcan bu yerdə özünü göstərmək məqsədilə onların qabağına yeridi:

– Nə oldu? Ağzınızdan vurub qaytardılar? Elə belə də olmalıydı! Yaman hazırlaşmışdınız! Ana-Beyit! İndi döyülmüş it kimi geri qayıdırsınız!

– Kimdi döyülmüş it? – deyə kürəkən özündən çıxaraq onun üstünə cumdu. – Aramızda it varsa, o sənsən, əclaf! Orda duranla sənin nə fərqin var? Elə quru gopun var – mən dövlət adamıyam. Sən heç adam deyilsən!

Sabitcan birdən ağa kimi ucadan əmrlər verməyə başladı:

---

[1] Hə, bizik, oğlum. Bizi Ana-Beyit qəbiristanlığına buraxmağa kömək elə, oğlum.



LAYİHƏ

– Nə ağzınızı açıb dayanmısız? Traktorları işə salın! Necə gəlmişik, elə də qayıdaq. Cəhənnəm olub gedək! Döndər görüm! Bəsdir! Bəsdir, gic yerində qaldım! Başqalarının ağzına baxanda belə olar.

• EVDƏ İŞ

1. Əsərdən müstəqil oxuduğunuz ikinci hissəni (burada ondan parçalar verilmişdir) nəzərdən keçirin.
2. Həmin hissədəki mühüm fikirləri müəyyənləşdirin.
3. Tanış olmayan sözlərin mənasını aydınlaşdırın.
4. Daha maraqlı hesab etdiyiniz məcazları yazın.
5. Yazılı qeydlər əsasında şifahi təqdimata hazırlaşın.

## İKİNCİ HİSSƏ
*(parçalar)*

Qabaqda traktora minənlər, dallarınca dəvəli adam, onun dalınca da atdana-atdana qaçan it yenə Sarı-Özək çölləriylə hərəkət edib Malakumdıçap yarğanına tərəf yol aldılar. Yarğanın gədiyinə çatanda traktorlar tormozlayıb dayandılar.

– Nə var? Nə olub? – deyə Sabitcan kabinədən boylandı.

– Heç nə. Motorları söndürün, – deyə Boranlı Yedigey əmr etdi. Burda dəfn eləyəcəyik.

– Bəsdi ələ saldığın! – Sabitcan lap özündən çıxdı, onsuz da əzilib əsgiyə dönmüş qalstukunu çəkib dartışdırdı. – Özüm basdıracağam razyezddə, ayrı söz ola bilməz! Bəsdir!

– Qulaq as, Sabitcan, ata sənindir, bu barədə mübahisə ola bilməz. Sən gəl bunun ayrı tərəfini fikirləş. Harda görünüb ki, basdırılmağa aparılan ölü geri qaytarılsın? Hələ belə şey görünməyib. Bu biabırçılıqdan heç birimiz qurtara bilmərik. Dünyasında belə şey olmayıb.

– Cəhənnəmə ki görünməyib! – Sabitcan razılaşmadı.

Caydaq Ədilbəy də ekskavatorun kabinəsindən düşdü, onu görüb əyyaş kürəkən də yedəkdən enib gəldi, traktorçu Cumaəli də yaxınlaşdı ki, görsün nə səbəbə dayanıblar.

– İgidlər, qulaq asın, – deyə Yedigey onlara üz tutdu. – İnsan adətlərini pozmayın, təbiətə qarşı çıxmayın! Hələ belə şey görünməyib ki, qəbiristanlıqdan ölü geri qayıda. Basdırılmağa aparılan gərək basdırılsın. Başqa yolu yoxdur! Baxın bu Malakumdıçap yarğanına, bu da bizim Sarı-Özək torpağıdır! Nayman-Ana burada, bu Malakumdıçapda özünün məşhur ağısını deyib, oğlunu oxşayıb. Gəlin mən qoca Yedigeyə qulaq asın, qoyun Qazanqapın məzarı burda olsun. Elə mənim də qəbrim qoy burda olsun. Allahın rizası olsa, özünüz gətirib burda basdırarsınız. Mən bunu sizdən xahiş eləyirəm. İndi isə hələ gec deyil, vaxt var, baxın, orda, lap yarğanın qaşında mərhumu dəfn elərik!

Hamı susurdu.

– Bilirsiz nə var, siz özünüz bilərsiz, – deyə Cumaəli sükutu pozdu, – mən gedirəm qəbri qazmağa. Mənim vəzifəm budur ki, çala qazım, özü də dərin olsun. Hələ ki vaxt var. Qaranlıq düşəndən sonra kim bu işi görəcək? Siz özünüz bilərsiz.



LAYİHƏ

Ağ keçəyə bükülmüş Qazanqapı xərəyin içində, qəbir çalasının qırağında uzatmışdılar."İlahi, əcdadlarımızın yoluyla gedib müqəddəs kitablardan öyrəndiyim dualarımı eşidirsənsə, mənim öz sözlərimi də eşit. Elə bilirəm, bunlar bir-birinə mane olmazlar.

Budur, biz kimsəsiz və uzaq bir yerdə Malakumdıçap yarğanında qazdığımız qəbrin qabağında dayanmışıq, Qazanqapı özünün vəsiyyət elədiyi qəbiristanlıqda dəfn eləyə bilmədiyimiz üçün məcbur olub bura gəlmişik. Göydəki çalağan bizim Qazanqapla necə vidalaşdığımızı yuxarıdan seyr edir. Ey böyük Allah, varsansa, keç günahımızdan, həqirin olan Qazanqapın dəfnini rəhmətlə qəbul et, layiqdirsə, onun ruhuna əbədi rahatlıq ver. Bizdən nə asılıydısa, hamısını yerinə yetirməyə çalışdıq. Qalanı sənin öz işindir!

Son dərəcə məyusam ki, Nayman-Ananın dəfn edildiyi müqəddəs qəbiristanlığımıza daha bizimçün yol yoxdur. Buna görə də arzum budur ki, mənim də qəbrim Nayman-Ananın gəzdiyi bu yerlərdə – Malakumdıçapda olsun. Elə olsun ki, mən də indi dəfn edəcəyimiz Qazanqapın qəbri ilə yanaşı olum. Bir də ölənlərin ruhunun başqa canlılara keçməsi doğrudursa, onda mən qarışqa niyə olum, istərdim ki, ağquyruq çalağana çevrilim. Mən də o göydə uçan çalağan kimi Sarı-Özəyin üstündə süzüb o ucalıqdan doğma yerlərimi seyr edim, seyr etdikcə də doymayım. Vəssalam. İlahi, bizim bu işimizə fərəc ver...".

– Amin, – deyə Yedigey duasını tamamladı, bir an susub acı bir həsrətlə çalağana baxdı, sonra yavaş-yavaş cavanlara tərəf döndü. Allahla ünsiyyət tamam olmuşdu. İndi onun qarşısında bu qədər ləngimiş dəfn mərasimini tamamlamaq üçün gələn həmin beş adam dayanmışdı.

Onların hərəsi qəbrə bir ovuc torpaq atıb, küləyin səmtindən qəbri torpaqla doldurmağa başladılar. Əvvəlcə bel-kürəklə kürüyüb doldurdular, sonra da Cuməəli maşına minib torpağı ekskavatorla yığıb tökdü. Axırda qəbrin üstünü yenə də bellə düzəldib sahmanladılar...

Daha vaxt lap daralmışdı. Traktorlar yarğandan enmək üçün dönməyə başladılar. Traktorlar aşağı enənəcən Yedigey Qaranəri yedəkləyərək Sabitcanla yanaşı getdi. O, özünü narahat eləyən bir məsələ haqqında Sabitcanla təklikdə danışmaq istəyirdi.

– Bura bax, Sabitcan, indi daha əlimiz boşaldı, səninlə bir məsələ barədə söhbət eləmək istəyirəm. Bəs indi biz o qəbiristanlıq işini neyləyək? Ana-Beyiti deyirəm.

– Necə yəni neyləyək? Burda heç baş sındırmaq lazım deyil, – deyə Sabitcan cavab verdi. – Plan plandır. Ləğv eləyəcəklər onu, plan üzrə... Vəssalam.

– Bəlkə, mənə danışmaqda kömək eləyəsən, nə qədər gec deyil, elə günü sabah gedərik burdakı böyüklərin yanına, o şəhərcikdə, yəqin ki, bir nəfər lap böyükləri var. Ola bilməz ki, Ana-Beyiti yerlə-yeksan eləsinlər. Axı bu, tarixdir.

– Mənim ailəm, uşaqlarım, işim-gücüm var. Onu istəyirsən ki, burdan bir zəng çalsınlar, orda da dalıma bir təpik vurub atsınlar bayıra? Bağışlayasan gərək, çox sağ ol!

– Aydındır. Söhbət qurtardı! – deyə Yedigey danışmağa nöqtə qoydu. – Ehsanı verək, Allahın köməkliyi ilə bir də səninlə görüşmərik, inşallah.

– Bəlkə də, – deyə Sabitcan üz-gözünü əydi.

Onlar beləcə ayrıldılar. Yedigey dəvəyə minənəcən onlar traktorları işə salıb gözlədilər, ancaq Yedigey onlara dedi ki, ləngiməsinlər, yola düşüb mümkün qədər tez getsinlər, adamlar ehsanı gözləyirlər, dəvə üstündə onunçün hər yerdə yol var, guya özü istədiyi yolla gedəcək.



LAYİHƏ

Traktorçular sürüb gedəndən sonra Yedigey hələ bir müddət yerində qalıb neyləyəcəyini fikirləşdi. Boranlı Yedigey peşman idi; peşman idi ki, bu söhbəti niyə saldı, niyə sözlərini havayı yelə verdi. Məgər Sabitcan söz deməli, kömək ummalı adamdı?! Güman eləmişdi ki, savadlı, oxumuş adamdır, özü kimiləri ilə daha asan dil tapa bilər. Qoca Yedigey belə şeylər barədə nə qədər çox fikirləşirdisə, bu fikirlər onda bir o qədər ağrı və ümidsizlik doğururdu.

– Manqurtsan, manqurt! Xalis manqurtsan! – o, qəzəblə pıçıldadı. Kişi ona həm qəzəblənir, həm də acıyırdı.

Qaranərin belində oturan Yedigey belə ağır fikirlər içində ətrafına göz gəzdirdi. Traktorlar çoxdan gözdən itib səslərini kəsmişdi. Boranlı Yedigey vəziyyəti götür-qoy eləyib belə qərara gəldi ki, təzədən zonanın girişindəki şlaqbaumun yanına qayıtsın. Hər şeydən əvvəl o istəyirdi ki, çalışıb keşik xidmətini məcbur etsin, onu nəzarət altında da olsa, böyük rəisin yanına aparsınlar, ya da lazım gələrsə, o rəisin özünü məcbur eləyib Boranlı Yedigeyə qulaq asmaq üçün şlaqbaumun yanına gətizdirsin. Onda ürəyindəkilərin hamısını deyərdi üzünə... Bu qərardan sonra ürəyi yerinə gəldi.

– Təvəkkül Allaha! İtin ağası varsa, qurdun da Allahı var! – deyə özünə ürəkdirək verdi, Qaranəri möhkəm mahmızlayıb şlaqbauma tərəf yönəldi.

Elə bu vaxt havaya nəsə oldu, getdikcə güclənən vulkan gurultusuyla boşluqda nəsə hərəkətə gəldi. Və lap yaxınlıqda, hardasa lap qonşuluqda, kosmodrom zonasında parlaq atəşlə yanan qorxunc alov sütunu püskürüb göyə sancıldı. Yedigey qorxudan geri atıldı, dəvə də bağırıb yerindən sıçradı... İt qorxusundan yiyəsinin ayaqları altına təpildi.

Birincinin dalınca ikinci, onun dalınca da üçüncü raket göyə qalxdı, sonra biri də, biri də ...

İnsan, dəvə və it dallarına baxmadan qaçırdılar, birdən Yedigeyə elə gəldi ki, manqurt oğlu tərəfindən oxla vurulmuş Nayman-Ananın başından saldığı ağ yaylıqdan əmələ gəlmiş ağ bir quş hardansa böyürdən çıxdı... Ağ quş bu həşir-qiyamət içində insanla yanaşı uçaraq deyirdi:

– Kimlərdənsən? Adın nədir? Adını yadına sal! Sənin atan – Donenbaydır, Donenbay, Donenbay, Donenbaydır, Donenbay...

Yenidən birləşən bu zülmət içində bu səs hələ çox eşidildi...

*Tərcümə edən: İshaq İbrahimov*

**• II dərs**

**• MƏZMUN ÜZRƏ İŞ**

**TAPŞIRIĞI FƏRDİ OLARAQ YERİNƏ YETİRİN**

**1. Mənasını aydınlaşdırdığınız sözlərin alınma, yaxud dilimizə aid olduğunu əsaslandırın.**

| Tanış olmayan sözlər | Mənası | Öz sözümüzdür | Alınma sözdür |
|---|---|---|---|
| | | | |

**2. Seçdiyiniz məcazları daha maraqlı hesab etməyinizə səbəb nədir?**

| Əsərdən seçilmiş məcazlar | Məcazların növü | Onları daha maraqlı hesab etməyimə səbəb nədir? |
|---|---|---|
| | | |

LAYİHƏ

**II dərs**

**MƏZMUN ÜZRƏ İŞ**

**3. Suallara cavab hazırlayın:**

a) Yedigey Qazanqapın nə üçün Sarı-Özək çölündə dəfn olunmasını istəyirdi?

b) Yedigey nə üçün Sabitcanı manqurt adlandırır?

c) Oxuduğunuz parçalar hansı mənəvi dəyərlər barədə danışmağa imkan verir?

**4. Oxuduğunuz parçalardan birini hissələrə ayırın, hər hissəyə ad verməklə birinin məzmununa aid plan tərtib edin. Onun məzmununu plan əsasında yığcam nağıletməyə hazırlaşın.**

**5. Kiçik qruplarda birləşərək qənaətlərinizi bölüşün.**

**6. Təqdimatlar əsasında fikir mübadiləsi və müzakirə aparın.**

**EVDƏ İŞ**

**1. Əsəri bütövlükdə nəzərdən keçirib müzakirəyə hazırlaşın.**

**2. "Manqurt" əfsanəsini geniş nağıletməyə hazırlaşın.**

**III dərs**

**TƏHLİL ÜZRƏ İŞ**

**KİÇİK QRUPLARDA BİRLƏŞƏRƏK MƏTNKƏNARI SUALLAR VƏ ONLARIN CAVABLARI İLƏ TANIŞ OLUN**

**1. Aşağıdakı tapşırıqları fərdi olaraq yerinə yetirin.**

a) Əsərdə qaldırılmış problemləri və onların müəllif həllini müəyyənləşdirin.

| Əsərdə qaldırılmış başlıca problemlər | Əsərdə onların bədii həlli |
|---|---|
| | |

b) Yedigey və Sabitcan obrazlarını səciyyələndirin.

| Səciyyəvi xüsusiyyətlər | Yedigey | Sabitcan |
|---|---|---|
| Xarakteri | | |
| Əməlləri | | |
| Nitqi | | |
| Başqalarına münasibəti | | |

c) Əsərdəki bədii təsvir və ifadə vasitələrinin rolunu izah edin.

| Bədii təsvir və ifadə vasitəsinin işləndiyi cümlə | Fikrin təsir gücünün artmasında onun rolu |
|---|---|
| | |

d) Əsərdəki başlıca fikri – ideyanı müəyyənləşdirin. Fikrinizi nümunələrlə əsaslandırın.

| Əsərin ideyasını daha qabarıq əks etdirən cümlələr | Nə üçün belə düşünürsünüz? |
|---|---|
| | |

e) **Romanın sonundakı parçanın** ("Elə bu vaxt havaya nəsə oldu, getdikcə güclənən vulkan gurultusuyla boşluqda nəsə hərəkətə gəldi" cümləsindən axıradək) **ifadəli oxusuna hazırlaşın. Şərti işarələrdən istifadə edin.**

"Gün var əsrə bərabər" (1980) romanı Ç.Aytmatovun yaradıcılığında xüsusi yer tutan kamil sənət nümunələrindəndir. Müəllifin digər əsərlərində olduğu kimi, xeyirlə şərin mübarizəsi burada da öz əksini tapıb. Nayman-Ananın dəfn olunduğu Ana-Beyit qəbiristanlığı ilə bağlı baş verənlər yeni dövrün bəlasına çevrilən yaddaşın itirilməsi mərəzini, manqurtluğun mahiyyətini üzə çıxarır.

Əsər hansı mövzuda yazılmışdır? Romanda hansı problemlər qoyulmuşdur?

LAYİHƏ

Dəmir yolunun Boranlı adlı kiçik məntəqəsində qırx dörd il işləmiş Qazanqapın ölümü və dəfni ilə bağlı baş verən hadisələrə əsərin qəhrəmanlarının fərqli münasibəti cəmiyyətdə mövcud olan bir sıra problemləri aşkara çıxarır.

Əsərin mərkəzində qloballaşma dövrünün ağrılı bir məsələsi – milli yaddaşın itirilməsi problemi durur. Adət-ənənələri, dəyərləri qoruyub-saxlamaq istəyənlərin arzusu yaddaşsızlıq mərəzinin qurbanları – manqurtluğu təmsil edənlər tərəfindən etirazla qarşılanır və bu ziddiyyət əsərdəki ciddi konfliktin əsasında dayanır. Yazıçı manqurt oğulun öz anasını öldürməsi haqqında qədim əfsanəni xatırladır. Lakin qədim əfsanənin süjeti başqa istiqamətdə davam etdirilir. Qazanqapın ölümünə münasibət, onun dəfni ilə bağlı hadisələrin təsviri əsrlər keçsə də, manqurtluğun məhv olmadığını göstərir. Dəfn mərasiminin təsvirində türk xalqlarının mərhumla vidalaşmaq ayini öz əksini tapıb. Lakin bu mərasimə də formal bir iş kimi başdansovdu yanaşanların mövcudluğu ciddi mənəvi böhrana gətirib çıxarır.

Boranlı Yedigey obrazını səciyyələndirən başlıca cəhətlər hansılardır? Bu obraz vasitəsilə hansı milli-mənəvi dəyərlər ön plana çəkilmişdir?

Romanın baş qəhrəmanı dəmiryol fəhləsi *Boranlı Yedigeydir*. Əsərdə onun həyatının dramatik hadisələrin baş verdiyi bir günü təsvir olunur. Lakin həmin günün təəssüratları o qədər zəngindir ki, qəhrəman keçdiyi altmış bir illik ömür yoluna nəzər salmalı olur. Kiçik dəmiryol məntəqəsində vəfat etmiş dostunu dəfn etmək üçün qədim qəbiristanlığa gedən Yedigey müdrikdir, dərin düşüncəli, zəhmətkeş insandır. Yazıçı onun vicdanla yaşamaq, borc, məsuliyyət, şərəf, sevgi barədə düşüncələrinə geniş yer verir. Yedigey hər bir hadisəyə insanlıq və vicdan meyarları ilə yanaşır. Yazıçı bu obrazın timsalında sadə bir insanın mənəvi böyüklüyündən söz açmış, xalqın gələcəyinə, milli dəyərlərin, tarixi yaddaşın nəsildən-nəslə ötürüləræk yaşayacağına inamını ifadə etmişdir.

Yedigeyin zəngin həyat təcrübəsi var, müharibə görüb. O, keçdiyi ömür yolunda həmişə öz xalqının milli dəyərlərinə sadiq qalmışdır, düşüncələri, əməlləri xalq hikmətinin saf, büllur bulağını xatırladır. Müxtəlif vəziyyətlərdə qarşılaşdığı manqurtlar onun həyat mövqeyini, insanlığa inamını sarsıda bilməyib. Orta savadı belə olmayan Yedigey *Sabitcanın, Tansıkbayevin* milli mənlik şüurundan məhrum olmasına qəzəb və nifrətlə etirazını bildirir. O, ənənələrin, mənəvi dəyərlərin, düzlüyün qorunub saxlanılması üçün mübarizə aparır. Əsərin sonunda Nayman-Ananın yaylığının ağ quşa çevrilməsini təsvir etməklə yazıçı bütün maneələrə, çətinliklərə baxmayaraq, gələcəyə nikbin baxmağın vacib olması fikrini ifadə edir.

Romanda tarixi yaddaşsızlığı – manqurtluğu hansı obrazlar təmsil edir?

Yazıçı Sabitcanın simasında manqurtluğun – yaddaşsızlığın bu gün də mövcudluğunu real lövhələrlə, ürək ağrısı ilə əks etdirir. Sabitcan atasının ölüm xəbərini laqeydliklə qarşılayır. Ana-Beyit qəbiristanlığında yaranan çətinlik onun əsl simasını – manqurt, yaddaşsız olduğunu aşkara çıxarır. Ətrafda baş verən hadisələrə münasibətdə o öz şəxsi mənafeyindən çıxış edir, mənəvi puçluğunu göstərir. Sabitcanın atası Qazanqapa, digər insanlara yanaşması əfsanədəki Manqurt oğulun Nayman-Anaya münasibətindən fərqlənmir. Atasının Ana-Beyit qəbiristanlığında dəfn olunmaq vəsiyyəti, dostunun ölümündən sarsılan Yedigeyin dərin kədəri onun üçün heç bir əhəmiyyət kəsb etmir. Sabitcanın fikrincə, ölmüş insan üçün harada



LAYİHƏ

dəfn olunmağın heç bir fərqi yoxdur. Dardüşüncəli, ailədə yox, internatda böyümüş Sabitcanı yalnız bir məsələ düşündürür: dəfn mərasimini tez başa vurub şəhərdəki evinə, vəzifə masasına, nizama salınmış həyatına qayıtmaq. Dünyada olmayanların unudulması, xatirələrdən silinməsi onun üçün təbii haldır.

Keşik rəisi leytenant Tansıkbayevin Yedigeylə doğma dilində – qırğız dilində danışmaqdan qəsdən imtina etməsi, vəzifəsini bəhanə gətirib rus dilində danışması, Ana-Beyit qəbiristanlığının taleyinə, insanların bu qəbiristanlıqda dəfn olunmaq arzusuna münasibəti onun da tarixi yaddaşdan, milli düşüncədən məhrum olduğunu göstərir. Təsadüfi deyil ki, Tansıkbayev bu yerlərin əsl sahiblərini – Yedigeyi və onunla gələnləri "kənar adamlar" adlandırır. Yazıçı öz kökünü könüllü olaraq unudan, tarixi yaddaşdan məhrum olan belə adamları ata-anadan məhrum olmuş yetim uşağa bənzədir.

Romanın başlıca ideyası nədir?

Əsərdə qəhrəmanlarla bağlı hər bir kiçik detal və təsvir hadisələrin inkişafı prosesində dərin məna kəsb edir, bəşəriyyətin taleyi, əmin-amanlığı üçün narahat olan sənətkarın düşüncələrinin humanist mahiyyətini açıb göstərir. Yaddaşsızlıq, manqurtluq təhlükəsi və ona qarşı mübarizənin zəruriliyi əsərin əsas ideyasını təşkil edir. Yazıçı bəşəriyyəti öz tarixini, əcdadlarını, ana dilini, xalq adət-ənənələrini unudanların – yeni manqurtların yarandığından xəbərdar edir. Faciə həm də ondadır ki, qədim manqurtlardan fərqli olaraq, yeni, müasir manqurtlar tarixi yaddaşdan işgəncə altında deyil, könüllü olaraq imtina edirlər.

*Mənbələr üzrə qazanılmış bilik əsərin zəngin ideyasını hərtərəfli aydınlaşdırmağa imkan verir.*

**• EVDƏ İŞ**

**ARAŞDIRMANI DAVAM ETDİRİN**

**Mövzulardan birini seçib işləyin:**

a) **Məruzə:** Ç.Aytmatovun "Gün var əsrə bərabər" romanında yaddaşsızlığın acı nəticələri.

b) **Məqalə:** Ç.Aytmatovun povestlərində qaldırılmış başlıca problemlər.

**• MƏNBƏLƏR**


1. Ç.Aytmatov. Seçilmiş əsərləri. 2 cilddə. I cild. Bakı: Öndər, 2004, səh. 4-10.
2. Ç.Aytmatov. Seçilmiş əsərləri. Bakı: Çaşıoğlu, 2004, səh.5-12.
3. XI sinif şagirdləri üçün elektron vəsait. http://edebiyyat.ucoz.com.


LAYİHƏ

# İFADƏLİ OXUDA İSTİFADƏ EDİLƏN ŞƏRTİ İŞARƏLƏR

| | | | |
|---|---|---|---|
| 1 | \| | Qısa fasilə (bir sayına bərabər) | sətri |
| 2 | \|\| | Orta fasilə (iki sayına bərabər) | sətri |
| 3 | \|\|\| | Uzun fasilə (üç sayına bərabər) | sətri |
| 4 | — | Məntiqi vurğu | sətiraltı |
| 5 | ↗ | Tonun yüksəlməsi | sətirüstü |
| 6 | ↘ | Tonun alçalması | sətirüstü |
| 7 | ..... | Sözün uzadılması, yaxud cümlənin hissəsinin oxu tempinin aşağı salınması | sətiraltı |
| 8 | → | Tempin artırılması (oxunun sürətləndirilməsi) | sətiraltı |
| 9 | ⌒ | Yanaşı gələn sözlərin birnəfəsə deyilməklə oxunması | sətirüstü |
| 10 | ⌒\| | Misrada fikir tamamlanmayıb növbəti misraya köçürüləndə qoyulur. | sətri |

LAYİHƏ

# L Ü Ğ Ə T

**A**

**Antreprenyor** – özəl teatr, sirk və s. tamaşa müəssisələrinin sahibi, icarədarı.

**B**

**Baziçə** – oyuncaq
**Bədəl** – əvəz, əvəzçi

**C**

**Cariyə** – keçmişdə özgə ölkələrdən zorla qaçırılaraq azadlıqdan məhrum edilən, alınıb-satıla bilən, hüquqsuz qız və ya qadın
**Cədəl** – çəkişmə, didişmə, vuruşma, qovğa

**D**

**Dehqan** – kəndli, əkinçi, rəncbər
**Dəstgah** – 1. Cah-calal, dəbdəbə
2. Bir işin təşkili üçün lazım olan şeylərin, vasitələrn məcmusu
3. Azərbaycan xalq musiqisində irihəcmli muğam, musiqi kompleksi
**Dildadeyi-irfan** – elm, maarif əhli
**Donos** – birisi haqqında hökumət idarələrinə və ya onun nümayəndələrinə gizli olaraq verilən məlumat, xəbər

**E**

**Ehsas** – duyma, hissetmə; duyğu, hiss
**Ekstremist** – siyasətdə ifrat tədbirlər tərəfdarı

**Ə**

**Əflatuni** – açıq-bənövşəyi
**Əxtər** – ulduz, bəxt, tale
**Əlbisə** – paltar, geyim
**Ərbab** – sahibkar, ağa
**Əşxas** – şəxslər



LAYİHƏ

## F

**Fenomen** – müstəsna, qeyri-adi şəxsiyyət, hadisə
**Fəzilət** – ləyaqət, dəyər, alicənablıq, hünər
**Firəng** – fransız

## H

**Hacat** – alət
**Haydut** – quldur, soyğunçu
**Həmil** – hamilə, boylu
**Həzərat** – “həzrət” sözünün cəmi, cənablar, ağalar
**Huşyar** – ağıllı, düşüncəli, şüurlu, dərrakəli

## X

**Xaqan** – qədim türk və monqol hökmdarlarına verilən ad, titul
**Xanəgah** – şeyx və ya mürşidin dərvişlərinin yaşadıqları və ibadət etdikləri yer
**Xəlilüllah** – ərəbcə: Allahın dostu, istəklisi

## İ

**İxtilaf** – fikir ayrılığı, mübahisə
**İxtiyar** – yaşlı, qoca
**İltimas** – xahiş
**İnabə** – peşman olmaq
**İnayət** – rəhm, mərhəmət
**İrfan** – bilik, idrak, mərifət, elm və düşüncədən hasil olan yetkinlik, ariflik
**İslıq** – fit, fışqırıq
**İspalkom** – sovet dövründə şəhər (rayon) icraiyyə komitəsinin sədri
**İza** – əziyyətvermə, incitmə
**İzzəti-nəfs** – heysiyyət, mənlik, şərəf

## K

**Karyola** – italyanca: çarpayı
**Kəndi** – özü
**Kəsil** – yorğun, əzgin
**Komsomol** – sovet dövründə gənclərin siyasi təşkilatı
**Kövkəb** – ulduz, bəxt, tale

## Q

**Qaç** – neçə
**Qədirnaşünas** – qədirbilməz
**Qəzil** – keçi tükü
**Qübbə** – yunanca: daxma, koma



LAYİHƏ

**L**

**Ləfz** – dil, söz

**M**

**Madər** – ana
**Madmazel** – Fransada və bəzi başqa ölkələrdə, adətən, kübar qızların, subay qadınların adlarına qoşulan söz; xanım
**Mədhuş** – qorxmuş, dəhşətə gəlmiş
**Mənhus** – uğursuz, bədbəxt, nəhs
**Mənzum məktub** – nəzmə çəkilmiş, nəzmlə (şeirlə) yazılmış
**Mühat** – dövrəyə alınmış
**Mühüb** – heybətli, qorxunc
**Müstəbid** – istibdadçı, zalım hökmdar, hakimi-mütləq; zalım, zülmkar, qaniçən
**Mütəhəmmil** – səbir edən, dözən, qatlaşan
**Mütərcim** – tərcüməçi, tərcümə edən
**Mütəəssir** – bir hal və hissin təsiri ilə dəyişilmiş, qüssələnmiş, dərdlənmiş, əhvalı pozulmuş, təsirlənmiş
**Müztərib** – sıxıntı, iztirab içində olan, narahat

**N**

**Nafilə** – nahaq, faydasız
**Naloq** – vergi
**Nəbi** – xəbər verən, peyğəmbər
**Nuşirəvan Adil** – ədaləti ilə ad çıxarmış hökmdar

**O**

**Oymaq** – kənd, el

**P**

**Partiya komitəsi** – sovet dövründə Kommunist Partiyasının şəhər, rayon komitəsi
**Pəjmürdə** – qəmgin, kədərli

**R**

**Razyezd** – kiçik dəmiryol məntəqəsi
**Rəncbər** – taxıl əkib-becərməklə məşğul olan kəndli; əkinçi, taxılçı
**Rida** – plaşın bir növü
**Riqqət** – ürək yumşaqlığı, ürək incəliyi, şəfqət



LAYİHƏ

## S

**Səlsəbil** – dini inama görə, cənnətdə su
**Səmum** – zəhər
**Sərapərdələr** – Şərq padşahlarının saraylarında böyük qəbul otağının qapısında, yaxud hərəmxana ilə qonaq və qəbul otağı arasında böyük pərdə
**Səyyad** – ovçu
**Sidq** – sədaqət, səmimilik, ürək təmizliyi
**Stenoqraf** – stenoqrafiya mütəxəssisi; ağızdan çıxan sözləri olduğu kimi xüsusi işarələr və ixtisarlarla cəld yazma üsulu
**Sövməənişin** – bir guşədə yalnız oturub ibadətlə məşğul olan adam
**Süxəndan** – söz ustası, yaxşı danışan, şair (əvvəlki dəqiq deyil: süxən – söz, nitq)
**Süs** – bəzək

## Ş

**Şpal** – dəmir yollarında relslərin altına düzülən ağac, metal və ya beton tir

## T

**Təkfir** – kafir elan etmə, mürtəd elan etmə, lənət oxuma; küfr
**Təqdis** – saymaq, hörmət etmək, əziz tutmaq
**Təəssür** – bir şeyin təsirini hissetmə, təsir altında olma, qüssələnmə, kədərlənmə, hüzn və kədər duyma
**Təşxis** – ayıran, seçən
**Tühaf** – gülünc, təəccüblü

## U

**Üful** – batma, qürub; məcazi mənada: ölüm

## Ü

**Ümman** – böyük dəniz, dərya, okean

## V

**Varisi-yekta** – yeganə varis
**Vird** – müəyyən vaxt təkrarolunan dua

## Z

**Zəf** – zəiflik, acizlik



LAYİHƏ

# QISA ƏDƏBİYYATŞÜNASLIQ TERMİNLƏRİ LÜĞƏTİ

### B

**Bədii konflikt** – latınca *konfliktus* sözündəndir. Bədii əsərin süjetinin əsasında duran qarşıdurma, münaqişə. Sənətkar həyatdakı ziddiyyətləri, münaqişələri bədii əsərdə hadisələrdə, qəhrəmanın ona əks mövqedə duran qüvvələrlə qarşıdurması vasitəsilə əks etdirir. Konflikt lirik və epik əsərlərə nisbətən dramatik əsərlərin yazılmasında xüsusi əhəmiyyət kəsb edir.

**Bədii metod** – sənətkarın bədii əsərdə həyatı əks etdirərkən əsas götürdüyü prinsiplər, yaradıcılığında varlığı obrazlı əksetdirmənin daim təkrar olunan ümumi xüsusiyyətləridir. Eyni bədii metodu əsas götürən yazıçıların yaradıcılığı *ədəbi cərəyan* yaradır; məsələn: realizm, romantizm ədəbi cərəyanları. Sənətkarın fərdi üslubu olsa da, o, müəyyən bədii metodla bağlı olur.

**Bədii müqəddimə** – bədii əsərdə süjetin əsas komponentlərindən biri: əsas hadisəyə və ya düyünə (zavyazkaya) qədərki hissə.

### D

**Dekadentizm** – XIX–XX əsrlərin sərhədində Avropada yaranmış ədəbi cərəyandır. Fransız sözü olub mənası *mədəni geriləmə* deməkdir. Bu termindən Roma imperiyasının süqutunu təsvir edərkən, cəmiyyətdə, insandakı bədbinliyi, ruh düşkünlüyünü, ümidsizliyi əks etdirən əsərlər haqqında danışarkən isitifadə olunurdu. Dekadentizmin nümayəndələri incəsənətin əvvəlki akademik formalarından imtina edərək müasir insanın həssas, çevik dünya duyumuna uyğun yeni özünüifadə formaları axtarırdılar. Bu ədəbi cərəyanın nümayəndələri sosial-siyasi problemlərdən uzaq durmağı sənətkar azadlığının mühüm şərti hesab edirdilər. Onlar ictimai münasibətlərdən imtina edərək gündəlik həyata ikrahla yanaşırdılar, bədii əsərdə dəyərləri deyil, forma gözəlliyini, rəngarəngliyini, simvolik işarələrdən istifadəni zəruri sayırdılar. Bu da, öz növbəsində, ədəbiyyatın reallıqdan uzaqlaşmasına gətirib çıxarırdı.

**Dramaturgiya** – dramatik növdə yazılmış əsərlərin (dram, komediya, faciə) cəmi. Nəzmlə yazılan dramatik əsərlərə *mənzum dramaturgiya*, nəsrlə yazılanlara *mənsur dramaturgiya* deyilir.



LAYİHƏ

## E

**Epopeya** – epik ədəbiyyatın ən irihəcmli janrıdır. XIX əsr rus tənqidçisi V.Belinski roman janrında yazılan əsərləri “bizim dövrümüzün epopeyası” adlandırırdı. Müəyyən tarixi dövrü, xalqın həyatını geniş, əhatəli şəkildə , xeyli sayda qəhrəmanların iştirakı ilə əks etdirən romanlar *epopeya* adlanır. Ədəbiyyatımızda Süleyman Rəhimovun “Şamo” romanı epopeyadır.

## Ə

**Ədəbi məktəb** – böyük sənətkarın adı ilə bağlı olan yaradıcılıq ənənələrinin əsrdən-əsrə davam etdirilməsi əsasında yaranan ədəbi istiqamət.

Azərbaycanda bir sıra ədəbi məktəblər, o cümlədən Nizami ədəbi məktəbi, Füzuli ədəbi məktəbi, Mirzə Fətəli Axundzadə ədəbi məktəbi, Cəlil Məmmədquluzadənin rəhbərliyi ilə “Molla Nəsrəddin” ədəbi məktəbi, Əli bəy Hüseynzadənin təsiri ilə “Füyuzat” ədəbi məktəbi yaranmışdır.

**Ənənə** – bədii təcrübənin nəsildən-nəslə keçməsi, ədəbiyyat tarixində yaradıcı istifadəsidir. Ənənə xalqın taleyində mühüm rol oynayır, ədəbi irs və onun əks etdirdiyi ideallar zəminində insanların mənəvi birliyini təmin edir.

## F

**Felyeton** – fransızca “vərəq” deməkdir. Bədii, satirik publisistika janrı kimi, əsasən, qəzet və jurnallarda dərc olunur. Felyetonda satirik istiqamət, ictimai həyatdakı nöqsanların tənqidi əsas yer tutur. Felyeton janrında yazılan əsərlər üçün ağrılı problemlərə münasibət, güclü obrazlılıq, yüksək emosionallıq səciyyəvidir. Azərbaycan ədəbiyyatında C.Məmmədquluzadənin felyetonları bu janrın kamil nümunələridir.

## L

**Leytmotiv** – almanca “*əsas motiv*” deməkdir. Leytmotiv əsərdəki aparıcı motiv, obraz, bəzən tez-tez təkrar olunan bədii detaldır. Leytmotiv süjetin ana xətti, əsər boyu qırmızı xətt kimi keçən ovqatdır.

## M

**Magik realizm** – həyatın realist, macəralı təsvirinə magik, mistik, mifoloji, fantastik elementlərin daxil edilməsi.

**Məclis** – ərəbcə “*yığıncaq*” deməkdir. Bədii əsərin bitkin hissəsinə “məclis” deyilir. Dramaturgiyada “məclis” əvəzinə “pərdə” sözü də işlədilir.

**Məqalə** – məcmuədə, jurnalda, qəzetdə kiçik elmi və ya publisistik yazı.

**Modernizm** – ədəbiyyatda XIX əsrin sonu – XX əsrin əvvəllərində yaranmış cərəyandır. Latın dilində *modernus* müasir, yeni deməkdir. Modernizm klassik romanı bütünlüklə inkar edərək yeni üslub axtarışlarına keçid, ədəbi formalara yeni yanaşma ilə səciyyələnir. Modernizmdə varlığın, hadisələrin subyektiv yozumu, həqiqətin həyatda, cəmiyyətdə deyil, insanın daxili dünyasında axtarılması, psixoligizm mühüm yer tutur. Bədbinlik, dünyanın düzələcəyinə inamsızlıq, mövcud varlığın insana əzab, iztirab gətirdiyini iddia etmək bu ədəbiyyatın səciyyəvi xüsusiyyətləridir. Müəllif həyat həqiqətlərini deyil, onun şərtiliyini nümayiş etdirir. Bu zaman əsərin bütövlüyü gözlənilmir, hadisələrin inkişaf xəttinin əvəzinə kiçik epizodlara parçalanmış ayrı-ayrı hissələr təqdim edilir. Bir



LAYİHƏ

neçə ədəbi qəhrəmanın təsvir edilən hadisə və faktlara bir-birinə zidd yanaşmaları modernizmdə mühüm yer tutur.

**Motiv** – fransızca "*vadaredici səbəb*" deməkdir. Bədii əsərdə aparıcı motivdən – leytmotivdən əlavə, onu tamamlayan, dolğunlaşdıran, əsas ideyanın açılmasına, qəhrəmanın dərindən dərk edilməsinə zəmin yaradan digər xətlər, motivlər.

## P

**Personaj** – epik və ya dramatik əsərlərdə hadisələrin iştirakçısı; surət, obraz. "Qəhrəman", "obraz" terminlərindən fərqli olaraq, personaj lirik əsərlərə aid edilmir. Bu termin, əsasən, əsərdəki ikincidərəcəli iştirakçılar haqqında işlədilir.

**Prototip** – müəyyən bir obrazın simasında bədii şəkildə ümumiləşdirilən real şəxs. Prototip hər hansı tarixi şəxsiyyət, müəllifin həyatdan yaxşı tanıdığı, yaxud haqqında bildiyi, eşitdiyi bir və ya bir neçə şəxs ola bilər.

**Postmodernizm** – latın sözüdür, mənası *moderndən sonrakı* deməkdir. XX əsrdə Avropada yaranan postmodernizm üçün ədəbiyyatın janr və növ çərçivələrinin, gerçəklikdəki qayda-qanunun, əxlaqi-estetik keyfiyyətlərin, ədəbi-bədii normaların inkarı, sərbəstliyə meyil səciyyəvidir. Postmodernizmin də modernizm kimi sərhədlərini, xüsusiyyətlərini dəqiq müəyyənləşdirmək çətindir. Postmodernist əsərin müəllifi xaotik dünyada məna axtarışını, ehkamları inkar edir. Onun yazdığı roman da bu axtarışları parodiya şəklində əks etdirir. Əsərin məzmununda vahid ideya bağlılığı gözlənilmir, bədii mətn bir-biri ilə ciddi qarşılıqlı əlaqəsi olmayan parçalardan ibarət olur.

Postmodernizmdə ədəbiyyatın idraki, tərbiyəedici rolu inkar edilir, ona intellektual oyun kimi yanaşılır. Postmodernist əsərlər klassik ədəbiyyat nümunələrinə fərqli yanaşma zəminində də yazılır. Ədəbiyyatımızda Kamal Abdullanın "Yarımçıq əlyazma", "Sehrbazlar dərəsi" romanları postmodernist üslubda yazılmışdır.

## R

**Realizm** – latınca "*maddi*", "*həqiqi*" deməkdir. Ədəbiyyat və incəsənətdə realizm metodu həyatı, varlığı doğru, düzgün, inkişaf prosesində, tipik şəraitdə tipik xarakterlər vasitəsilə əks etdirilməsini əsas götürür. Realizm metodunun əsasında sadəcə faktları, hadisələri, insanları deyil, həyatdakı qanunauyğunluqları əks etdirmək durur. Realizm metodunda yazıçı həyat hadisələrini, onlardakı mühüm cəhətlərin seçilib əks etdirilməsini diqqət mərkəzində saxlayır. XVIII əsrdə yaşayıb-yaratmış M.P.Vaqifin yaradıcılığı ilə ədəbiyyatımızda ilk dəfə erkən realizm meydana çıxmışdır. Zaman keçdikcə bu metod inkişaf etmiş, XIX əsr ədəbiyyatımızda maarifçi realizm, XX əsrin əvvəllərində isə tənqidi realizm ədəbi cərəyanları yaranmışdır.

**Roman** – epik növün həcm etibarilə ən böyük janrı. Əsasən, nəsrlə yazılan irihəcmli epik əsər. İkihissəli roman dilogiya, üçhissəli roman *trilogiya* adlanır.

**Romantika** – bədii yaradıcılığın xüsusiyyəti olub həyatın parlaq tərəflərinin, qəhrəmanlığın, əməyin, məhəbbətin, dostluğun və s.-nin yüksək pafosla əks etdirilməsidir. Romantika yalnız romantik metodla deyil, digər bədii metodlarla (realizm və s.) yaradılmış əsərlərdə də özünü göstərir.

**Romantizm** – latın sözüdür, mənası "*romanlarda olduğu kimi*" deməkdir. Romantizm metodu ədəbiyyat və incəsənətdə həyat hadisələrini yüksək ideallar prizmasından, real həyatda olanları deyil, sənətkarın arzularını, xəyalında canlandırdığı həyatı, surətləri əks etdirməsinə əsaslanır. Sənətkar əsərdə öz arzu-



LAYİHƏ

larını, xəyalında canlandırdıqlarını həyata keçirmək istəyən romantik qəhrəmanların obrazını yaradır. Bu qəhrəmanların arzuları ilə real həyat arasında kəskin ziddiyyətlər olsa da, onlar reallıqla barışmır, romantik ideallarını həyata keçirmək üçün çalışırlar. Romantik əsərin qəhrəmanı güclü hiss-həyəcanları, yüksək duyğuları, hamının qəbul etidyi qanunlara kəskin etirazı, barışmazlığı ilə müəllifin öz həyat mövqeyini ifadə edir. Bu qəhrəman coşqun təbiətli, narahat, ipə-sapa yatmazdır.

XX əsrin əvvəllərində Azərbaycanda romantizm ədəbi cərəyanı yaranıb inkişaf etmişdir.

## S

**Sərbəst şeir** – şeirin vəzn və qafiyə quruluşuna qoyulan ənənəvi tələblərə sərbəst şəkildə əməl olunduğu şeir forması.

**Sinekdoxa** – yuna sözü olub "*fərzetmə*" deməkdir. Sinekdoxa bir hissənin, əlamətin bütöv varlığı, tamı əvəz etməsinə deyilir. S.Rəhimov "Mehman" povestində "Qaloşlu adam" ifadəsini prokurorluğun şər xislətli xidmətçisi olan qoca haqqında işlətmişdir.

**Sosialist realizmi** – sovet ədəbiyyatının əsas yaradıcılıq metodu. Sovet hakimiyyəti qurulduqdan sonra ölkədə ədəbiyyatın xarakteri dəyişməyə başlamış, bədii düşüncədəki milli və maarifçi idealları, demokratik baxışları tədricən sosialist ideyaları əvəzləmişdir. Sovet ədəbiyyatının əsas yaradıcılıq metodu olan *sosialist realizmi* anlayışı rəsmi şəkildə 1934-cü ildə meydana çıxmışdı. Bu yolla bədii yaradıcılıqda sosializm ideyalarının tərənnümü genişləndirilmiş, ədəbiyyat sovet ideologiyasının əsas təbliğatını həyata keçirməyə istiqamətləndirilmişdir. Sovet hakimiyyəti illərində qələm sahiblərindən ideoloji tələblərə, sinfilik prinsipinə uyğun olaraq, öz əsərlərində zəhmətkeşləri sosializm ruhunda tərbiyə etmək, kommunizmə inam aşılamaq, sovet vətənpərvərliyini, beynəlmiləlçilik ideyalarını əks etdirmək tələb olunurdu.

## T

**Tragikomediya** – faciə və komediya ünsürlərini özündə birləşdirən dramatik əsər.

**Tənqidi realizm** – ədəbiyyatda hadisələrin dərin və əsaslı bədii dərki, cəmiyyətin inkişafına yeni bir təkan verən, insanın vətəndaşlıq mövqeyini diqqət mərkəzinə çəkən ədəbiyyat. Cəlil Məmmədquluzadə Azərbaycan tənqidi realizminin banisidir.

## V

**Vulqar sosiologizm** – bədii yaradıcılığın (yazıçının) iqtisadi və sinfi münasibətlərdən asılı olduğunu iddia edən baxışlar sistemi.



LAYİHƏ

# OXUMAĞI MƏSLƏHƏT GÖRÜRÜK*

(müəllimin tövsiyəsi ilə seçilə bilər*)

**"Azərbaycan ədəbiyyatında tənqidi realizm və realizm dövrü"** bölməsi üzrə:

Cəlil Məmmədquluzadə. "Danabaş kəndinin əhvalatları", "Ölülər" tragikomediyası, "Azərbaycan" məqaləsi.

Mirzə Ələkbər Sabir. "Ürəfa marşı", "Dindirir əsr bizi", "Səttarxana".

Hüseyn Cavid. "Səyavuş" dramı, Əli bəy Hüseynzadə. "Hali-vətən", Nəriman Nərimanov. "Bir kəndin sərgüzəşti" hekayəsi, Məhəmməd Hadi. "İnsanların tarixi faciələri", yaxud "Əlvahi-intibah" poeması.

XX əsr Azərbaycan şeiri antologiyası [Mətn]: (1905–1920-ci illər), Bakı: Şərq-Qərb, 2005.

Azərbaycan nəsri antologiyası, 5 cilddə: II cild. Bakı: Şərq-Qərb, 2006.* (müəllimin tövsiyəsi ilə)

**"Sovet dövrü Azərbaycan ədəbiyyatı"** bölməsi üzrə:

Yusif Vəzir Çəmənzəminli. "Qan içində", Əhməd Cavad. "Göygöl", Mikayıl Müşfiq. "Duyğu yarpaqları", Süleyman Rüstəm. "Cənub şeirləri", Səməd Vurğun. "Dörd söz", Mir Cəlal. "Ehtiram", Rəsul Rza. "Rənglər" silsiləsi.

Azərbaycan nəsri antologiyası. 5 cilddə, III cild. 1920–30-cu illər. Bakı: Şərq–Qərb, 2006* (müəllimin tövsiyəsi ilə).

Azərbaycan nəsri antologiyası. 5 cilddə, IV cild. 1940–50-ci illər. Bakı: Şərq–Qərb, 2006.* (müəllimin tövsiyəsi ilə)

**Azərbaycan ədəbiyyatında milli özünüdərkə qayıdış və istiqlalçılıq mərhələsi"** bölməsi üzrə:

İlyas Əfəndiyev. "Hökmdar və qızı".

İsmayıl Şıxlı. "Ölüləri qəbiristanda basdırın".



LAYİHƏ

Azərbaycan dramaturgiyası antologiyası. 5 clddə, III cild. Bakı: Şərq–Qərb, 2007.* (müəllimin tövsiyəsi ilə)

**“Müstəqillik dövrü çoxmetodlu Azərbaycan ədəbiyyatı”** bölməsi üzrə:

Bəxtiyar Vahabzadə. “Azərbaycan–Türkiyə”.

Xəlil Rza. “Ağ çələngli Azərbaycan”.

Məmməd Araz. “Bizi Vətən çağırır”.

Azərbaycan nəsri antologiyası. 5 cilddə, V cild. Bakı: Şərq–Qərb, 2006, (Anar, Elçin və b. əsərləri müəllimin tövsiyəsi ilə).

Azərbaycan dramaturgiyası antologiyası. 5 cilddə, IV cild. Bakı: Şərq–Qərb, 2007.* (müəllimin tövsiyəsi ilə)

*Tövsiyə siyahısı Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan dilində latin qrafikasi ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında” 2004-cü il tarixli sərəncamı əsasında Azərbaycan dilində latın qrafikası ilə çap olunaraq məktəb və rayon kitabxanalarına yayılmış kitablar əsasında tərtib edilmişdir.



LAYİHƏ

**Mənbələr**


1. Aytmatov Ç. Seçilmiş əsərləri. Bakı: Çaşıoğlu, 2004, səh. 5-9.
2. Cəfər M. Azərbaycan ədəbiyyatında romantizm. Bakı: 1963.
3. Cəfərov N. Bəxtiyar Vahabzadə. Bakı, Azərbaycan, 1996.
4. Ədəbiyyatşünaslıq terminləri lüğəti. Bakı: Altun kitab, 2017.
5. Əlişanoğlu T. Azərbaycan “yeni nəsr”i. Bakı: Elm, 1999.
6. Əliyev K. Hüseyn Cavid: həyatı və yaradıcılığı. Bakı: Elm, 2008.
7. Əziz Şərif. “Molla Nəsrəddin” necə yarandı. Bakı: Yazıçı, 1986.
8. İsmayılov Y. Ön söz. Mir Cəlal. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2005.
9. Həbibbəyli İ. Ədəbi şəxsiyyət və zaman. Bakı: Elm və təhsil, 2017.
10. Həbibbəyli İ. Azərbaycan ədəbiyyatı dövrləşmə konsepsiyası və inkişaf mərhələləri. Bakı: Elm, 2018.
11. Həbibbəyli İ. C.Məmmədquluzadə: mühiti və müasirləri. Bakı: Azərnəşr, 1997.
12. Həbibbəyli İ. XX əsrin əvvəlləri Azərbaycan yazıçıları. Bakı: Nurlar, 2004.
13. Qarayev Y. Azərbaycan ədəbiyyatı. XIX və XX yüzillər. Bakı: Elm, 2002.
14. Mirəhmədov Ə. Mirzə Ələkbər Sabir. Bakı: Elm, 1962.
15. Müasir Azərbaycan ədəbiyyatı. I–II cildlər. Bakı: Bakı Universiteti. 2007.
16. Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı, I–II cildlər. Bakı: Elm və təhsil, 2016.
17. Nəbiyev B. Didərgin şair. Bakı: Sabah, 1995.
18. Osmanlı V. Azərbaycan romantikləri. Bakı: Yazıçı, 1985.
19. Rüstəmli A. Cəfər Cabbarlı: həyatı və mühiti. Bakı: Elm, 2009.
20. Salamoğlu T. Müasir Azərbaycan ədəbiyyatı. Bakı, 2012.
21. Saləddin Ə. Əhməd Cavad. Bakı, 1992.
22. Vəliyev Ş. Füyuzat ədəbi məktəbi. Baki: Elm, 1999.
23. Vahabzadə B. S.Vurğun. Bakı: Gənclik, 1984.




LAYİHƏ

*BURAXILIŞ MƏLUMATI*

---

**ƏDƏBİYYAT – 11**

*Ümumtəhsil məktəblərinin 11-ci sinfi üçün*
*Ədəbiyyat fənni üzrə dərslik*

**Tərtibçi heyət:**

| | |
|---|---|
| Müəlliflər: | **İsa Əkbər oğlu Həbibbəyli** |
| | **Soltan Hüseyn oğlu Əliyev** |
| | **Bilal Ağabala oğlu Həsənov** |
| | **Aynur Cəfər qızı Mustafayeva** |
| Dil redaktoru | **Yeganə İsmayılova** |
| Nəşriyyat redaktoru | **Kəmalə Abbasova** |
| Bədii redaktor | **Taleh Məlikov** |
| Texniki redaktor | **Zeynal İsayev** |
| Dizayner | **Taleh Məlikov** |
| Rəssamlar | **Məzahir Hüseynov, Elmir Məmmədov** |
| Korrektor | **Aqşin Məsimov** |

*Azərbaycan Respublikası Təhsil Nazirliyinin qrif nömrəsi:*
*2018 – 169*

**© Azərbaycan Respublikası Təhsil Nazirliyi – 2018**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və
yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron
informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

Hesab-nəşriyyat həcmi 9,3. Fiziki çap vərəqi 13. Səhifə sayı 208.
Kağız formatı 70×1001/16. Ofset kağızı. Məktəb qarnituru. Ofset çapı.
Tiraj 83276. Pulsuz. Bakı – 2018

“Bakı” nəşriyyatı
Bakı, AZ1001, H.Seyidbəyli küç. 30

LAYİHƏ

LAYİHƏ

Pulsuz

**Əziz məktəbli !**

Bu dərslik sənə Azərbaycan dövləti tərəfindən bir dərs ilində istifadə üçün verilir. O, dərs ili müddətində nəzərdə tutulmuş bilikləri qazanmaq üçün sənə etibarlı dost və yardımçı olacaq.

İnanırıq ki, sən də bu dərsliyə məhəbbətlə yanaşacaq, onu zədələnmələrdən qoruyacaq, təmiz və səliqəli saxlayacaqsan ki, növbəti dərs ilində digər məktəbli yoldaşın ondan sənin kimi rahat istifadə edə bilsin.

Sənə təhsildə uğurlar arzulayırıq!

LAYİHƏ